**Kobo Abe**

**"Qumluqdakı qadın"**

*Roman*

Tərcümə edəni: Balaxan Nəzərov
Kitab Times, 2017
.facebook.com/kitabtimes

## Birinci hissə

### 1

Avqust günlərindən birində bir nəfər qeyb oldu. O, məzuniyyətini burdan qatarla yarım günlük məsafədə yerləşən dəniz kənarına səyahətə həsr etmək istəyirdi və o gündən onun izi-sorağı itdi. Nə polisin axtarışı, nə də qəzetlərdə verilən elanlar heç bir nəticə vermədi.

Ümumiyyətlə, adam itkisi elə də nadir hadisə deyil. Statistikaya görə, hər il qəzetlərdə bir neçə yüz itkin düşmüş adam haqqında məlumat çap edilir. Və nə qədər qəribə olsa da, tapılanların faiz göstəricisi elə də böyük deyil. Qətl və bədbəxt hadisələr zamanı müəyyən izlər qalır; adam oğurluğu zamanı da hadisənin səbəbini təyin etmək çətinlik törətmir. Lakin itki tamam başqa səbəbdəndirsə, itənin izinə düşmək çox çətin olur. Düzü, itkindüşməni kimdənsə, nədənsə qaçma adlandıran kimi, bu hadisələrin bir çoxunu elə adi qaçışlar silsiləsinə aid etməkdən başqa çarə qalmır.

Haqqında danışılan hadisə zamanı da ortada dəlil-sübutun olmamasında qeyri-adi bir şey yox idi. Bu adamın yola düşdüyü yer təxmini məlum idi, lakin oradan naməlum meyit tapılması barədə məlumat gəlmədi. Sənəti də məxfiyyatla bağlı deyildi ki, ondan ötrü bu adamı oğurlasınlar. Hərəkət və davranışlarında isə qaçmaq haqqında düşündüyünə işarə belə yox idi.

Əvvəlcə hamı, təbii ki, məsələdə hər hansı bir qadının əli olduğunu güman etdi. Lakin polis məmurları və iş yoldaşları arvadından öyrənəndə ki, itkin düşən öz kolleksiyası üçün həşərat yığmağa gedib, deyim ki, bir qədər məyus da oldular. Həqiqətən də, hansısa qadına qoşulub qaçmağını gizlətmək üçün bir sürü ləvazimatı – zəhər dolu şüşə qabı, həşərat tutmaq üçün əl torunu özünlə sürüyəsən, - bu, çox böyük hiyləgərlik olardı. Ən əsası isə, stansiya işçisi xəbər verdi ki, həmin gün qatardan düşən alpinist görkəmli kişinin çiynində rəssamların istifadə etdiyinə oxşar çarpaz asılmış taxta yeşik və su qabı vardı: onun dəqiq yadında idi ki, bu adam tamamilə tək idi. Beləliklə, bu gümanlar da öz-özünə qüvvədən düşdü.

Mizantropiya zəminində özünəqəsd haqqında versiya üzə çıxdı. Bu şayiəni psixoanalizin böyük həvəskarı olan iş yoldaşlarından biri buraxdı. Yetkin bir adamın həşərat kolleksiyası toplamaq kimi mənasız bir işə aludə olması faktının özü, artıq psixi yarıtmazlığın göstəricisidir. Hətta uşağın da həşərat kolleksiyası toplamağa həddən ziyadə meylli olması adətən Edip kompleksi əlaməti sayılır. Yerinə yetməmiş arzularını hər nə cürsə kompensə etmək məqsədilə o, ləzzətlə sancağı artıq ölmüş, onsuz da heç yerə qaça bilməyəcək həşərata sancır. Və əgər, yetkinlik yaşına

çatdıqdan sonra da şakərindən əl çəkmirsə, deməli vəziyyəti daha da ağırlaşıb. Axı entomoloqlar tez – tez nəyisə əldə edib, toplamaq maniyası ilə alışıb yanır, son dərəcə adamayovuşmaz olmaqla, kleptomaniya (oğurluğameyllilik) və pederastiyadan (uşaqbazlıq) əziyyət çəkirlər. Bütün bunlardan mizantropiya zəminində intihara isə cəmi bir addım qalır. Bu azmış kimi, kolleksiyaçılar arasında elələri var ki, nəinki təkcə kolleksiyanın özünə, ondan da çox şüşədəkizəhərə meyl göstərir və bu səbəbdən də öz məşğuliyyətlərindən əl çəkə bilmirlər… Bir dəfə də olsun maraq göstərdiyi sahə barədə açıq danışmağa meyli olmamasının özü də, ayıblı bir işlə məşğul olduğunu dərk etdiyinə sübut idi.

Lakin meyidi tapılmadığından ilk baxışda məntiqli görünən bütün bu mülahizələr öz gücünü itirmiş oldu.

İtkindüşmənin əsl səbəbini isə axıra qədər heç kəs bilmədi. Və Mülki kodeksin 30-cu maddəsinə əsasən hadisənin üstündən yeddi il keçdiyi üçün itkin düşmüş adam ölmüş hesab edildi.

## 2

Bir dəfə avqustda günortadan xeyli keçmiş stansiyanın platformasında boz pike panamalı kişi peyda oldu. Çiyinlərində çalın - çarpaz asılmış iri taxta yeşik və su qabı vardı, şalvarının ətəkləri corabının içinə salınmışdı, elə bil dağa çıxmağa hazırlaşırdı. Lakin yaxınlıqda zirvəsinə çıxası bir dənə də olsun dağ yox idi. Və çıxışda biletləri yoxlayan stansiya işçisi onun ardınca bir xeyli şübhəli-şübhəli baxdı. Həmin adam tərəddüd etmədən stansiyanın yanında dayanmış avtobusa mindi və arxa cərgədə yer tutdu. Avtobus dağlara tam əks istiqamətdə hərəkət edirdi.

Bu adam avtobusla axırıncı dayanacağadək getdi. Avtobusdan düşəndə buraların intəhasız enişliyoxuşlu bir yer olduğunu gördü. Düzənlikləri başdan-başa ensiz zolaqlara bölünmüş düyü sahələri zəbt etmiş, aralarında isə sanki adaymış kimi seyrək xurma ağaclığı ucalırdı. Kişi kəndi keçdi və irəliyə – dəniz sahilinə doğru addımladı. Ayaq basdığı yerin rəngi get-gedə daha da açılır və quruyurdu.

Tezliklə evlər gözdən itdi, yalnız hərdən bir-birinə yaxın bitən şam ağacları gözə dəyirdi. Tədricən bərk torpaq dənəvari və ayağa yapışan quma keçdi. Adda-budda quru ot adacıqları qaralırdı və dəqiqliklə deyə bilərik ki, səhvən bura düşmüş quru badımcan sahələri görünürdü. Lakin ətrafda heç kəs yox idi. Görünür, ona tərəf istiqamət götürdüyü dəniz irəli idi.

Nəhayət, adam dayandı, ətrafına baxıb, gödəkçəsinin qolu ilə sifətinin tərini sildi. Tələsmədən taxta yeşiyin qapağını açdı və oradan çubuq dəsti çıxardı. Çubuqları bir – birinə birləşdirib, həşəratları tutmaq üçün əl toru düzəltdi. Qarşısına çıxan seyrək ot kolcuqlarını ağacla aralaya – aralaya yenidən irəliyə doğru addımladı. Qumdan dəniz iyi gəlirdi.

Amma vaxt keçir, dəniz isə görünmək bilmirdi. Ola bilsin, dərə- təpəli yer qarşıda nə baş verdiyini görməyə imkan vermirdi, lakin göz gördükcə landşaftın dəyişmədiyi aşkar idi. Birdən qarşısına kənd çıxdı. Bu, adi kasıb bir kənd idi: yanğınsöndürmə qülləsinin ətrafında üstü daşla basılmış nazik taxtalardan düzəldilmə damlar böyür-böyürə sıxlaşmışdı. Bir neçə evin üstü qara kirəmitlə, bəziləri isə hətta qırmızı

boyanmış dəmirlə örtülmüşdü. Kəndin yeganə dördyolunun ayrıcındakı dəmir damlı ev, çox güman ki, balıqovlama artelinin idarəsi idi.

Dəniz və qum təpələri hökmən kəndin arxasında olmalıdır. Lakin kənd nədənsə həddən artıq geniş əraziyə yayılmışdı. Ətrafı bir neçə münbit torpaq sahəsi, qalan yerlər isə başdan-başa ağappaq qumluq idi. Çox da böyük olmayan yerfındığı və kartof sahələri görünürdü; dəniz iyi mal-heyvan iyinə qarışmışdı. Elə bil qum və gillə sementlənmiş sərt yolun kənarında doğranmış ağ balıqqulağı təpəcikləri ucalırdı. Kişi yolla getdiyi müddətdə artel idarəsinin qarşısındakı açıqlıqda oynayan uşaqlar da, tor toxuyan qoca da, kənddə yeganə olan xırdavat dükanının qabağına toplaşan pərişan görkəmli qadınlar da, - hamı bir anlığa donuxub, təəccüblə onun arxasınca baxırdı. Amma bu adam onlara heç diqqət ayırmırdı. Onu yalnız qum təpələri və həşəratlar maraqlandırırdı.

Lakin qəribə olan təkcə kəndin ölçüləri deyildi. Yol birdən dikə qalxdı. Elə bu özü də tam gözlənilməz bir şey idi. Axı, bu yol dənizə aparırdısa, onda təbii ki, aşağıya enməli idi. Bəlkə o, xəritəyə baxanda səhv edib? İstədi ki, elə indicə qarşısına çıxan qızı sorğu – suala tutsun. Amma qız gözlərini yerə zilləyib, yan keçdi, özünü elə apardı ki, guya sualı eşitmir. Olsun, yolumuza davam edək. Nə deyirsən de, qumun rəngi də, balıqçı torları da, balıqqulağı yığını da – hər şey dənizin lap yaxınlıqda olduğuna dəlalət edirdi. Axır ki, narahatlıq üçün əsas yoxdur. Yol daha da dikəlir və artıq ətrafda qumdan başqa heç nə görünmürdü.

Amma qəribədir, evlər olan tərəf heç yarım metr də qalxmırdı. Təkcə yol özü yuxarı qalxırdı, kənd isə bu vaxt elə bil alçaqda qalırdı. Bununla belə, yuxarı qalxan yalnız yol deyildi. Yolla birgə evlərin arasındakı məsafə də artırdı. Buna görə də adama elə gəlirdi ki, bütün kənd dağa qalxır, təkcə evlər bir səviyyədə qalır. Qum təpəsinin yuxarısına doğru irəlilədikcə bu təəssürat daha da güclənirdi və tezliklə ona elə gəldi ki, evlər qumda qazılmış iri çalalarda tikilib.

Nəhayət, onun irəlilədiyi yol və evlər arasındakı məsafə damlardan da hündür oldu. Qəfildən yamac demək olar ki, şaquli vəziyyət aldı. İndi onun yanından damların üstünədək hardasa iyirmi metr olardı ki, az olmazdı. «Nə həyat ola bilər ey, orda?» - deyə ürpəşərək dərin çalaya baxıb fikirləşdi. Birdən sifətinə vuran küləyin ani şiddəti kişinin nəfəsini boğdu və o, çalanın kənarından çəkilməyə tələsdi. Qəfildən çox-çox aşağıda, bulanıq köpüklənən, sahilboyu qumu yalayan dənizi gördü. Adam məhz can atdığı yerdə – qum təpəsinin lap yuxarısında dayanmışdı.

Təpənin, mussonlar əsən tərəfindən dənizə baxan yamacı həmişə olduğu kimi şaquli və keçəl idi. Lakin bir qədər əydəmli yerlərdə ensiz yarpaqlı ot kolcuqları göyərmişdi. Ətrafa göz gəzdirəndə, təpənin lap uc hissəsinə yaxınlaşdıqca daha da dərinləşən nəhəng çuxurların eninə kəsilmiş arı şanısı kimi qat-qat kəndin mərkəzinə meylləndiyini gördü. Elə bil ki, kənd təpəyə dırmaşırdı. Bəlkə də, əksinə. Hər halda, kəndin görkəmi adamı qıcıqlandırır, darıxdırırdı. Nə isə, arzuladığı təpələrə çatıb və hər şey qaydasındadır. O, su qabından iri bir qurtum vurdu, dərindən nəfəs aldı, lakin ilk baxışda çox təmiz görünən hava boğazını sumbata kimi yandırdı.

Adam, kolleksiyasını qumda yaşayan həşəratlarla zənginləşdirmək istəyirdi.

Qum həşəratlarının rəngi tutqun, özləri isə çox iri olmur, lakin kolleksiya toplamaq maniyası ilə alışıb yanan adamı nə parlaq qanadlı kəpənəklər, nə də ki, iynəcə maraqlandırır. O, öz kolleksiyasını ekzotik nümunələrlə bəzəmək istəmir, sistemliliyə xüsusi maraq göstərmir, çin təbabətində istifadə olunan dərmanlar üçün

xammal axtarışı ilə məşğul olmur. Entomoloqun sadə, ürəkdən gələn bir sevinci var – yeni növün tapılıb üzə çıxarılması. Nail oldunmu? O dəqiqə entomoloci atlasda, yenicə tapılmış həşəratın latınca yazılmış uzun elmi adının yanında sənin də adın peyda olacaq və istisna deyil ki, bu ad orada əsrlərlə qalacaq. Sənin adın, lap tutaq ki, həşəratın sayəsində də olsa, insanların yaddaşında uzun müddətə qalırsa, bu o deməkdir ki, əziyyətin hədər getməyib.

Gözlə görünməyən sonsuz sayda həşərat növləri yeni kəşflər üçün geniş imkanlar açır. Elə özü də uzun müddət ikiqanadlı və insanların zəhləsini tökən adi ev milçəklərini toplamağa vaxt sərf etdi. Milçəyin növləri nə qədər qəribə olsa da, həddən ziyadədir. Lakin bütün entomoloqların məqsədi bir istiqamətdə inkişaf etdiyindən, onlar demək olar ki, çox az rast gəlinən, Yaponiyada tapılmış səkkizinci mutant da daxil olmaqla bu növlərin bir çoxunu öyrənib qurtarıblar. Ola bilsin bu, insanların həyatı ilə milçəklərin həyatının sıx bağlı olduğundan irəli gəlir. İlk növbədə diqqəti mühitə yönəltmək məqsədəuyğundur. Milçək növlərinin çoxsaylı olması onların böyük uyğunlaşma qabiliyyəti ilə izah olunur. O, bu kəşfi edəndə sevincindən göyə tullandı. Mənim fikrim heç də axmaq fikir deyil. Milçəklərin başqa həşəratların yaşaya bilmədiyi ən əlverişsiz mühitdə belə yaşaya bilməsi faktı onların böyük uyğunlaşma qabiliyyəti ilə izah edilir. Onlar, məsələn, hətta bütün canlıların məhv olduğu səhrada yaşamağa da uyğunlaşa biliblər…

Bu qənaətə gəlincə, o, qumluqlara xüsusi diqqət ayırmağa başladı. Nəticə özünü çox gözlətmədi.

Bir dəfə o, evinin yaxınlığında yerləşən qurumuş çay yatağında sərtqanadlılar fəsiləsinə aid olan qabarböcəyini xatırladan lap xırdaca sarımtıl həşərat gördü (Cicindela Japonica, Motshulsky). Məlumdur ki, qabarböcəklər müxtəlif rənglərdə və ölçülərdə olurlar. Lakin onların qabaq pəncələri bir – birindən çox da fərqlənmir.Elə bu da onların təsnifatı üçün əsas amillərdən biridir, belə ki, qabaq pəncələrin fərqi növ fərqini təyin edir. Gözünə dəyən həşəratın qabaq pəncəsinin ikinci buğumu həqiqətən də, diqqətçəkən xüsusiyyətə malik idi.

Qabarböcəkkimilərə aid olan həşəratların qabaq pəncələri adətən, nazik, qara və olduqca hərəkətli olur; bu milçəkdə isə yumru, kök, elə bil möhkəm çanaqla örtülü olmaqla rəngi sapsarı idi. Ola bilsin ki, pəncələrə tozcuqlar yapışmışdı. Ola da bilsin, tozcuqları yığmaq üçün həşəratda tükcük kimi xüsusi bir şey vardı. Əgər həşərata baxış zamanı ciddi bir səhv buraxmayıbsa, onda çox güman ki, vacib bir kəşf edib.

Amma təəssüf, bu həşəratı tutmaq ona nəsib olmadı. Həddən artıq həyəcanlı idi, sözün açığı milçək özü də bir ayrı cür uçurdu. O, uçub getdi. Sonra isə qayıdaraq onun yaxınlaşmasını gözləməyə başladı, sanki: «Tut görüm, necə tutursan» - demək istəyirdi. O, inanaraq yaxınlaşanda, milçək yenə uçdu, qayıtdı və yenə gözləməyə başladı. Elə bil ki, onu ələ salırdı, sonra isə birdəfəlik otluqda gizləndi.

Bax beləcə o, sarı qabaq pəncəli bu qabarböcəyinin əsirinə çevrildi.

Qumluq yerə diqqət yetirərkən öz gümanlarına daha da əmin oldu. Axı qabarböcəyi tipik səhra həşəratı idi. Nəzəriyyələrdən birinə görə, bu böcəklərin qeyri – adi uçuşu, xırda heyvanları öz yuvalarından aldadıb çıxarmaq üçün tələdən başqa bir şey deyil. Böcəklərin bu yolla cəlb etdikləri siçanlar, kərtənkələlər öz yuvalarından səhranın içinə doğru uzaqlaşır və orda aclıqdan, yorğunluqdan məhv olurlar. Böcəklər də elə bunu gözləyirmişlər kimi, onların üstünə düşüb yeyirlər. Bu böcəklərin «məktubpaylayan» kimi zərif yapon ayaması var və baxmayaraq ki, onlar ilk nəzərdə

cazibədar görünürlər, əslində çox iti çənələri var, elə qaniçəndirlər ki, hətta biri – birilərini yeməkdən belə çəkinmirlər. O, bu nəzəriyyənin doğru olub olmadığını bilməsə də, heç şübhəsiz, qabarböcəyinin sirli uçuşunun əsiri oldu.

Təbii ki, onun qabarböcəyinin yaşaması üçün münbit şərait yaradan qumluqlara da marağı artdı.

O, qum haqqında ədəbiyyat oxumağa başladı və nə qədər çox oxuyurdusa, bir o qədər də qumun çox maraqlı bir hadisə, təzahür olduğuna əmin olurdu. Məsələn, ensiklopediyada qum haqqındakı məqalədə bunları oxumaq olar:

«Qum - dağılmış dağ suxurlarının bir yerə yığılmasıdır. Tərkibcə özündə maqnetit, kasiterit, bəzi hallarda isə qızıl tozu və qumu birləşdirir. Diametri on altıda bir millimetrdən on altıda iki millimetrədək olur».

Necə də aydın tərifdir! Qısası, qum dağılmış dağ suxurlarından yaranır və hardasa kiçik daşla gil arasında olan bir nəsnədir. Lakin qumu aralıq məhsul adlandırmaq hələ tam izah vermək demək deyil. Nə üçün torpağı təşkil edən bu üç elementdən - daş, qum, gilin mürəkkəb birləşməsindən, yalnız qum təcrid olunmuş vəziyyətdə qala, səhra və qumluq ərazilər yarada bilir? Əgər bu, yalnız aralıq məhsul olsaydı, onda daz qayalarla gil sahələri arasındakı erroziya nəticəsində onların qarşılıqlı təmasından əmələ gələn saysız aralıq məhsullara rast gəlinərdi. Axı əslində aydın şəkildə seçilən cəmi üç suxur növü məlumdur: qaya, qum və gil. Bu da maraqlıdır ki, qum dənələrinin ölçüsü demək olar həmişə eynidir: istər Enosima adaları sahillərindəki qum olsun, istərsə də Qobi səhrasındakı – bu, orta hesabla millimetrin səkkizdə birinə bərabərdir.

Bir elmi əsərdə torpağın erroziya nəticəsində dağılmasına son dərəcə sadə bir izah verilmişdi: yüngül elementlər çox böyük məsafələrə yayılır. Lakin burada millimetrin səkkizdə birinə bərabər olan qum dənəsinin ölçü xüsusiyyəti tamamilə izahsız qalırdı. Geologiya üzrə başqa bir elmi əsərdə isə bunun tamam əksi izah olunurdu.

«Su və hava axını burulğan yaradır. Burulğan dalğasının ən qısa uzunluğu səhradakı qum dənəsinin diametrinə ekvivalentdir. Məhz bu xüsusiyyətinə görə, burulğan zamanı torpaqdan ancaq qum xaric olur, özü də burulğana nəzərən düz bucaq altında. Əgər torpağın ayrı-ayrı komponentləri arasında bağlılıq gücü zəifdirsə, onda qum daş və gili qaldıra bilməyən hətta çox zəif küləkdə də havaya qalxa bilər. Sonra isə qum küləyin əsmə istiqamətində bir qədər irəlilədikdən sonra yenidən yerə enir. Görünür, qumun xüsusiyyətləri aerodinamika nəzərindən öyrənilməlidir».

Yuxarıdakı tərifi davam etdirək:

«… yəni, onları daha da fəal edən belə ölçülü dağılmış dağ suxurlarının hissəcikləri».

Yerdə həmişə külək və su axınları mövcud olduğundan, qumların yaranması qaçılmazdır. Və nə qədər ki, küləklər əsəcək, çaylar axacaq, dənizlər öz dalğalarını diyirlədəcək, yerdən hər dəfə yeni – yeni qum kütləsi çıxacaq və canlı orqanizm kimi hər yana yayılacaq. Qum dincəlmək nədir, bilmir. Hiss olunmadan, lakin israrla hər yeri zəbt edib, dağıdır…

Əbədi hərəkət edən bu qum mənzərəsi onu sözlə ifadə edilə bilməyən bir şəkildə həyəcanlandırır və sanki qamçılayırdı. Qumun faydasız olması, adətən təsəvvür edildiyi kimi təkcə onun susuzluğu ilə deyil, heç bir canlının dözə bilməyəcəyi fasiləsiz hərəkətilə izah edilir. Bu necə də günü-gündən bir-birindən yapışan insanların kədərli həyatına bənzəyir. Bəli, qum həyat üçün elə də yararlı deyil. Lakin

sarsılmazlıq həyat üçün beləmi mütləq vacib şərtdir? Məgər iyrənc rəqabətçilik möhkəmliyini, sarsılmazlığını təsdiq elətdirməyə çalışmaq uğrunda mübarizədən doğmurmu? Əgər möhkəmliyini bir kənara atıb, özünü qumun hərəkətinə tabe etsən, onda rəqabət də qurtarar. Axı səhrada da güllər bitir, həşəratlar və heyvanlar yaşayır.

Bütün bu canlı orqanizmlər uyğunlaşmanın gücünün sayəsində rəqabət çərçivəsindən canını qurtarmışlardır. Elə bu qabarböcəklərinin özləri kimi…

O, xəyalında qumun hərəkətini çəkdi və artıq onda hallüsinasiyalar başladı – özünü də bu sonsuz axında hiss etdi.

## 3

Kişi başını aşağı salıb, qala səddi kimi kəndi aypara şəklində dolanan qum təpəsinin diki ilə yenidən irəli addımladı. O, demək olar ki, irəlidə nə baş verdiyinə fikir vermirdi. Entomoloq üçün vacib şərt odur ki, bütün diqqətini ancaq öz ayağından üç metrlik məsafədəki radiusda cəmləsin. Və daha bir vacib şərt – kürəyi günəşə dayanmamaq. Əgər günəş səndən arxada qalsa, onda öz kölgənlə həşəratı hürküdə bilərsən. Buna görə də, günəş həşərat ovçularının alın və burnunu eyni vaxtda yandırıb qaraldır.

Kişi aram və səlis addımlarla irəliyə addımlayırdı. Hər bir addımı atdıqca, qum çəkmələrinə səpələnirdi. Ətrafda, orda-burda kökünü çox da dərinə buraxmayan, bir balaca artıq rütubət olarsa, elə bu dəqiqə gül açmağa hazır olan ot kolcuqlarından başqa, bir dənə də olsun canlı yox idi. Uçan bir şey gözə dəyirdisə də, o da insan tərinin iyinə gəlmiş tısbağa çanağı rəngində böcəklər idi. Bax, elə arzular da çox vaxt belə yerlərdə çin olur. Düzdü, qabarböcəklər sürü ilə yaşamağa meylli deyillər və elə hallar olur ki, bir böcək ətrafda özü üçün kilometrlərlə ərazi zəbt edir. Nə edəsən – axtarışları israrla davam etdirmək lazım gəlir.

O, birdən dayandı. Otluqda nəsə tərpənirdi. Bu, hörümçək idi. Hörümçək onun nəyinə lazım?

Siqaret çəkmək üçün aşağı oturdu. Dənizdən fasiləsiz külək əsir, aşağıda isə parça – parça ağ dalğalar qum təpəsinin ətəklərini gəmirirdi. Orda–qum təpəsinin qərb sonucu qurtaran yerdə, dənizdə çox da iri olmayan qayalıq seçilirdi. Qayalığın üstünə günəş şüaları iti iynə kimi səpələnmişdi.

Kibrit heç cür yanmaq istəmirdi. Onunu yandırdı – hamısı da hədərə. Qum dalğası yerə atılmış kibrit çöpləri boyunca demək olar ki, saniyəölçən sürətilə hərəkət edirdi. O, çox da iri olmayan qum dalğası gördü və bu dalğa çəkmələrinin dabanına çatınca ayağa qalxdı. Şalvarının qırışlarından yerə qum töküldü. O, tüpürdü – elə bil ağzına sürtkəc sürtdülər.

Burda həşəratlar gözlənildiyindən az deyilmi? Bəlkə qumun hərəkət sürəti həddən artıqdır? Yox, məyus olmaq hələ tezdir. Axı nəzəri cəhətdən burada həşəratlar olmaya bilməz.

Qum təpəsinin üstü bir qədər hamarlandı, bəzi yerlərdə isə o, dənizdən uzaqlaşırdı. Şikar tutmaq arzusuyla maili enişlə enməyə başladı. Orda – burda qumun hərəkətini əngəlləmək üçün istifadə olunmuş bambuk sipər qalıqları vız dururdu və bir qədər aşağıda terras görünürdü. Kişi küləyin maşın dəqiqliyi ilə çəkdiyi qum

naxışlarını yarıb keçərək irəliyə addımladı. Qəfildən onun görüş dairəsindən hər şey yox oldu və dərin bir dərənin kənarında dayandığını gördü.

Dərənin eni iyirmi metrdən çox olmaqla, kələ-kötür dairə formasında idi. Qarşı divarı nisbətən maili, onun dayandığı yer isə demək olar ki, dikinə kəsilmişdi. Dərənin çini fincan kimi hamar olan qabarıq tərəfi çox sürüşkən idi. Ayağını ehtiyatla dirəyib, aşağı baxdı. Ancaq bu vaxt başa düşdü ki, ətraf aydın olsa da, axşam düşür. Dərənin lap dibində, zülmət dərinliyin içində sükuta qərq olmuş bir daxma vardı. Damının bir tərəfi maili qum divara girmişdi. «Əsl ilbiz qabığıdır, - deyə fikirləşdi – Burda nə edirsən et, qumun qoyduğu qayda – qanunun əksinə gedə bilməzsən…»

Elə fotoaparatını sazlayırdı ki, qum ayağı altından xışıldayaraq aşağı sürüşdü. Qorxub ayağını çəkdi, qum isə bir müddət axmaqda davam etdi. Qumun müvazinəti necə də səbatsızdır!

Həyəcandan tövşüyüb, nəmlənmiş ovuclarını şalvarına sildi.

Kimsə arxada öskürdü. Demək olar ki, lap yanında, az qala çiyinlərinə toxunacaq qədər yaxın məsafədə hardan peyda olduğu naməlum olan bir qoca dayanmışdı, görünür yerli balıqçılardan idi. Fotoaparata, sonra isə dərənin dibinə baxıb, gülümsəyərək aşılanmış sifətini qırışdırdı. Qan qoymuş gözlərinin qıraqlarında nəsə yapışqan kimi bir şey yığılmışdı.

- Nədi, yoxlamadı?

Səsini külək aparır, əl radiosundan çıxırmış kimi küt, şəffaf gəlirdi. Amma tələffüzü aydın idi, başa düşülürdü.

- Yoxlama? – Adam özünü itirmiş halda ovcu ilə obyektivin gözünü qapadı və qocanın diqqətini çəksin deyə əli ilə əl torunun ora – burasını düzəltdi. – Siz nə demək istəyirsiniz? Mən nəsə size anlaya bilmirəm… Mən, belə demək mümkünsə, həşərat kolleksiyası toplamaqla məşğulam. Peşəm – bu qumluqlarda dolaşan həşəratlardır.

- Nə? – Qoca elə bil heç nə başa düşmədi.

- Hə – şə – rat – la – rın kol – lek – si – ya – sı – nı! – qışqıraraq təkrar etdi. – Hə – şə – rat – la – rın, başa düşürsüz, hə – şə – rat – la – rın! Mən onları tuturam!

- Həşəratları? – qoca heç şübhəsiz inanmayaraq, üzünü çevirib tüpürdü. Ya da, belə demək olarsa, dodağından tüpürcək sallandı. Külək tüpürcəyi qapıb, uzun sap kimi uzatdı. Əslinə baxanda, onu belə nə narahat edir?

- Bu ərazidə nəsə yoxlama gedir?

- Yox, əgər siz yoxlayıcılardan deyilsinizsə, nə istəyirsiz edin, mənə dəxli yoxdur.

- Yox, yox, mən təftişçilərdən deyiləm.

Qoca hətta sağollaşmadan ona arxa çevirdi və həsir səndəlinin burnu ilə yeri qaza – qaza, qum təpəsinin diki ilə ağır – ağır getməyə başladı.

Əlli metr aralıda, görünür qocanı gözləyən eyni geyimli üç kişi çömbələrək oturmuşdu. Bunlar nə vaxt peyda oldu? Deyəsən onlardan birində, aramsız olaraq dizinin üstündə hərlədiyi durbin vardı. Qoca onlara yaxınlaşdı və dördü də bir – birinin ayağı altından qumu qaza – qaza nə barədəsə müzakirəyə başladılar; deyəsən mübahisə edirdilər.

Artıq axtardığının – öz milçəyinin dalınca getməyə hazırlaşırdı ki, qoca tövşüyə – tövşüyə onun yanına qaçdı.

- Dayanın, siz doğrudanmı prefekturadan deyilsiniz?

- Prefekturadan?.. Yox əşşi, siz yanılırsız.

«Həvəsdir, bəsdir» - fikirləşdi və vizit kartını zəhlətökən qocaya tərəf uzatdı. O, isə dodaqlarını əsdirə – əsdirə bir xeyli kartı oxudu.
- H – ə – ə, siz müəllimsiniz…
- Görürsüz, mənim prefektura ilə heç bir bağlılığım yoxdur.
- Aha, deməк siz müəllimsiniz…
Deyəsən, axır ki, başa düşdü; qoca gözlərini qıyıb, vizit kartı da əlində o birilərinin yanına qayıtdı. Elə bil, vizit kartı onları bir qədər sakitləşdiridi. Qalxdılar, çıxıb getdilər.
Lakin qoca yenidən qayıtdı.
- Yaxşı, bəs indi nə etmək fikrindəsiz?
- Həşərat axtarmağa gedəcəm..
- Axı siz axırıncı avtobusa gecikdiniz.
- Burda gecələməyə bir yer tapa bilmərəmmi?
- Gecələmək? Bu kənddə? – qoca səksəndi.
- Əgər burda olmasa, qonşu kəndə gedərəm.
- Gedərsiz?..
- Ümumiyyətlə, mən heç hara elə də tələsmirəm…
- Yox, yox, niyə özünüzü əziyyətə salırsız… - Qoca birdən – birə lütfükar oldu və söhbətcil adamlar kimi davam etdi: - Özünüz görürsünüz, kasıb kənddir, bir dənə də münasib ev yoxdur, amma etiraz etmirsizsə, sizə kömək edərəm, kiməsə ağız açaram.
Pisniyyətə oxşamırdı. Görünür, onlar nədənsə ehtiyat edirlər, - ola bilsin prefekturadan yoxlama üçün göndərilən məmur gözləyirlər. İndi, onların qorxu – hürküsü çəkilib gedəndən sonra, yenə əvvəlkitək sadə, üzügülər balıqçıldardı.
- Hədsiz minnətdar olaram… Əlbəttə, sizə də xəcalətli qalmaram. Ümumiyyətlə, mən belə kənd evlərində gecələməyi xoşlayıram.

**4**

Gün əyildi, külək bir az sakitləşdi. Kişi, qumda küləyin çəkdiyi naxışlar gözlə seçilənədək təpənin üstündə ora – bura gəzdi.
Sözün düzü, ov çox da uğurlu alınmadı.
Sisəy və düzqanadlılar dəstəsindən olan ağbığ qulağagirən.
Atlı qarışqalar və bir dənə də başqa həşərat,- o, atlı qarışqaların bir növü olan bu həşəratın adını dəqiq bilmirdi.
Axtardığı sərtqanadlılardan isə təkcə taxılbitləri və uzunayaqlı «məktubpaylayan».
Əslinə baxanda səfərinin əsas məqsədi olan milçəklər ailəsindən isə bir dənə də olsun nümunə ələ keçməmişdi. Ola bilsin, sabahkı qənimətlər ürəkaçan oldu…
Yorğunluqdan gözlərinin qabağında sönük işıq zolağı uçuşurdu. Birdən qeyri – iradi dayandı və artıq tündləşən qum təpəsinin səthinə diqqətlə baxmağa başladı. Artıq ondan asılı deyildi: hərəkət edən nə görürdüsə, qabarböcəyi bilirdi.
Qoca söz verdiyi kimi, onu artel idarəsinin qarşısında gözləyirdi.
- Sizə əziyyət verdim…
- Yox canım, təki sizin xoşunuza gəlsin…

Görünür, idarədə nə barədəsə müzakirə gedirdi. Dörd və ya beş kişi dövrə vurub oturmuşdu, gülüş səsləri eşidilirdi. Artırmanın üzərinə üstünə «Vətənə sevgi hissinə sadiq ol» sözləri yazılmış böyük bir parça asılmışdı. Qoca nəsə donquldandı – gülüş o dəqiqə kəsildi. Elə bil bir qədər həvəssiz irəli addımladı, kişi də onun arxasınca. Balıqqulağı ilə örtülmüş yol qürübda ağappaq ağarırdı.

Nəhayət, qum təpəsinin lap dikində yerləşən çuxurlardan birinə yaxınlaşdılar. Kənd burda qurtarırdı.

Onlar sağa, dikdən aşağı aparan cığıra tərəf döndülər, bir qədər keçmiş qoca qaranlıqda itdi, əlini əlinə vurub, bərkdən çağırdı:

- Ay nənə, hardasan?

Aşağıda, az qala ayaqlarının altındakı qaranlıqda fənər işığı göründü.

- Burda, burda… Nərdivan çuvalların yanındadır.

Doğrudan da, bu dərədən pilləkənsiz çıxa bilməzsən. Aşağıdakı bu ev kimi daha üç evi birbirinin üstünə qoymaq olar; hətta nərdivanla da ora çıxmaq müşküldür. Yamac demək olar ki, şaqulidir, amma gündüz, dəqiq yadındadır, ona elə gəlmişdi ki, mailidir. Nərdivana güman yox, özü də ki, cürbəcür kəndirlərlə bağlanıb və əgər müvazinətini itirsən, hardasa ortadan dolaşacaq.

Lap təbii qalada yaşamağa oxşayır.

- Heç nədən narahat olmayın, dincəlin…

Qoca aşağı düşmədi, bir az dayanıb getdi.

Kişi başdan – ayağa qum içində idi və bir anlıq uşaqlığına qayıtdığını düşündü. Onu fənərlə qarşılayan qadını nənə deyə çağırırdılar və o, bu qadını qoca arvad bilmişdi, sən demə, xoşsifət, çox cavan, otuz yaşlarında, bəstəboy bir qadın imiş. Görünür o, sifətini pudralamışdı! – dəniz kənarında yaşayan qadın üçün sifəti həddən artıq ağ idi. Qısası, onu gülər üzlə, süni olmayan sevinclə qarşıladığı üçün o, qadına minnətdar idi.

Açığı, qonaqpərvərliklə qarşılanmasaydı, bu daxmanın kandarından içəri girməyə özünü məcbur edə bilməzdi. Yəqin ki, ələ salındığını fikirləşib, o dəqiqə burdan qaçardı. Divarlar qopub tökülmüşdü; qapı əvəzinə həsir sallanırdı; damı saxlayan dirəklər əyilmişdi; pəncərələrə taxta vurulmuşdu; döşəməyə sərilmiş saman döşəklər dağılmağa hazır vəziyyətdəydi və üstünə ayaq basanda yaş məsaməli rezin hopduran kimi fırçıldayırdı. Və bütün bunlardan əlavə – iyrənc, yetişmiş qumun çürümüş iyi.

Lakin axı hər şey ovqatdan asılıdır. O, qadının qonaqpərvərliyi qarşısında mat qalmışdı. Eybi yox, deyə özünü sakitləşdirirdi, belə şeylər ildə, ayda bir dəfə olur. Bəlkə bəxtim gətirdi, maraqlı bir həşərata rast gəldim. Hər halda belə yerlərdə həşəratlar at oynadır.

Zənni onu aldatmamışdı. Düz torpaq döşəmədə qazılmış ocağın kənarında, təklif edilən yerdə oturmağa macal tapmamış, yağış yağırmış kimi xışıltı eşidildi. Bu, birə yığını idi. Amma onu belə şeylərlə qorxutmaq olmaz. Entomoloq belə gözlənilməzliklərə həmişə hazırdır. Sadəcə, paltarının astarına xüsusi dərman səpmək, yuxudan qabaqsa bədənin açıq yerlərinə həşərat əleyhinə maz çəkmək lazımdır.

- Mən yemək hazırlayıram, ona görə də hələlik… - qadın əyilib, lampanı götürdü, - bir qədər qaranlıqda oturmalı olacaqsınız.

- Sizdə lampa cəmi bir dənədir?

- Hə, təəssüf ki…

Qadın günahkarcasına gülümsədi, - sol yanağında çuxur əmələ gəldi. Bu qadının çox cazibədar sifəti var, deyə fikirləşdi.

Lakin gözlərinin qəribə ifadəsi vardı. Ola bilsin, bu, xəstəliklə əlaqədardır. İltihablamış göz qapaqlarını hətta pudra da gizlədə bilmirdi. Yuxudan qabaq gözlərinə damcı dərmanı töksə, pis olmaz…

- Yemək yeməmişdən qabaq çimmək istəyərdim.

- Çimmək?

- Nədi ki, mümkün deyil?

- Çox təəssüf, birisi günə qədər gözləməli olacaqsınız.

- Birisi günə qədər? Axı birisi gün mən artıq burda olmayacam, - özündən asılı olmayaraq bərkdən güldü.

- Doğrudan?..

Qadın üzünü çevirdi, çiyinləri əsdi. Yəqin dilxor oldu. Bu kənd camaatı hisslərini gizlətməyə heç çalışmır da. Pərt olub, utandığından dodaqlarını gəmirirdi.

- Yaxşı, əgər çimməyə yer yoxdursa, yetər ki, sadəcə başımdan su axıdım. Yoxsa, başdan ayağa qumun içindəyəm…

- Üzürlü hesab edin, su cəmi bir vedrə qalıb… Axı quyu çox uzaqdadır…

Nəsə məzlum qadındır. Yaxşı, daha heç bir söz deməyəcəm. Tezliklə özü də əmin oldu ki, burda çimmək tamamilə mənasız bir işdi.

Qadın qaynadılmış balıq və molyusk şorbası gətirdi. Qısası dənizkənarı qida və bu, heç də pis deyildi. O, yeməyə girişmişdi ki, qadın onun başı üzərində böyük bir kağız çətir açdı.

- Bu nə üçündür? («Yəqin, nəsə yerli adətdir».)

- Yoxsa qum yeməyin içinə düşər.

- Niyə? – O, tavana baxdı və nə qədər təəccüblü olsa da, bir dənə də olsun çat – filan görmədi.

- Bilirsiz, qum… - Qadın da tavana baxdı. – Hər yerdə uçuşur… Bir gün süpürməyəndə, üç barmaq qalınlığında yığılır.

- Bəlkə dam köhnəlib?

- Yox, fərqi yoxdur, dam lap təzə olan vaxtlarda da qum bura düşürdü… Doğrudan da, qumdan dəhşətli heç nə ola bilməz. Ağacovandan da pisdi.

- Ağacovan?

- Belə böcəklərdi, ağac ovurlar.

- Yəqin termitlərdi.

- Yox, bilirsiz, bərkdilər.

- A – a, onda odunböcəyidir.

- Odunböcəyi?

- Qırmızımtıl, uzunbığlı. Onlardı?

- Yox, yox, bunlar düyü boydadılar, rəngləri də qəhvəyi.

- Hə, belə de. Onda bu, yarpaqyeyəndi.

- Əhəmiyyət verməsən, bax o boyda taxta dirəyi bir dəqiqədə çürüdər.

- Nə, yarpaqyeyən?

- Yox, qum.

- Niyə?

- Bütüm dəlmə-deşiklərdən özünə yol tapır. Külək pis tərəfdən əsəndə isə, qum çardağa yığılır, əgər yığışdırmasan, o qədər toplanacaq ki, tavandakı taxtalar dözməyəcək.

- Hə, qumun çardaqda yığılmasına yol vermək olmaz… Amma dirəkləri çürüdəcək demək sizə bir qədər qəribə gəlmirmi?

- Niyə ki, çürüdəcək.

- Məgər qum özü çox quru olması ilə seçilmirmi?

- Baxmayın, çürüdəcək… Bax, sizə deyirəm, təptəzə getanın(1) qumunu təmizləmədən qoyun – yarım aydan sonra ondan bir şey qalmayacaq.

- Başa düşmürəm niyə.

---

(1) Geta – taxta ayaqqabı

- Ağac çürüyür, onunla birgə qum da çürüyür… Üstünü qum basmış tavan taxtalarını qazıb çıxarmağa çalışın, - piylənmiş torpaq görəcəksiz, lap götür xiyar yetişdir.

- Boş söhbətdi! – kişi həqarətlə üz – gözünü turşutdu. Ona elə gəldi ki, qum haqqında təsəvvürləri qadının avamlığıyla təhqir edilir. – Axı mən özüm də qum haqqında bir şey bilirəm… Bilirsiz, bax bu qum var ha, il boyu beləcə hərəkət edir… Onun canı hərəkətdədir…

O, heç yerdə ləngimir – nə suda, nə havada, - özü – özü üçün hərəkətdədir… Elə buna görə də qumluqda hər canlı yaşaya bilmir… Bu, çürüməni doğuran bakteriyalara da aiddir… Əgər bilmək istəyirsinizsə, qum təmizlik rəmzidir, o, daha çox çürüməni dəf edir və onun özünün çürüdüyünü demək ağılsızlıqdır… Siz hələ deyirsiniz ki, qum çürüyür… Elə ondan başlayaq ki, qum çox nəcib mineraldır.

Qadın özünü itirmiş halda susurdu. Kişi qadının hələ də onun başı üzərində tutduğu çətirin altında, daha heç bir söz demədən naharını tez-tələsik yekunlaşdırırdı. Çətirin üstü qumla elə örtülmüşdü ki, barmaqla yazı yazmaq olardı.

Dözülməz rütubət vardı. Yox, qum nəm deyildi, sadəcə bədənin özünə rütubət hopmuşdu. Damın üstündə külək vıyıldayırdı. Siqaret üçün əlini cibinə saldı – cibi qumla doluydu. Kişi hələ siqaretini yandırmamışdan, ağzında tütünün acısını hiss etdi.

Yaxşı olar ki, içində zəhər olan bankadan həşəratları çıxarım. Nə qədər ki, qupquru olmayıblar, sancaqlayıb, heç olmasa pəncələrini hamarlayım. Qadının evin yanındakı talvarın altında qabqaşıq yuduğu eşidilirdi. Görünür, ondan başqa burda heç kəs yaşamır.

Qadın qayıtdı və sakitcə evin küncündəki yatağı döşəməyə başladı. Əgər mən burda uzansam, bəs onda o özü harda gecələyəcək? Hə, əlbəttə, həsirin arxasındakı o dal otaqda. Deyəsən heç başqa otaq yoxdur. Amma bir az qəribədir – qonağı qapısı küçəyə açılan aralıq otaqda yatızdırırsan, özün isə arxa otaqda. Bəlkə, ola bilsin, orda tərpənə bilməyən ağır xəstə yatır…

Hə, görünür bu, ağlabatan fərziyyədir. Hər halda, məhz belə düşünmək ən düzgünü olar. Çətin ki, tənha bir qadın hər yoldan ötənin qayğısına qalsın.

- Burda bizdən başqa kimsə var?..

- Kimsə?..

- Ailə üzvlərindən…

- Heç kəs, mən tək-tənhayam. – Qadın deyəsən onun fikirlərini oxudu və gözlənilmədən utanautana güldü. – Bu qumun üzündən hər şey nəm çəkib, hətta yorğan da…

- Bəs sizin əriniz hardadır?

- Keçən ilki qasırğada… - Qadın yorğan-döşəyi təkrar-təkrar əli ilə saylayıb çırpırdı, bir sözlə lazımsız bir işlə məşğul idi. – Buralarda qasırğalar dəhşətli olur axı… Qum bura şəlalədən tökülən kimi, gurultu ilə tökülür. Gözünü açıb yumunca bir dze, bir də gördün, iki-üç dze silib süpürdü.

- Axı, iki dze altı metrdi…

- Belə olanda qumu nə qədər təmizləsən də, çatdırmaq olmur. Hə, onu deyirdim axı, ərim qışqırdı ki, toyuq damı təhlükədədir. Və qızımla birgə, onda qızım artıq məktəbə gedirdi, evdən bayıra atıldı… Mənsə çıxa bilmirdim – çalışırdım ki, heç olmasa evə xətər toxunmasın…

Nəhayət, səhər açıldı, külək ara verdi və mən çıxdım. Hinin izi – tozu da qalmamışdı. Onları da tapa bilmədim…

- Qum örtmüşdü?

- Hə, tərtəmiz.

- Dəhşətdir… Qorxulu hadisədir. Qum və belə bir iş… Dəhşətdir…

Gözlənilmədən lampa avazımağa başladı.

- Yenə də qum.

Qadın dizləri üstə dikəlib, əllərini uzatdı və gülə-gülə barmaqlarıyla fitildən yapışdı. Lampanın işığı o dəqiqə artdı. Elə dizləri üstə dayanıb, diqqətlə alova baxırdı, sifətində isə əzbərlənmiş bir təbəssüm donmuşdu. Yəqin yanağındakı çuxuru gözə soxmaq üçün bilə – bilə edirdi. Kişinin bədəni qeyri – iradi gərildi. Bu, həyasızlığın son həddi idi, axı elə bu dəqiqələrdə qadın öz yaxınlarının tələf olması barədə danışırdı.

## 5

- Ey, orda kim var? Biz bir nəfər üçün də bel və bidon gətirmişik.

Uzaqdan gələn səs aydın eşidilirdi, - yəqin səsgücləndirici boruya qışqırırdılar, - və bu səs onların arasında yaranmış pərtliyi aradan götürdü. Sonra isə yerə tökülən dəmir-dümürün səsi gəldi. Qadın hay vermək üçün yerindən qalxdı.

Kişi acıqlanmışdı: ona məlum olmayan nəsə baş verirdi.

- Nə baş verib? Demək, burda daha kimsə var!

- Lazım deyil, xahiş edirəm… - Qadının bədəni ayışırmış kimi yığıldı.

- Axı bu dəqiqə kimsə: «Bir nəfər üçün də» - dedi.

- A – a – a. Onlar sizi nəzərdə tutublar.

- Məni?.. Belin mənə nə dəxli var?..

- Heç, heç, fikir verməyin… Həmişə burunların hara gəldi soxurlar…

- Yəqin, səhv salıblar.

Lakin qadın heç nə demədən, elə dizləri üstə dönərək ayaqlarını torpaq döşəməyə salladı.

- Sizə lampa lazım olacaq?

- Yox, keçinərəm… Sizə necə, orda lazım olmayacaq?

- Yox, öyrəncəliyəm.

Qadın, adətən əkin sahələrində işləyənlərin geyindiyi böyük həsir şlyapanı başına keçirib, qaranlıqda itdi.

Kişi bir dənə də siqaret yandırdı. Ətrafda nəsə anlaşılmaz işlər baş verirdi. Ayağa qalxıb, həsirin arxasına boylandı. Orda həqiqətən də otaq var idi, lakin içəridə yorğan-döşək əvəzinə divarlardakı dəlmə – deşikdən içəriyə dolan qum təpəciyi ucalırdı. O, zərbə yemiş kimi yerində donub qaldı… Bu ev də demək olar ki, ölü idi… Onun içərisini caynaqları ilə hər tərəfdən soxulan, əbədi axan qum yarıya qədər həzm etmişdi… Öz məxsusi forması olmayan, millimetrin səkkizdə biri qədər orta diametrdən başqa heç nəyə malik olmayan qum… Lakin heç nə bu formasız, dağıdıcı gücün qarşısını ala bilmir… Bəlkə də, elə formasızlıq özü gücün ən ali nümayişidir.

Lakin kişi çox tez də reallığa qayıtdı. Yaxşı, əgər bu otaq istifadəyə yaramırsa, onda qadın harda yatacaq? Bax, indi taxtadan qayrılmış divarın o tərəfində ora – bura gəzişir. Qol saatının əqrəbləri doqquza iki dəqiqə işlədiyini göstərirdi. Bu vaxtı ona orda nə lazımdır?

Kişi su axtarmaq üçün torpaq döşəməyə düşdü. Su çənin lap dibində qalmışdı, içində pas üzürdü.

Hər halda bu, ağzını dolduran qumdan yaxşı olar. Su qalığını üzünə çırpdı, boynuna çəkdi və o dəqiqə gümrahlaşdı.

Torpaq döşəmə ilə sərin külək çəkirdi. Yəqin ki, bayırda ona dözmək asan olardı. Qabağını qum kəsmiş qapını çətinliklə açıb, bir-təhər çölə çıxdı. Yol tərəfdən əsən külək doğrudan da bir xeyli sərinləşmişdi. Külək pikapın - kiçik yük maşınının səsini ona tərəf gətirirdi. Diqqətlə qulaq asanda adam səslərini də ayırmaq olurdu. Ola bilsin ona elə gəlir,amma orda indi gündüzdəkindən daha qələbəlikdir. Bəlkə bu, dənizin səsidir? İndi səma ulduzlarla doludur.

Lampanın işığını görüb, qadın ona tərəf döndü. O, bellə ustalıqla davranaraq, qumu böyük kerosin bidonlarına doldururdu. Arxasında başının üstünü alan tünd qum dağı ucalırdı. Bu, onun gündüz həşərat tutduğu yerin təxminən altı idi. Qadın bidonları doldurub, hər ikisini birdən qaldırdı və divara tərəf apardı. Yanından keçəndə gözlərini qaldırıb, boğuq səslə dedi:

«Qumdu…» Qadın kəndir nərdivanın asıldığı yerdə bidonları boşaltdı, yuxarıda isə bu dərəyə aparan cığır vardı. Əlinin arxası ilə sifətinin tərini sildi. Qadının bura daşıdığı qum yepyekə dağ olmuşdu.

- Qumu kürəyirsiniz?

- Nə qədər kürəyirsənsə kürə, dalı gəlir.

Boş bidonlarla yanından keçəndə qadın bekar əliylə qıdıqlayırmış kimi onun böyründən itələdi.

Gözlənilməz hərəkətdən kişi az qala lampanı əlindən salacaqdı, kənara tullandı. Bəlkə lampanı yerə qoyub, qadına qarşılıq verim? Tərəddüd edir, özünü necə aparmaq lazım olduğunu bilmirdi.

Axırda kişi qərara gəldi ki, onun düşdüyü vəziyyət ən sərfəli vəziyyətdir. Sifətində mənasını özü də bilmədiyi təbəssüməbənzər qrimas düzəldib, əlində lampa, utancaq yerişlə, yenidən əlinə beli götürmüş qadına yaxınlaşmağa başladı.

Yaxınlaşanda qadının kölgəsi bütünlüklə qum divarı örtmüşdü.

- Lazım deyil, - qadın geriyə dönmədən, ağır-ağır nəfəs alaraq dedi. – Qum üçün yuxarıdan səbət sallayanadək daha altı bidon daşımaq lazımdır.

Kişi mısmırığını salladı. Düzü, özündə süni yaratdığı gümrah əhval – ruhiyyədən bu şəkildə, sanki qəsdən vurub salındığı xoşuna gəlmədi. Amma iradəsindən asılı olmayaraq damarlarına nəsə doldu. Elə bil dərisinə yapışan qum damarlarına soxuldu və ehtirasını daxildən söndürdü.

- Bəlkə, mən sizə bir az kömək edim?

- Eybi yox… Elə birinci gündən sizi azca da olsa, işləməyə məcbur etmək yaramaz.

- Elə birinci gündən?.. Yenə o barədə… Mən burda cəmi bir gecə qalacam!

- Doğrudan?

- Əlbəttə, axı mən iş adamıyam… Verin, verin beli!

- Sizin beliniz bax ordadır; bəlkə lazım deyil…

Həqiqətən də, içəri girən kimi talvarın altında ayrıca bel və dəstəyi bir-birinə sarınmış iki kerosin bidonu qoyulmuşdu. Yəqin bunlar bir az əvvəl yuxarıdan «Bir nəfər üçün də» qışqıranların atdığı idi. Hər şey həddən ziyadə incə hazırlanmışdı və onda belə təəssürat yarandı ki, onlar bu kişinin niyyətini əvvəlcədən duyublar. Amma axı onda özü də hələ bilmirdi ki, işləməyə həvəsi olacaq.

Hər halda özünü təhqir olunmuş hiss etdi və əhvalı korlandı. Belin dəstəyi qalın, oduncaq kimiydi, çox işləndiyindən isə rəngi qaralmışdı – heç cür əlinə götürmək istəmədi.

- Nə yaxşı, səbət artıq qonşulardadır! – elə bil onun tərəddüdünü hiss etməyən qadın qışqırdı.

Səsi əvvəlkindən fərqlənir, fərəh və inamla dolu idi. Bu vaxt bayaqdan uzaqdan eşidilən adamların səs-küyü lap yaxınlaşdı. Dalbadal hərdən sakit pıçıltılar, qarışıq boğuq gülüşlə arası kəsilən ritmik çığırtılar eşidildi. Əməyin ritmi gözlənilmədən onu da həvəsə saldı. Çox güman ki, bu sadə dünyacıqda bir günlük gecələməyə qalmış adamın əlinə bel götürüb işləməsində qəbahətli heç nə görmürlər. Əksinə, burda onun tərəddüdünə qəribə baxardılar. Lampa yıxılmasın deyə, dabanıyla qumda onun üçün oyuq açdı.

- Yəqin haranı gəldi qazmaq olar, təki qazmaq olsun, düzdü?

- Yox, haranı gəldi olmaz…

- Tutaq ki, buranı, olar?

- Buranı olar, ancaq çalışın divarın dibini boşaltmayasınız.

- Bu vaxtlar bütün kənddə qum kürənir?

- Əlbəttə. Gecə qum nəm olur və işləmək asanlaşır… Qum quru olanda isə… - qadın yuxarı baxdı, - hardan və nə vaxt üstünə aşacağını heç vaxt bilmirsən.

Həqiqətən də, yarğanın kənarında qar yığınına bənzər, dolub partlamağa gələn, bir qədər irəli çıxmış qum günlük gözə dəyirdi.

- Axı bu, təhlükəlidir!

- Eybi yox, - qadın bir az şıltaqcasına güldü. – Bir baxın, duman qalxır.

- Duman?

Onlar danışana qədər göydəki ulduzlar seyrəldi və yavaş – yavaş yayğınlaşdı. Göylə qum divarı arasındakı sərhəddə nəsə bulanıq bir pərdə nizamsız, topa – topa burulub qalxırdı.

- Bu ona görə belə olur ki, qum dumanı özünə çəkir… Duzlu qum dumanla doyanda isə, nişasta kimi gərilir…

- Belə de…

- Elədi, elədi. Üstündən elə indicə dalğa keçib yumuş dəniz sahili kimi, - üzərindən lap tank da olsa, sakitcənə keçib gedər.

- Sən bir işə bax!..

- Həqiqi sözümdür… Bax elə buna görə də bir gecənin içində o gördüyünüz çıxıntı əmələ gəlir…

Külək pis tərəfdən əsən günlərdə isə, vallah düz sözümdü, göbələyin papağı kimi bax beləcənə sallanır…Gündüz qum quruyur və bütün bu talvar aşağı gəlməyə başlayır. Və əgər uğursuz düşsə, - tutaq ki, bax o damı saxlayan nazik və ya başqa dirəklərin üstünə, - onda axırımızdır.

Bu qadının maraqları çox məhduddur. Lakin elə ki, öz həyatı sferasına daxil olur, tanınmaz bir şəkildə canlanır. Yəqin ki, onun ürəyinə də yol elə burdan keçir. Baxmayaraq ki, bu yol onu elə də cəlb etmirdi, qadının intonasiyasında onun kobud iş paltarında gizlənmiş bədənini hiss etmək həvəsi oyadan nəsə bir gərginlik vardı.

Kişi var gücü ilə diş – diş beli bir – birinin ardınca quma vurub, çıxarmağa başladı.

## 6

O, ikinci dəfə kerosin bidonlarını doldurub kənara çəkəndə səslər eşidildi və yuxarıdakı yolda fənər yelləndi.

Qadın kəskin görünəcək tonla dedi:

- Səbətlər! Burda bəs edər, mənə orda kömək edin!

Yuxarıda - nərdivanın yanındakı qumla dolu kisələrin nə üçün nəzərdə tutulduğunu kişi ancaq indi başa düşdü. Səbətləri qaldırıb-salanda onların üstü ilə kəndir gedib gəlirdi. Hər səbətlə dörd nəfər məşğul olur və belə qrupların sayı iki, ya üç idi. Ona elə gəldi ki, bunlar əsasən bir-birinin bəhsinə cəld işləyən gənclərdir. Bir qrupun səbəti dolunca, artıq ikinci səbət öz növbəsini gözləyirdi. Altı cəhdə dərədəki qum yığınından əsər-əlamət qalmadı.

- Maşallah,od-alovdular!

Köynəyinin qoluyla tərini silirdi, səsinin tonu saflıqla dolu idi. Kişi bütünlüklə öz işinə qapılan və onun qadına kömək etməsinə rəğmən bir dənə də olsun şit söz atmayan bu gənclərə simpatiya bəsləyirdi.

- Hə, bizdə «Vətənə sevgi hissinə sadiq ol» şüarına ciddi əməl edirlər.

- Bu nə hisdir ki?

- Yaşadığın yerə olan sevgi hissi.

- Bu çox gözəldir!

Kişi güldü. Onun ardınca qadın da güldü. Amma o, özü də düz – əməlli bilmirdi ki, nəyə gülmək lazımdır.

Bir qədər uzaqdan səs-küy salıb uzaqlaşan pikapın səsi eşidildi.

- Hə, bir az dincələk?

- Olmaz, hamıya baş çəkəndən sonra, səbətlərilə geri qayıdacaqlar…

- Eybi yox, qalanını sabaha da saxlamaq olar…

O, əlini yelləyib qalxdı və evə tərəf getdi, qadının isə onun arxasınca getmək fikri yox idi.

- Belə yaramaz. Heç olmasa, bir dəfə bellə evin həndəvərin dolanmaq lazımdır.

- Evin həndəvərində?

- Əlbəttə. Məgər imkan vermək olarmı ki, ev uçsun?.. Axı qum hər tərəfdən axır…

- Onda biz gərək səhərədək burda əlləşək.

Qadın meydan oxuyurmuş kimi cəld çevrildi və qaçdı. Görünür, yarğana qayıdıb işinə davam etməyə hazırlaşırdı. Hazır qabarböcəyidi ki, durub, deyə kişi fikirləşdi. Hər şey aydındı, məni belə şeylərlə yoldan çıxarmaq olmaz.

- Dəhşətdir! Hər gecə də belə, hə?

- Qum dincəlmir və dincəlməyə də qoymur… Səbətlər də, maşın da bütün gecəni hərəkətdədirlər.

- Hə, görünür ki, belədir…

Hə, sözsüz ki, belədir. Qum heç vaxt dincəlmir, heç vaxt da dincəlməyə qoymur. Kişi özünü itirdi. Onda belə bir təəssürat yarandı: elə bil birdən müəyyən etdi ki, balaca və ziyansız hesab etdiyi, quyruğunu düşünmədən tapdaladığı ilanın gözlənilmədən nəhəng olduğu aşkarlanıb və zəhərli başı ona arxadan təhlükə törədir.

- Bu nə deməkdir? Siz ancaq qum kürəmək üçün yaşayırsınız!

- Belə də olmaz axı, gecəynən şələ – küləni yığışdır, qaç.

Kişi sarsılmışdı. O, belə bir həyata cəlb olunmaq üçün heç bir arzu və istəkdə bulunmurdu.

- Yox, olar!.. Məgər bu, belə çətindir?.. Əgər istəsəniz, hər şey edərsiniz!

- Yox, belə olmaz… - Qadın belin zərbəsi ilə həmahəng nəfəs alaraq, etinasız tonla davam etdi: - Kənd ancaq ona görə mövcuddur ki, biz yorulmadan qumu kürəyirik və bununla da onu yaşadırıq… Əgər qazmağa ara versək, qum heç onca gün də çəkməz ki, onu süpürüb aparar – və kənddən heç nə qalmaz… Sonra isə… Oy, deyəsən növbə artıq qonşulara çatıb…

- Maraqlı söhbətçün sizə minnətdaram… Səbətdaşıyanların belə ürəklə işləməsinə səbəb budur?

- Hə, amma onlar, düzü, kənd idarəsindən günəmuzd nəsə alırlar…

- Əgər kəndin belə pulu varsa, onda nə üçün qumdan qorunmaq üçün planlı surətdə meşə zolağları salınmır?

- Yəqin hesablayanda bizim üsulumuzun bir neçə dəfə ucuz başa gəldiyi üzə çıxır…

- Üsul?.. Məgər bu, üsuldur? – Kişini cin vurdu. Qadını bu yerlərə bənd edənlərə də, özünü bənd etməyə imkan verən qadına da hirsləndi. - Əgər belədirsə, bu kənddən ikiəlli yapışmaq nəyə lazım? Mən heç cür səbəbi başa düşə bilmirəm… Qum heç də xırda məsələ deyil! Sizin çalışmalarınızın qumun qarşısını alacağını fikirləşmək böyük səhv olardı. Mənasızlıqdır!.. Bu cəfəngiyyatla qurtarmaq lazımdır… birdəfəlik qurtarmaq lazımdır. Mən hətta sizə acıya da bilmirəm!

Beli bir az kənarda atılıb qalmış bidonların yanına tullayıb, qadının sifətinin ifadəsinə fikir də vermədən evə qayıtdı.

Yata bilmirdi. Kişi qadının nə etdiyinə qulaq verirdi. Bir az da utanırdı: axı onun özünü belə aparması son nəticədə qadını burda saxlayan nə varsa, hamısına qısqanclıq hissi və qadını işini atıb, gizlində onun yatağına girməyə məcbur etmək idi. Doğrudan da, son dərəcə kəskin hiss etdiyi nə idisə, təkcə qadının sadəlövhlüyünə olan etiraz hissi deyildi. Məsələ çox dərin idi.

Yorğan-döşək get-gedə nəmləşir, qum bədənə daha da möhkəm yapışırdı. Nə böyük ədalətsizlik, nə böyük biabırçılıqdır! Və buna görə də beli bir kənara tullayıb, evə qayıtdığı üçün özünü həlak etməyə dəyməz. O, belə bir məsuliyyəti öz üzərinə götürə bilməz. Bunsuz da onun öhdəlikləri lazım olandan artıqdır. Qum və həşəratların onu cəlb etməsi, son nəticədə bir neçə günlüyə də olsa, mənasız həyatın zəhlətökən öhdəliklərindən can qurtarmaq cəhdindən başqa bir şey deyildi…

Heç cür gözünə yuxu getmirdi.

Qadın dincəlmədən ora-bura gedirdi. Bin neçə dəfə aşağı salınan səbətlərin səsi yaxınlaşdı, sonra isə yenə uzaqlaşdı. Əgər belə davam etsə, sabah işləyə bilməyəcək. Axı dan yeri sökülən kimi ayaqda olmaq və günü boş keçirməmək, ovdan əlidolu qayıtmaq lazımdır. Yuxuya getməyə nə qədər çox səy göstərirdisə, bir o qədər də yuxusu qaçırdı. Gözləri sancdı – onlar yaşarır, qırpılır, lakin fasiləsiz tökülən qumla bacara bilmirdilər. Dəsmalı açıb onunla sifətini örtdü.

Nəfəs almaq çətinləşdi. Amma hər halda belə daha yaxşıdır.

Nəsə başqa bir şey haqqında fikirləşmək lazımdır. Gözlərini yumursan və nəsə uzun, sap kimi şeylər yellənə-yellənə gözlərinin qabağında üzürlər. Bu, təpəylə üzən qum naxışlarıdır. Yəqin bütün günü gözlərimi çəkmədən onlara baxmışam deyə, tor qişasında həkk olublar. Bax elə belə qum axınları da çiçəklənən şəhərləri və böyük imperiyaları basıb, udublar. Bunu belə adlandırırlar, hə, dəqiq bilirəm - Roma imperiyasının sabulyasiyası. Şəninə Ömər Xəyyamın erlər qoşduğu şəhərlər isə… Bu şəhərlərdə dərzi emalatxanaları, qəssab dükanları, bazarlar vardı. Onları heç nəyin yerindən tərpədə bilməyəcəyi düşünülən, sıx – sıx çəkilib bir – birinə dolaşan yollar qucurdu. Yollardan heç olmasa birinin istiqamətini dəyişmək üçün, kim bilir, hakimiyyətlə neçə illər mübarizə aparmaq lazım idi. Sarsılmazlığına heç kəsin şübhə etmədiyi qədim şəhərlər… Son nəticədə isə, onlar da daim hərəkətdə olan, diametri millimetrin səkkizdə birinə bərabər qumun qanunlarına qarşı çıxa bilmədilər.

Qum…

Qumun nəzər nöqtəsindən baxsaq, formaya malik bütün predmetlər qeyri – realdır. Real olansa ancaq hər cür formanı rədd edən qumun hərəkətidir. Amma orda, bir taxta qalınlığında olan divarın arxasında, qadın qumu qazmaqda davam edir. Axı bu nazik, incə əllərlə o, nə edə bilər?

Bu, dənizin yerində ev tikmək üçün onun sularını boşaltmağa bənzəyir. Gəmini suya buraxmazdan əvvəl, ilk növbədə suyun nə demək olduğunu dərk etmək lazımdır.

Bu fikir gözlənilmədən, onu qadının qazdığı qumun xışıltısının əmələ gətirdiyi ruh düşkünlüyündən azad etdi. Əgər gəmi su üçün yararlıdırsa, onda qum üçün də yararlı olmalıdır.

Əgər adamı əzən tərpənməz ev ideyasından azad ola bilsən, onda qumla mübarizə etmək zəruriliyi öz-özünə qüvvədən düşmüş olur… Qumla üzən azad bir gəmi… Üzən evlər…

Formasını itirmiş kəndlər və şəhərlər…

Qum, əlbəttə ki, maye deyil. Buna görə də onun üzündə heç nə dayana bilməz. Əgər, məsələn, onun üstünə xüsusi çəkisi qumdan az olan probka qoysan, onda bir müddət keçəndən sonra o da quma qərq olacaq. Qumda üzmək üçün gəmi tamamilə ayrı, xüsusi keyfiyyətlərə malik olmalıdır.

Məsələn, diyirlənərək hərəkət edə bilən çəllək formasında ev…Əgər o, heç olmasa bir balaca dönə bilsə, onda üstünə tökülən qumdan azad ola və yenidən üzə

çıxa bilər. Gəl ki, ev bütünlüklə fasiləsiz diyirlənsə, içində yaşayan adamlar özlərini rahat hiss edə bilməzlər… Yəqin, ixtiraçılıq bacarıqlarını nümayiş etdirmək lazım gələcək – tutaq ki, bir çəlləyi digərinin içinə qoymaq olar…Elə etmək olar ki, məsələn, daxildə qalan çəlləyin ağırlıq mərkəzi dəyişməz qalsın və döşəmə həmişə aşağıda olsun… Daxildəki çəllək həmişə hərəkətsiz qalacaq və yalnız kənardakılar fırlanacaq… Nəhəng saatın kəfkiri kimi yellənən ev… Beşik – ev… Qum gəmisi…

Bu gəmi yığınından ibarət kənd və şəhərlərin dincəlməz hərəkəti…

Özü də bilmədən yuxuya getdi.

**7**

Kişini paslanmış yelləncəklərin cırıltısına oxşar xoruz səsi oyatdı. Narahat, acı oyanış. Adama elə gəlirdi ki, səhər indi açılıb, lakin saatın əqrəbləri on bir on altını göstərirdi. Həqiqətən də, günəş günorta imiş kimi parlayırdı. Buralar isə ona görə yarıqaranlıqdır ki, dərənin dibidir və gün şüaları hələ ona yol tapmayıb.

Cəld yerindən atıldı. Üzündən, başından, sinəsindən xış-xış qum töküldü. Dodaqlarının, burnunun yanlarına tərdən bərkimiş qum yapışmışdı. Əlinin arxasıyla qumu silən kişi özünü itirmiş halda gözünü döyürdü. Qızarmış gözlərindən aramsız yaş axırdı, elə bil göz qapaqlarının üstündən nəsə kələ – kötür bir şey çəkmişdilər. Amma nəm gözlərinin qıraqlarında yığılmış qumu yumaq üçün təkcə göz yaşları azlıq edirdi.

O, heç olmasa bir az su götürmək üçün torpaq döşəmədəki su bakına tərəf getdi və bu vaxt gözü ocağın qırağında mürgüləyən qadına sataşdı. Gözünün göynəməsini unudub, nəfəsini içinə çəkdi.

Qadın büsbütün çılpaq idi.

Qözlərini örtən yaş pərdəsinin arasından qadın ona aydın olmayan, yayğın kölgə kimi göründü.

O, döşənməmiş həsirin üstündə uzanmışdı, başından başqa, bədəninin hər yeri elə bil ki, kiməsə göstərilmək üçün qoyulmuşdu, yalnız sol əli qarnının aşağısını bir az örtürdü. Bədəninin adətən bütün adamların gizlətdiyi guşələri açıqda idi və ancaq heç kəsin üzdə qoymağa utanmadığı sifəti dəsmalla örtülmüşdü. Bu, əlbəttə ki, gözləri, ağızı, burunu qumdan qorumaq üçün idi, lakin bu cür kontrast onun çılpaqlığını xüsusi nəzərə çarpdırırdı.

Bədən bütünlüklə yüngül, nazik qum örtüyü ilə örtülmüşdü. Qum təfsilatları gizlədir və xətlərin incəliyini büruzə verirdi. Qadın qumla qızıl suyuna çəkilmiş heykələ bənzəyirdi. Gözlənilmədən dilinin altından yapışqanlı ağız suyu axdı. Lakin o, bu suyu uda bilmədi. Ağzında – dodaqları ilə dişlərinin arasında qalan qum, tüpürcəyi özünə çəkdi və bütün ağız boşluğuna yayıldı. O, döşəməyə tərəf əyilib, ağzındakı qumla qarışıq suyu tüpürməyə başladı. Lakin nə qədər tüpürsə də, ağzındakı kələ – kötürlük getmirdi. Ağzını nə qədər təmizləyirdisə, qum yenə də qalırdı. Ona elə gəlirdi ki, qum dişlərinin arasında təkrar-təkrar əmələ gəlir.

Xoşbəxtlikdən, su bakı ağzına qədər dolu idi. Kişi ağzını yaxalayıb, üzünü yuyub həyata qayıtdığını hiss etdi. Ömründə suyun belə möcüzəli gücə malik olduğunu duymamışdı. Qum kimi su da mineraldır, lakin o, quma nisbətən o qədər təmiz, şəffaf qeyri – üzvi maddədir ki, bədənlə daha tez təmasa girir; nəinki başqa hər hansı canlı

orqanizm… Suyu boğazına aramla axıda – axıda, özünü daşlarla qidalanan heyvan təsəvvür etdi…

Kişi yenidən dönüb, qadına baxdı.

Lakin ona yaxınlaşmaq istəyində bulunmadı. Üstünə qum səpilmiş qadına çətin ki, toxunmaq zövq versin, nəinki ona baxmaq.

İndi, gündüz işığında, gecə keçirdiyi əsəb və acıq ona yuxu kimi gəlirdi. O, elə bil gördüklərinin hamısını beyninə həkk etmək üçün bir də ətrafına göz gəzdirib, yığışmağa başladı. Köynəyinin, şalvarının üstünə o qədər qum tökülmüşdü ki, qaldırmaq olmurdu. Belə boş şeylər üçün narahat olmağa dəyməz. Lakin paltarlarının üstündən qumu çırpmaq, başdan kəpəyi təmizləməkdən çətin oldu.

Çəkmələri də qumun içində idi.

Yəqin getməmişdən qabaq qadına nəsə demək lazım idi. Digər tərəfdən yatan qadını oyatsa, o, utanacaq. Yaxşı, onda bəs gecələmək haqqı necə olsun?.. Bəlkə, yaxşı olar ki, geri qayıdanda artel idarəsinə girsin və pulu dünən onu bura gətirən qocaya versin?

Səs salmamağa çalışaraq, sakitcə evdən çıxdı.

Günəş qaynayan civə kimi qum divarlarının kənarlarına toxunur və yavaş – yavaş dərənin dibinə yayılırdı. Gözlənilmədən sifətinə vuran parlaq işıqdan diksindi və gözlərini örtdü. Lakin dərhal da qarşısını kəsən qum divarını gördü, özünü itirmiş halda hər şeyi unutdu.

İnanılmazdır! Gecə burdan asılmış kəndir nərdivan yoxa çıxmışdı.

Gecə gördüyü, yarıya qədər qumla doldurulmuş kisələr öz yerindəydi. Deməli, heç nəyi qarışdırmır. Ola bilərdimi ki, təkcə nərdivanı qum udub?.. O, divara tərəf cumdu və əlləri ilə onu qazmağa başladı. Qum müqavimət göstərmirdi, qopub, aşağı tökülürdü. Lakin axı o, iynə axtarmırdı və dərhal heç nə tapmadısa, nə qədər qazırsan, qaz nəticə elə həminki olacaq… Kişi get – gedə artan narahatlığını gizlətməyə çalışaraq, bir şey başa düşmədən, yenə qum yarğanını gözdən keçirməyə başladı.

Yuxarı çıxmaq üçün bir yer varmı? Bin neçə dəfə evin başına dolandı. Şimal tərəfdən dənizə baxan divarın üstü ilə dama çıxsa, ola bilsin ki, ordan yuxarıya ən yaxın məsafə olsun, amma bu da on metrədən az olmayacaq. Bəlkə də çox olar və bu divar ən sıldırımdır. Üstəlik ordan görünüşündən vahimə yağan ağırlaşmış qum papaq sallanır..

Müqayisə edəndə qərb tərəfdəki divar bir qədər əydəmli, konusun daxili kimi yüngülcə qatlanıb.

Ən optimist hesablamalara görə, burdakı bucaq əlli, ya da ən azı qırx beş dərəcədir. Yoxlamaq üçün ehtiyatla da olsa, bir addım atmaq lazımdır. Bir addım atıb, yarım addım geri sürüşdü.

Amma hər halda çalışsan, qalxa bilərsən. İlk beş – altı addımı gözlədiyi kimi atdı. Sonra isə ayaqları qumda batmağa başladı. O, irəli gedib-getmədiyini düz-əməlli özü üçün aydınlaşdırmamış, dizinə qədər quma batdı və irəliləmək üçün taqəti qalmadı. İməkləyərək yamacı aşmağa cəhd göstərdi. İsti qum ovuclarını yandırırdı. Bütün bədənini tər basdı, tərinə qum yapışdı, gözləri tutuldu. Sonra isə ayağı qıc olub burxuldu və o, daha hərəkət edə bilmədi.

Kişi dincəlib nəfəsini dərmək üçün dayandı. Bir xeyli irəlilədiyini düşünüb gözlərini açdı və beşcə metr belə dırmaşa bilmədiyini görəndə dəhşətə gəldi. Bütün bu vaxt ərzində nə üçün çalışırmış? Elə yamacın özü də aşağıdan göründüyündən ən azı

iki dəfə daha dikdir. Ondan sonra gələn yer isə daha qorxuludur. Kişiyə yuxarı dırmaşmaq lazım olduğu halda, görünür bütün gücünü qum divarın içndə eşələnməyə sərf etmişdi. Düz qabaqda sallanan qum çıxıntı yolunu kəsirdi.

Kişi əliylə başının üstündəki qup – quru qurumuş çıxıntıya toxundu, elə o an da qum ayağının altından qaçdı. Hansısa bir qüvvə onu qumun içindən götürüb, kənara atdı və o, dərənin düz dibinə yuvarlandı. Sol çiynində nəsə xırçıldadı, elə bil yemək yeyəndə istifadə olunan çubuq sındı. Yüngül ağrı hiss etdi. Və sanki dənəvər qum, bu ağrını sakitləşdirmək üçün hələ bir müddət yamac boyu xışıltı salaraq axıb getdi. Sonra dayandı. Xoşbəxtlikdən zədə elə də ciddi deyildi.

Həvəsdən düşmək hələ tezdir.

Qışqırıb səs – küy salmaqdan özünü güclə saxlayaraq, xırda addımlarla evə qayıtdı. Qadın elə əvvəlki vəziyyətdə yatmışdı. Əvvəlcə sakit, get – gedə artan səslə onu çağırmağa başladı. Qadın cavab vermək əvəzinə, qarnı üstə çönərək, elə bil ki, narazılıq bildirdi.

Çiynini, qollarını, böyürlərini, belini ayrı-ayrı yerlərini çılpaqlaşdıraraq qum bədənindən yerə töküldü. Amma o, bunun hayında deyildi. Yaxınlaşıb, qadının üzünü örtən dəsmalı çəkdi.

Qadının ləkəli sifəti, qum səpələnmiş bədənindən fərqli olaraq, çirkin, kobud idi.

Bu sifətin dünən onu lampa işığında təəccübləndirmiş qəribə ağlığı, çox şübhəsiz pudranın köməyi ilə əldə edilmişdi. İndi üzünün bəzi yerlərindən pudra silinmiş, adda – budda qalmışdı.

Yadına ucuz, yumurtasız hazırlanmış, üstündə buğda ununun ağardığı kotletlər düşdü.

Nəhayət, qadın parlaq işıqdan gözlərini qıyaraq açdı. Kişi qadının çiyinlərindən yapışıb, var gücüylə silkələdi, yalvarışlı səslə, tez-tez danışmığa başladı:

- Qulaq asın, nərdivan yoxdur! Yuxarıya necə qalxmaq olar? Axı nərdivansız burdan çıxmaq mümkün deyil!

Qadın özünü itirmiş halda dəsmalı qapdı və gözlənilmədən əliylə bir neçə dəfə sifətinə şappıldatdı, sonra isə ona arxa çevirib, üzüqoylu həsirin üstünə yıxıldı. Bəlkə utanırdı?

Utancaqlığını başqa vaxta saxlasın. Kişi birdən partlayıb, çığırdı:

- Mən zarafat eləmirəm! Əgər elə bu dəqiqə nərdivanı verməsən, pis olacaq! Mən tələsirəm!

Nərdivanı neyləmisən? Zarafat edəndə həddini bil! Bu dəqiqə qaytar!

Lakin qadın cavab vermirdi. O, əvvəlki pozasında uzanıb qalmışdı, ancaq başını yüngülcə yelləyirdi.

Və birdən kişi tutuldu. Baxışları ölgünləşdi, boğazını spazma tutdu və az qaldı ki, boğulsun. O, elə bu an suallarının mənasızlığını başa düşdü. Axı nərdivan kəndirdən idi… Kəndir nərdivan öz-özünə dayana bilməz… Hətta o sənin əlindədirsə belə, aşağıdan yox, yuxarıdan nizamlana bilər. Deməli, onu bu qadın yox, kimsə başqası - yuxarıda, yolda dayananlar yığışdırıb. Qum örtmüş tüklü sifət yazıq – yazıq əyildi.

Qadının hərəkəti, susması inanılmaz – məşum məna kəsb etməyə başladı. Keçib gedər, deyə fikirləşirdi, lakin qəlbinin dərinliklərində başa düşürdü ki, ən qorxduğu şey gerçəkləşib. Ola bilsin, nərdivanı onun icazəsi və əlbəttə ki, tam razılığı ilə aparıblar. Heç şübhəsiz – qadın onlarla əlbirdir. Və qadının bu pozasını utancaqlıq yox, vəziyyətinin ikimənalılığı diktə edir. Bu, heç şübhəsiz cinayətkar qadın

pozasıdır, bəlkə də, hər hansı bir cəzanı qəbul etməyə hazır olan qurbanlığın. Onlar bunu məharətlə işləyiblər. Bu lənətlənmiş tələyə düşdüm. İnanıb, qabarböcəyinin tələsinə düşdü, o da onu tovlayıb, çıxış yeri olmayan səhraya çəkdi, - acından ölən siçanlar kimi…

O, yerindən qalxıb, qapıya tərəf cumdu və bir də bayıra baxdı. Külək qalxmışdı. Günəş dərənin üstündə, demək olar ki, düz ortada dayanmışdı. Qızmış qumdan yuxarıya doğru yaş neqativ plyonka kimi rəngdən-rəngə çalan isti hava dalğası qalxırdı. Qum divar boy atır, böyüyürdü. O, hər şeyi yaxşı bilirdi və elə bil kişinin əzələləri, sümükləriylə müqavimətin mənasız olduğu barədə danışırdı. Qaynar hava bədəninə soxulurdu. Bürkü daha da dözülməz olurdu.

Gözlənilmədən kişi dəli kimi qışqırmağa başladı. O, nəsə mənasız sözlər deyirdi, - düşdüyü ümidsiz vəziyyəti ifadə etmək üçün söz yox idi. Sadəcə, gücü gəldikcə bağırırdı. Kişiyə elə gəlirdi ki, bu, dəhşətli bir yuxudur, bağırtını eşidib, qaçacaq və bilmədən etdiyi kobud zarafatına görə üzr istəyib, onu qum çuxurundan kənara çıxaracaq. Lakin qışqırmağa adətkarda olmayan səs nazik və zəif çıxırdı. Üstəlik, qum bu səsi udur, külək yayır və çətin ki, uzağa aparırdı.

Birdən dəhşətli gurultu eşidildi və kişi səsini kəsdi. Dünən qadının xəbərdarlıq etdiyi kimi, şimal tərəfdəki divarın üstündən sallanan qum çıxıntı quruyub uçdu. Ev yazıq-yazıq inildədi, elə bil naməlum bir qüvvə əl-ayağını burdu və bu vaxt onun əzablarını nəzərə çatdırmaq üçün çıxıntıyla divarın arasında qalan yarıqlardan bomboz qan xışıltı salaraq sızmağa başladı. Ağzı tüpürcəklə doluydu, elə bil zərbə onun özünə dəymişdi…

Hər halda, baş verənlər ağlasığan deyil. Nəsə əndazədən çıxan hadisədir. Ailəbaşı siyahıya salınan, iş yeri olan, vergi ödəyən və pulsuz tibbi xidmət hüququndan istifadə edən bir adamı hər hansı siçan və ya həşərat kimi tələyə salmaq olarmı? Ağlasığmazdır. Yəqin bu, nəsə yanlışlıqdır.

Hə, əlbəttə ki, yanlışlıqdır. Bunun yanlışlıq olduğunu hesab etməkdən başqa, əlindən nə gəlirdi ki?

Hər şeydən əvvəl, onların mənə qarşı etdiklərini etmək,axmaqlıqdır. Axı mən nə atam, nə də ki, öküz və heç kəs iradəmin əksinə olaraq məni işləməyə məcbur edə bilməz. Və tezliklə mənim işçi qüvvəsi kimi yararsız olduğum məlum olacaq, buna görə də məni bu qum divarları arasında saxlamağın heç bir mənası yoxdur. Qadının boynuna əlavə yük olacaq bir adam nəyə lazımdır?

Amma nədənsə, əminliyi yox idi… Onu hər tərəfdən əhatələyən qum divara baxıb, heç ürəyindən olmasa da, ona dırmaşmaq üçün etdiyi uğursuz cəhdləri xatırladı… Divarın dibində nə qədər vurnuxsan da, heç bir xeyri yoxdur. Gücsüzlük hissi onu sarsıtmışdı… Görünür bu, qumun gəmirdiyi, adi ölçülərin qüvvədən düşdüyü qeyri-adi bir dünyadır. Əgər şübhələnməyə qalsa, şübhələnmək üçün səbəb nə qədər istəsəndir… Məsələn, əgər təzə bidonları və beli məxsusi olaraq onun üçün hazırladıqları düzdürsə, onda kəndir nərdivanın bilərəkdən aparılması da düzdür. Bir də ki, onun vəziyyətinin çıxılmaz, dəhşətli olduğunu, qadının müti itaətkarlıqla asanca və sakit öz taleyilə barışması faktı bunu təsdiq etmirmi? Bəlkə, qadının dünən onun burda uzun müddətə ilişib qaldığına eyham vurması təsadüfən deyilmiş?

Daha bir qum uçqunu qopdu.

Kişi qorxub, evə qayıtdı. O, əvvəlki tək həsirin üstündə üzüqoylu uzanan qadına tərəf getdi və hirslə onun üstünə qulaylandı. Coşub – daşan nifrəti gözlərinə vurmuş,

ağrıyla bütün bədəninə yayılmışdı. Lakin birdən gücdən düşüb, qaldırdığı əlini qadına heç toxundurmadan ağır – ağır aşağı saldı. O deyəsən, əlinin içi ilə qadını şapalamaqdan özünü güclə saxladı. Ancaq ola bilsin, qadın onun məhz belə addım atacağına ümid edirdi. Əlbəttə, o, elə bunu gözləyir. Axı cəza, cinayətin bağışlanması təsdiqindən başqa bir şey deyil.

O, arxasını qadına çevirib, döşəməyə yıxıldı, ikiəlli başını tutub, sakitcə inildədi. Ağzında yığılıb qalmış tüpürcəyi udmaq istədi, alınmadı – boğazında qaldı. Yəqin selikli qişa qumun dad və iyinə çox həssas olmuşdu və nə qədər burda qalsa da – ona öyrəşə bilməyəcək. Tüpürcəyi dodaqlarının küncündə yığılıb, bozumtul, köpüklənən laxtaya çevrilmişdi. Tüpürəndə, ağzında qalan qumun kələ – kötürlüyünü daha güclü hiss etdi. O, dilinin ucu ilə dodaqlarını iç tərəfdən yalayır və tüpürməyi davam etdirərək, bu qumdan can qurtarmağa cəhd etdi, lakin onun sonu görünmürdü. Ancaq irinləyibmiş kimi qurudu və incitdi.

Yaxşı, nə etmək olar. Bu qadınla mütləq söhbət edəcəm və hər şey haqqında yerli – yataqlı danışmağa məcbur etməyə çalışacam. Yalnız əgər vəziyyət onun üçün tam aydınlaşsa, çıxış yolu tapa bilər. Hərəkət planına malik olmamaq olmaz. Düşdüyü belə axmaq vəziyyəltə barışa bilərmi?.. Əgər qadın cavab verməsə, nə etsin?.. Bu, həqiqətən də ən dəhşətli cavab olardı. Belə ehtimal qətiyyən istisni deyil. Onun bu inadkar sükutu… və nə üçün dizlərini qarnına sıxaraq aciz qurban kimi uzanıb qalıb?..

Üzüqoylu uzanmış lüt qadının pozası həddən artıq ədəbsiz idi, onda nəsə heyvani bir şey vardı.

Ona elə gəlirdi ki, qadın arxası üstə çevrilməyə hazır idi, təki ona astaca toxunsun. Təkcə ağlınagələn bu fikirdən utanaraq töyşüdü. Lakin qəflətən özünü qadına əzab verən cəllad cildində gördü, özünü onun bəzi yerləri qumla örtülü bədəninin üstündəymiş kimi hiss etdi. Və anladı…

Əvvəl – axır bu baş verəcək… Və onda nəsə bir söz deməyə haqqı olmayacaq…

Birdən qarnının aşağısından kəskin ağrı tutdu. Partlamağa hazır sidik kisəsi azad olmaq istəyirdi.

## 8

İşəyib yüngülləşəndən sonra, kişi ağır buxarla nəfəs ala- ala dayanmaqda davam edirdi… O, burda dayana - dayana, hər hansı bir ümid yerinin peyda olacağına bel bağlamırdı. Sadəcə, heç cür özünü evə qayıtmağa məcbur edə bilmirdi. Qadından uzaqda olarkən onun yanında dayanmağın nə qədər təhlükəli olduğunu daha aydın şəkildə başa düşürdü. Yox, məsələ yəqin ki, qadının özündə deyil, hansı vəziyyətdə uzanmasında, onun bu pozasındadır. Ömründə bir dəfə də olsun, belə həyasız qadın görməmişdi. Nə olursa olsun, evə qayıtmayacam. Qadının pozası həddən artıq təhlükəlidir.

Belə bir deyim var: ölü kimi uzanıb qalmaq. Bu, bəzi növ həşəratların və hörümçəklərin, onlara qəfildən hücum olarsa, düşdüyü iflic vəziyyətidir… Sındırılmış təsvir… Dispetçer məntəqəsiruhi xəstələr tərəfindən zəbt olunmuş aerodrom. İnanmaq istərdi ki, bu hərəkətsizlik dünyadakı bütün hərəkəti dayandıracaq, axı qış yuxusuna getmiş qurbağalar üçün qış deyilən şey yoxdur.

O, xəyallarda üzərkən, günəşin istisi daha da dözülməz oldu. Kişi elə bil yandırıcı şüalardan qorunmaq üçün üçqat olmuşdu. Sonra başını cəld əyib, köynəyinin yaxasından yapışdı və bütün gücü ilə dartdı. Köynəyin üç yuxarı düyməsi qopub düşdü. Köynəyin boynunun altındakı qumu çırpanda, yadına qadının qumun heç vaxt quru olmadığı, ətrafda nə varsa, hamısını çürütmək üçün kifayət qədər nəm olduğu haqda sözləri düşdü. Kişi köynəyini çəkib, şalvarının belini boşaltdı ki, heç olmazsa, əyni bir az hava çəksin. Amma düzü, bu qədər narahat olmağa lüzum yox idi. Əzginlik necə tez gəlmişdisə, elə də itdi. Görünür, nəm qum hava ilə təmasda olan kimi öz iblisani xüsusiyyətlərini itirir.

Elə bu an ağlına gəldi ki, qadının çılpaqlığını həddən artıq birtərəfli anlatmaqda ciddi səhv edib.

Əlbəttə, demək olmaz ki, qadının onu tələyə salmaq kimi gizli meyli olmayıb. Lakin istisna deyil ki, bu, onun yaşadığı şəraitin diqtə etdiyi sadəcə vərdişdir. Aydındır ki, qadın yalnız dan yeri söküləndən sonra yatmağa gedir. İnsan yuxudaykən daha çox tərləyir. Əgər gündüz, üstəlik od tutub yanan qum çuxurunda yatmalı olursansa, soyunmaq arzusu təbii bir şeydir. Onun yerinə olsaydım, mən də soyunardım; əlbəttə, belə imkan olsaydı…

Bu tapıntı o saat onu tərli bədəndən qumu təmizləyən külək kimi ağır hisslərdən azad etdi.

Qorxularımı şiddətləndirməyin mənası yoxdur. Əsl kişi nə qədər istəsən polad və dəmir – beton divar da olsa dağıdıb, qaçmağa qadirdir. Təkcə qalanı görüb, ona açarın olub olmamasını aydınlaşdırmadan məyusluğa qapılmaq düzgün deyil… Tələsmədən, quma bata – bata o, evə tərəf getdi… Bu dəfə sakit danışacam və mənə nə lazımdırsa, ondan öyrənəcəm… O, qadının üstünə bağıraraq cumanda, qadın ona heç bir cavab verməməkdə haqlı idi… Bəlkə, qadın ona görə susurdu ki, sadəcə utanırdı: o, kişinin onu çılpaq görməməsi üçün heç bir tədbir görməmişdi.

**9**

Qızmış qumun gözqamaşdırıcı parıltısından sonra otaq qaranlıq, soyuq və rütubətli idi. Ağırqızmar hava kif iyi verirdi – bayırda bundan yaxşı idi. Birdən hiss etdi ki, onu qara basır.

Qadın heç yerdə yox idi. Bir anlığa donub qaldı. Bəsdir tapmaca tapdım! Amma, sözün düzü, heç bir tapmaca da yoxdur. Qadın əlbəttə ki, buralardadır. O, başını aşağı əyərək arxası kişiyə tərəf, su bakının qabağında, əl-üz yuyan tərəfdə sakitcə dayanmışdı.

… O, artıq geyinmişdi. Adama elə gəlirdi ki, bir - birini tamamlayan solğun - yaşıl kimano ilə şit naxışlı şalvardan nanə - cövhərli balzamın sərinləşdirici ətri gəlir. Hə, indi durub, nə deyəsən. O, yenə də qadın haqqında həddən artıq düşünməyə başlayıb. Lakin ola bilməzdi ki, bu ağlasığmaz fövqəladə şəraitdə, üstəlik lazım olan qədər yatıb, yuxusunu almadığı bir halda xəyalları haralardasa uçuşmasın.

Qadın bir əli ilə su bakının kənarına söykənmiş, içərisinə baxa – baxa barmağı ilə suda çevrələr çəkirdi. Kişi qum və tərdən ağırlaşmış köynəyini var gücü ilə yelləyərək, əlinə kip sarıdı.

Qadın boylandı, hürkdü. Onun sifəti elə səmimi lal sual, yalvarış ifadə edirdi ki, elə bil bütün ömrü boyu bu ifadəli sifətlə yaşamışdı. Kişi isə mümkün qədər özünü elə aparırdı ki, elə bil heç nə baş verməmişdi.

- İstidi, hə?.. Belə istidə heç köynək də geymək istəmirsən.

Lakin qadın hələ də ona inamsızlıqla, sual dolu gözlərlə, altdan - altdan baxmaqdaydı. Nəhayət utancaq, güclə düzəltdiyi təbəssümlə qırıq-qırıq dedi:

- Hə… düzdü… Əynində paltar tərləyəndə, bütün bədənin qum səpkisi ilə örtülür…

- Qum səpkisiylə?

- Aha… Dəri qızarır… yanıqdan sonra olan kimi olur, suluq bağlayır.

- Hm, suluq bağlayır?.. Məncə, dəri sadəcə rütubətdən çürüyür.

- Ola bilsin, buna görədi… - Görünür qadın bir qədər ürəklənmişdi, danışqan olmuşdu. – Tərləməyə başlayan kimi, əynimizdə nə varsa, çıxarmağa çalışırıq, nə mümkündürsə… Görürsünüz də necə yaşayırıq, - kiminsə gözünə belə görünməkdən heç çəkinməyin…

- Əlbəttə… Bilirsiz, düzdü yaxşı çıxmır, amma istərdim ki, köynəyimi yumağınızı sizdən xahiş edim.

- Yaxşı. Sabah su gətirməlidirlər.

- Sabah?.. Sabah yəqin ki, gec olar… - Kişi mızıldadı. O, söhbətin məğzini ustalıqla lazımi istiqamətə yönəldə bilmişdi. – Yeri gəlmişkən, axır ki, nə vaxt məni yuxarı qaldıracaqlar?..

Bütün bunlar məni son dərəcə narahat edir… Mənim kimi adi qulluqçu üçün müəyyən edilmiş qaydaların hətta yarım günlük pozulması, çox ağır nəticələrə səbəb ola bilər… Mən heç bircə dəqiqə də itirmək istəmirəm… Sərtqanadlılar – yerin üstü ilə uçan həşəratlardır… Qumluqlarda lap çoxdurlar, onların necə olduğunu siz bilirsiz?.. Mənim istəyim də budur ki, budəfəki məzuniyyətim dövründə bu həşəratın heç olmasa bir yeni növünü tapım…

Qadın dodaqlarını yüngülcə tərpətdi, amma heç nə demədi. Görünür, o, öz-özünə ona naməlum olan «sərtqanadlılar» sözünü təkrar edirdi. Lakin kişi, onun yenidən qaradinməz olduğunu yanılmadan hiss edirdi. Və, elə bil, təsadüfən mövzunu dəyişdi.

- Doğrudanmı kəndin başqa sakinləri ilə əlaqə saxlamaq üçün əlinizin altında heç bir vasitə yoxdur? Əgər məsələn, kerosin bidonlarını bir - birinə vursaq, nə olar?

Qadın cavab vermirdi. O, suya atılmış daş sürətilə yenidən xilasedici susqunluğuna enirdi.

- Nə baş verir, hə? Niyə susursunuz? – O, az qaldı ki, özündən çıxsın və qışqırmaqdan özünü güclə saxladı. – Başa düşmürəm, nə baş verir… Əgər bir xəta baş veribsə, bunu səhv hesab edək – və hər şey qaydasındadır… Olan olub, keçən keçib, bir də məsələnin üstünə qayıtmağa hazırlaşmıram. Buna görə də, sizin susmağınız xeyir gətirmir. Yaxşı. Bax, sizin kimi məktəblilər də var, lakin mən həmişə onlara deyirəm: nə qədər özünüzü bütün günahları boynunuza götürürmüş kimi aparsaz, həqiqətdə bu, ən qorxaq davranış tərzidir… Əgər siz öz hərəkətinizə haqq qazandıra bilirsinizsə, onda nəyi gözləyirsiniz, düzünü deyin!

- Məncə… - Qadın üzünü yana tutdu, lakin səsi gözlənilmədən sərt çıxdı. – Siz özünüz başa düşmüsünüz?

- Başa düşmüsünüz? – O, hətta sarsıldığını gizlətməyə cəhd belə etmədi.

- Hə, mən fikirləşirdim ki, siz hər şeyi başa düşmüsünüz…

- Mən heç nə başa düşməmişəm! – Axır ki, kişi dözməyib qışqırdı: - Əgər mənə heç nə demirlərsə, mən necə hər şeyi başa düşə bilərəm?
- Axı, düzünə qalsa, həqiqətən də belə şəraitdə yaşamaq tək qadın üçün çox ağırdır…
- Axı bütün bunların mənə nə aidiyyəti var?
- Hə, yəqin, mən sizin qarşınızda günahkaram…
- «Günahkaram»ı necə başa düşək?.. – Onun həyəcandan dili dolaşdı. – Belə çıxır ki, burda mənim üçün iş qurublar?.. Tələyə yem qoyublar… Fikirləşiblər ki, it, ya da pişik kimi tələyə düşəcəm, təki tələdə yem əvəzinə qadın olsun…
- Düzdü, amma axı tezliklə şimal küləkləri və qum burulğanları başlayacaq – biz onlardan çox qorxuruq… - qadın gözucu taybatay açılı qapıya baxdı. Onun yeknəsəq, sakit səsində dediklərinə küt bir inam hiss edilirdi.
- Bu zarafat deyil! Hətta cəfəngiyyatın da bir sərhədi olar! Bu, qanunsuz saxlamadan başqa bir şey deyil… Əsl cinayətdir… Elə bil güc işlətməsəydiz olmazdı: məsələn, işsizləri günəmuzd ödənclə işə dəvət edə bilərdiz, onlar nə qədər istəsənizdir!
- Əgər orda bizim necə yaşadığımızı bilsələr, yaxşı olmaz…
- Bəs əgər mən bilsəm, onda necə yaxşı olar?.. Boş söhbətdir!.. Siz sadəcə yanılırsız! Çox təəssüf, amma mən avara deyiləm! Mən vergi də verirəm, daimi yaşayış yerim də var… Tezliklə axtarış haqqında ərizə də veriləcək, onda burdakıların hamısı cavab verməli olacaq! Necə yəni, aydın deyil? Çox sadə bir şeyi başa düşmürsünüz… Maraqlıdır, özünüzə necə haqq qazandıracaqsınız… Haydı, günahkarı bəri gətir… Mən ona necə axmaq iş tutduğunu yax – şı – ca – na başa salaram!

Qadın başını aşağı əyib, yüngülcə ah çəkdi. Onun çiyinləri sallandı, lakin tərpənmədi. Elə bil ki, yerinəyetirilməz tapşırıq almış bədbəxt küçük idi. Bu, kişini daha da qızışdırdı.

- Nə tərəddüd edirsən, heç cür qərar verə bilmirsən?.. Məsələ təkcə məndə deyil. Belə çıxır ki, sən özün də mənim kimi qurbansan? Hə, belə deyil? Elə bu dəqiqə özün dedin ki, əgər orda bizim necə yaşadığımızı bilsələr, yaxşı olmaz… Məgər bu sübut deyilmi ki, özün boynuna alırsan: belə yaşamaq olmaz. Mərhəmətli sifət eləməyi də yığışdır – axı səninlə qul kimi rəftar edirlər! Heç kəsin ixtiyarı yox idi ki, səni bura salsın!.. Hə, tez elə, kimisə səslə! Biz buradan çıxacağıq!.. Aha, başa düşürəm… Qorxursan, hə?.. Boş şeydi!.. Nədən qorxursan?.. Axı mən səninləyəm!.. Mənim qəzetdə işləyən tanışlarım var… Biz burda baş verənləri sosial problem kimi təqdim edərik… Hə, nə oldu?.. Niyə susursan?.. Mən sənə deyirəm, heç nədən qorxma!

Az sonra qadın onu sakitləşdirirmiş kimi birdən dedi:

- Nahar hazırlayım?..

## 10

Kişi oğrun-oğrun, gözünün ucuyla qadının necə kartof təmizlədiyini müşahidə edərək, əzabla düşünürdü: onun hazırladığı yeməyi qəbul etsinmi?

İndi elə bir vəziyyət yaranıb ki, rahatlıq və soyuqqanlılıq tələb olunur… Qadının niyyəti aydındır və bütün tərəddudləri kənara atıb, boş-boş ümidlərlə özünü sakitləşdirməməlidir, əksinə, faktların gözünün içinə dik baxmaq və burdan can

qurtarmaq üçün real plan hazırlamaq lazımdır… Qanunsuz hərəkətlərə görə günahlandırmanı sonraya saxlamaq gərəkdir… Aclıq isə ancaq və ancaq iradəni sındırmağa işləyir… gücünü toplamağa mane olur. Lakin, digər tərəfdən o, hazırkı vəziyyəti qəti rədd edirsə, görünür, qidadan imtina etməlidir. Həm narazı olmaq, həm də yeməyi qəbul etmək sadəcə gülməli olardı. Hətta itin özü ona yal verəndə quyruğunu qısır.

Amma gəlin tələsməyək… Qadının nə qədər dərinə gedəcəyi hələ məlum olmadığı bir şəraitdə, belə kəskin müdafiə mövqeyi tutmaq hələ tezdir….Ondan nəyisə müftə qəbul etmək, hər hansı iltifat haqqında söhbət belə gedə bilməz… Nə yesəm, pulunu qəpiyinəcən ödəməliyəm… Və əgər pulu ödəyibsə, heç nəyə görə özünü borclu bilməz, bir qram da … Hətta televiziyadakı boks şərhçisi də həmişə deyirdi ki, hücum, - müdafiənin ən yaxşı üsuludur.

Beləliklə, o, yeməkdən imtina etməmək üçün əla bəhanə tapıb, rahatlıqla nəfəs aldı. Birdən elə bil ki, gözləri açıldı, daim ondan qaçan fikir kələfinin ucundan tutdu. Məgər onun əsas düşməni qum deyil? Əgər qumdursa, onda boş yerə ağlasığmaz, həlli müşkül olan, - tutaq ki, məsələn, polad qapıları və yaxud bu kimi maneələri yarıb keçmək haqqında qarşıya tapşırıqlar qoymaq lazım deyil. Madam ki, kəndir nərdivanı yığışdırıblar, taxta nərdivan düzəltmək olar. Madam ki, qum divar həddən artıq şaqulidir, onu qazıb, düzəltmək olar… Əgər bir balaca beynini işlətsən, hər şey qaydasına düşər… Ola bilsin, bu yol çox sadə yoldur, amma əgər bu üsulla məqsədə çatmaq mümkünsə, onda nə qədər sadə olsa, bir o qədər yaxşıdır. Məsələnin ən düzgün həlli adətən, çox sadə olur. Təki çətinliklərdən qorxmayasan… təki əsl mübarizə aparasan… onda heç nə itirməmisən.

Qadın kartofu təmizləyib qurtardı, doğradı və köküqarışıq xırda-xırda doğranmış ağ turpla birgə ocağın üstündə asılmış böyük dəmir qazana saldı. O, polietilen kisədən səliqəylə kibrit çıxarıb od qaladı, kibriti gizlətdi və kisənin ağzını rezinlə yığdı. Sonra isə aşsüzənə düyü töküb, su ilə yudu.

Yəqin düyünün qumunu yuyurdu. Aş qazanda qaynamağa başladı, ağ turpun xoşagəlməz iyi yayıldı.

- Düzü, su az qalıb, amma, bəlkə siz üzünüzü də yuyasınız?

- Yox əşşi, üzümü yumaqdansa, içsəm yaxşıdır…

- Oy, bağışlayın… İçməli su başqa yerdədir – qadın əl-üzyuyanın altından polietilenə bükülmüş qazança çıxartdı, - su çox soyuq deyil, amma əvəzində qaynanmışdır, içmək üçün yararlı olsun deyə.

- Axı bakda az da olsa su qalmasa, qabları nəylə yuyacaqsınız?

- Yox, mən qabları qumla sürtürəm, tərtəmiz olur.

Bu sözləri deyib, qadın pəncərənin ağzından bir ovuc qum götürdü, əlində tutduğu qabın içinə atıb, qumu fırladaraq bir neçə dairəvi hərəkət etdi və qabı ona göstərdi. O, düz-əməlli ayıra bilmədi ki, qab təmizləndi, ya yox, amma fikirləşdi ki, yəqin təmizlənib. Hər halda, qumdan belə işlərdə istifadə onun qum haqqındakı təsəvvürlərinə tam uyğun gəlirdi.

Yenə də çətirin altında yeyirdi. Qaynadılmış tərəvəz və qurudulmuş balıq… Təam az da olsa qumlu idi. Əgər çətir tavandan asılsaydı, onlar bir yerdə də yeyə bilərdilər - deyə fikirləşdi, lakin qadının bunu yaxınlaşmağa cəhd kimi başa düşəcəyindən qorxdu. Yalnız görkəmindən tündlük yağan aşağı növ çay, demək olar ki, dadsız idi.

O, yeyib qurtarandan sonra qadın əl-üzyuyan tərəfdə oturdu və başına bir parça polietilen örtüb, yavaş-yavaş yeməyə başladı. İndi bu qadın hansısa həşərata oxşayır - fikirləşdi. Doğrudanmı bu qadın ömrünün axırına kimi belə həyat sürməyə hazırlaşır?.. Yuxarıda olanlar üçün bura yalnız böyük torpağın kiçik bir parçasıdır, lakin dərənin dibindən heç nə görünmür – ancaq ucu-bucağı olmayan qum və səma… Şəkil kimi həmişəlik gözlərdə donmuş yeknəsəq həyat… Və bu həyatı, hətta heç nə xatırlaya bilməyəcək bir qadın sürür, - o, ömrü boyu heç kimdən nəvazişli söz eşitməyib. Yəqin məni tələyə salıb, xüsusi bir hədiyyə kimi ona verəndə qız kimi ürəyi bərk-bərk döyünüb… Mənim ona yazığım gəlir…

Onun ürəyindən qadına nəsə demək keçdi və söhbəti birtəhər başlamaq üçün siqaret çəkməyi düşündü. Doğrudan da, burda gündəlik istifadə üçün lazım olan predmet – polietilensiz keçinmək olmaz. Alışdırdığı kibriti siqaretinin qabağında nə qədər tutdusa da, siqaret yanmadı.

O, siqareti var gücü ilə elə sorurdu ki, yanaqları dişlərinə yapışmışdı, lakin nə qədər çalışsa da, ancaq tüstünün tamini hiss etdi. Yağ-nikotinli tüstü, yalnız dilini qıcıqlandırır, siqaret çəkməyi heç cür əvəz etmirdi. Əhvalı korlandı, söhbət alınmırdı, üstəlik özü də qadınla söhbət etməkdən vaz keçdi.

Qadın bulaşıq qabları yığıb, torpaq döşəməyə düzdü, tələsmədən onların üstünə qum tökməyə başladı. Göz görəsi çətinlik və tərəddüdlə dedi:

- Bilirsiz… Çardaqdan qumu kürəyib atmaq vaxtıdır…

- Qumu kürəyib, atmaq? Hə - ə, nə olar, buyurun…- « Bunun mənə nə dəxli var? – kişi etinasızcasına düşündü, – qoy tirlər çürüsün, qoy lap dirəklər uçsun – mənim nə işimə?»

- Əgər mən sizə mane oluramsa, bəlkə, harasa gedim?

- Üzr istəyirəm, buyurun, amma…

Xeyri yoxdur, hiyləgərlik etmək lazım deyil! Özünü elə göstərir ki, guya heç nə olmayıb! İçi isə soğan yemiş kimi göynəyir… Lakin qadın adətkarda olduğu görünən hərəkətlərlə, çox cəld sifətinin aşağı hissəsini ikiqat qatlanmış dəsmalla sarıdı, süpürgəni və taxta parçasını qoltuğuna vurub, bircə qapağı qalmış divar şkafının yuxarı rəfinə dırmaşdı.

- Düzünə qalsa, əgər mənim fikrimi bilmək istəyirsinizsə, - belə ev elə uçsa yaxşıdır!..

Bu sözləri püskürən gözlənilməz hirsdən özü də çaşdı, qadın isə ona tərəf heç də az olmayan çaşqınlıqla döndü. Buna bax, deyəsən hələ bütünlüklə həşərata çevrilməyib…

- Yox, siz elə fikirləşməyin ki, mən ancaq sizə acıqlanıram. Burda siz hamınız belə fikirləşirsiniz ki, bir adamı zəncirləmisiniz. Mənimsə münaqişələri görməyə gözüm yoxdur. Aydındır? Hətta aydın deyilsə belə, mənim üçün fərqi yoxdur. İstəyirsiz, sizə maraqlı bir hadisə danışım… Bu, çoxdan olub. Kirayə qaldığım evdə heç nəyə yaramayan bir it saxlayırdım, həyət iti… Maraq doğuracaq qədər sıx olan tüklərini hətta yayda belə tökmürdü… Elə kədərli görkəmi vardı ki, onu qırxmağa qərar verdim… Və beləliklə, iti qırxıb qurtarıb, qırxılmış tüklərini atmağa hazırlaşırdım ki, it, düzü bilmirəm ağlına nə gəldi, birdən ulayıb, dişlərilə bu tük yığınını qamarlayıb, öz yerinə qaçdı… Ola bilsin o, qırxılıb yerə tökülmüş tükünü öz bədəninin bir hissəsi bilib və onu itirəcəyinə heyfsilənib. Oğrun-oğrun qadına baxdı: görəsən qadın bu sözləri necə qarşılayacaq? Lakin qadın şkaf rəfinin üstünə qeyri-

təbii əyilərək, necə dayanmışdısa, elə həmin pozada da qalmışdı və hətta ona tərəf dönmək üçün cəhd belə etmədi. – Lap yaxşı… Hər kəs özü bildiyi kimi mühakimə yürüdür… Ya qum qazmaq olsun, ya da tamam başqa bir şey – buyurun, necə istəyirsinizsə, elə də edin. Lakin mənim qətiyyən, bütün bunlara dözmək fikrim yoxdur. Yetər! Eybi yox, bir az da keçsin – mənim burda izim-tozum da qalmaz!.. Məni hədər yerə qiymətləndirmirsiniz… Əgər istəsəm, burdan qaçaram, heç bir problemsiz… Hə, elə siqaretim də indicə qurtardı…

- Siqaret. – Onun sadəliyi ilə səfehliyini ayırmaq olmurdu. – Bu bir qədər gec olacaq, suyu gətirəndə…

- Siqaret?.. Siqaretlər də?.. – Kişi özünə də qəribə gələn şəkildə çımxırdı. – Məsələ bunda deyil… Qırxılmış tüklərdədir, qırxılmış tüklərdə… Yəni doğrudan başa düşmürsünüz? Deməyim odur ki, qırxılmış tükdən ötrü işdən iş çıxarmaq lazım deyil.

Qadın susurdu və onun özünə haqq qazandırmaq üçün nəsə deyəcəyinə inanmaq olmurdu. O, bir qədər də gözlədi və kişinin danışıb qurtardığına əmin olandan sonra, soyuqqanlıqla yenidən onu bir qədər əvvəl ayırdıqları işə girişdi. Qadın şkafın üstünə yaxın, tavandakı lyukun qapağını kənara çəkib, qurşağadək ora girdi və dirsəkləri ilə özünə dayaq verərək, ayaqlarını naqolay şəkildə oynada-oynada yuxarı dırmaşmağa başladı. Ordan-burdan nazik tük kimi qum tökülməyə başladı. Kişi çardağda çox güman ki, qeyri-adi bir həşəratın yaşadığını fikirləşdi… Qum və çürümüş taxta… Amma yox, bəsdir, qeyri-adi olanlar həddindən artıqdır!

Sonra isə tavandan – gah ordan, gah da burdan – aşağıya doğru çoxlu qum çayı axmağa başladı.

Qəribə idi ki, bu bol qum şəlaləsi çox səssiz tökülürdü. Bir göz qırpımında döşəməni örtən saman döşəklərin üstündə taxta tavanın bütün çatları, dəlmə – deşikləri ilə birlikdə barelyef kimi şəkli qaldı. Qum burnuna dolur, gözlərini yandırırdı. Kişi tələsik özünü bayıra atdı. İlk əvvəl elə təəssürat yarandı ki, tonqalın içinə düşüb və artıq pəncələri əriməyə başlayıb. Lakin hardasa içində hətta belə istiyə də can verməyən silindrik buz parçası vardı. İçində xəcalət hissi qımıldandı. Bu qadın heyvan kimidir… Onun üçün dünən yoxdur, sabah yoxdur – bu günlə aşayır… Qrifel lövhəsindən təbaşiri silən kimi, adamı da tərtəmiz silmək olar əminliyinin ağalıq etdiyi dünya. Adamın yuxusuna da girməzdi ki, bizim günlərdə hardasa belə vəhşilik yuvası hələ də qalıb.

Yaxşı… Əgər bunu, keçirdiyi sarsıntıdan sonra özünə gəlməsi kimi başa düşsək və hesab etsək ki, rahatlığı qayıdır, onda bu xəcalət hissi heç də pis deyil.

Amma boş yerə vaxt itirməyə dəyməz. Axşamadək bu işləri yekunlaşdırsa, pis olmaz. Gözlərini qıyıb, üzündə elə bil nazik pərdə olan ərimiş şüşəni xatırladan dalğalı qum divarının hündürlüyünü gözəyarı ölçdü. O, bu divara nə qədər çox baxırdısa, divar da elə bil ki, bir o qədər hündürləşirdi. Əlbəttə, təbiətin əksinə getmək və maili yamacı sıldırım etməyə səy göstərmək çətindir, lakin axı o, sıldırım yamacı maili etmək istəyir, vəssalam. Geri çəkilməyə elə də əsas yoxdur.

Ən yaxşısı yuxarıdan başlamaqdır. Lakin, bu mümkün olmadığından, aşağıdan qazmaqdan başqa çarə qalmır. Əvvəlcə o, aşağıdan nə qədər lazımdırsa qazar və yuxarıdan qumun uçmağını gözləyər, sonra yenidən aşağıdan qazar, sonra yenə yuxarıdan qum uçar… Bunu bir neçə dəfə təkrar etdikdən sonra, o, hər dəfə az da olsa hündürə qalxar və son nəticədə yuxarı çatar. Əlbəttə, onu uçqunlar gözləyir və qum

axınları onu götürüb, aşağı ata bilər. Lakin bunu nə qədər axın adlandırsalar da, hər halda qum su deyil. Kiminsə qumda boğulduğunu hələ eşitməyib.

Bel bidonlarla birlikdə evin çöl divarının yanındaydı. İtilənmiş yarımdairəvi ağzı çini parçası tək parıldayırdı.

Bir müddət bütünlüklə işinə aludə olaraq dayanmadan qazdı. Qum axı çox yumşaqdır və iş çox qabağa gedirdi. Belin qumu gəmirən hər zərbəsi, onun hər dəfə köks ötürməsi vaxtı sayırdı.

Lakin tezliklə qolları yorulduğunu daha tez - tez xatırlatmağa başladı. Ona elə gəlirdi ki, çoxdan qazır, amma nəticə nədənsə özünü göstərmirdi. Yalnız qazdığı yerin düz üstündə çox da iri olmayan yaprıxmış qum tikələri uçurdu. Bütün bunlar onun beynində cızdığı çox sadə həndəsi sxemlərdən köklü fərqlənirdi.

Həyəcanlanmaq hələ tez idi, dincəlməyə və dərənin modelini düzəldib, hesablamalarını yoxlamağa qərar verdi. Xoşbəxtlikdən, material nə qədər istəsəndir. O, evin üstündəki çıxıntının altında, kölgədə yer seçdi və əlli santimetr dərinliyində çala qazmağa başladı. Lakin nədənsə, dərənin divarlarını lazımi bucaq altında düzəltmək olmurdu. Ən çox – qırx beş dərəcə… Yuxarıya qalxdıqca enlənən həvəngdəstə kimi.

O, dərənin dibini qazmağa cəhd edəndə divarlarından qum səpələnməyə başlayırdı, lakin yamacı dəyişməz qalırdı. Elə bil, qumun dəyişməz bucağı mövcud idi. Görünür qum dənəciklərinin çəkisi ilə müqaviməti proporsionaldır. Və əgər belədirsə, deməli, aşmaq istədiyi bu divar da həmin mailik dərəcəsinə malikdir.

Yox, ola bilməz… Bu ancaq göz yanlışı ola bilər, amma yox, belə olmur axı… Aşağıdan hansı yamaca baxırsansa bax, o, həqiqətdə olduğundan sıldırımlı görünür.

Bəlkə, bütün bunları kəmiyyət məsələsi kimi araşdırmaq lazımdır?.. Əgər kəmiyyət fərqi varsa, təbiidir ki, təzyiq fərqi də var. Əgər təzyiq fərqi varsa, onda çəki və müqavimətin proporsiyasının dəyişilməsi də qaçılmazdır. Mümkündür ki, burada qumun quruluşu da əhəmiyyət kəsb edir.

Məsələn, götürək elə qırmızı gilin özünü. Təbii halda olan qırmızı gil və hasilatdan sonrakı qırmızı gil təzyiqə müxtəlif müqavimət həcminə malikdirlər. Üstəlik nəmliyi də nəzərə almaq lazımdır… Beləliklə, bu model tamamilə başqa qanunlara tabe ola bilər, nəinki təbii dərənin özü.

Lakin buna baxmayaraq, təcrübə səmərəsiz ötüşmədi. O, anladı ki, divar yamacının bucağı qeyriadi sabitdir, - təkcə bu bilginin özü nəyə desən dəyərdi. Və ümumiyyətlə, qeyri – adi sabitliyi adi sabitliyə çevirmək çox da çətin məsələ deyil.

Həddən artıq doymuş məhlulu bir balaca çalxalamaq kifayətdir ki, kristallar yığılsın və o,adi doymuş məhlula çevrilsin.

Birdən kiminsə yanında dayandığını hiss edib, arxaya döndü. Qadın qapının yanında dayanmışdı və diqqətlə ona baxırdı. O, qadının nə vaxt çölə çıxdığını eşitməmişdi belə. Cinayət başında tutulubmuş kimi, özünü itirib, çaşqın-çaşqın baxa-baxa geri çəkildi. Məhz elə bu an da o, arxa tərəfdə, qum yarğanının şərq tərəfdəki kənarında üç nəfərin aşağı baxan başını gördü. Onlar kənarı sifətlərinin aşağı hissəsini örtən yaylıqlara bürünmüşdülər və buna görə də dünənki qocalar olub-olmadıqlarına əmin deyildi. Deyəsən, elə onlar idi. Kişi bir anlığa çaşdı, lakin elə o an da özünə gəlib, baxanlara əhəmiyyət vermədən işinə davam etməyə qərar verdi. Ona göz qoymaları hətta bir qızışdırdı da.

Tər burnunun ucundan damır, gözlərinə axırdı. Tərini silməyə də vaxtı yox idi və o, gözüyumulu qazmağa davam edirdi. Bir an da olsa, qollarına dinclik verməməlidir. Onlar onun necə cəld işlədiyini görüb, nə qədər küt, alçaq olduqlarını başa düşəcəklər.

Saatına baxdı. Şüşəsindəki qumu şalvarına sildi. Hələ cəmi üçə on dəqiqə işləmişdi. Bir qədər əvvəl, axırıncı dəfə saatına baxanda olduğu kimi, hələ də üçə on dəqiqə işləmişdi. Onun öz cəldliyinə olan inamı o dəqiqə itdi. Əgər ilbizin gözü ilə baxsaq, yəqin ki, günəş beysbol topu sürətilə hərəkət edir. O, beli qapıb, yenidən qum divarın üstünə döşəndi.

Qəfildən qum uçqunu qopub, aşağı yönəldi. Küt səs eşidildi, elə bil yerə rezin düşdü və nəsə ağır bir şey sinəsinə endi. Nə baş verdiyini anlamaq üçün başını qaldırıb, yuxarı baxdı, lakin heç cür yuxarının harda olduğunu müəyyənləşdirə bilmədi. O, ikiqat olub öz qusuntusunda uzanmış, ətrafa isə nəsə başqa cür - sönük, süd kimi rəng yayılmışdı.

## İkinci hissə

### 11

Dzyab, dzyab, dzyab, dzyab.
Bu nə cingiltidir?
Zınqırov cingiltisi.
Dzyab, dzyab, dzyab, dzyab.
Bu nə səsdir?
İblisin səsi.

Qadın xəfif səslə nəsə zümzümə edirdi. O, su bakının dibindəki çöküntünü yığa-yığa, yorulmadan eyni ibarəni təkrar edirdi.

Nəğmə kəsildi. Sonra isə qadının düyünü necə əzməsi eşidildi. Kişi yüngülcə ah çəkir, yerində qurcalanır və hövsələsizliklə gərilib, gözləyir… indi yəqin onun bədənini silmək üçün qadın bir ləyən su ilə içəri girəcək. Qum və tərdən dərisi elə qıcıqlanıb ki, indilərdə iltihablanacaq. Təkcə soyuq nəm əski haqda fikirdən artıq bütün bədəni sıxılır.

Qum onu əzəndən və huşunu itirəndən bəri yataqdadır. İlk iki gün onu bərk – demək olar ki, otuz doqquza yaxın qızdırma və qarşısıalınmaz ögümə üzdü. Sonra temperaturu düşdü, iştahası qayıtmağa başladı. Görünür, o, qum uçqununun vurduğu zərbədən çox, yandırıcı gün şüalarının altında adət etmədiyi uzunmüddətli işdən xəstələnib. Nə isə, ciddi bir şey yoxdur.

Ola bilsin elə bu səbəbdən də çox tez sağalırdı. Xəstəliyinin dördüncü günü ayaqlarındakı, belindəki ağrılar demək olar ki, keçdi. Beşinci gün isə, bir qədər zəifliyini nəzərə almasaq, xəstəliyinin heç bir əlamətini hiss etmədi. Lakin yataqdan qalxmır, özünü ağır xəstə kimi göstərməkdə davam edirdi. Əlbəttə, bunun üçün səbəb vardı. O, qaçmaq haqda fikirlərdən heç də əl çəkməmişdi.

- Siz artıq oyanmısınız?

Qadının səsi ürkək çıxdı. O, altdan-altdan qadının şalvardan bilinən dizlərinin yumrularına baxdı və anlaşılmaz iniltiylə cavab verdi. Qadın aramla dəsmalı əzik mis ləyənin üstündə sıxıb, soruşdu:

- Özünüzü necə hiss edirsiniz?

- Belə də…

- Kürəyinizi sürtüm?..

O, itaətkarlıqla özünü qadının əllərinə təslim etdi, təkcə xəstə olduğuna görə yox, həm də ona görə ki, bu, ona xoş gəlirdi. Qızdırma xəstəliyinə tutulmuş bir oğlan haqqında oxuduğu şer yadına düşdü. Şerdəki oğlan yuxusunda onu sərin gümüşü kağıza bükdüklərini görmüşdü. Tər və qum qatı altında boğulan dəri yavaş-yavaş soyuyur, nəfəs almağa başlayırdı. Qadın bədəninin ətri dirilmiş dərisindən daxilinə keçir, onu yüngülcə həyəcanlandırırdı.

Amma nə olursa olsun, o, qadını heç cür bağışlaya bilmirdi. O – bir şeydir, bu – başqa şey, ayrıayrı şeylərdir və onları qarışdırmağa dəyməz. Üç günlük məzuniyyət çoxdan bitib. İndi tələsməyə dəyməz. Onun qum divarının altını qazıb, maili etmək haqda ilk planı nəinki pozuldu, həm də kifayət qədər yaxşı hazırlanmamışdı. Əgər qabaqcadan nəzərdə tutulmayan hadisələr mane olmasaydı – elə götürək gün vurmasını, - hər şey yaxşı alınardı. Düzdü, qum qazmağın onun gözlədiyindən qat - qat çətin bir iş olduğu üzə çıxdı, sən demə bu, cəhənnəm əzabıymış və indi hər şey onun özü üçün daha məqbul bir üsul tapıb, tapmayacağından asılıdır. Elə bu an da onun ağlına özünü yalandan xəstəliyə vurmaq gəldi.

Özünə gəlib, hələ də orda – qadının evində uzandığını görəndə dəhşətli dərəcədə hirsləndi.

Kənddən olan bu tiplər heç bu işdə iştirak etmək belə istəmirlər. Bu, ona gün kimi aydın oldu və o dəqiqə həll yolu tapdı. Onun xəstəliyinin qorxulu olmadığını başa düşüb, həkim çağırmamışdılar. İndi isə, o, bundan istifadə edib, üstəlik onları tövbə etməyə məcbur edəcək.

Gecə, qadın işləyəndə o, yatacaq. Əvəzində, gündüz, yəni qadın istirahət edəndə, ona mane olacaq, dözülməz ağrılardan şikayətlənib, onu yatmağa qoymayacaq.

- Ağrıyır?

- Əlbəttə, ağrıyır… Yəqin onurğa sütunum hardansa zədələnib…

- Bəlkə ovxalayaq?

- Qətiyyən! Məgər bunu mütəxəssis olmayan bir adama etibar etmək olar? Adam bir anda zədələnər. Axı onurğa beyni həyat kanalıdır. Birdən öldüm? Axı sizin hamınız üçün pis olacaq.

Həkim çağırın, həkim! Ağrıdır… Dözmək olmur… Əgər tələsməsəz, gec olacaq!

Qadın buna çox dözə bilməyəcək və gücdən düşəcək. Onun işgüzarlıq qabiliyyəti zəifləyəcək və ev uçmaq təhlükəsi qarşısında qalacaq. Bu isə, kəndin özü üçün də kiçik problem deyil. Öz axmaqlıqlarından, əlavə fəhlə qüvvəsi cəlb etmək əvəzinə, boyunlarına artıq yük götürüblər. Və əgər elə bu dəqiqə ondan can qurtarmasalar, sonra gec olacaq.

Lakin bu plan da onun düşündüyündən fərqli olaraq, yağ kimi getmirdi. Burda gecə gündüzdən qat - qat gediş - gəlişlidir. Divarın o tərəfindən belin cınqıltısı… qadının ağır-ağır nəfəs alması… qum dolu səbətləri dartan kişilərin qışqırtı və nırçıltısı eşidilirdi… Üstəlik külək də uzaqdan yük maşınının səsini, itlərin

hürüşməsini gətirir… Nə qədər istəsə də yata bilmirdi – əsəbləri həddən artıq gərilmişdi və gözlərinə yuxu girmirdi.

Gecə pis yatdı və buna görə də gözünün acısını gündüz almalı oldu. Ən pisi də o idi ki, getdikcə daha çox səbirsiz olurdu: özünü inandırmağa çalışırdı ki, hətta bu plan da uğursuzluğa düçar olsa, nə yolla olursa olsun, qaçmaq üçün nə qədər istəsən üsul tapmaq olar. Həmin gündən artıq bir həftə keçmişdi. Axtarış üçün ərizə vermək vaxtı gəlib çatmışdı. Birinci üç gün onun qanuni məzuniyyəti idi. Sonrası isə – xəbərdarlıq etmədən yerində olmama. Hətta çox vaxt heç bir səbəb olmadan yoldaşlarının nə etdiyini qısqanclıqla izləyən iş yoldaşları çətin ki, bu faktın üstündən sükutla keçsinlər. Çox güman ki, bu günlərdə xeyirxahlardan biri onun evinə baş çəkib. Bürkülü, günortadan sonrakı gündən qızmış otaqda viranəlik hökm sürür – aydındır ki, yiyəsizlikdir.

Qonaq çox güman ki, bu dəlikdən can qurtarmış xoşbəxtə instiktiv olaraq paxıllıq da edir. Səhəri gün isə – xoşagəlməz qaşqabaqla və ikimənalı cestlərlə müşaiyyət olunan təhqiredici qeybət, iyrənc pıçahapıç. Və kifayət qədər məntiqli olaraq… Qəlbinin dərinliklərində hələ onda hiss edirdi ki, bu qeyri-adi məzuniyyət iş yoldaşları arasında məhz belə münasibət doğuracaq. Və təəccüblü də deyil, axı müəllimlər paxıllıqla zəhərlənən özünəməxsus həyat tərzi keçirirlər…

İlbəil onların gözü qarşısından çay suları kimi şagirdlər axır və uzaqlaşırlar, müəllimlər isə daşlar kimi bu axının dibində qalmağa məhkumdurlar. Onlar başqalarına arzular barədə danışa bilirlər, lakin özləri, hətta yuxuda belə heç nəyə ümid bəsləyə bilmirlər. Onlar özlərini dəyərsiz şey hesab edir və mazoxist yalqızlığa düçar olur, ya da purist olur, başqalarına şübhə ilə yanaşır, onları orijinallıq etməkdə günahlandırırlar. Onlar azadlıq üçün elə darıxıblar ki, azadlığa nifrət etməyə bilmirlər.

… Bədbəxt hadisə, yəqin ki?.. Yox, bədbəxt hadisə olsaydı, onda çox güman ki, hər hansı bir yolla xəbər verərdilər… Bəlkə özünəqəsddir?.. Lakin bu barədə heç olmasa, polis bir şey bilərdi!.. Bu ağıldankəm oğlanı həddən artıq şişirtmək olmaz!.. Bəli, bəli o, öz istəyi ilə itkin düşüb və başqasının işinə burun soxmağa dəyməz… Lakin axı bir həftəyə yaxın vaxt keçib… Bu necə adamdır, mütləq gərək camaatı narahat edəydi, indi hardan biləsən, ağlına nə girib…

Çətin ki, ondan ötrü narahatlıqları səmimi olsun. Sadəcə onların tükənməyən hər şeyi bilmək həvəsi vaxtında dərilməyən xurma kimi dəyib. Sonra isə hadisələr bu məcrada inkişaf edir. Baş müəllim axtarış üçün verilən ərizəni necə tərtib etməyi öyrənmək məqsədilə polisə müraciət edir.

Riyakar sifətinin arxasında necə məmnun olduğu görünür… «Adı və soyadı: Niki Dzyümpey.

Yaşı: 31. Boyu: 1 m 58 sm. Çəkisi: 54 kq. Saçları: seyrək, arxaya daranmış, briolindən istifadə etmir. Görmə qabiliyyəti: sağ – 0,8, sol – 1,0. Bir qədər çəpliyi var. Dərisi əsmər. Əlamətləri: sifəti uzunsov. Burnu balaca. Çənəsi dördbucaq, sol qulağının altında xal var, başqa xüsusi əlamətləri yoxdur. Qan qrupu: AB. Xırıltılı səslə danışır, bir qədər də kəkələyir. Diqqətlidir, inadcıl, lakin adamlarla münasibətdə sadədir. Paltarı: çox güman ki, əynində entomoloci işlərdə istifadə olunan paltar var. Yuxarıdakı - öndən çəkilmiş şəkli iki ay əvvəlindir».

Əlbəttə, kənd camaatının belə qətiyyətlə bu mənasız avantüranı davam etdirməyindən görünürdü ki, onlar lazımi ehtiyat tədbirləri görüblər. Bir-iki kənd polisini barmağa dolamaq elə də çətin məsələ deyil. Onlar sözsüz ki, polislərin vacib

bir iş olmasa kəndə ayaq basmamalarının qayğısına qalıblar. Lakin gözdən pərdə asmaq yalnız o, sağ-salamat və qumu qazmağa qadir olanadək məqsədəuyğun və vacibdir. Və artıq bir həftədir yataqda çabalayan ağır xəstəni risk edib gizlətmək axmaqlıqdır. Əgər onlar bu adamın lazımsız olduğu qərarına gəlsələr, ən ağıllısı – nə qədər ki, məsələ mürəkkəbləşməyib, tezliklə ondan can qurtarmaqdır. İndi həqiqətəoxşar bir versiya fikirləşib tapmağa hələ vaxt var. Məsələn. Belə demək olar ki, bu adam özü dərəyə yıxılıb və zərbənin gücündən onda nəsə qarabasmalar başlayıb. Sözsüz ki, bu izah daha tez qəbul ediləcək, nəinki guya bilə-bilə onu dərədə gizlətmələri haqda başdan-ayağa fantastik görünən iddıa.

İnək böyürdü – elə bil boğazına mis boru qoymuşdular. Hardasa xoruz banladı. Qum dərədə nə məsafə var, nə də istiqamət. Ancaq orda, bayırda, - yol qırağında uşaqların sinif-sinif oynadığı, səhərlərin vaxtlı-vaxtında açıldığı adi, normal dünya var və bu səhərin rəngləri bişmiş düyü ətrinə qarışır.

Qadın onun bədənini ciddi-cəhdlə silirdi, hətta deyərdim ki, həddən artıq cidi-cəhdlə. Sürtəndən sonra yaş əskini quruyanədək elə burub sıxırdı ki, o, taxta kimi bərkiyir və artıq qurumuş əskiylə elə sürtürdü ki, elə bil tərli şüşəni parıldadır. Oyanan səhərin səsləri və bu ritmik təkanlar onu yuxuya verirdi.

- Hə, yeri gəlmişkən… - o, içindən elə bil kəlbətinlə çıxarılan əsnəməsini basdı. – Necə deyim…

Artıq çoxdandır ki, qəzet oxumaq istəyirəm. Təşkil etmək olar?

- Yaxşı, mən soruşaram, sonra.

O saat başa düşdü: qadın öz səmimiyyətini göstərmək istəyir. Onun utancaq, ürkək səsində açıqaydın kişinin qəlbini sındırmamağa çalışdığı hiss olunurdu. Lakin bu, onu daha da əsəbiləşdirdi.

Soruşaram?! Deməli, belə çıxır ki, mən icazəsiz qəzet də oxuya bilmərəm?.. Donquldanaraq, qadının əlini kənara itələdi. O, ləyəni içindəkilərlə birlikdə aşırmaq həvəsilə alışıb yanırdı.

Lakin onun vəziyyətində çox da əsib - coşmaq lazım deyil – bu, bütün planları poza bilər. Axı ağır xəst bir adam çətin ki, vecsiz qəzet üstündə narahat olsun. O, əlbəttə ki, qəzetlərə baxmaq istəyirdi. Əgər peyzac yoxdursa, heç olmasa şəklə baxaq – axı rəssamlıq daha çox təbiəti kasıb olan yerlərdə tərəqqi edib, qəzetçilik isə ən çox insanlar arasında əlaqənin zəiflədiyi sənaye rayonlarında. Bu öz yerində, bəlkə birdən orda adam itməsi barədə elana rast gəldi. Hələ bəxti gətirsə, istisna deyil ki, sosial məsələlərə həsr edilmiş səhifənin küncündə onun itməsi barədə məqalə yerləşdiriləcək. Əlbəttə, çətin ki, bu kəndçilər belə məqalə çıxan qəzeti ona versinlər.

Lakin indi ən əsası – səbirdir.

Özünü yalandan xəstəliyə vurmaq elə də asan iş deyil. Bu, elə çıxıb qaçmağa hazır olan kip sıxılmış yayı əlində tutmaq kimi bir şeydir. Belə bir şeyə çox dözə bilməzsən. Lakin bununla barışmaq da olmaz. O, nəyin bahasına olursa olsun, bu tipləri burda qalmasının onlar üçün nə qədər məşəqqətli olduğunu özlərinin başa düşməsinə məcbur etmək istəyirdi. Bax elə bu gün, nəyin bahasına olursa olsun, qadına bir dəqiqəliyə də olsa, göz yummağa macal vermək olmaz!

(Yatma… Yatmaq olmaz!)

Kişi yerində qovrulub, yalandan inildədi.

Qadının asdığı çətirin altında ağzı yana-yana dəniz yosunları əlavə edilmiş tərəvəz və düyüdən hazırlanmış qatı şorbanı içirdi. Qabın dibinə qum çökdü.

Elə burdaca yaddaşı qırılır və hər şey nəsə sonsuz əzici bir qarabasmada əriyib yox olur. Yuxuda o, köhnə, çatlamış yemək çöplərinin üstündə oturub, qəribə, tanımadığı küçələrlə uçurdu. O, bu çöplərin üstündə skuterlə gedirmiş kimi az qala uçurdu və bu, pis də deyildi, lakin azacıq diqqətini yayındıran kimi, o dəqiqə nəsə onu yerə tərəf çəkirdi. Küçə yaxından küçə kərpic rənginə çalırdı, lakin uzaqlaşdıqca yaşıl dumanda əriyirdi. Bu rəng qammasında nəsə narahatlıq doğuran bir şey vardı. Nəhayət o, kazarmaya oxşar uzun taxta binanın yanına uçub gəldi. Ucuz sabun iyi gəlirdi. Belindən düşən şalvarını çəkə-çəkə pilləkənlərlə qalxdı və içərisində uzun bir masa olan boş otağa daxil oldu. Masanın ətrafında hansısa oyuna başı qarışmış on nəfər kişi və qadın oturmuşdu. Ortada, onunla üzbəüz əyləşən adam kart paylayırdı. Paylayandan sonra, birdən axırıncı kartı ona uzatdı və nəsə bərkdən qışqırdı. Kartı qeyri-iradi götürüb, onun kart yox, məktub olduğunu gördü. Əli ilə bu məktubun qəribə şəkildə yumşaq olduğunu hiss etdi və barmaqları ilə onu bir qədər sıxanda, ordan qan fışqırdı. O, qışqırıb oyandı.

Nəsə çirkli bir örtük görməyə mane olurdu. Tərpəndi, quru kağızın xışıltısı eşidildi. Sifəti ikiyə açılmış qəzetlə örtülmüşdü. Lənət şeytana, yenə yuxulamışam!.. Qəzeti kənara atdı. Onunüstündən qum şırnağı axdı. Qumun çoxluğundan az vaxt keçmədiyi məlum idi. Divarın dəlmə – deşiyindən düşən gün şüalarının istiqaməti artıq günorta olduğuna işarə edirdi. Eybi yox, amma bu nə iydir? Təzə mətbəə rəngi iyi?.. Ola bilməz, deyə fikirləşdi və ayın tarixi yazılmış yerə baxdı. On altısı, çərşənbə… Bu ki, bu günkü qəzetdir! İnanmağı gəlmirdi, amma fakt faktlığında qalırdı.

Kişi dibinəcən tərlə islanmış döşəyə dirsəkləri ilə dayaq verib, yerindən qalxdı. O dəqiqə də başında burulğan kimi cürbəcür fikirlər dolaşmağa başladı və o, hərdən yayınsa da, çox çətinliklə əldə edilmiş qəzetə göz gəzdirməyə başladı.

«Yaponiya – amerikan birləşmiş komitəsinin gündəliyinə əlavələr edilmişdir…»

… Görəsən bu qadına qəzeti əldə etmək necə müyəssər olub?.. Bəlkə bu tiplər onun qarşısında bəzi öhdəliklərinin olmasını anlayıblar?.. Bəli, amma indiyə qədər olan vəziyyətə görə, səhər yeməyi bitən kimi ətraf aləmlə hər hansı əlaqə də bitirdi. Şübhəsiz ikisindən biridir: Ya qadın ona məlum olmayan hansısa yolla ətraf aləmlə əlaqə qura bilir, ya da ki, özü buradan çıxıb və qəzet alıb.

«Nəqliyyatdakı boşdayanmalara qarşı tutarlı ölçü!»

Yaxşı… Tutaq ki, qadın burdan çıxıb… Bu, kəndir nərdivansız mümkün deyil. Bilmirəm bu ona necə müyəssər olub, amma bir şey tam aydındır – o, kəndir nərdivandan istifadə edib… Yaxşı, əgər bu belədirsə… - ağlı güllə kimi işləməyə başladı. Ancaq və ancaq qaçmaq haqqında düşünən əsir, - bu ayrı məsələ. Lakin, axı qadın bu kəndin sakinidir və o, bu dərədən istədiyi vaxt çıxmaq imkanının əlindən alınmasına dözə bilməz… nərdivanı götürlmələri, - məni burda saxlamaqdan ötrü müvəqqəti ehtiyyat tədbirindən başqa bir şey deyil… Deməli, onların sayıqlığını zəiflətmək üçün əlimdən gələni etsəm, əvvəl-axır belə bir imkan mənim üçün də düşə bilər.

«Baş soğanında atom radiasiyasına qarşı müalicədə effektli ola biləcək maddə tapılmışdır».

Görünür, özümü yalandan xəstəliyə vurmaq planım gözlənilməz hadisələrlə bir qədər pozulub.

Hələ köhnə kişilər çox düz buyurublar: bəxtin yatıbsa, səbr eylə… Amma nədənsə ürəyi buna heç yatmırdı. Nəsə narahat idi. Bu qorxulu, bir qədər də narahat qəribə yuxunun təsirindən deyildi ki?.. Ona qorxulu – niyə qorxulu olduğunu özü də başa düşmürdü – məktub haqqında fikirlər rahatlıq vermirdi. Görəsən, bu yuxunun mənası nə imiş?

Bu iş deyil ki, – adi bir yuxunu belə ürəyinə salasan. Nə olursa olsun, başladığı işi axıra satdırmalıdır. Qadın yavaşca fısıldayır, adəti üzrə əllərilə dizlərini qucaqlayıb, başdan ayağa təzə yuduğu kimanoya bürünərək, yumağa dönüb, ocağın yanında, döşəmədə yatmışdı. O gündən etibarən bir dəfə də olsun, qadın onun gözünə çılpaq dəyməmişdi, lakin kimanonun altından çox güman ki, heç nə geyinməmişdi.

Kişi cəld sosial məsələlərə həsr edilmiş səhifəyə, daxili həyata aid sütuna göz gəzdirdi. O, əlbəttə ki, nə özünün itməsi barədə yazıya, nə də bir adamın itkin düşməsi haqda elana rast gəlmədi.

Belə də gözləyirdi və buna görə çox da pərişan olmadı. Astaca qalxıb, torpaq döşəmənin üstünə düşdü. Əynində süni ipəkdən tikilmiş ətəyi uzun alt paltarından başqa heç nə yox idi. Belə hamısından yaxşıydı. Qum, rezin qaytanın bədəni sıxdığı yerdə yığılır və elə məhz burda qızartı, qaşınma əmələ gəlirdi. Qapının ağzında dayanıb, yuxarı – qum divara baxır. Gün işığı gözünü qamaşdırdı və ətrafda hər şey sanki sarı alova büründü. Heç kəs yox idi. Əlbəttə ki, nərdivan da.

Təəccüblü heç nə yoxdur. Sadəcə əmin olmaq üçün baxırdı. Nərdivanı bura salladıqlarını göstərən heç bir nişanə yox idi. Düzdü, belə küləkli havada hər hansı bir izin itməsi üçün heç beşcə dəqiqə də keçməz. Üstəlik, lap qapının ağzında qumun üst qatı dayanmadan axır – elə bil qumun dərisini soyurdular.

O, evə qayıtdı və uzandı. Milçək uçurdu. Balaca qəhvəyi drozofil. Yəqin, hardasa nəsə çürüyür.

Baş tərəfdə qoyulmuş polietilenə bükülü qazançadakı su ilə boğazını yaxalayıb, qadını çağırdı:

- Qulaq asın, bəlkə qalxasız…

Qadın diksinib, yerindən dik atıldı. Bir qədər sallanan, lakin hələ bərk, mavi damarcıqları üzə çıxan döşünü çılpaq qoyan kimano sürüşüb düşdü. Qadın tələsik, inamsız hərəkətlərlə kimanonu üstünə çəkdi, onun baxışları çaşqın idi və adama elə gəlirdi ki, tam ayılmayıb.

Kişi tərəddüd edirdi. O, qadınla nərdivan barədə hirsli, eyhamsız danışmalıydımı… Ya bəlkə, yaxşı olar ki, qəzetə görə təşəkkür edib, o dəqiqə də sakit, xeyirxah tonla soruşsun? Əgər o, qadını məhz yuxusuna haram qatmaq üçün oyadıbsa, onda ən düzgünü – aqressiv olmaqdır.

İlişmək üçün səbəb isə nə qədər istəsəndir. Lakin bu, əsas məqsəddən – özünü ağır xəstəliyə vurmaqdan yayındıra bilər. Belə davranış onurğa sutunu zədələnmiş adamın davranışına çox oxşayır demək, düzgün olmazdı. Bu dəqiqə vacibi odur ki, işçi qüvvəsi kimi istifadə üçün onun tam yararsız olduğuna onları inanmağa məcbur etsin və hər vasitə ilə sayıqlıqlarını zəiflətsin; baxın, ürəkləri elə yumşalıb ki, hətta ona qəzet də gətiriblər, indi isə onları müqavimət üçün yararsız etmək lazımdır.

Lakin onun bütün ümidləri bir anda məhv oldu.

- Yox əşşi, mən heç yerə çıxmamışam. Bizim arteldən bir nəfər mənə çoxdan söz verilən, taxta çürüməsinə qarşı vasitə gətirmişdi… Mən elə ondan da xahiş etdim… Bu kənddə cəmi dörd-beş evdə qəzet alırlar… Qəzeti almaq üçün o, məxsusi olaraq şəhərə getməli olub…

Belə təsadüf tam mümkündür. Lakin bu ona dəlalət etmirmi ki, o, qıfılına açar tapılmayan qəfəsdə qıfıllanıb? Hətta əgər yerli camaat belə dustaq həyatıyla barışmağa məcburdursa da, bu qum divarların sıldırımlığı zarafat məsələ deyil. Kişini məyusluq bürüdü, amma özünü ələ ala bildi.

- Demək belə?.. Qulaq asın… Axı siz buranın sahibisiniz, düzdü?.. Yoldan keçən it – pişik deyilsiniz ki… Ola bilməz ki, siz istədiyiniz vaxt burdan çıxa və qayıda bilməyəsiniz! Yoxsa elə iş tutmusuz ki, həmkəndlilərinizin gözünün içinə baxa bilmirsiniz?

Qadının yuxulu gözləri təəccübdən bərəldi.

Gözləri közərmiş kimi qanla doldu, hətta ona elə gəldi ki, otaq işıqlandı.

- Siz nə danışırsınız? Gözlərinizə baxa bilmirəm. Boş söhbətdir!

- Yaxşı, onda sizin belə ağciyər olmağınız yersizdir!

- Hətta mən burdan çıxsam belə, orda mənlik elə bir iş yoxdur…

- Gəzmək olar!

- Gəzmək?

- Hə də, gəzmək… Ora-bura gedərsiz, məgər bu azdır ki?.. Mən deyirəm ki, bax siz, mən bura gələnə kimi istədiyiniz vaxt azadə çıxa bilirdiz?

- Amma axı işsiz-gücsüz ora-bura getmək boş yerə yorulmaq deməkdir…

- Düz sözümdür! Yaxşı fikirləşin. Siz bunu anlamalısınız!.. Axı hətta iti də uzun müddət qəfəsdə bağlı saxlasaz, o dəli olar!

- Əşşi mən də gəzmişəm də! – qadın özünün küt usandırıcı səsilə qışqırdı. – Düz deyirəm, mənə istədiyim qədər gəzməyə imkan verirdilər… Nə qədər ki, bura düşməmişdim… Qucağımda uşaq saatlarla gəzirdim… Hətta bu gəzintilərdən bezmişqdim də…

Kişi bunu gözləmirdi. Nəsə qəribə bir danışıq tərzi idi. Qadın ona belə baxanda cavab verməyə də halı olmur.

Hə, düzdü… on il əvvəl, hər tərəf dağıntı altında olanda, hamının bircə istəyi vardı ki, evdən çölə çıxmasın. Onlar azadlığı bu cür təsəvvür edirdlilər. Lakin indi demək olarmı ki, onlar bu azadlıqdan doyub beziblər?.. Bəlkə, sən bu qumluq diyara da elə xəyali azadlıq dalınca qaçmaqdan usandığından gəlib çıxmısan… Qum… Millimetrin səkkizdə birinin intəhasız hərəkəti. Neqativ plyonkasında astarı üzünə çevrilmiş, heç yana çıxmadan azad həyat sürməkdən bəhs edən bu avtoportret. Axı hətta bütün günü gəzməyə can atan uşaq da azanda ağlamağa başlayır.

Birdən qadın danışıq tərzini tam dəyişdi:

- Özünüzü necə hiss edirsiz ey? Hər şey qaydasındadır?

Nə qoyun kimi gözünü döyürsən! Kişi əsəbləşdi. Sənə zülm edəcəm, ancaq bütün günahların səndə olduğunu boynuna almağa məcbur edəcəm! Təkcə bu fikirdən bütün bədəni ürpəşdi və hətta ona elə gəldi ki, dərisindən qurumuş yapışqanı soyurmuşlar kimi bərk çəkdilər. Elə bil dərisi «zülm» sözüylə bağlı olan assosasiyanı hiss etdi. Birdən qadın fondan çəkilən siluetə çevrildi. İyirmi yaşlı kişini xəyalları ehtirasa gətirir… qırx yaşlını – dəri. Otuz yaşlı kişi üçün ən qorxulusu – qadının siluetə çevrilməsidir… O, qadını özünü qucaqladığı kimi asanca qucaqlaya bilər… Lakin

qadının arxasınca saysız-hesabsız göz baxır… O, yəni qadın sadəcə bu baxışların iplərlə idarə etdiyi marionetdir… Bircə dəfə ağuşuna alsan, artıq sənin özünü bu iplərlə idarə edəcəklər… Onda onurğa sütununun zədələnməsi barədə uydurduğu bu yalan da tezcənə üzə çıxacaq. Məgər o, belə bir yerdə bütün keçmiş həyatının üstündən xətt çəkə bilərmi!

Qadın yandan lap yaxına gəldi. Onun yumru dizləri kişinin buduna dirəndi. Qadının ağzından, burnundan, qulaqlarından, qoltuqlarının altından, bütün bədənindən ətrafa qalıb iylənmiş suyun qatı qoxusu yayıldı. Onun od kimi isti barmaqları bir qədər cəsarətsiz, qətiyyətsiz şəkildə onurğasının üstü ilə yuxarı – aşağı sürüşdü. Kişinin bütün bədəni gərildi.

Birdən barmaqlar onun böyrünə toxundu. Kişi çığırdı:

- Qıdığım gəlir!

Qadın güldü. O, yüngülcə şıltaqlıq edir, bir az da cəsarətsiz idi. Bütün baş verənlər olduqca gözlənilməz idi və o, özünü necə aparmaq lazım olduğunu hələ bilmirdi. Bu qadın nə istəyir?..

Bunları bilə-biləmi edir, ya sadəcə barmaqlarımı sürüşüb?.. Elə indicə bütün gücünü toplayıb oyanmaq üçün gözlərini döymürdümü?.. Lakin axı elə o birinci axşam da, yanından keçərkənböyrünə toxunub, beləcə qəribə bir gülüşlə gülmüşdü… Bəlkə qadın öz hərəkətlərinə nəsə xüsusi bir məna vermək istəyir? Ola da bilsin, qəlbinin dərinliklərində qadın onun xəstəliyinə inanmır və bütün bunları öz şübhələrini yoxlamaq üçün edir… istisna deyil… Yatmaq olmaz. Onun cazibədarlığı – ən adi tələdir, lap elə həşəratlarla qidalanan yırtıcı bitkilərdəki şirin bal ətri kimi.

Əvvəlcə o, kişini zor tətbiq etməyə təhrik edəcək və bununla da qalmaqal salacaq, sonra da onun əl-qolu şantac zənciriylə zəncirlənəcək.

## 13

Kişi tərdən islandı və mum kimi əriməyə başladı. Dərisindəki məsamələr tər saçırdı. Saatı dayanmışdı və o, dəqiq vaxtı bilmirdi. Orda – yuxarıda ola bilsin ki, günün qızğın vaxtı idi.

Lakin iyirmi metrlik dərənin dibində artıq qürub çağıydı.

Hələ ki, qadın bərk yatmışdı. Hərdən diksinib ayaqları və qollarını əsəbiliklə atırdı – yuxusunda nəsə görürdü. İstədi ki, qadının yuxusuna haram qatsın, lakin fikrindən daşındı. Onsuz da qadın artıq yuxudan doymuşdu.

Kişi bədənini küləyə verərək yerindən qalxdı. Görünür, yuxuda çevrilərkən, yaylıq sifətindən sürüşüb düşmüşdü və indi qulaqlarının arxasına, burnunun ətrafına, ağzının kənarlarına o qədər qum yapışmışdı ki, götürüb qaşıyan gərəkdi. Gözünə damcı töküb, onları dəsmalın ucu ilə örtdü.

Bunu yalnız bir neçə dəfə təkrar etdikdən sonra gözünü əməlli-başlı aça bildi. Bir neçə gün də belə keçsə, artıq göz damcıları qurtaracaq. Hətta təkcə buna görə də olsa, tezliklə hər şeyin istənilən sonluqla bitməyini istədi. Bədəni elə ağır idı ki, elə bil dəmir yaraq-əsləhə ilə maqnitin üstünə uzanmışdı. O, var gücü ilə gözünü gərdi, qapıdan düşən sönük işıqda qəzetdəki ieroqliflər ölü milçəklərin donmuş pəncələrinə oxşayırdılar.

Əlbəttə ki, əslində hələ gündüz qadından qəzeti onun üçün oxumasını xahiş etmək lazım idi. Bu, həm də onun yatmağına mane olardı. Bir güllə ilə iki dovşan vura bilərdi. Lakin təəssüf ki, özü qadından əvvəl yuxulamışdı. Nə qədər çalışsa da, hər şeyi korlamışdı.

Və indi yenə də bu dözülməz yuxusuzluq ondan əl çəkməyəcəkdi. O, tənəffüsünün ritmilə yüzdən geriyə doğru saymağa çalışdı. Xəyalən addımbaaddım evdən işə uzanan adət etdiyi yolu getməyə çalışdı. Müəyyən sıra ilə ona məlum olan həşəratların növ və fəsilələr üzrə qruplaşdıraraq adlarını çəkməyə çalışdı. Lakin bütün çalışmalarının əbəs olduğuna əmin olub, daha da hirslənməyə başladı. Dərənin kənarı ilə şütüyən küləyin küt donqultusu… Nəm qumu laylara ayıran bellərin səsi… Uzaqdan gələn it hürüşməsi… Şam alovu kimi əsən, güclə eşidilən səslər… Sumbata kimi sinirlərinin ucunu yonan aramsız səpilən qum… Və o, bütün bunlara dözməlidir.

Eybi yox, bir təhər dözər. Lakin bu an, tərtəzə mavi şüalar dərənin kənarından aşağı sürüşəndə, hər şey əksinə oldu – hopduran kağız suyu özünə çəkən kimi, onun da canına hopan yuxu ilə mübarizəsi başladı.

Və əgər bu məntiqsizlik çevrəsi hardasa qırılmasa, qum dənələri nəinki saatı, nə bilmək olar, bəlkə də zamanın özünü də dayandırarlar.

Qəzetdə elə həmişəki yazılar idi. Burda hətta bir həftəlik əlaqəsizliyin belə hər halda mövcud olmasını göstərən bircə əlamət belə tapmaq olmazdı. Əgər qəzeti ətraf mühitə pəncərə adlandırsaq, onda görünür, şüşələri tutqundur.

«Vergilərlə əlaqədar rüşvətxorluq özəl şirkətlərdən şəhər hakimiyyətinə keçib…» «Universitet şəhərciklərini sənayenin Məkkəsinə çevirək…» «Müəssisələr bir-birinin ardınca işini dayandırır.

Həmkarlar ittifaqı baş şurasının iclası yaxınlaşır; bu barədə nəzər nöqtəsi dərc ediləcək…» «Ana iki uşağını öldürüb və özünü zəhərləyib…» «Tez-tez baş verən avtomobil oğurluğu – yeni həyat tərzi və ya yeni cinayətkarlıq növü…» «Naməlum qız artıq üç ildir ki, polis budkasına gül gətirib qoyur…» «Tokionun olimpiya büdcəsində çətinliklər…» «Bu gün kabus daha iki qızı doğrayıb…» «Tələbələr sağlamlıqlarını narkotiklərlə zəhərləyirlər…» «Səhmlərin məzənnələrinə payız küləyi dəyib…» «Məşhur tenor Blu Cekson Yaponiyaya gəlir…» «Cənubi Afrika ittifaqında yeni təlatüm; 280 öldürülən və yaralanan var» «Pulsuz oğru məktəbi; bu işdə qadınların da əli var; imtahanlardan müvəffəqiyyətlə çıxanlara kamal attestatı verilir».

Bir dənə də olsun oxumadığına peşiman olası yazı yoxdur. Xəyali kərpiclərdən hörülmüş bacaları olan xəyali qüllə. Bununla belə, əgər dünyada ancaq əldən çıxardığına görə heyfsiləndiyin şeylər mövcud olsaydı, gerçəklik toxunmağa belə qorxduğun kövrək, şüşədən hazırlanmış xırdavata çevrilərdi. Lakin həyat – elə həmin qəzet məqalələridir. Buna görə də hər bir kəs bunun mənasızlığını anlasa da, kompasın mərkəzini öz evində yerləşdirir.

Və birdən gözünə qeyri-adi bir məqalə sataşdı.

«Ayın on dördü, təxminən səhər saat səkkiz radələrində, Yekokava küçəsi 30-dakı yaşayış evinin tikinti meydançasında, Xinoxara şirkətində işləyən 28 yaşlı ekskavatorçu Tosiro Sutomu qum uçqunu altında qalıb, ağır bədən xəsarətləri almışdır. O, yaxınlıqdakı xəstəxanaya çatdırılsa da, tezliklə vəfat etmişdir. Yekokava polis idarəsinin apardığı təhqiqatdan məlum olub ki, bədbəxt hadisəyə səbəb, çox güman ki, on metrlik təpəni dağıtmaq istəyən ekskavatorçunun aşağı hissədən həddən artıq çox qum götürməsi olub».

Aydındı… Onlar bu yazını mənə bilə-bilə soxuşdurublar. Yoxsa mənim xahişimi elə – belə yerinə yetirməzdilər. Yaxşı ki, altından qırmızı qələmlə xətt çəkməyiblər. Demək istəyirlər ki, həddən artıq qalmaqallı tiplər üçün ehtiyat variantlarımız var… Dəri kisəni qumla dolduracaqlar – belə şeylə dəmir və ya qurğuşun dəyənəklə vurulan zərbədən heç də pis olmayan zərbə vurmaq olar… Nə qədər desələrdə ki, qum axır, hər halda o, sudan fərqlidir… Suyun üzü ilə üzmək olar, qumun ağırlığından isə adam batır…

Vəziyyətim həddən artıq ümidverici görünürdü.

## 14

Lakin taktikanın dəyişdirilməsi ciddi tərəddüdlərlə bağlı idi və kifayət qədər vaxt tələb edirdi.

Qadının qum bellməyə getməsindən hardasa dörd saat vaxt keçmişdi. Bu qədər vaxta, qum dolu səbətlər artıq ikinci dəfə dolub, qaldırılmalı, qum daşıyanlar isə işlərini bitirib, maşına tərəf getməliydilər. Kişi qulaq verib, onların qayıtmayacağına əmin olandan sonra yavaşca qalxıb geyindi. Qadın lampanı götürüb getmişdi, ona görə də hər şeyi qarasına etməli oldu. Çəkmələri ağzınadək qumla dolu idi. O, şalvarının balaqlarını corablarının içinə saldı, getrlərini çıxarıb, cibinə qoydu. Həşərat ovlamaq üçün lazım olan ləvazimat və başqa əşyalarını qapının ağzına yığdı ki, sonra tapmaq asan olsun. Ayaq qoyduğu torpaq döşəmə qum xalçasıyla örtülmüşdü və o, səssiz yaxınlaşmaya bilməzdi – bir də ki, ayaq səsləri onsuz da eşidilmirdi.

Qadının başı işə qarışıb. Quma soxub-çıxardığı bellə asanca davranır… Dərindən, rəvan nəfəs alır… Ayaqlarının yanına qoyduğu lampanın işığında uzun kölgəsi oynaşır… Kişi nəfəsini içinə çəkib, evin tinində gizləndi. Dəsmalın uclarını əlində yığıb, çəkib uzatdı. Onacan sayacam və yerimdən sıçrayacam… Əyilib qumla dolu beli qaldıran an imkan tapıb, üstünə atılmaq lazımdır.

Əlbəttə, heç bir təhlükə yoxdur demək düz olmaz. Onu da deyək ki, onların kişiyə olan münasibəti cəmi yarımca saatın ərzində kəskin dəyişə bilər. Axı prefekturadan olan məmur hər halda mövcuddur. Üstəlik, qocanın onu əvvəlcə bu məmurla səhv salıb ehtiyatlanması elə-belə məsələ deyil. Çox güman ki, bu gün sabah gəlib onları yoxlayacaqlarını gözləyirlər. Və əgər belədirsə, istisna deyil ki, yoxlama zamanı kənddə fikir ayrılığı yaranacaq, onun mövcudluğunu gizlətmək mümkün olmayacaq və əvvəl-axır onu ağzı bağlı saxlamaq fikrindən əl götürəcəklər.

Doğrudur, bu yarım saatın yarım il, bir il, bəlkə də daha çox uzanacağına heç bir təminat yoxdur.

Yarım saat və ya bir il – şanslar bərabərdir. O, mərc gəlməyə ürək etməzdi.

Lakin fərz etsək ki, ona kömək əllərini uzada bilərlər, onda ən yaxşısı özünü xəstəliyə vurmaqda davam etməkdir. Məhz bu məsələyə o, fikrən dönə-dönə qayıdırdı. İndi ki, o, qayda-qanunları olan ölkədə yaşayır, onda hardansa kömək gözləməyi də təbiidir. Müəmma dumanında gizlənən və sağ-salamat olmaları barədə heç bir işarə vermədən itkin düşənlər sırasına qoşulan adamlar çox vaxt özləri bunda maraqlı olanlardır. Bundan əlavə, əgər hadisədə cinayətə dəlalət edən bir şey yoxdursa, itkindüşməyə cinayət işi kimi yox, mülki iş kimi baxılırdı və polis bu işdə çox da dərinə baş soxmurdu. Lakin onunla bağlı vəziyyət tamam başqa cürdür. O,

həsrətlə kömək gözləyir, bu haqda hamıya müraciət edir, bu kömək hardan gələcək - onun üçün fərqi yoxdur.

Hətta onu heç vaxt görməmiş, səsini eşitməmiş adamın üçün, sahibsiz qalmış evinə heç olmazsa bir dəfə, ani də olsa, baxması kifayətdir ki, ona hər şey o saat aydın olsun. Oxuduğu yerdə saxlayıb, açıq qoyduğu yarımçıq kitab… İşə geyindiyi kostyumun cibindəki xırda pul… Lap qoy cüzi məbləğdə də olsa, son vaxtlar hesabından pul çıxarılmayan çek kitabçası… Yarımçıq qurudulub, hələ səliqəyə salınmamış həşəratlarla dolu yeşik… Yola salınmağa hazır, üstünə marka yapışdırılmış həşəratlar üçün təzə şüşə qablar sifarişi kağızı… Hər şey yarımçıq atılıb və sahibinin qayıtmaq fikrində olduğuna işarə edir. Baş çəkməyə gələn adam, istəsə də İstəməsə də, bu otaqların az qala hər nöqtəsindən eşidilən yalvarışları eşitməyə bilməz.

Bəli… Əgər həmin məktub olmasaydı… Əgər həmin sarsaq məktub olmasaydı… Amma o var idi… Bu yuxu öncəgörmə oldu, indi isə o, yenidən özü - özünü nəyəsə inandırmağa çalışır. Nə üçün? Hiylə yetər. İtirdiyini qaytara bilməzsən. O, öz əlləri ilə artıq çoxdan özünü məhv edib.

Bu məzuniyyətə aid nə varsa, hamısını sirr saxlayırdı və həmkarlarının heç birinə hara gedəcəyi barədə bilərəkdən heç nə demirdi. Susmağı azmış kimi, bu gedişini düşünülmüş şəkildə sirrə bələmişdi. Bu, öz yekrəng boz həyatlarında özləri də başdan-ayağa bozarmış həmin adamları ələ salmaq üçün(bundan yaxşısını düşünə bilməzsən) çox gözəl vasitə idi. İndi o, özünüməhvlə məşğul idi; bütün bu bozluq içərisində əlbəttə onun yox, başqalarının tamam ayrı rəngdə də ola biləcəklərini fikirləşməyə dəyərdi: qırmızı, mavi, yaşıl…

Axı gözqamaşdırıcı günəşlə dopdolu yay ancaq roman və kinofilmlərdə olur. Həyatda isə – bu, elə orda da həmən acı tüstü iyinin hakim olduğu şəhər kənarına getmiş balaca, təvazökar adamınistirahət günləridir və siyasətə həsr olunmuş səhifələri açıb, qəzeti yerə sərərək uzanıb… Maqnit stəkanlı termos və konservləşdirilmiş şirə… uzun müddət növbədə dayanandan sonra kirayəyə götürülmüş qayıq – saatı on beş iyen… Qurğuşun rəngli köpüklərin diyirləndiyi, ölü balıqlarla qaynam-qaynam qaynaşan sahil… Sonra isə ölü kimi yorulub düşmüş adamlarla ağzınadək dolu elktrik qatarı… Hamı hər şeyi çox gözəl başa düşür, lakin özü-özünü aldadan axmaq görkəmində görünməmək üçün boz kətanda bütün bacarıqlarını səfərbər edib, nəsə bayrama bənzər bir şey çəkirlər. Bədbəxt, üzütüklü atalar öz narazı balalarını bazar gününün necə əla keçdiyini söyləməyə məcbur edərək zinhara gətirirlər… Hər bir adamın heç olmasa, bircə dəfə də olsa elektrik qatarının bir küncündə görə biləcəyi səhnələr… Az qala riqqətə gətirəcək başqasının günəşinə olan paxıllıq hissi.

Lakin iş təkcə bunda olsaydı, bütün bunları belə ciddi qəbul edib, ürəyinə salmağa dəyməzdi.

Əgər həmin adam bütün baş verənlərə başqa həmkarları kimi reaksiya verməsəydi, o, çətin ki, belə tərslik edərdi.

Ancaq ona xüsusi inam bəsləyirdilər. Bu, düz danışan, aydın gözlü, həmişə təzə yuyulmuş kimi görünən sifəti olan bir adam idi. Bu adam həmkarlar hərəkatında fəal iştirak edirdi. Bir dəfə isə onunla hətta başqalarından gizlətdiyi məhrəm fikirlərilə ciddi və səmimi şəkildə bölüşməyə səy göstərdilər.

- Sən belə fikirləşirsən?.. Məni sadəcə bax bu həyatla zənginləşdirilən təhsil problemi rahat buraxmır…

- «Zənginləşdirilən»i necə başa düşək?

- Belə deyək də, illüziyalara əsaslanan və mövcud olmayanı mövcud olan kimi qavramağa məcbur edən təhsil. Götürək elə qumu – o, bərk cisimdir, lakin eyni zamanda kifayət qədər hidrodinamik xüsusiyyətlərə malikdir. Elə ona belə diqqət ayırmağımın əsas səbəbi də budur…

Adam çaşdı. Pişik kimi çiyinləri çıxmış bu adamın çiyinləri daha da çox çıxdı. Lakin sifətinin ifadəsi, həmişəki kimi açıq qalmaqda davam edirdi. O, ideyanın ona yad olduğunu heç nə ilə bildirmirdi. Bir dəfə kimsə dedi ki, o, mebiusun lentini xatırladır. Mebiusun lenti – bu, bir dəfə burulub, ucları birləşdirilmiş və beləliklə də üz və astarını itirərək müstəviyə çevrilmiş kağız zolağıdır. Ola bilsin ki, bu ləqəbə onun Mebiusun lenti kimi özünün həmkarlar ittifaqındakı fəaliyyəti ilə şəxsi həyatın bir araya cəmləyə bilməsi fikri yerləşdirilmişdi?

Bu ləqəbdə yüngülvari bir rişxəndlə yanaşı təqdir də vardı.

- Bəlkə sən realistik təhsili nəzərdə tutursan?

- Yox, mənim qumla bağlı misalımı götür… məgər dünya son nəticədə quma oxşamır?.. Bax həmin bu qum, hərəkətsiz, sakit vəziyyətdə öz varlığını büruzə vermir… Əslində qum hərəkət etmir, hərəkət özü qumdur… Yaxşı olar ki, izahat verməyim…

- Mən onsuz da anladım. Axı tədris təcrübəsində relyativizmin vacib elementləri cəmləşib.

- Yox elə deyil. Mən özüm quma çevriləcəm… Hər şeyi qumun gözü ilə görəcəm… Bir dəfə ölmüsənsə, yenidən öləcəyindən narahat olmağa dəyməz…

- Sən idealist deyilsən ki, hə?.. Sən yəqin ki, öz şagirdlərindən qorxursan, düzdü?

- Çünki mən şagirdlərimin də nəyləsə quma bənzədiklərini düşünürəm…

Onda o, dişlərini ağardıb, axır məqamda onsuz da ümumi bir nəticəyə gələ bilməyəcəyimiz bu söhbətin, onun ürəyindən olmadığını heç nə ilə hiss etdirmədən cingiltili gülüşlə güldü. Onsuz da kiçik olan gözləri üzünün qırışlarında tamam itdi. Mən, yadımdadı ki, onun gülüşünə gülüşlə cavab verməyə bilmədim. Bu adam həqiqətən də Mebiusun lenti idi. Həm yaxşı, həm də pis mənada. Heç olmasa yaxşı olan tərəfinə görə, hörmət etməyə dəyərdi.

Lakin hətta bu Mebiusun lenti də, başqa həmkarları kimi məzuniyyətə çıxdığına görə ona açıqaydın paxıllıq edirdi. Bu isə Mebiusun lentinə qəti surətdə oxşamırdı. Paxıllıq etməklə yanaşı, o həm də sevinirdi. Comərd adamlar adətən adamı qıcıqlandırır. Buna görə də onu əsəbləşdirməkdən hədsiz zövq almaq olurdu.

Və bu zəhrimar məktub… Geri qaytarılması mümkün orlmayan paylanmış kart. Dünənki yuxunu səbəbsiz hesab etmək olmaz.

Onunla o qadın arasında, yəni bu yox, başqa qadın arasında sevgi yox idi demək, yalan olardı.

Onların arasında nəsə sönük və bəlkə də qeyri-müəyyən münasibətlər mövcud idi və o, heç vaxt bilmirdi ki, bu qadından nə gözləmək olar. Məsələn ona deyəndə ki, nikah mahiyyət etibarilə xam torpağın şumlanması kimi bir şeydir, o dəqiqə qəti və əsəbi şəkildə etiraz edirək, nikahı darısqallaşmış ev-eşiyin genişlənməsi kimi başa düşmək lazım olduğunu bildirirdi. Əksini desəydim, sözsüz ki, buna da etirazını bildirərdi. Bu, fasiləsiz olaraq iki il və dörd ay davam etmiş oyun idi – kim-kimə

üstün gələcək. Ola bilsin, onlar sevgi hissini itirmişdilər demək əvəzinə, axır - axırda lap dondurmuşdular demək daha düzgün olardı, çünki onu, yəni sevgini həddən artıq idellaşdırmışdılar.

Və elə onda da gözlənilmədən məktub yazıb qoymaq və orda bir müddətə yerini demədən, tək harasa gedəcəyəi barədə xəbər vermək qərarına gəldi. Məzuniyyəti ətrafında qurduğu, həmkarlarına əngəlsiz təsir edən müəmma toru bu qadına təsir etməyə bilməzdi. Lakin lap son anda – artıq ünvanı yazıb, markasını yapışdırdıqdan sonra, belə qərara gəldi ki, bu, axmaqlıqdır və məktubu stolun üstündə saxladı.

Ziyansız bir zarafat yalnız seyf sahibinin aça biləcəyi, sekreti olan avtomatik qıfıl rolunu oynadı.

Məktub mütləq kiminsə gözünə dəyməli idi. Burda əlbəttə ki, bilərəkdən, onun öz arzusuyla itməsinə işarə vuran sübut vardı. O, küt bir tərsliklə, onu cinayət yerində gördüklərinə baxmayaraq barmaq izlərini məhv edən ağılsız cinayətkara bənzəyirdi.

Əsirlikdən qaçmaq imkanları azalırdı. Və indi, baxmayaraq ki, hələ də ümidini itirməmişdi, bu ümid özünün qatdığı zəhərdən boğulurdu. İndi onun bir yolu vardı – kiminsə bu qapıları onun üzünə açmasını gözləmədən, özü o qapıları açsın və güclə də olsa, buradan canını qurtarsın. Bu saat tərəddüd etmək olmaz.

Bədəninin bütün ağırlığını ağrıyanadək quma batırdığı ayaq barmaqlarına salıb, qərar verdi: onacan sayıb, yerimdən sıçrayacam… Lakin on üçədək saydı – heç nə alınmadı. Nəhayət, dörd dəfə köks ötürüb, o, gizləndiyi yerdən çıxdı.

## 15

Hərəkətləri düşündüyünü həyata keçirməyə rəğmən, həddən artıq ləng idi. Qum bütün gücünü udurdu. Bu ərəfədə qadın çevrildi və belin dəstəyinə söykənərək, təəccüblə gözlərini ona zillədi.

Əgər qadın müqavimət göstərsəydi, nəticə tamam başqa cür olardı. Lakin onun gözlənilməzliyə hesablanmış planı özünü doğrultdu. Düzdü, hərəkətləri həddən artıq əsəbi idi, lakin qadın da elə bil iflic vurmuş kimi sarsılmışdı. Qadının ağlına belə gəlmədi ki, əlindəki bellə onu qovsun.

- Səs-küy salma!.. Sənə heç nə etməyəcəm… Sakit!.. – o, dəsmalı qadının ağzına necə gəldi dürtə-dürtə, boğuq səslə pıçıldayırdı. Lakin qadın bu bacarıqsız, korkoranə hərəkətlərə müqavimət göstərməyə səy belə etmirdi.

Kişi onun passivliyini hiss edib, özünü ələ aldı. O, qadının ağzından dəsmalın bir ucunu çıxarıb, başını sıx-sıx bağladı və arxadan kip çəkib, düyün vurdu. Sonra isə əvvəlcədən hazırladığı getr ilə qadının əllərini arxadan bərk – bərk bağladı.

- İndi isə, haydı, tez evə!

Qadın tamamilə yerində donmuş kimi, nəinki onun hərəkətlərinə, həm də sözlərinə itaətkarcasına tabe olurdu. Düşmənçilik nədi – qadın heç kölgəyə də müqavimət göstərmirdi. Görünür, gipnoza oxşar vəziyyətə düşmüşdü. Kişi nə etdiyini fikirləşmirdi və bilmirdi ki,düz edir, yoxsa yox, lakin görünür, kobud rəftar qadının müqavimət göstərmək bacarığını əlindən almışdı. O, qadını torpaq döşəmədən ayağa qalxmağa məcbur etdi. İkinci getr ilə ayaqlarını topuqlarının yanından sarıdı.

Bütün bunları qaranlıq şəraitdə, kor-koranə edirdi və getrdən qalan bir parça ilə tam arxayınlıq üçün ayaqlarının ətrafında bir dəfə də dolayıb, bağladı.

- Bax belə, sakit otur, aydındı?.. Özünü yaxşı aparsan, sənə heç nə etməyəcəm… Amma bax ha, mənimlə zarafat etməyin sonu pis olur…

Qadının nəfəsi gələn tərəfə diqqətlə baxıb, dal-dalı qapıya tərəf getdi, sonra isə cəld bayıra çıxıb, bellə lampanı götürdü və o dəqiqə evə qayıtdı. Qadın bir böyrü üstə çevrilmişdi. O, tez-tez və ağır nəfəs alır, buna uyğun olaraq da, başını qaldırıb, salırdı. Nəfəsini çəkəndə qadın çənəsini uzadırdı – yəqin, həsirdən nəfəsinə qum getməsin deyə. Nəfəsini buraxanda isə – hava burnunun deşiklərindən böyük təzyiqlə çıxıb, sifətindəki qumu üfürsün deyə, əksinə.

- Eybi yox, bir qədər dözərsən. Səbətlilər qayıdana qədər gözləməli olacaqsan. Mənim çəkdiyim bütün bu əzablardan sonra, sənin susmağın məsləhətdir. Bundan əlavə, axı mən burda keçirdiyim vaxta görə sizə pul ödəyəcəm… Qalan bütün əlavə xərcləri isə, nə isə, özün hesablayarsan…

Etiraz etmirsən?.. Etiraz edirsən?! Düzünə qalsa, mənim pul ödəməyim yersizdir, sadəcə, xoşlayıram ki, hər şey doğru-düzgün olsun. Buna görə də, istəsən də, istəməsən də, nə olursa olsun, bu pulları sənə qaytaracam.

Kişi əlləri ilə boğazından tutub, sanki rahat nəfəs almaq üçün özü – özünə kömək edirmiş kimi, narahatlıqla bayırdan gələn, aydın olmayan bir səsə qulaq asmağa başladı. Hə, yaxşı olar ki, lampanı söndürüm. O, şüşəni qaldırdı və alovu söndürməyə hazırlaşırdı ki… Yox, bir də baxım, görüm qadın neyləyir. Ayaqları kifayət qədər bərk bağlanıb – barmağını belə sala bilməzsən.

Əlləri ilə də bağlı hər şey qaydasındadır – biləngləri gömgöy göyərib, mayasınadək qırxılmış dırnaqları köhnəlib qatılaşmış mürəkkəb rəngindədir.

Əla tıxacdır. Qadının onsuz da rəngi qaçmış dodaqları elə dartılmışdı ki, üstündə qan deyilən şey qalmamışdı – elə bil əsl kabusdur. Ağzının suyu axıb, həsirin üstündə, elə yanağının altındaca qara ləkə əmələ gətirmişdi. Lampanın titrək işığında ordan – qadın olan yerdən, elə bil ki, sakit inilti səsi gəlirdi.

- Nə etmək olar? Poxu özün qaynatmısan… - Onun tələsik atılmış sözlərində əsəbilik hiss olunurdu. – Sən məni aldatmağa cəhd göstərdin, mən səni. Haq-hesabı çürütdük? Axı mən hər halda insanam, adamı it kimi götürüb, zəncirləmək olmaz axı… Kimi dindirsən, bunun doğru, qanuni özünümüdafiə olduğunu deyər.

Qəfildən qadın başını döndərib, yarıörtülü gözünün qırağı ilə onun baxışını tutmağa çalışdı.

- Hə, nədi?.. Nəsə demək istəyirsən?

Qadın başını bir qədər qeyri-təbii yellədi. Elə bil həm təsdiq edir, həm də inkar edirdi. O, qadının heç olmasa gözlərindən bir şey oxumaq üçün lampanı onun sifətinə yaxınlaşdırdı. Əvvəlcə o, hətta inanmadı. Qadının gözlərində nə kin, nə də ədavət vardı, yalnız sonsuz qəm və elə bil nə üçünsə yalvardığı hiss olunurdu.

Ola bilməz… Yəqin, mənə elə gəlir… «Gözlərin ifadəsi» - bu, olsa-olsa, gözəl deyimdən başqa bir şey deyildir… Əgər göz alması hər hansı bir əzələdən xalidirsə, onda məgər gözdə nəsə ifadə ola bilərmi? Lakin kişi hər halda tərəddüd edirdi və qadının ağzına bağladığı yaylığı boşaltmaq üçün əlini uzatmağa hazırlaşırdı.

Və o an da əlini çəkdi. Tələsik lampanı söndürdü. Qum səbəti daşıyanların səsi yaxınlaşırdı. Söndürülmüş lampanı asan tapmaq üçün onu döşəmənin lap kənarına qoydu və əl – üz yuyanın altından su qazançasını çıxarıb, dodaqlarına dirəyərək acgözlüklə içməyə başladı. Sonra isə beli götürərək, qapının yanında gizləndi. Başdan

ayağa su içində idi. Bax indi… Beş-on dəqiqə də səbr… Həşərat kolleksiyası ilə dolu yeşiyi qətiyyətlə özünə tərəf çəkdi.

## 16

– Ey! – xırıltılı səs eşidildi.

– Orda nə edirsiniz? – hələ də gənclik təravətini saxlayan başqa bir səs əks-səda kimi eşidildi.

Dərəyə elə qatı zülmət çökmüşdü ki, göz-gözü görmürdü, bayırda isə, çox güman ki, artıq ay çıxmışdı, çünki qumla səma arasındakı sərhəddə yayğın ləkə kimi bir-birinə qarışmış bir qrup adamın kölgəsi qaralırdı. Kişi sağ əlində bel, dərənin dibi ilə süründü. Yuxarıda həyasız gülüşmə eşidildi. Səbətləri qaldırmaq üçün aşağıya qarmaqlı kəndir salladılar.

– Xalacan, tez elə!

Elə bu an kişi gərilib, dalınca qum tozanağı qaldıraraq kəndirə tərəf tullandı.

– Ey, qaldır! – deyə qışqırdı. Kələkötür kəndirdən elə yapışmışdı ki, daş da olsaydı, fərqi yoxdur, barmaqları axıradək içinə girəcəkdi. – Qaldır! Qaldır! Nə qədər ki, qaldırmamısınız, buraxmayacam… Qadın əli-ayağı bağlı evdə uzanıb qalıb. Ona kömək etmək istəyirsinizsə cəld kəndiri çəkin! O vaxta qədər isə heç kəsi ona yaxın buraxmayacam!.. Əgər kimsə bura burun soxmağa cəhd göstərsə, bellə başını yaracam… Məhkəmə olsa – mən udacam! Mərhəmət gözləməyin!.. Hə, niyə ləngiyirsiniz? Əgər elə bu saat məni yuxarı qaldırsanız, məhkəməyə verməərəm, hər şey barəsində susaram… Qanunsuz saxlama – heç də balaca cinayət deyil!.. Hə, nə oldu? Çəkin görək!

Yuxarıdan tökülən qum sifətinə vurur. Köynəyinin altından, boynundan aşağıya doğru nəsə xoşagəlməz, yapışqan kimi bir şey sürünür. İsti nəfəs dodaqları yandırır.

Yuxarıda deyəsən məsləhətləşirdilər. Və birdən – güclü bir dartınma və kəndir yuxarıya doğru sürünməyə başladı. Havada yellənən, düşündüyündən də qat-qat çox olan bədəninin ağırlığındanaz qala kəndir əlindən çıxır. Kişi kəndirdən ikiqat bərk yapışdı. Yəqin ki, gülməyini saxladığı səbəbindən yaranan spazma qarnını əzirdi və ağzından damcılar yelpik kimi sıçrayırdı… Bir həftə davam edən pis yuxu dağılır və harasa uçur… Yaxşı… yaxşı… Artıq xilas olub!

O, qəflətən çəkisizlik hiss etdi və fəzada üzdü… Hissləri dəniz xəstəliyində olduğu kimi bütün bədəninə yayıldı; buna qədər az qala əlinin dərisini aparan kəndir, indi gücsüz vəziyyətdə ovuclarında qalmışdı.

Bu əclaflar kəndiri buraxmışdılar!.. Kəllə-mayallaq aşıb, yöndəmsiz şəkildə qumun üstünə yıxıldı. Həşəratlar üçün olan yeşik altında qalıb, iyrənc bir çartıltı saldı, sonra isə nəsə yanağını yalayıb bir qəldər kənara uçdu. Güman ki, kəndirin ucuna bağlanmış qarmaq idi. Gör yaramazlar nə edirlər! Yaxşı ki, heç olmasa, üzümə bərk dəymədi. Yeşiyin üstünə düşən tərəfini əllədi, – deyəsən, elə bir ağrıyan yeri yoxdur. Dik atılıb kəndiri axtarmağa başladı. Onu artıq yuxarı qaldırmışdılar.

– Axmaqlar!

Kişi yad bir səslə qışqırdı:

– Axmaqlar! Axı peşman olacaqsız!

Sıfır reaksiya. Ancaq tüstü kimi yayılan sakit pıçhapıç – nə dediklərini ayırd etmək olmur. Bu pıçıldaşmada nə çoxdur – düşmənçilik, ya istehza, - ayırd edə bilməzsən. Və bu, dözülməzdir.

Qəzəb və həqarət polad halqalar kimi bədənini sıxırdı. O, yumruqlarını dırnağı tərli ovuclarına batanadək sıxıb, qışıqırmaqda davam edirdi.

- Hələ başa düşməmisiniz?! Düzdü, siz söz başa düşmürsünüz, amma mən elə şey etmişəm ki, hətta sizin kimi kütlər də başa düşməlidir? Qadının əl-qolu bağlıdır! Eşidirsiz?.. Nə qədər ki, məni yuxarı qaldırmamısınız və ya nərdivanı aşağı salmamısınız, o, elə də qalacaq!.. Burda qumu kürəməyə adam olmayacaq… Hə, necədi, xoşunuza gəlir?.. Yaxşı-yaxşı fikirləşin… Əgər bura qum altında qalsa, axı sizin üçün də pis olacaq, düzdü?.. Qum dərəni doldurub, kəndə tərəf hərəkət edəcək!.. Onda nə edəcəksiniz?.. Niyə cavab vermirsiniz?!

Cavab vermək əvəzinə onlar sadəcə çıxıb getdilər, ancaq qumun üstü ilə sürüdükləri səbətin xışıltısı eşidilirdi.

- Niyə?.. Niyə heç bir söz demədən çıxıb gedirsiz?

Artıq özündən başqa heç kəsin eşitmədiyi aciz bir yalvarış. Kişi başdan ayağa əsə-əsə, əyilib həşərat kolleksiyası yeşiyinin içindəkiləri qarasına yığmağa başladı. Görünür, spirt butulkası sınmışdı: ona toxunanda barmaqlarının arasından xoş bir sərinlik axdı. O, səssiz – səmirsiz ağlamağa başladı. Çox da kədərlənmirdi. Hələ üstəlik, ona elə gəlirdi ki, ağlayan da özü yox, kimsə başqasıdır.

Qum onun ardınca hiyləgər yırtıcı tək sürünürdü, qatı zülmətdə çaşa-çaşa, ayqlarını sürüyərək çətinliklə özünü qapıya çatdırdı. Qapağı sınmış yeşiyi ehtiyatla, qarasına ocağın yanına qoydu.

Küləyin uğultusu havanı yardı. Ocağın yanındakı boş bankadan polietilen paketə bükülmüş kibriti çıxarıb, lampanı yandırdı. Qadın döşəməyə çox əyilmiş, ammaəvvəlki vəziyyətdə uzanıb qalmışdı. O, görünür, bayırda nə baş verdiyini ayırd etmək üçün başını yüngülcə qapıya tərəf çevirdi. Gün gözünü qamaşdırdı və o dəqiqə yenidən gözünü bərk-bərk qapadı. Kişinin bir qədər əvvəl öz üzərində hiss etdiyi qəddarlıq və kobudluğunu görəsən qadın necə qəbul etdi?..

Ağlamaq istəyir – qoy ağlasın, gülmək istəyir – qoy gülsün… Hələ heç nə itirilməyib. Gec partlayan minanın fitili yalnız mənim öz əlimdədir, başqa heç kimin.

Kişi qadının arxasında dizi üstə yerə çökdü. Bir qədər tərəddüddən sonra qadının ağzını tıxayan yaylığı açdı. Ona görə yox ki, birbən birə vicdan əzabı çəkdi. Və əlbəttə ki, mərhəmətdən, ya ona acıdığından söhbət belə gedə bilməzdi.

O, sadəcə gücdən düşmüşdü. Və bu nəhayətsiz gərginliyə dözə bilmirdi. Mahiyyət etibarilə tıxaca ehtiyac da yox idi. Əgər onda qadın köməyə çağırıb qışqırsaydı, ola bilsin ki, bu əksinə, onun düşmənləri arasında çaşqınlıq yaradar, onları tez bu məsələni həll etməyə məcbur edərdi.

Qadın çənəsini uzadıb, ağır -ağır nəfəs alırdı. Onun qumla qarışmış tüpürcəyindən yaylıq ölü siçovul kimi bozarıb ağırlaşmışdı. Dərisini sıxan yaylığın qoyduğu gömgöy izlər elə bil heç vaxt itməyəcəkdi. Keyləşib taxtaya dönmüş, quru balıq kimi bərk yanaqlarını açılışdırmaq üçün qadın fasiləsiz olaraq alt çənəsini tərpədirdi. – Artıq vaxtdır… – Yaylığı iki barmağıyla götürüb, torpaq döşəmənin üstünə atdı.– Məsləhətləşmələrini qurtarmaq vaxtıdır. İndi əllərində kəndir nərdivan qaçıb gələcəklər. Axı hər şey necə varsa elə də qalsa, onların özü üçün pis olacaq. Hə, düz deyirəm… narahatlıq istəmirlərsə, onda məni bu tələyə də salmaq lazım deyildi.

Qadın tüpürcəyini udub, dodaqlarını yaladı. – Axı… – Dili hələ sözünə pis baxırdı və qadın ağzında isti yumurta varmış kimi boğuq danışırdı. – Ulduzlar çıxıb? – Ulduzlar?.. Ulduzların bura nə dəxli var? – Bəlkə ulduzlar çıxmayıb… – Hə, tutaq ki, çıxmayıb, nə olsun ki? Qadın haldan düşüb, yenidən susdu.

– Nə baş verir? Başlamısız – sözünüzü axıra çatdırın! Ulduz falı tərtib etmək istəyirsiniz? Ya, bəlkə bu, yerli xurafatdır?.. Hələ bir bəlkə deyəsiz ki, ulduzsuz gecələrdə nərdivanı aşağı sallamaq olmaz?.. Hə, nədi? Mən başa düşmürəm ki, niyə susursunuz!.. Bəlkə siz ulduzlar çıxandan sonra danışmağa başlayacaqsınız, onda gözləyin, özünüz bilərsiniz… Lakin birdən qasırğa qopsa, nə olacaq? Onda əminəm ki, ulduzlar heç yada düşməyəcək!

– Ulduzlar… – Qadın, elə bil sözləri yarımçıq tübikdən damcı-damcı sıxıb çıxarırdı. – Əgər bu vaxtadək ulduzlar çıxmayıbsa, külək çox da bərk olmayacaq…

– Niyə?

– Axı ulduzlar dumana görə görünmür.

– Bu da sözdür? Məgər indi külək əvvəlki kimi əsmir?

– Yox, onda indikindən qat-qat bərk əsirdi. Eşidirsiniz, külək yatır…

Ola bilsin, qadının dediklərində həqiqət var. Ulduzların dumanlı görünməyinin səbəbi odur ki, küləyin havadakı buxarları qovmağa gücü çatmır. Bu gecə çətin ki, güclü külək əssin… Deməli, onlar da orda – kənddə qərar çıxarmağa tələsməyəcəklər… Və əvvəlcə ona cəfəngiyyat, ağılsızlıq kimi görünənin, gözlənilmədən ağlabatan cavab olduğu məlum olub.

- Doğrudan a-a… Amma mən tamamilə sakitəm… Əgər onlar belə edirsə, onda mən özüm də gözləyə bilərəm. Bir həftə, ya on, on beş gün – fərq etməz…

Qadın ayaq barmaqlarını güclə bükdü. Onlar indi qarayaxanın məmələrinə oxşayırdılar. Kişi güldü. Və gülən kimi də ögüməyi gəldiyini hiss etdi.

Özümü nə üzürəm?.. Məgər düşmənlərinin zəif yerini dişinə vurmamısan?.. Nəyə görə sakit olmur, müşahidə etmirsən?! Axı nəhayət, sən sağ - salamat evinə qayıtdıqdan sonra bütün bu başına gələnləri qələmə almaqa dəyər.

…O! Bizi heyrətləndirdiz. Nəhayət ki, siz nəsə yazmağa qərar verdiniz. Doğrudan da, başınız az bəla çəkməyib. Lakin başımıza gələnlərdən dərs alırıq – axı yağış soxulcanlarının da dərisini qıcıqlandırmasan, dartınıb uzanmaz. Sağ olun. Düzü, mənə çox şey haqqında düşünmək lazım gəldi, hətta başlıq da hazırdı… O! Nə başlıqdı o elə?.. «Qumluqlar iblisi», və ya «Qarışqa cəhənnəminin əzabları»… Hə, münaqişəli başlıqlardır. Amma bir az məzmunsuzluq təəssüratı yaratmır ki?… Siz belə düşünürsünüz?.. Çəkdiyiniz əzablar nə qədər dəhşətli olsa da, hadisələrin yalnız zahiri tərəflərini təsvir etməyin heç bir mənası yoxdur. Bundan başqa, faciənin qəhrəmanları – orda yaşayan insanlardır və sizin yazdığınızda problemin həlli yollarının heç olmasa cizgiləri çəkilməsə, sizin çəkdiyiniz əzabların bir qəpik qiyməti olmayacaq… Bu əclaflıqdır!.. Nə?..

Deyəsən hardasa çirkab suları axan qanovu təmizləyirlər? Ya bəlkə, dəhlizdə səpələnən dezinfeksiya ilə sizin ağzınızdan gələn sarımsaq iyinin arasında nəsə bir xüsusi kimyəvi reaksiya baş verir?.. Nə?.. Heç nə, heç nə, xahiş edirəm, narahat olmayın. Nə qədər yazıramsa yazım,görürəm ki, məndən yazıçı çıxmaz… Yenə də tamamilə gərəksikz bir təvazökarlıq, sizə yaraşmır. Mənə elə gəlir ki, yazıçılara xüsusi kateqoriyadan olan adamlar kimi baxmaq lazım deyil. Əgər yazırsansa – deməli sən yazıçısan… Daşlaşmış bir fikir var ki, kim də olmasa, bu müəllimlər

yazmağı sevirlər – təki onlara imkan ver… Bu, yəqin ondan irəli gəlir ki, ixtisaslaşma baxımından müəllimlər nisbətən yazıçılara yaxındırlar…Yaradıcı tədris deyilən şey budur? Baxmayaraq ki, özlərinin heç təbaşir yeşiyi də düzəltmək əllərindən gəlmir… Təbaşir üçün yeşik, çox minnətdaram. Məgər sənin özünü özünə tanıdıb, gözünü açırlarsa, bu, gözəl yaradıcılıq nümunəsi deyilmi?.. Və bunun sayəsində məni ağrı gətirən yeni-yeni təəssüratları dadmağa məcbur edirlər… Həm də ümidləri!.. Bu ümidlərin doğrulub doğrulmayacağına heç bir cavabdehlik daşımadan… Əgər lap əvvəlcədən hər kəs öz gücünə inanmasa… Yaxşı, bəsdir özözümü aldatdım. Heç bir müəllimə buna bənzər bir nöqsan yaraşmaz… Nöqsan?.. Mən yazıçılıq haqqında danışıram. Yazıçı olmaq həvəsi – adicə eqoizmdir: kuklaları idarə etməyə can atmaq və bununla da, özünü başqa marionetlərdən fərqləndirmək. Elə qadınların kosmetikadan istifadə etməsi də bu səbəbdəndir… Çox ciddi olmadı ki? Lakin siz «yazıçı» sözünü bu mənada işlədirsinizsə, onda bəlkə də, yazıçı olmaq və sadəcə yazmaq, həqiqətən də eyni şey deyil. Ola bilsin.Və məhz buna görə də mən yazıçı olmaq istədim! Əgər bacarmasam, onda heç yazmağa da dəyməz!..

Yeri gəlmişkən, uşağa söz verib, yerinə yetirməyəndə halı necə olur?

**17**

Bayırdan qanad çırpmasını xatılrladan səs eşidildi. Kişi lampanı qapıb, bayıra cumdu. Dərənin dibində həsirə bükülmüş nəsə atılıb qalmışdı. Yuxarıda nə ins vardı, nədə cins. Bağlamaya toxunmadan, bərkdən qışqırdı. Cavab gəlmədi. O, həsirin sarındığı ipi açdı. İçində nə olduğu bilinməyən bağlama – adı maraq olan yanan fitilin yaxınlaşdırıldığı partlayıcıdır. İradəsinin əksinə olaraq qəlbinin dərinliklərində bir ümid qığılcımı parıldadı: bəlkə dərədən çıxmaq üçün istifədə edilən hər hansı vasitədir… Bu kəndçilər lazım olan hər şeyi atıb, tələsik uzaqlaşıblar…

Laikin burda qəzetə bükülmüş balaca bir bağlama və ağzına taxta tıxac tıxanmış, təxminən bir litrlik butulkada araq vardı. Bağlamada isə üç qutu, hərəsində iyirmi dənə olmaqla «Sinsey» siqareti. Və başqa heç nə. Sadəcə inanmağı belə gəlmirdi. O, yenidən həsirin bir ucundan yapışıb, bərk silkələdi – yerə ancaq qum töküldü… Hələ də ümid edirdi ki, heç olmasa bir parka kağızda da olsa məktub olmalıdır, lakin bu da yox idi. Butulkadakı turşumuş düyü kökəsi iyi verən keyfiyyətsiz araq idi.

Bütün bunlar nə üçün idi?.. Sövdələşmədi, nədi bu?.. Nə vaxtsa eşitmişdi ki, hindular dostluq əlaməti olaraq bir-birinə qəlyan bağışlayırlar. Elə araq özü də – hər yerdə şən əhval - ruhiyyə nişanəsidir. Beləliklə, güman etmək olar ki, onlar bu üsulla nə cürsə dil tapmaq istədiklərini büruzə verirlər.

Adətən kənd adamları öz hisslərini sözlə ifadə etməyə utanırlar. Bu mənada onlar çox sadəlövhdürlər.

Lakin hələlik hər cür saziş-filan bir qırağa, əsas siqaretdir. Necə olub ki, düz bir həftə onsuz dözüb? Vərdiş etdiyi cəldliklə qutunun bir qırağını cırarkən, kağızın jilalılığını hiss etdi.

Qutunun dibinə çırtma vurub, bir dənə siqaret çıxardı. Siqareti tutan barmaqları ehmalca titrəyirdi. Siqaretini lampadan alışdırıb, yavaş-yavaş və dərindən qullab vurdu, qurumuş otların ətri bütün bədəninə yayıldı. Dodaqları keyidi, gözlərinin önündə ağır, məxmər pərdə sallandı.

Başı zərbə alıbmış kimi hərləndi, üşünmə tutdu.

Butulkanı özünə bərk-bərk sıxıb, müvazinətini güclə saxlyaraq yavaş-yavaş evə tərəf getdi.

Ayaqları sözünə baxmırdı. Başı halqaya salınıbmış kimi hələ də hərlənirdi. O, qadının olduğu yerə baxmaq istəyirdi, lakin heç cür başını döndərə bilmirdi. Gözünün ucuyla gördüyü qadının sifəti ona qeyri-adi dərəcədə balaca göründü.

- Bax, hədiyyədir… – O, butulkanı başının üstünə qaldırıb silkələdi. – Əla fikirləşiblər, düzdü?

Sağ olsunlar, indi biz hər şeyi əvvəlcədən qeyd edə bilərik… Sözsüz də aydındır… Mən hər şeyi əvvəldən başa düşdüm… Olan olub, keçən keçib… hə, necə bilirsən, bəlkə əlli-əlli vuraq?

Cavab vermək əvəzinə qadın gözlərini bərk-bərk qapadı. Bəlkə o, əl-ayağını açmadığım üçün hirslənib? Axmaq qadın. Axı heç olmasa bircə sualına düz - əməlli cavab versəydi, o dəqiqə onu açıb buraxardı. Bəlkə sadəcə ona bu toxunub ki, belə çətinliklə əldə etdiyi kişini saxlamaq iqtidarında deyil və məcburdur ki,– əlindən başqa nə gəlir – onu buraxsın. Görünür, qadının əlində nəsə bir əsas var… Axı onun hardasa otuz yaşı var, özü də duldur. Topuqlarının arxasında nəsə qəribə, aydın seçilən batıqlar var. Onu gic gülmək tutdu. Ayaqları niyə belə əcaibdir?

– Çəkmək istəyirsiniz? Qonaq edə bilərm.

– Yox, istəmirəm, onsuz da boğazım quruyub… – başını bulayıb, sakitcə cavab verdi.

– Bəlkə içməyə bir şey verim?

– Heç nə olmaz.

– Utanmayın. Mən sizinlə ona görə belə rəftar etməmişəm ki, şəxsiyyətinizə qarşı xüsusi nifrətim var. Özünüz bunun strateci nöqteyi - nəzərdən vacib olduğunu başa düşməlisiniz. İndi elə bil ki, geri çəkiliblər…

– Kişilərə həftədə bir dəfə araqla tütün verilir.

– Verilir?.. – Uçduğunu düşünən, lakin əslində başı ilə pəncərəyə kəllə vuran böyük milçək…

Elmi adı Muscina stabulans… Əşyaları hissə-hissə görən, demək olar ki, yarıkor gözlər… Hətta özünü itirdiyini gizlətməyə çalışmadlan, narahat şəkildə soruşdu: - Axı bizə görə özlərini niyə belə əziyyətə salırlar?! Məgər yaxşı olmazmı ki, insanlara öz istədiklərini almaq üçün imkan verilsin?

– İş həddən artıq ağır və çoxdur – başqa heç nə üçün vaxt qalmır… Üstəlik kəndə də sərf edir: xərclərin bir hissəsini Liqa(1) öz boynuna götürüb.

Əgər belədirsə, demək bütün bunlar saziş yox, tamam əksinə, təslim olmaq üçün tövsiyyə imiş!..

Yox, görünür, lap pisiymiş. Bəlkə o,artıq gündəlik həyatı hərəkətə gətirən vintciklərdən birinə çevrilib və bu adla da bütün siyahılara salınıb?

– Lap dəqiqləşdirmək üçün bir söz də soruşmaq istərdim. Burda başına belə iş gələn ilk birisiyəm?..

– Yox. Nə deyirsənsə de, işçi qüvvəsi çatışmır axı… Təsərrüfatı olanlar da, kasıblar da – işləyə bilənlərin hamısı bir-bir kənddən çıxıb gedirlər… Dilənçi kənd – bir də ki, qum…

– Yaxşı, indi nə deyirsiniz… - hətta səsi də qum rənginə oxşar müdafiəçi rəng aldı. – Məndən başqa burda tutub saxladığınız başqa bir adam varmı?

– Hə, bu, keçən il olub, payızın əvvəllərində… açıqcaçı…

– Açıqcaçı?

– Hə də, turistlər üçün açıqcalar buraxan bir şirkətin agenti, yerli İttifaqın sədrinə qonaq gəlmişdi… Deyirdi ecaskar peyzacdır, bircə şəhərlilər üçün reklam etmək qalır…

– Onu da tutub saxladılar?

————-

1 Ümumyaponiya hüquqsuz icmalara yardım liqası nəzərdə tutulur. Məlum olduğu kimi, 1868 – ci ildən etibarən pari (eta) kastası formal olaraq ləğv edilmişdi. Lakin faktiki olaraq eta bu günlərə kimi fəaliyyət göstərməkdə davam edir. Bu kəndin sakinləri etaya mənsubdurlar.

————-

– Elə bizim cərgədəki evlərdən birində, işçi qüvvəsi çatışmırdı da…

– Bəs sonra nə oldu?

– Deyəsən elə o gün də öldü…Yox, o elə əvvəldən də çox cansız idi…Üstəlik, tərslikdən qasırğalar vaxtı idi, işləməkdən üzüldü…

– Bəs niyə o saat canını qurtarıb qaçmadı?

Qadın cavab vermədi. Belə də hər şey o qədər aydın idi ki, cavab verməyə lüzum yox idi. Ona görə qaçmamışdı ki, qaça bilməmişdi… Əlbəttə ki, məsələ ancaq bunda idi.

– Bəs ondan başqa?

– Hə… ilin lap əvvəlində burda bir tələbə vardı, deyəsən kitab satırdı.

– Kitabpaylayan?

– Nəsə namnazik, cəmi on iyenlik kitablar idi. Orda kiminsə əleyhinə nəsə yazılmışdı…

– Bu tələbə Vətənə qayıtmaq uğrunda hərəkat iştirakçısıymış… Onu da saxladılar?

– O, indi də deyəsən, bizdən üç ev aralıda yaşayır.

– Kəndir nərdivanı orda da yığışdırıblar?

– Gənclər bura heç cür alışa bilmirlər… Nə etmək olar, şəhərdə yaxşı pul verirlər, üstəlik kinoteatrlar, restoranlar da hər gün işləyir…

– Axı ola bilməz ki, burdan indiyədək bir nəfərə də qaçmaq müyəssər olmasın?

– Niyə ki, dostlarının yoldan çıxardığı bir nəfər cavan oğlan vardı, o da şəhərə qaçmışdı… Orda kimisə bıçaqlamışdı – hətta qəzetlər də bu barədə yazmışdı… İş verdilər, çıxandan sonra isə geriyə – bura göndərdilər, yəqin yaşayır, sakitcə oturub valideynlərinin yanında…

– Mən ondan danışmıram! Mən o adamlar haqqında soruşuram ki, burdan qaçıb, geri qayıtmayıblar!

– Bu çoxdan olub… Yadımdadı, bütöv bir ailə gecəykən aradan çıxmışdı… Evləri uzun müddət boş qaldı; bu isə çox qorxuludur, amma daha nə etmək olardı… düz deyirəm, çox qorxuludur…

Əgər burda heç olmasa bir tərəf uçsa – bu elə bəndin yarılması kimi bir şeydir…

– Və deyirsiniz ki, bundan sonra başqası olmayıb?

– Məncə, yox…

– Absurddur! – boynunun damarları şişdi, nəfəs almaq çətinləşdi.

Birdən qadın yumurta qoyan arı kimi ikiqat oldu.

– Nə oldu?.. Ağrıyır?..
– Hə, ağrıyır…
O, qadının rəngi qaçmış əllərinə toxundu. Sonra barmaqlarını düyünlərin arasından salıb, nəbzini yoxladı.
– Hiss edirsiz? Nəbziniz kifayət qədər yaxşı vurur… Mənə elə gəlir ki, ciddi bir şey yoxdur.
Başa düşürəm ki, düz eləmirəm, amma mənə lazımdır ki, siz onlara - kənddəki o günahkarlara şikayət edəsiniz.
– Bağışlayın, siz mənim boynumu – qulağımın arxa tərəfini qaşımazsız?
Özünü itirib, yox deyə bilmədi. Dərisi ilə qum qabığı arasında dağılmış yağı xatırladan qatı tər layı vardı. Elə bil, dırnaqları şaftalı dərisinin qabığının içi ilə gedib gəlirdi.
– Bağışlayın… Doğrudanmı burdan hələ heç kəs canını qurtara bilməyib?..
Qəfildən qapının çərçivəsi şəffaf, aydın olmayan xətlərə çevrildi və harasa uçub getdi. Bu, ay idi.
Qarışqa qanadlarına bənzər sönük işıq parçaları. Və gözləri öyrəşdikcə, qum fincanının dibi bütünlüklə təzə-tər yarpaqlarda olduğu kimi bir qədər nəmli, cilalanmış kimi görünürdü…
– Nə olar, belə olan təqdirdə, mən birinci olacam!

## 18

Gözləmək çətin idi. Zaman, ilan dərisindəki halqalar kimi sonsuz dairələrlə uzanırdı. İrəliyə yalnız halqadan-halqaya düşməklə hərəkət etmək olardı. Və hər bir halqada tərəddüd, hər bir tərəddüdün isə özünün məxsusi silahı vardı. Bu tərəddüdlər içində qovrularaq, onlara əhəmiyyət vermədən, yaxud kənara çəkməklə irəliləmək çox çətin idi.
Gecə əzablı gözləmə içərisində keçdi. İşıqlaşdı. Pəncərədən boylanan səhər ağ ilbiz kimi onun alnı, burnunun üstü ilə sürünərək, gülümsünürdü.
– Bağışlayın, su istəyirəm…
Nə baş verir? Yəqin, onu ani yuxu tutub. Köynəyi, şalvarının dizləri islanmışdı. Tərinə yapışmış qum həm rənginə görə, həm də toxunanda elə bil çiy buğda kökəsi idi. O, sifətini örtməyi unutmuşdu, buna görə də qışda düyü tarlasında olduğu kimi ağız-burnu qupquru qurumuşdu.
– Bağışlayın, çox xahiş edirəm…
Bədəni başdan ayağa qumla örtülmüş qadın qızdırmalı kimi titrəyirdi. Qadının əzabları sanki naqillərlə ona ötürülürdü. O, qazançanı polietilendən çıxarıb, əvvəlcə özü acgözlüklə suyun üstünə düşdü. Yaxalamaq üçün ağzına bir az su aldı, bir neçə dəfə belə etsə də bu azlıq etdi. O, dayanmadan topa - topa qum tüpürürdü. Sonra bezib, qumu suqarışıq udmağa başladı. Bu, elə daş udmaq kimi bir şey idi.
İçdiyi su elə o dəqiqə də tərə çevrilib, canından çıxdı. Qızmış dərisi – kürəyində yuxarıdan aşağıyadək, sinəsində və böyürlərində düz belinədək – elə ağrıyırdı ki, elə bil onu qatbaqat soyurdular.
Özü içəndən sonra günahkar görkəm alıb, qazançanı qadının ağzına yaxınlaşdırdı. Qadın qabı dişləri ilə tutub, ağzını da yaxalamadan, göyərçin kimi inildəyərək içməyə

başladı. Üç qurtuma qadın qabı boşaltdı. Şişmiş qapaqları altından kişiyə baxan gözləri ilk dəfə amansız məzəmmətlə doldu. Boşalmış qazança elə yüngülləşdi ki, elə bil kağızdan düzəldilmişdi. Kişi xoşagəlməz günah hissindən yaxa qurtarmaq üçün üstündəki qumu çırpa-çırpa torpaq döşəməyə çökdü. Bəlkə, heç olmasa nəm yaylıqla sifətini silim? Əlbəttə, tərdən boğulmağına imkan verməkdənsə,bu daha yaxşı olar. Belə hesab olunur ki, sivilizasiyanın səviyyəsi, dərinin təmizlik dərəcəsi ilə düz mütənasibdir. Əgər insanın ruhu varsa, sözsüz ki, o,dərinin içində məskunlaşır. Su haqqında təkcə fikirləşmək kifayət edir ki, çirkli dərimizin üstünü, onu sormağa hazır olan on minlərlə əmzik örtsün. Buz kimi soyuq və şəffaf, pərqu kimi yumşaq, - ruh üçün əla bir yuva. Bir saniyə da keçsə, dərisi bütün bədəni boyu çürüyüb düşəcək.

O, su çəninin içinə boylandı və birdən ümidsiz bir səslə qışqırdı:

– İçi boşdu!.. Tamamilə boşdu!

Əlini çənin içərisinə saldı. Dibində yığılmış qara qum, ancaq barmaqlarının uclarını batırdı.

Dərisinin altında susuzluqdan yanan saysız-hesabsız yaralı qırxayaq dəstəsi qurdalanmağa başladı.

– Əclaflar, su gətirməyi unudublar!.. Bəlkə onlar suyu bir az gec gətirmək istəyirdilər?

Yaxşı başa düşürdü ki, bununla özünə təsəldli verir. Yük maşını hər gün dan yeri söküləndə işini bitirib, kəndə qayıdırdı. Bu vicdansızların niyyəti aydındır.Görünür, onlar su daşımağı dayandırıb, onu özündən çıxarmaq istəyirlər. Və o dəqiqə yadına düşdü – axı bu adamlar, qum uçurumunu aşağıdan qazmağın necə təhlükəli olduğunu çox yaxşı bilə-bilə, ona xəbərdarlıq etməyi belə lazım bilməyiblər. Onun başına bir iş gəlməsin deyə, qeydinə qalmaq haqqında düşünmək belə istəmirlər. Görünür, həqiqətən də, onların sirrinə belə dərindən bələd olmuş bir adamı burdan diri buraxmaq istəmirlər və əgər bu yolu tutublarsa, axıradək ondan əl çəkməyəcəklər.

Kişi qapının yanında dayanıb, göyə baxdı. Səhər günəşi şüalarının yaydığı qırmızı rəngdə yumşaq, qorxaq buludları çətinliklə ayırmaq olurdu… Göy üzü yağış vəd etmirdi. Bədəni, elə bil hər tənəffüsdə su itirirdi.

– Bura baxın, bunların fikri nədir?! Məni öldürmək istəyirlər, nədi?!

Qadın əvvəlkitək səssiz titrəyirdi. Bəlkə hər şeyi çox gözəl başa düşdüyünə görə. Qısası – özünü qurban kimi qələmə verib, əslində cinayətin iştirakçısıdır. Əzabındı, çək!.. Sənin çəkdiyin əzablar, elədiklərinə görə ədalətli cavabdır.

Lakin əgər kənddəki alçaqların onun əzablarından xəbəri olmayacaqsa, bütün bunlar əbəsdir.

Eyni zamanda, axı onların xəbər tutacağına zəmanət də yoxdur. Bu azmış kimi, çox ola bilsin, əgər lazım olsa, onlar fikirləşmədən qadını da qurban verərlər. Bəlkə qadın buna görə belə qorxur. Azadlığa çıxmaq istəyilə yol axtaran heyvan çox gec başa düşüb ki, girdiyi deşik qəfəsin girişidir… Nəhayət, balıq başa düşüb ki, hərdən burnu ilə toqquşduğu akvariumun şüşəsi, keçilməz səddir…O, ikinci dəfəydi ki, heç nəsiz qalırdı. Və indi silah başqalarının əlindədir.

Lakin qorxmağa dəyməz. Gəmidə batanlar aclıq və susuzluqdan çox, su və çörəyin çatışmayacağı qorxusundan məhv olurlar. Uduzduğun haqda fikirləşməyə başlayan kimi məğlubiyyətin başlayır. Burnunun ucundan tər damcısı düşdü. Neçə kub santimetr rütubət itirməyin haqqında fikirləşmək, - düşmənin tilovuna düşmək deməkdir. Bir stəkan suyun buxarlanmasına nə qədər vaxt sərf olunduğu haqda

düşünmək lazım idi. Lazımsız narahatlıqlar bu yabını – zamanı qova bilməz ki. – Bəlkə əl-qolunu açım, hə?

Qadın nəfəsini çəkib, inamsızlıqla donub qalmışdı.

– İstəmirsinizsə – mənim üçün fərqi yoxdur… İstəyirsinizsə – açım…

Amma bir şərtlə… İcazəsiz beli əlinizə götürməməlisiz… Hə, nə oldu, söz verirsiz?

– Çox xahiş edirəm, nə olar! – buna qədər it kimi hər əzaba dözən qadın yazıq-yazıq yalvarmağa başladı. Bu, küləyin qəflətən çətirin astarını üzünə çevirməyi kimi gözlənilməz oldu. – Nə istəyirsinizsə, söz verim! Çox xahiş edirəm, nə olar… yalvarıram!..

Kəndirlər üstdən ağımtıl pərdəylə örtülü, qıpqırmızı iz qoymuşdular. Elə əvvəlki vəziyyətdə – üzüyuxarı uzanıb qalaraq, qadın topuğunu topuğuna sürtürdü. Sonra barmaqlarıyla biləngələrini ovuşdurmağa başladı. İnildəməmək üçün dişini-dişinə sıxmış, sifətini tər basmışdı. Budur, o yavaşca dönüb, iki əl-ayağı: əvvəlcə dizləri, sonra isə əlləri üstə qalxdı. Nəhayət, çətinliklə başını qaldırdı. Bir müddət yüngülcə yellənərək, bu vəziyyətdə qaldı.

Kişi dinməz-söyləməz döşəmənin hündür yerində oturmuşdu. O, ağzındakı tüpürcəyi yığıb udurdu. Bir neçə qurtumdan sonra tüpürcəyi yapışqan kimi qatılaşıb, boğazında qaldı. Yatmaq istəmirdi, yorğunluqdan da beynində hər şey əriyib, nəm kağızda mürəkkəb kimi yayılırdı. Gözlərinin qabağında nəsə bulanıq ləkələr və xətlər oynaşırdı. Müəmmalı şəkil kimi. Qadın var… Qum var… Bomboş su çəni var… Axıb yayılan heyvani selik var… Günəş var… Və hardasa – harda olduğunu özü də bilmədiyi, – əlbəttə ki, atmosfer təzyiqinin aşağı olduğu ərazi də var. Görəsən, bu cəmin məchul çoxluq tənliyinə hansı tərəfdən yanaşmalı?

Qadın qalxıb, yavaşca qapıya tərəf getdi.

– Hara gedirsən?

Qadın təki başından eləsin deyə, onun baş açmadığı nəsə bir söz mızıldandı. Elə o an da taxta divarın arxasından qadının sakitcə işədiyi eşidildi. Və birdən hər şey ona dəhşətli dərəcədə mənasız göründü.

## 19

Çox düz fikirdir: zaman birdən-birə at kimi dördnala çapmağa başlamır. Lakin əl arabasından da asta getmir. Yavaş-yavaş səhərin istisi özünün ən yüksək nöqtəsinə çatdı; gözlərini, beynini qaynamaq həddinə çatdırdı, içalatını əritdi, ciyərlərini yandırdı.

Gecənin rütubətini canına çəkən qum onu atmosferə buxar şəklində atır… İşığın sınması sayəsində o, yaş asfalt kimi parıldayır… Lakin əslində isə bu, mübaliğəsiz demək olar ki, tavada qızardılan unun səkkizdə biri qədərdir.

Budur, ilk qum uçqunu… Bir günün də onsuz başlamadığı adət etdikləri səs, lakin kişi özündən asılı olmadan qadınla baxışdı. Qumu cəmi bircə gün kürəməyiblər – nəticəsi necə olacaq?.. Elə bir ciddi şey yoxdur, - deyə fikirləşsə də, hər halda narahat idi. Qadın gözlərini aşağı dikərək susurdu. Bütün görkəmi ilə – özün nə qədər istəyirsən, narahat ol – deyirdi. Əgər belədirsə, hər şey cəhənnəm olsun, onu heç sorğu-suala tutmayacaq da. Nazik ip qədər ensizləşən qum şırnağı yenidən enlənib

obiyə(1) çevrildi və bu, bir neçə dəfə beləcə təkrarlanıb, nəhayət tükəndi. Nə isə, qorxulu heç nə yoxdur. O, rahat nəfəs aldı.

Qəflətən yanağı yanmağa və damar kimi vurmağa başladı. Buna qədər xatırlamaq belə istəmədiyi ucuz araq, birdən-birə zülmətdə işıq kimi onu özünə çəkdı. Nə olursa olsun, boğazını yaşlamaq pis olmazdı. Yoxsa bədənindəki qan da buxarlanacaq. Bununla da gələcək əzablarının toxumlarını səpdiyini, sonra peşman olacağını çox gözəl başa düşürdü, lakin daha arzusunun əleyhinə gedə bilmirdi. Tıxacı çıxarıb, şüşəni ağzına yaxınlaşdırdı və birbaşa ordan da içməyə başladı. Dili isə hələ də sadiq gözətçi iti olmaqda davam edirdi – o, gözlənilməz təcavüzdən qorxub çırpınmağa başladı. Ağzı doldu, çeçədi. Artıq oksigen qəbul

---------

1 Obi – qadın kəməri, eni 30 – 40 santimetr olan parça

---------

edən adam kimi. Kişi üçüncü qurtumu vurmaq istəyindən özünü saxlaya bilmədi. Nəsə dəhşətli bir şeyin sağlığına içir…

Qadına da təklif etməli oldu. Lakin o, əlbəttə ki, qəti imtina etdi. Və elə görkəmdə imtina etdi ki, sanki ona içmək üçün zəhər təklif edirdilər. Ən çox qorxduğu iş baş verdi: mədəsinə düşən alkoqol o dəqiqə də pinq – ponq topu kimi tullanıb, başına vurdu və arı kimi qulaqlarında vızıldadı. Dərisi donuz dərisi kimi codlaşır. Qanı çürüyür!.. Qanı buxarlanır!

– Nəsə etmək lazımdır! Yəqin, sənin üçün də yaxşı deyil. İndi ki, əl – ayağını açmışam, qalx bir şey elə də!..

– Yaxşı… Amma əgər mən kimdənsə kənddən su gətirməsini xahiş etməsəm…

– Məgər bunu etmək mümkün deyil?!

– Ancaq işə başlasaq, onda…

– Mən zarafat etmirəm!.. De görüm… məgər kimsə belə ixtiyar shibidir?

Qadın başını aşağı salıb, dodaqlarını bir – birinə kip sıxdı. İndi durub nə edəsən? Qapının lap yuxarısından görünən bir parça səma, masmavidən dəniz ilbizinin içalatı kimi parlaq ağımtıl rəngə çevrildi. Tutaq ki, borc – insanın pasportudur, amma nəyə görə o, pasporta icazəni bu tiplər qoymalıdır!.. İnsan həyatı – ora - bura atılmış kağız parçaları deyil… Həyat – bağlı, cidd“ cəhdlə bir - birinə tikilmiş gündəlikdir… Bir nüsxə üçün təkcə birinci səhifəsi kifayətdir… Öz borcunu davamı olmayan səhifələrdə yerinə yetirməyə çalışmaq lazım deyil… Əgər hər dəfə acından ölənləri xilas etməklə məşğul olsan, başqa işlərin heç birinə vaxt qalmayacaq… Lənət şeytana, necə də içmək istəyirəm!.. Hələ nə qədər adam susuzluqdan ölür, - əgər bütün bu vəfat etmişləri dəfn etmək istəsəydi, onda nə qədər meyit olsaydı, yenə az olardı.

Yeni uçqun başlandı.

Qadın qalxıb, divara söykənmiş süpürgəni götürdü.

– Çaşıb işləyərsən, a-a! Deyəsən, söz vermişdin axı?

– Yox, yorğanın üstündən…

– Yorğanın üstündən?

– Əgər siz heç olmasa, bir qədər yatmasanız…

– Yatmaq istəsəm, özüm edəcəm!

Gözlənilməz zərbə evi titrətdi, sanki yer tərpəndi. Bir anlığa tüstüsü boğanaq yaradan tavandan üstünə tökülən qum gözlərini örtdü. Nəhayət, bu da qumu kürəmədiklərinin nəticəsi. Axarı olmadığı üçün qum aşağı hücum edib. Evin tir və

dirəkləri təkana sinə gərib bütün oynaqlarıyla yazıq-yazıq inildədi. Lakin gözünü diqqətlə qapının üst tirinə zilləyən qadın elə bir narahatlıq ifadə etmədi. Yəqin, basqını hələlik ancaq evin özülü hiss etmişdi.

– Alçaqlar, vicdansızlar… Nə qədər olar?.. Görünür, heç nə veclərinə deyil…

Ürəyi gör necə çırpınır… Ürkmüş dovşan kimi qaçmaqdan özünü güclə saxlayır… Yuvasında oturmaqdan bezib, özünü hara gəldi – ağıza, qulağa, bağırsaqlara soxmağa hazırdır. Tüpürcəyi daha da qatılaşdı. Lakin boğazı çox qurumamışdı. Yəqin araq içib, yüngülcə məst olduğu səbəbindən. Alkaqolun havası çəkilib gedəndən sonra boğazı od tutub yanacaqdı. Və bu od onu külə döndərəcəkdi.

– Belə bir iş tutublar… və sevinirlər… Çünki ağılları toyuq ağlıdır… Əgər mən burda ölsəm, bunlar durub, nə edəcəklər?!

Qadın nəsə demək üçün başını qaldırdı, lakin yenə susdu. Yəqin fikirləşdi ki, cavab vermək mənasızdır. Qadının susqunluğu ona dəlalət edirdi ki, danışmaq faydasızdır və cavab ancaq xoşagəlməz ola bilər. Yaxşı… əgər sonu ancaq birdirsə, nə üçün mümkün olan hər şeydən istifadə etməsin.

Kişi şüşədən bir qurtum da alıb, bir qədər gümrahlaşdı və bayıra atıldı. Gözünə ərimiş qurğuşun şırnağı dəydi və o, səntirlədi. Ayaqlarının qoyduğu izdə o dəqiqə qum burulğanı hərlənməyə başladı. Bax orda, gecə qadının üstünə atılıb, əl - qolunu sarımışdı… Elə oralarda hardasa qum belin üstünü örtüb. Uçqun elə bil bir az səngidi, lakin uçurumun dənizə baxan tərəfindən hələ də fasiləsiz tökülürdü. Hərdənbir, yəqin ki, küləyin təsirindən qum seli divardan ayrılıb, parça kimi havada yellənirdi. O, yeni uçqun törətməkdən ehtiyatlanaraq, çəkməsinin burnuyla qumu eşələməyə başladı.

Uçqun bir az əvvəl baş vermişdi, deməli, bir qədər dərində axtarmaq lazımdır, lakin ayağı heç yerdə müqavimətə rast gəlmədi. Günün düz düşən şüaları dözülməz şəkildə yandırırdı. Nöqtə kimi yığılan göz bəbəkləri… Meduza kimi əsən mədə… Alnını qırışdıran kəskin ağrı… Bir damcı da olsa tər itirmək olmaz… Bu son həddir. Yaxşı, bəs axı mənim belim hardadır?.. Dəqiq yadımdadır, mən onu silah kimi işlətmək məqsədilə əlimdə tutmuşdum… Hə, demək hardasa buralarda onun üstünü qum örtüb. O, dərənin dibinə göz gəzdirməyə başladı və elə o an bir tərəfdə qumun bel formasında ucaldığını gördü. Kişi elə hazırlaşırdı ki, tüpürsün, o saat özünü saxladı. Heç olmasa bir damcı da olsa, özündə rütubət saxlayan nə varsa, orqanizmdə saxlamağa çalışmaq lazımdır. Dişləri və dodaqları arasında qumu tüpürcəkdən ayırmağa çalışırdı və təkcə dişlərinə yapışan qumu barmağıyla təmizlədi.

Qadın otağın küncündə üzünü divara çevirib, öz kimanosu ilə əlləşirdi. Bəlkə belinin ipini boşaldıb, paltarının içinə dolmuş qumu çırpır? Kişi belin dəstəyinin ortasından yapışıb, çiyinlərinə qədər qaldırdı. Və elə iti ucuyla qapının yanında bayır divara nişan almışdı ki…

Arxadan qadının qışqırığı eşidildi. O, bütün ağırlığını belin üstünə salaraq, zərbə vurdu. Bel taxta divarı asanca yarıb, o yana çıxdı. Divarın müqaviməti çiy vaflinin göstərə biləcəyi müqavimətdən heç də çox olmadı. Bayırdan qumla yuyulan divar təptəzə görünür, əslində isə artıq az qala tamam çürüyüb.

– Siz nə edirsiniz?

– Onu hissələrə parçalayacam və nərdivan düzəltmək üçün materialım olacaq.

Başqa yer seçib, bir də yoxladı. O da elə. Görünür qadın, qum taxtanı çürüdür deyəndə, haqlı idi.

Əgər hətta günəşə baxan tərəfdəki bu divar çürüyürsə, onda başqalarının nə vəziyyətdə olduğunu təsəvvür etmək çətin deyil. Bu uçuq daxma indiyədək necə dayanıb?.. Bir tərəfini sanki iflic vurubmuş kimi yanpörtü əyilmiş… Ola bilsin; son vaxtlar – evlər yalnız kağız və plastikdən tikməyə başlandıqdan sonra, necə dayandığı heç kəsə məlum olmayan konstruksiyalar meydana gəlib…

– İndi nə etmək olar, taxtalar yaramırsa, eninə qoyulmuş tirləri yoxlayarıq.

– Olmaz! Bəsdirin, xahiş edirəm!

– Nə olsun ki, onsuz da qum onu bu gün sabah əzəcək. Qadına fikir vermədən, tirə zərbə vurmaq üçün qolaylandı, lakin o, qışqıraraq irəli atıldı və kişinin qollarından sallandı. Kişi dirsəyini onun əlindən alıb, qadını özündən aralamaq üçün çevrildi. Lakin görünür düz hesablamamışdı, qadını yıxmaq əvəzinə özü yıxıldı. O dəqiqə qalxıb təzədən qadının üstünə atıldı, lakin qadın belin dəstəyindən dəmir kimi yapışmışdı. Nə baş verir… Qadının onu almağa gücü çatmamalıdı axı…

Onlar bir neçə dəfə torpaq döşəmə ilə o baş, bu başa diyirləndilər və qadını artıq ram edib, döşəməyə sıxdığını düşündüyü o qısa zaman kəsiyində, qadın beli qalxan kimi tutub, onu asanca üstündən yerə atdı. İndi sən nə edəcəksən!.. Yəqin araq içmişəm, ona görədi… Və artıq rəqibinin qadın olduğunu nəzərə almadan, qatlanmış dizi ilə onun qarnına var gücü ilə zərbə vurdu.

Qadın qışqırıb, o dəqiqə yumşaldı. Bir an da itirmədən, qadının üstünə atıldı və ağırlığıyla onu sıxmağa başladı. Qadının sinəsi çılpaqlaşdı və kişinin əlləri qadının tərləmiş çılpaq bədəni boyu sürüşməyə başladı.

Qəflətən ikisi də, kinoda kinoproyektor xarab olanda kadrlar nejə donursa, eləjə yerindəjə quruyub qaldılar. Bir dəqiqə də belə davam etsəydi, bel uğrunda mübarizə nəsə tamam ayrı bir işə çevriləjəkdi. Lakin elə bu an qadın xırıltılı səslə dedi:

– Şəhərli qadınlarınsa hamısı qəşəngdirlər, düz deyirəm?

– Şəhərli qadınlar? – O, pərt oldu. Və əl – ayağı soyudu… Elə bil təhlükə sovuşmuşdu… O, təsəvvür belə etmirdi ki, burda – qumluqlarda da melodram mövjud ola bilər. Lakin görünür həyatda elə bir qadın yoxdur ki, hətta ayaqlarını aralayanda da, hər hansı bir sevgi majərası yaşanarsa, kişinin onu layiqinjə qiymətləndirəjəyinə əmin olmasın. Elə bu təsirli və sadəlövh illüziya da qadını birtərəfli mənəvi zorakılığın qurbanı edir… Qadının sadəlövhlüyü kişini onun düşməninə çevirir.

## 20

Sanki nişastalanmış sərt sifət, qasırğa sürətilə çıxan nəfəs, qatı şəkər dadlı tüpürcək. Dəhşətli enerci itkisi. Bədənindən bir stəkandan az olmayacaq qədər rütubət çıxdı. Qadın başını aşağı salıb, yavaşca ayağa qalxdı. Onun qum səpilmiş sifəti kişinin gözləri bərabərində idi.

Gözlənilmədən qadın burnunu silib, əlini qumla təmizlədi. Sonra isə əyildi və şalvarı aşağı sürüşdü.

Kişi əsəbiliklə gözünü kənara çəkdi. Hərçənd «əsəbiliklə» demək bir o qədər düz olmazdı.

Dilində nəsə qəribə bir duyğu qaldı, amma yanğı yox – başqa bir hiss…

O, qarışıq şəkildə də olsa, iki cür cinsi istəyin mövcud olduğunu hiss edirdi. Məsələn, «Mebiusun Lenti» tip adamlar qızları «bişirərkən» adətən qida və zövqlər

haqqında mühazirələr oxumaqla başlayırlar. Onlar belə bir mühakimə yürüdürlər ki, məsələn, ac adamı götürsək, onun üçün ümumiyyətlə qida mövcuddur və hər şeyin bircə dadı var – istər Kobedən gətirilmiş mal əti olsun, ya da Xirosima ilbizi… Lakin yeyib doyan kimi, qidaların müxtəlif dadlara malik olduğunu ayırmağa başlayırlar… Bütün bu deyilənləri cinsi istəyə də aid etmək olar: əvvəlcə ümumiyyətlə cinsi istək olur və ancaq bundan sonra ayrıca bir şəxsə ünvanlanmış ccinsi istək meydana çıxır…Seksin özünə də ümumi bir şey kimi baxmaq düzgün olmazdı. Hər şey məkan və zamandan asılıdır: hərdən vitaminlərə ehtiyac olur, bir başqa halda isə, angvillə düyüyə. Bu, mükəmməl, yaxşı düşünülmüş bir nəzəriyyə idi, amma nə qədər kədərli olsa da, indiyə kimi bir nəfər də olsun, elə bir qıza rast gəlməmişdi ki, bu nəzəriyyəyə uyğun olaraq, cinsi istəyini ümumi, yaxud ayrıca bir şəxsə yönəlmiş şəkildə təcrübədən keçirmək üçün ona özünü təklif etsin. Və bu, tamamilə təbiidir. Nə kişini, nə də qadını bircə nəzəriyyənin köməyilə cəlb etmək olmaz. Elə bu axmaqcasına səmimi olan «Mebius» da hər şeyi çox gözəl başa düşürdü və ancaq mənəvi zorakılığı qəbul etmədiyi üçün də boş qalmış evlərin qapılarını döyməkdə davam edirdi.

Əlbəttə, özü də bir o qədər romantik deyildi ki, təmiz cinsi əlaqələr xəyalında olsun. Belə əlaqələr ancaq bir ayağı gorda olanlar üçün məqbuldur… Qurumağa başlayan bambuk bar gətirməyə tələsir… Miqrasiya vaxtı acından ölən siçanlar coşqun şəkildə cinsi əlaqədə olurlar…

Vərəmli xəstələrin hamısı bir nəfər kimi yüksək ehtirsdan əziyyət çəkirlər… Qalada yaşayıb, ancaq pillələri enməyə qadir olan şah və ya hökmdar bütün gücünü özü üçün hərəmxana yaratmağa sərf edir.

Lakin xoşbəxtlikdən, insan heç də həmişə ölüm qorxusu altında yaşamır. Qış öncəsi qorxu keçirməyi tərgidən insan, mövsümi sevgi dövründən də azad ola bilib. Lakin mübarizə bitdikdən sonra, silah yükə çevrilir. Təbiətin əvəzində qaydalar meydana gəlib və o, insana təbiətin əvəzində dişləri, pəncəsi və cinsini nəzarətdə saxlamaq imkanı verib. Və cinsi münasibətlər şəhərkənarı qatara alınan mövsümi biletə bənzəməyə başlayıb: hər dəfə yola çıxanda komposterləmək məcburidir. Üstəlik, biletin saxta olmadığına əmin olmalısan. Və bu yoxlama eyniylə oturuşmuş qaydaların ağırlığına uyğun gəlir. Qeyri - adi dərəcədə əziyyətli işdir. Ən müxtəlif sənədlər: müqavilələr, lisenziyalar, şəxsiyyət vəsiqəsi, buraxılış, rütbəni təsdiq edən vəsiqə, qeydiyyat haqqında sənəd, üzvlük bileti, təltif haqqında sənədlər, veksellər, borc iltizamı, sığorta vəsiqəsi, gəlirlər haqqında bəyannamə, qəbz və hətta əsl-nəcabət təsdiq edən sənədlər – bir sözlə, ağla gələn bütün kağız-kuğuzu toplamaq vacibdir.

Elə bu səbəbdən də cinsi münasibətlər torbaçı – kəpənəyin sürfəsi kimi bir qalaq sənəd-sünədin altında basdırılır. Və əgər bununla iş bitsəydi, dərd yarı idi. Amma bəlkə sonra da kağız-kuğuz lazım olacaq?.. Yaddan çıxan bir şey qalmayıb ki?.. Həm qadın, həm də kişi şübhələrdən əziyyət çəkirlər – əks tərəf sənədləri yığarkən məsələyə kifayət qədər ciddi yanaşmayıb… Və beləliklə, özlərinin təmizliyini sübut etmək üçün, yeni-yeni sənədlər fikirləşib tapırlar…Və heç kəs bilmir ki, o – sonuncu sənəd hansıdır… Və bu sənədlərin sonu yoxdur…

(O qadın məni yersiz öcəşkənlikdə günahlandırırdı. Lakin mən yersiz irad tutmuram, bu elə belədir ki var!)

– Məgər sevginin vəzifəsi belə şeylər deyil?

– Qətiyyən! Sevgi – istisna metoduyla qadağaları atdıqdan sonra yerdə qalandır. Buna inanmamaq, heç nəyə inanmamaq deməkdir.

Əlbəttə, murdarlıqlara dözmək həddinə qədər gəlib çatmaq məntiqsizlik olardı: cinslə əlaqəli hər şeyə hədiyyə imiş kimi yarlık yapışdırmaq. Hər səhər sevginin qırışlarını ütü ilə səliqə ilə açacağıq… Bir qədər sürtüləndən sonra, o köhnəlir… Lakin qırışlarını açandan sonra, o, yenə təzətər olur… Və təzələnən kimi də köhnəlməyə başlayır… Məgər kimsə borcludur ki, bu həyasızlığı ciddi qəbul etsin?

Əlbəttə, əgər qaydalar ona əməl edənlərə yaxşı gələcək vəd edə bilirsə, belə olan halda güzəştə getməyə dəyər. Bəs əslində necədir? Ölümün caynaqları göylərdən enir. Elə yerdə də ölümün min növü var. Həmin şeylər cinsi həyatda da, qarışıq şəkildə hiss olunmağa başlayır. Elə bil əlində saxta veksel tutmusan. Elə bu vaxt da mövsümi biletin saxtalaşdırılması başlayır – tərəflərdən biri razı qalmayanda. Nə etmək olar, bu, işgüzar yanaşmadır. Və yaxud qaçılmaz pislik kimi, mənəvi zorakılığın qaçılmaz olduğu etiraf edilir. Bunsuz, demək olar ki, bir dənə də olsun nikah baş tuta bilməzdi. Azad sevgini təbliğ edənlər də təxminən belə hərəkət edirlər.

Onlar yalnız qarşılıqlı zorakılığı üzürlü bəhanəylə son həddə qədər təkmilləşdirirlər. Əgər bunu qaçılmaz bir şərt kimi qəbul etsək, onda onun daxilində müəyyən həzz tapmaq olar. Lakin pərdənin kifayət qədər yaxşı bağlanıb bağlanmaması ətrafında fasiləsiz narahatlıqlarla müşaiyət olunan azadlıq, axırda yalnız psixi pozğunluqlara gətirib çıxara bilər.

Adama elə gəlirdi ki, qadın kişini bürüyən duyğuları həssaslıqla duyur. O deyəsən, şalvarını saxlayan ipi açmaq fikrindən vaz keçmişdi. Boşalmış iplərin ucu onun barmaqları arasında sallanırdı. Dovşan gözləri ilə kişiyə baxdı. Onun gözləri təkcə qızarmış göz qapaqlarına görə dovşanı xatırlatmırdı. Kişi ona içində vaxtın donduğu baxışlarla cavab verdi. Qadının ətrafında kəskin qoxu yayıldı: adətən damarlı ət qaynadanda belə iy gəlir.

Əvvəlkitək əlləri ilə ipdən yapışmış halda kişinin yanından ötüb, otağa qalxdı və şalvarını soyunmağa başladı. Və bunu elə sərbəst, təbii edirdi ki, sanki bir qədər əvvəl başladığı işi davam edirdi. Ağlından keçdi ki, axı əsl qadın elə belə olmalıdır. Və o, qərar verdi. Axmaq, bir az da ləng tərpənsən hər şey alt – üst olacaq. O da cəld şalvarının kəmərini boşaltdı.

Yəqin ki, o, hələ dünən, bunun qadının təşkil etdiyi növbəti tamaşa olduğunu zənn edərdi, - yanağındakı həmin batıq və ya utancaq gülüşü kimi. Bəlkə bu, elə belədir. Amma indi belə fikirləşmək istəmirdi. Qadını sövdələşmə predmeti kimi istifadə etmək istədiyi vaxtlar artıq geridə qaldı… İndi hər şeyi ancaq güc həll edə bilər… Sövdələşmədən imtina etmək, onların münasibətlərinin qarşılıqlı inam əsasında qurulacağını düşünmək üçün onda bütün əsaslar vardı…

Qadın bir dizi üstündə çöküb, əlində sıxdığı yaylıqla boynuna tökülmüş qumu təmizlədi.

Qəflətən daha bir qum uçqunu baş verdi. Ev bütünlüklə titrəyib, cırıldadı. Qanqaraldıcı maneə!..

Bir göz qırpımında qadının başını ağ toz örtdü. Qum havada duman kimi üzürdü. Çiyni və qolları da nazik toz qatı ilə örtüldü. Bir – birini qucaqlayıb uçqunun bitməsini gözlədilər.

Bədənə yapışan qumu tər özünə çəkirdi, yuxarıdan isə yenə tökülür, tökülürdü… Qadının çiyinləri əsirdi, kişi də qızmışdı – indicə qaynayacaqdı…Hər halda ona heç cür çatmırdı – niyə qadının ombaları onu belə güclü şəkildə özünə çəkirdi?.. Elə güclü çəkirdi ki, hətta sinirlərini bir – bir çıxarıb, onun budlarının ətrafına dolamağa hazır

idi… Bu, yırtıcı heyvanın acgözlüyünü xatırladırdı. Sıxılmış yay kimi bütün bədəninə güc dolmuşdu… O biri qadınla heç vaxt belə hisslər keçirməmişdi…

Uçqun kəsdi. Kişi elə bil bunu gözləyirmiş kimi qadına bədənindən qumu təmizləməkdə kömək etməyə başladı. Qadın xırıltılı səslə gülməyə başladı. Sinəsindən qoltuğunun altına, ordan isə budlarına – kişinin əlləri get – gedə daha da israrlı olurdu. Qadın barmaqlarıyla onun boynundan yapışmışdı; hərdən yavaşca qışqırırdı.

İşini qurtarandan sonra onun üstündən qumu təmizləmək növbəsi qadına çatdı. O, qadının saçlarını qarışdıra – qarışdıra gözlərini yumub gözləyirdi. Qadının saçları sıx və qalın idi. Qıcolma… Eyni şey təkrar olunur… Adətən o, nə barədəsə düşünüb, xəyallarına azadlıq verərək başqa bir işlə: yemək, addımlamaq, yatmaq, hıçqırmaq, qışqırmaq, qadınla cinsi əlaqəylə məşğul olanda belə şeylər keçib gedir…

## 21

Görünür, o, başdan ayağa tər və acılaşmış balıq yağını xatırladan selik içində, yerində narahatnarahat qurcalanıb, bir müddət mürgüləmişdi. Yuxu görürüdü. Yuxusunda sınmış stəkan, döşəməsi işlənməkdən dağılmış dəhliz, unitazı ağzınadək nəcislə dolu ayaqyolu, bütün yuxusu boyu su səsi eşitsə də, heç cür tapa bilmədiyi vanna otağı görürdü. Tanımadığı bir kişi əlində su qabı harasa qaçdı. O, kişidən bir qurtum su istədi, əvəzində kişi ona acıqla baxıb, çəyirtkə kimi çapa - çapa getdi.

Kişi oyandı. Nəsə isti və yapışqanlı bir şey dilini yandırırdı. Susuzluq yaman qayıtdı... Su!..

Parıldayan büllur su... Stəkanın dibindən qalxan gümüşü hava qovuqcuqları... O özü isə - yarıuçuq, boş qalmış evin hörümçək toru basmış su borusu, sudan sahilə atılmış boğulan balıq...

Ayağa qalxdı. Qolları və ayaqları içi su ilə dolu rezin yastıq kimi ağır idi... Torpaq döşəmədə atılıb qalmış qazançanı götürüb, arxaya qatlayaraq dodaqlarına yaxınlaşdırdı. Hardasa otuz saniyədən sonra dilinin ucuna iki-üç damcı düşdü. Amma dili basma kimi suyu özünə çəkdi. Bu damcıları həsrətlə gözləyən boğazı isə, səmərəsiz olaraq suyu udmağa çalışaraq, konvulsiv surətdə yığıldı.

Su tapmaq məqsədilə kişi əl-üzyuyanın yanında əlinə nə keçdisə, hamısını alt - üst etdi. Bütün kimyəvi birləşmələr içərisində su, ən sadəsidir. Stolun yeşiyində atılıb qalmış on iyenlik sikkəni görə bilməmək kimi, suyu da görməmək mümkün deyil. Aha, su iyi gəldi. Dəqiqdi, su iyidi. Kişi tələsik çənin dibindəki nəm qumu qaşıyıb, ağzına doldurdu. Ögüməyi gəldi. Əyildi, qarnını spazma sıxdı. Ödü ağzına gəldi, gözləri yaşardı.

Başağrısı qurğuşun təbəqə kimi gözlərini sıxıb əzirdi... Fiziki yaxınlıq, son nəticədə məhvə aparan yolu ancaq qısaltdı. Birdən kişi it kimi iki əl - ayağı üstə dayanıb, torpaq döşəmədə qumu qazmağa başladı. Dirsəyə qədər qazandan sonra qumun tünd və nəm olduğunu gördü. Başını ora salaraq, isti alnını çuxura dirəyib, qumun qoxusunu dərindən sinəsinə çəkdi. Əgər bu cür, qaydaya uyğun nəfəs alsan, mədəndə mütləq oksigenlə hidrogen birləşəcək.

– Lənət şeytana, gör əllərim çirkdən necə qapqaradı! - O, dırnaqlarıyla ovcunu qaşıyıb, qadına tərəf döndü. - Yaxşı indi biz nə edək?! Doğrudan heç yerdə su yoxdur?!

Qadın kimanonu ayağına keçirib, qıvrılaraq pıçıldadı:
– Yoxdu, bir damcı da yoxdu...
– Yoxdu? Yaxşı, sən indi bu "yoxdu" kəlməsilə durub qalacaqsan? Axı burda adam dözməz, ölə bilər... İt balası! Tez elə, hardan istəyirsən tap!.. Xahiş edirəm... Eşidirsən? Hələlik xahiş edirəm.
– Axı biz işə başlayan kimi...
– Yaxşı, təslim oluram!.. Əlimdən nə gəlir ki, təslim oluram!.. Qurudulmuş siyənəyə dönmək istəmirəm... Belə ölməyi heç vəchlə arzulamıram. Bu təslimçilik heç ürəyimcə deyil. Suya görə meymun rəqsi də oynamaq olar - qoy baxsınlar. Düz sözümdür, təslim oluram... Amma durub gözləyim ki, nə vaxt su gətiriləcək, - məni bağışlayın... Əvvəla, belə qurumuş halda biz işləyə bilmərik. Düzdür? Nə yolla olur - olsun, təcili onlarla əlaqə qur... Yəqin sənin də boğazın quruyub, hə?
– Əgər işləməyə başlasaq, onlar o saat biləcəklər... Yanğınsöndürmə qülləsindən həmişə kimsə durbinlə baxır.
– Yanğınsöndürmə qülləsi?
İnsana əsarətdə olduğunu ona dəmir qapılar, lay divarlar yox, ən çox kameranın qapısındakı kiçik gözlük xatırladır. Kişi yerində yığılıb, fikrən ətrfaı nəzərdən keçirməyə başladı. Üfüqdə - qum və səma, başqa heç nə... Orda heç bir yanğınsöndürmə qülləsi - filan yoxdur. Və əgər bu qüllə burdan görünmürsə, çətin ki, ordan bizi görürlər...
– Yarğanın o biri divarı tərəfdən baxsaz, o saat hər şeyi başa düşəcəksiz...
Kişi cəld əyilib, beli yerdən götürdü. İndi durub şəxsi ləyaqət haqda düşünmək - çirkin içində üzən köynəyi səliqə ilə ütüləmək kimi bir şeydir. O, bayıra elə atıldı ki, sanki arxasınca qaçırdılar.
Qum ocağın üstündəki boş tava kimi yanırdı. İstidən nəfəsi kəsilirdi. Havadan sabun iyi gəlirdi.
Lakin irəli getmək lazımdır. Ancaq bu halda suya yaxınlaşmaq olar. O, yarğana dənizə baxan tərəfdən yaxınlaşıb, göyə baxanda, həqiqətən də qara qüllənin çeçələ barmağın lap ucu boyda görünənən yuxarı nöqtəsini seçə bildi. Yuxarıdakı lap xırdaca çıxıntı isə, görünür, müşahidəçi idi. Yəqin, artıq fikir verib. O, yəqin ki, bu anı səbirsizliklə gözləyib.
Kişi qara çıxıntıya tərəf dönüb, beli yuxarı qaldırdı və bərkdən silkələməyə başladı. O, beli elə bucaq altında tutmağa çalışırdı ki, müşahidəçi onun itilənmiş kənarlarının parıltısını görə bilsin.
Gözlərinə isti civə yayılırdı. Bu qadın orda neyləyir? Gəlib kömək edə bilərdi...
Qəfildən nəm yaylıq kimi kölgə düşdü: səmanın bir küncündə küləyin qovduğu yarpaqdan çox da böyük olmayan bulud. Lənət şeytana, yağış yağsaydı, bütün bunları etməyə ehtiyac qalmazdı... Eh, hər iki əlini irəli uzadıb, yağışın altına tutardı, onlar isə suyla dolardı... Pəncərə şüşəsində su seli... Navalçadan axan su şırnağı... Asfaltda buğlanan su damcıları...
Yuxudamı görürdü - ya xəyalı gerçəkliyə keçmişdi, - birdən onun ətrafında səs-küy və hərəkət əmələ gəldi. Özünə gələndə qum uçqununun ortasında dayandığını gördü. Talvarın altına qaçıb, divara sıxıldı. Sümükləri konservləşdirilmiş balığınkı kimi yumyumşaq olmuşdu. Yanğısı artıq hardasa gicgahlarında vururdu. Və onun xırda hissəcikləri qara ləkələrlə şüurunun üstünə səpələnmişdi. Əlini qarnının üstünə qoyub, çənəsini irəli uzadaraq, qusmaqla mübarizə aparırdı.

Qadının səsi eşidildi. Üzünü yarğana tərəf tutulub nəsə qışqırırdı. Kişi ağırlaşmış göz qapaqlarını çətinliklə qaldırıb, həmin tərəfə baxdı. Onu bura gətirən qoca kişi kəndirə bağlanmış vedrəni ehtiyatla aşağı salırdı. Su!.. Axır ki, gətirdilər!.. Vedrə əyildi və qumlu yamacda yaş ləkə əmələ gəldi. Təmiz, tərtəmiz su!.. Kişi qışqırıb, vedrənin üstünə düşdü.

Vedrə əli çatan qədər aşağı düşəndə, qadını itələyib, ayaqlarını yerə rahat dirəyərək ehtiyatla, iki əllə onu tutmağa başladı. O, kəndiri açıb, - dözümsüz şəkildə - o saat vedrəni sifətinə yaxınlaşdırdı və onun bütün bədəni nasosa çevrildi. O, başını qaldırır, nəfəsini dərib, yenidən vedrənin üstünə düşürdü. Üçüncü dəfə vedrədən qopanda burnundan, dodaqlarından su axır, boğulurdu. Onun dizləri qatlandı, gözləri yumuldu. İndi növbə qadınınkı idi. Qadın ondan heç də geri qalmırdı: bir cür səs çıxara-çıxarda, bədəni rezin porşen imiş kimi bir anda vedrənin yarısını boşaltdı. Qadın vedrəni götürüb, evə qayıtdı, qoca isə kəndiri çəkməyə başladı. Lakin bu vaxt kişi kəndirdən yapışıb, yazıq - yazıq başladı:

– Dayanın! Mən istəyirəm ki, siz mənə qulaq asasınız. Ancaq qulaq asasınız. Xahiş edirəm, dayanın!

Qoca onun xahişinin əksinə getməyib dayandı. Özünü itirib, gözlərini döyməyə başlasa da, sifətinin ifadəsi demək olar ki, dəyişmədi.

– Siz su gətirdiyinizə görə, mən nə etməliyəmsə, onu da edəcəm. Mən buna söz verirəm və istədiyim təkcə odur ki, mənə qulaq asasınız. Siz böyük səhv edirsiniz... Mən orta məktəb müəllimiyəm... Mənim dostlarım, həmkarlar ittifaqı, pedoqoji şura, Valideynlər və Müəllimlər Assosiasiyası var və onlar hamısı məni gözləyir... Siz nə fikirdəsiz, ictimaiyyət mənim yoxa çıxmam faktına susub, biganə qalacaq?

Qoca dilinin ucuyla üst dodağını yaladı və laqeydcə gülümsədi. Yox, bəlkə də, buna heç gülümsəmək demək olmazdı - sadəcə küləylə gələn qum içinə düşməsin deyə, gözlərini qıydı.

Lakin həyəcanlı kişinin gözündən hətta xırda bir qırış da yayına bilməzdi.

– Nədi? Nə baş verir?.. Məgər sizə aydın deyilmi ki, cinayətin bir addımlığındasınız?

– Cinayətin? O gündən bəri artıq on gün keçib, polis isə susur... - Qoca aramla danışır, sözləri bir-bir ağzından çıxarırdı. - Əgər artıq on gün susursa, onda nə deyim...

– On gün yox, bir həftə!

Lakin qoca cavab vermədi. Doğrudan da, bu cür söhbətlərin indi heç bir mənası yoxdur... Kişi həyəcanını boğub, sakit ton verməyə çalışdığı səslə davam etməyə başladı.

– Yaxşı, bu elə də əhəmiyyətli məsələ deyil... Bəlkə yaxşı olar ki, siz bura düşəsiniz və biz sizinlə əyləşib sakitcə söhbət edək? Mən sizə heç nə etmərəm. Hətta nəsə etmək istəsəydim belə, heç nə alınmazdı. Mən sizə qarşı gücsüzəm... Söz verirəm.

Qoca əvvəlkitək susub qalmışdı. Kişi tez - tez nəfəs almağa başladı.

– Axı mən, qumu kürəməyin kənd üçün necə vacib bir iş olduğunu başa düşürəm... Nə deyirsənsə de - həyati vacib məsələsidir. Çox ciddi məsələdir... Gözəl başa düşürəm... Əgər məni güclə məcbur etməsəydilər, bəlkə də mən öz xoşumlə burda qalmaq istərdim... Sizi əmin edirəm!

Burda həyatın necə olduğunu bircə dəfə görmək kifayətdir ki,- hər bir adam sadəcə insanpərvərlikdən çıxış edərək sizə kömək etməyə çalışacaq. Məgər mənim elədiyimi əsl kömək adlandırmaq olarmı?.. Şübhə edirəm... Nəyə görə siz, nəsə ayrı, daha uyğun gələ bilən əməkdaşlıq üsulları haqda fikirləşmirsiniz?.. Adamları ağıllı qaydada düzmək olar... Əgər bir adam üçün düzgün yer seçilməyibsə, ən xoş niyyətə söykənən kömək etmək arzusu belə sına bilər... Düzdü?.. Məgər məndən istifadə etmək üçün belə ümidsiz riskli təşəbbüsə əl atmadan, daha ağlabatan üsuldan istifadə etmək olmazdımı?

Qoca qulaq asıb - asmadığı bilinməyən görkəmlə başını çevirdi və başı oyuna qızışmış pişik balasını qovurmuş kimi bir hərəkət etdi. Bəlkə qüllədəki müşahidəçiyə görə narahat olurdu? Ya bəlkə, onun gözü qarşısında burda söhbət etməkdən qorxurdu?

– Razılaşın... Qumu kürəmək, həqiqətən də önəmli bir işdir. Lakin bu vasitədir, məqsəd deyil...

Məqsəd - müdhiş təhlükənin qarşısını almaqdır... Düz demirəm? Xoşbəxtlikdən, mən qumu uzun müddət öyrənmişəm. Mən bu məsələ ilə dərindən maraqlanmışam. Elə buna görə də mən belə bir yerə gəlmişəm. Bəli, nə deyirsən de, indiki zamanda qum insnları cəlb edir... Bundan məharətlə istifadə etmək olar... Bu yerləri yeni turist zonasına çevirmək olar... Quma qarşı yox, ardınca gedib, ondan istifadə etmək olar. Qısası, başqa cür fikirləşməyə cəhd edin.

Qoca gözlərini qaldırıb, laqeyd görkəmlə dedi:

– Əgər burda müalicəvi isti su mənbələri yoxdursa, hansı turist zonasından söhbət gedə bilər...

Belə baxanda, turizmdən ən çox ticarətçilərlə gəlmələrin qazandığı hamıya məlumdur.

Kişi onun sözlərində istehza tutdu, o dəqiqə qadının həmin taleni yaşayan açıqcaçı və onun xəstələnib ölməsi haqqında söhbətini xatırladı.

– Hə... Əlbəttə, mənim dediklərim, ancaq misal üçündür. Siz qumun xassələrinə uyğun gələn xüsusi kənd təsərrüfatı bitkiləri haqqında düşünmüsünüzmü?.. Açığı, nəyin bahasına olursa olsun, köhnə həyat tərzindən dördəlli yapışıb qalmaq zəruri deyil.

– Biz burda çox şey əkib yoxlamışıq. Yerfındığı da, soğanköklü bitkilər də... Baxıb görəydiz burda tülpan necə çıxır.

– Bəs qumdan qorunmaq üçün aparılan işlər nə yerdədir?.. Qumdan qorunmaq üçün aparılan əsl işlər. Dostlarımdan biri müxbir işləyir. Qəzetin köməyilə ictimai rəyi öyrənə bilərik. Bu işdə mümkün olmayan heç nə yoxdur.

– Sizin bu ictimai rəyinizin bizə nə qədər yazığı gəlirsə gəlsin, əgər pul yardımı almasaq, onun bir qəpik də qiyməti yoxdur.

– Elə mən də onu təklif edirəm ki, belə maliyyə yardımları almaq üçün kompaniyaya başlayaq.

– Hakimiyyətdəkilər küləyin qovub gətirdiyi qumu təbii fəlakət kimi qiymətləndirmir və ziyanı ödəməkdən imtina edirlər.

– Onları məcbur etmək lazımdır!

– Məgər dilənçi bir prefekturada nəyəsə nail olmaq olar? İnamımızı itirmişik. Bizim indi etdiklərimiz, - ən ucuz başa gələndir... Amma hakimiyyətədəkilərə ümid olsan, onlar orda haqq - hesab aparanadək bizi də burda qum süpürüb aparar.

– Lakin axı mənim, mənim özümün cəmiyyətdə tamamilə aydın bir mövqeyim var! - deyə kişi ciyərlərini tam səfərbər edib qışqırdı. - Bax, elə sizi götürək, məgər siz öz övladlarınızın valideyni deyilsinizmi? Siz müəllimlik borcu nədir, bilməyə bilməzsiniz!

Elə bu vaxt qoca kəndiri yuxarı çəkdi. Kişi qəfildən yaxalanmış kimi onu əlindən buraxdı. Nə baş verir?.. Yəni doğrudanmı qoca ona özünü yalandan qulaq asırmış kimi göstərib, onun əlindən kəndiri çəkmək üçün fürsət arayırmış?.. Özünü itirib, irəli uzatdığı əllərini havada yelləyirdi.

– Siz dəlisiniz... Siz anormalsınız... Axı hətta meymunu da əhilləşdirsən, qumu kürəyə bilər...

Mənsə daha çox şeyə qadirəm... İnsan öz imkanlarından istifadə etməyə borcludur...

– Ihı... - deyə qoca bu boşboğazlıqdan yorulduğunu göstərən saymazyana görkəmlə söz atdı. - Yaxşı, mümkünsə məni bağışlayın. Əlimizdən nə gəlirsə, sizinçün edəcəyik...

– Dayanın! Axı mən ciddi deyirəm! Ey, dayanın, xahiş edirəm!.. Peşman olacaqsınız! Axı siz elə heç nə başa düşmədiniz!.. Yalvarıram... Bir dayanın!..

Qoca isə heç bir dəfə də olsun çevrilib, arxaya baxmadı. Çiyinlərində ağır yük aparırmış kimi belini büküb, ayağa qalxdı, getdi. Üç addımdan sonra çiyinləri görünmədi, dördüncü addımdan sonra isə özü də tamamilə gözdən itdi.

Kişi əldən düşmüş halda divara söykəndi. Əlləri və başını quma soxdu və qum boynundan köynəyinin içinə dolmağa başladı, şalvarının belini sıxdığı yerdə yastıq kimi köpdü. Birdən boynunda, üzündə, ayaqlarının arasında tər su kimi axmağa başladı. Bir qədər əvvəl içdiyi su bütünlüklə bədənindən çıxdı. Tər və qum birləşib, dəriyə kip yapışan xardala oxşar bir şey əmələ gətirdi. Dərisi şişib, sürüşkən rezin bürüncəyə oxşadı.

Qadın artıq işə başlamışdı. Birdən kişinin ağlına gəldi ki, qadın suyun qalanını içib. O, təlaş içərisində evə atıldı.

Suyu necə qoymuşdularsa, elə də qalmışdı. Birnəfəsə üç - dörd qurtum vurdu və bu şəffaf mineralın dadına yenə valeh oldu. O, narahatlığını gizlədə bilmirdi. Bu qədər su ilə axşama kimi dözmək olmazdı. Xörək hazırlamaq üçün isə, sözsüz ki, çatmayacaqdı. Bu tiplər dəqiq hesablayıblar. Susuzluq qarşısında qorxu - məni necə istəyirlərsə elə də hərləmək üçün onların əlindəki cilovdur.

İri həsir şlyapanı gözünün üstünə basıb, dalınca qovurmuşlar kimi bayıra atıldı. Onun fikir və mülahizələri susuzluq qarşısında isti alnına düşən aciz qar dənəciklərinə dönmüşdü. Əgər on stəkan - ürəyi vuracaq qədər çoxdursa, onda bir stəkan - qamçıdır desək, daha doğru olar.

Hə, hardadı bu bel?..

Qadın talvarın altını göstərdi və yorğun halda gülümsəyib, köynəyinin qoluyla alnının tərini sildi. Əldən düşsə də, bir an olsun, alətlərin harda qoyulduğunu unutmurdu. Bu, qumluqlarda yaşayan insanın təbii yolla əldə etdiyi ənənəvi düşüncə tərzidir.

Beli əlinə alan kimi yorğun sümükləri qatlanan sacayağın ayaqları kimi qısaldı. Yəqin ona görə ki, keçən gecə demək olar ki, gözünü yummamışdı. Görünür, istənilən vəziyyətdə hər şeydən öncə, görüləsi vacib olan minimal iş həcmi barədə qadınla razılığa gəlmək lazımdır.

Lakin onun üçün hətta danışmaq belə çətin idi. Ola bilsin ki, qoca ilə danışmağa çox güc sərf etdiyindən, səs telləri çürümüş toqqa tək parça - parça olmuşdu. Qadının yanında dayanıb, bellə avtomat kimi işləməyə başladı. Onlar bir - birinə bağlıymış kimi həmahəng qaza - qaza evlə yarğan arasında irəliləyirdilər. Evin taxtadan qayrılmış çiy düyü kökəsi kimi yumşaq divarları, göbələk şitilliyinə çevrilirdi. Nəhayət onlar qumu bir yerə topladılar. Sonra isə bidonlara doldurub, təmizlənmiş yerə sürüdülər. Bütün bidonları çəkib aparandan sonra, yenidən işə başladılar. Qayğısız, az qala avtomatlaşmış hərəkətlər. Ağzı çiy yumurta ağı dadı verən köpüklü tüpürcəklə doludur... Tüpürcəyi buxağıyla üzüaşağı sürüşüb, sinəsinə damır, lakin o, buna fikir vermirdi.

– Bilirsiz, sol əlinizlə bax belə tutun, bir az aşağıdan... - deyə qadın sakitcə işarə vurdu. – Onda bellə az hərəkət etməli olarsan, sağ əlinizdən ling kimi istifadə edin, onda bundan qat-qat az yorularsınız.

Qarğa qarıldadı. Sarı işıq birdənbirə maviyə çevrildi. Ağrı iri planda çəkilmiş kimi ətraf aləmdə əridi. Dörd dənə qarğa sahil boyu lap aşağıdan uçub getdi. Onların qanadlarının ucları tünd yaşıl rəngə çalırdı və nədənsə kişinin yadına həşəratlar üçün nəzərdə tutulmuş bankadakı zəhər düşdü.

Hə, nə qədər ki, yadından çıxmayıb, onları başqa yeşiyə köçürmək və polietilenə bükmək lazımdır. Yoxsa istinin təsirindən bir anda parçalanıb töküləcəklər...

– Bu günlük məncə bəs edər...

Qadın bu sözləri deyib, yarğanın yuxarısına baxdı. Onun sifəti tamam qurumuşdu və nazik qum örtüyü ilə örtülməsinə baxmayaraq, kişi qadının üzünün tamam qansız olduğunu başa düşdü.

Dolaşıq fikir tunelinin içiylə axtara-axtara gəlib, nəhayət kirli yatağını tapdı. Qadın nə vaxt qayıtmışdı - o, artıq eşitmədi.

## 22

Əgər əzələlərinin arasına gips töksən, yəqin ki, əhvalın təxminən belə olar. Səhv etmirəmsə gözlərim açıqdır, bəs onda ətraf niyə belə qaranlıqdır? Hardasa siçan öz yuvasına nəsə dartıb aparır... Boğazım yanır, elə bil yeyə sürtüblər... Ağzımdan zibil quyusunun iyi gəlir... Siqaret çəkmək istəyirəm... Yox, əvvəlcə içsəm yaxşıdır... Su!.. O, həmin anda gerçəkliyə qayıtdı... Belə de... Bu siçan deyilmiş - qadın işə başlamışdı. Görəsən yatdığı nə qədər vaxt olar?.. Qalxmağa cəhd göstərdi, lakin nəsə dəhşətli bir qüvvə onu yenidən döşəyin üstünə tulladı... Birdən nəsə ağlına batdı və üzündəki yaylığı çəkib atdı. Taybatay açılmış qapının arasından jelatindən süzülübmüş kimi təzətər Ay işığı daxil olurdu. Hiss olunmadan gecə düşdü.

Yatağının yanında qazança, lampa və araq şüşəsi qoyulmuşdu. O, cəld dirsəklənib, ağzını yaxaladı. Ağzındakı suyu bir qədər uzağa, ocağa tərəf tüpürdü. Aramla bir neçə ləzzətli qurtum vurdu. Əli ilə lampanın ətrafını yoxladı, barmaqları yumşaq bir bağlamaya toxundu - kibrit və siqaret. Lampanı yandırdı, alovu siqaretinə yaxınlaşdırdı. Bir az da araqdan içdi. Parçalanmış şüuru yavaş - yavaş nəsə bütöv bir şeyə çevrilməyə başladı.

Bağlamada yemək də vardı. Hələ də isti olan düyü və undan hazırlanmış üç kökə, iki dənə qurudulmuş siyənək, turşuya qoyulmuş, quruyub büzüşmüş turp və bir qədər

də acı dadan, - deyəsən, elə həmin turpun qurudulmuş yarpaqlarından ibarət bişmiş tərəvəz. Bircə dənə siyənək və kökə bəs edərdi. Mədəsi yığılıb, rezin əlcək boyda olmuşdu.

Ayağa qalxanda güclü küləkdən titrəyən dəmir örtük kimi oynaqları cırıldadı. Kişi ehtiyatla su çəninin içinə boylandı. Çən yenidən ağzınadək doldurulmuşdu. Kişi yaylığı isladıb, üzünə sərdi.

Titrətmə bütün bədənini dəlib keçdi - gündüz işığı lampasını dəlib keçən qığılcım kimi. O, boynunu, böyürlərini yaylıqla sürtdü, barmaqlarının arasındakı qumu təmizlədi. Bəlkə də, elə belə anlarla həyatın mənasını təyin etmək lazımdır.

– Bəlkə çay içəsiniz? - qadın qapının ağzında dayanmışdı.

– Lazım deyil... Qarnım nağara kimidir - suyla dolub.

– Yaxşı yatdınız?

– Qalxanda gərək məni də oyadaydın...

Qadın başını aşağı salıb, sanki onu qıdıqlayırmışlar kimi bir qədər gülməli səslə dedi:

– Gecə üç dəfə qalxıb, üzünüzdəki yaylığı səliqəyə salmışam.

Bu, nəhayət ki, böyüklərin gülüşünü təqlid etməyi çətinliklə öyrənib başa çıxan üç yaşlı uşağın şıltaqlığına bənzəyirdi. Qadının aşıb - daşan sevinc hissini daha yaxşı necə ifadə etməyin sadəcə yolunu bilmədiyi çaşqın görkəmindən aydın görünürdü. Kişi qaşqabaqla cavab verdi.

– Sənə qazmaqda kömək edim?.. Yoxsa, bidonları daşısam daha yaxşı olar?

– Axı... artıq vaxtdır. İndilərdə səbətləri aşağı sallamalıdırlar...

İşə başlayanda öz bədənindən gözlədiyi müqaviməti hiss etmədiyindən təəccübləndi. Görəsən bu dəyişikliyin səbəbi nədir? Bəlkə səbəb susuz və ya qadının qarşısında borclu qalmaq qorxusudur, ya da ola bilsin ki, bu, əməyin öz xarakterindən gələn bir şeydir. Həqiqətən də, əmək sürətlə uçan vaxtla barışmaqda insana kömək edir, hətta o, mənasız yerə itirilsə belə.

Bir dəfə "Mebiusun Lenti" onu hansısa bir mühazirəyə dartıb apardı. Mühazirənin keçirildiyi yer alçaq, paslı dəmir barmaqlıqla çəpərlənmişdi və onun arxasında o qədər kağız qırıntısı, boş banka, nə üçün nəzərdə tutulduğu bilinməyən əski parçaları səpələnmişdi ki, torpaq heç görünmürdü. Buranı hasarlamaq fikri layihəçinin ağlına hardan gəlib? Və elə bil onun bu təəccüb doğuran sualına cavab verirmiş kimi nimdaş pencəkli bir nəfər peyda oldu, dəmir çəpərin üstündən əyilib, ciddi - cəhdlə barmaqlarını onun üstünə sürtdü. "Mebiusun Lenti" pıçıldadı ki, bu adam paltarını dəyişmiş polis işçisidir. Tavanda yağış damcılarının qəhvəyi rəngli izi yayılmışdı - belə iri iz o heç vaxt görməmişdi. Və belə bir şəraitdə mühazirəçi danışırdı: "Əməyin üzərində ucalmaqdan ötrü əməyin özündən yaxşı vasitə ola bilməz. Əmək öz - özlüyündə qiymət kəsb eləmir, əməyin öhdəsindən əməklə gəlmək qiymət kəsb edir... əməyin həqiqi qiyməti onun özü - özünü inkar etmək gücündədir"

Bərkdən fit səsi eşidildi. Kimsə barmaqlarını ağzına qoyub, şərti siqnal verdi. Qumla dolu səbətlərin qaldırılmasını müşayiət edən qayğısız səs-küy, qışqırıq onların yerləşdiyi dərəyə yaxınlaşdıqca get - gedə sakitləşirdi. Səbətləri aşağı buraxanda isə artıq tam sakitlik çökürdü. O, kənardan müşahidə edildiyini hiss edirdi, lakin divara müraciətlə qışqırmaq əvvəlkindən daha mənasız idi. Lazım olan qədər qumun müvəffəqiyyətlə yuxarı qaldırılmasından sonra elə bil ki, gərginlik azalıb, yox oldu.

Heç kim heç nə deməsə də, artıq belə bir təəssürat yaranmışdı ki, hava və su kimi lazım olan qarşılıqlı anlaşma baş tutub.

Qadının davranışlarında da gözə çarpan dəyişikliklər baş vermişdi.

- Dincələk... Mən indi çay gətirərəm...

Səsində və hərəkətlərində gümrahlıq hiss olunurdu. Qadın gizlətməyə belə çalışmadığı şuxluq, oynaqlıqla aşıb daşırdı. Kişi həddən artıq qənd yeyibmiş kimi çiyrinmişdi. Buna baxmayaraq, qadın onun yanından gəlib keçəndə kişi yüngülcə onun yançalarına şappıldatdı. Əgər gərginlik gəlib son həddə çatıbsa, qoruyucu mütləq yanır. Nə olursa olsun, qadını belə aldatmaq olmaz.

Bir gün gələr o, xəyali qalanı müdafiə edən keşikçi haqqında rəvayəti qadına danışar. Bir qala vardı... Yox, qala olmasa da olar - zavod, bank, kazino olsun - bu, elə də vacib şərt deyil. Keşikçi əvəzinə elə qarovulçu, ya da sadəcə mühafizəçi ola bilər. Beləliklə, daim düşmənin hücumunu gözləyən keşikçi hər an ayıq - sayıq idi. Nəhayət, yolunu uzun müddət gözlədiyi düşmən gəlib çıxdı. Keşikçi vaxt itirmədən həyəcan şeypuru çaldı. Lakin nə qədər qəribə olsa da, əsas qüvvələrdən səs - səmir çıxmadı. Aydın məsələdir ki, düşmən çətinlik çəkmədən, bir zərbəsilə keşikçini süpürüb atdı. O, son nəfəsində dumanlı da olsa, düşmənin heç bir müqavimətə rast gəlmədən, hava kimi divarları, darvazaları, evləri yarıb keçdiyini gördü.

Əslində isə hava kimi olan düşmən yox, qalanın özü idi. Sən demə, tənha keşikçi ömrü boyu vəhşi çöllükdə bitən qurumuş ağac kimi xəyali bir qalanı qoruyub...

Kişi belin üstündə oturub, siqaretini yandırmağa çalışdı. Lakin bu, ona yalnız üçüncü dəfədən sonra müyəssər oldu. Yorğunluğu suya tökülmüş mürəkkəb kimi çevrələr cızır, meduza kimi yeriyir, atom nüvəsi sxeminin qəribə ornamentinə çevrilir və nəhayət əriyib gedirdi. Gecəquşu çöl siçanını görən kimi öz iyrənc səsiylə rəfiqəsini səsləyir. Nədənsə narahat olan it kal səslə hürür. Göyün dərinliklərində toqquşan hava kütlələri vıyıldayır. Yerdə isə şiddətli külək qumun tünük dərisini bıçaq kimi qatbaqat soyur.

Kişi tərini, barmaqları ilə burnunu silib, başından qumu çırpıb təmizlədi. Ayağının altındakı qum naxışları qəfil donmuş dəniz ləpələrinə oxşayırdı. Əgər bu səs dalğaları olsaydı, gör indi buralarda nə melodiya səslənərdi! İnsanın burnunu kömür maşası ilə sıxsan, qulaqlarını qan laxtası ilə doldursan, çəkiclə bir - bir dişlərini vurub sındırsan, onda, çox güman ki, o da bu melodiyanı zümzümə edə bilər. Lakin bu çox qəddar hərəkət olardı və düzünə qalsa, melodiyanın özü də artıq sən deyən kimi alınmaz... Birdən ona elə gəldi ki, gözləri quş kimi göyün yeddinci qatına qalxdı və ordan onun özünə diqqətlə baxmağa başladı. Heç kim yox, elə onun özü bütün baş verənlərin qəribəlikləri barədə düşünə - düşünə, çox qəribə həyat tərzi keçirir.

## 23

Got a one way tijket to the blues, woo, woo... (Mən göylərə gedən qatara - bir tərəflik bilet almışam, vuu, vuu...)

Oxumaq istəyirsən - buyur, oxu. Əslində isə kiminsə yalnız bir tərəfə bilet sırıdığı adam heç vaxt belə oxumaz. Yalnız bir tərəfə bileti olan adamların ayaqlarının alt dərisi çox nazik olur və onlar hətta kiçicik bir daş üstünə çıxanda da ağrıdan çığırırlar. Sonra - bir addım da olsun atmırlar.

Onlar göylərə aldıqları biletin hər iki başa olması haqqında oxumaq istərdilər. Bir tərəfə olan bilet - dünənlə bu gün, bu günlə sabah arasında əlaqəsi olmayan hissələrə parçalanmış həyatdır.

Və yalnız ovcunda geriyə bileti olan adam bir tərəfə bilet haqqında azca qəmli mahnı oxuya bilər. Bu, dəqiqdir. Elə bu səbəbdəndir ki, o, daim səksəkədədir - qorxur ki, biletin yarısını itirər və geri qayıda bilməz, yaxud onu oğurlayarlar; səhmlər alır, həyatını sığortalayır, həmkarlar və müdiriyyətlə ikiüzlülük edir. O, qazılmış dərələrdən və çirkab suları axan xəndəklərdən eşidilən fəryad səslərini, - ancaq bir tərəfə bilet əldə etmişlərin qışqırıqlarını eşitməmək üçün qulaqlarını tıxayır. Bu barədə fikirləşməmək üçün televizorun səsini lap ucaldır və var qüvvəsilə bir tərəfə alınan bilet haqqında blüz oxumağa güc verir.

İndi əlinə girəvə düşən kimi kişi gizlincə kəndir düzəldirdi. O, köynəyini zolaq - zolaq kəsib, bir - birinə bağladı, ucuna isə qadının rəhmətə getmiş ərinin kimanosunun bel ipini sarıdı - təxminən beş metr uzunluğunda bir şey alındı. Vaxt gələcək və o, kəndirin o biri başına ağzı açıq şəkildə qalması üçün arasına taxta parçası qoyub bərkitdiyi köhnə paslı qayçını bağlayacaq. Hələlik isə kəndir çox qısa alınıb. Lazım olan uzunluğu almaq üçün üstündə buğda və balıq qurudulan torpaq döşəməyə tarım çəkilmiş həsir kəndiri, paltar zivəsini də bağlamaq lazım gələcək.

Bu ideya ağlına tamamilə gözlənilmədən gəldi. Axı heç də vacib deyil ki, yalnız çoxdan fikrində dolaşan planlar həyata keçsin. Planlarını işləyib hazırlayarkən fikrinin hansı yollardan keçib getdiyini anlamaq mümkünsüz olduğundan, belə gözlənilməz dərketmənin təməli özü özündədir.

Gözlənilməz verilən qərarların müvəffəqiyyət qazanma şansı daha çoxdur, nəinki sonsuz olaraq düşünülüb daşınılmış qərarların.

İndi isə cəmi bir məsələ qalırdı - planının həyata keçirilməsi vaxtını təyin etmək. Dərədən çıxmaq üçün ən rahat vaxt gündüzdür - bu vaxt qadın yatır. Bu, artıq həll olunub. Lakin işıq ikən kəndin içi ilə getmək yaramaz. Yəqin ən yaxşısı budur: qadın oyanmamışdan bir qədər əvvəl yuxarı çıxmaq, etibarlı yerdə gizlənmək və günün batmasını gözləyib, kənddən uzaqlaşmaq. Ay çıxana qədər qaranlıqdan istifadə edib, kifayət qədər asan yolla avtobusların hərəkət etdiyi şosseyə çıxmaq olar.

Bütün bu vaxt ərzində kişi qadından ərazinin relyefi və kəndin tutduğu mövqe barədə söz almağa çalışırdı. Dənizin kənarında yerləşsə də, bir dənə olsun balıqçı gəmisi olmayan kənd necə dolanır?.. Nə vaxtdan qadın belə vəziyyətə düşüb?.. Kənddə ümumiyyətlə nə qədər adam yaşayır?.. Kim və harada zanbaq əkib becərir?.. Uşaqlar məktəbə hansı yolla gedirlər?.. Kənd haqqında bu yolla əldə etdiyi məlumatları, kəndi öz gözlərilə gördüyü və yayğın yadında saxladığı o yeganə günün xatirələrini fikrən də olsa cəmləyib, ərazinin təxmini planını cıza bildi.

Əlbəttə, qaçışını kəndin içi ilə deyil, onu yandan ötərək həyata keçirə bilsəydi, ideal olardı.

Lakin qərb tərəfdən yolu sıldırımlı burun kəsirdi, bura çox da hündür olmasa da, min illər boyu sinəsini gəmirən dalğalar onu üst - üstə qalanmış dik qayalara çevirmişdi. Düzdü, orada kənd əhlinin çırpı yığmağa gedəndə dırmaşdığı cığırlar var, amma həmin cığırlar kol - kosun arasında itib batıb və onları axtarıb tapmaq elə də asan deyil. Həddən artıq zəhlətökən sorğu - suallar isə qadını şübhələndirə bilərdi. Kəndin şərqində isə təxminən on kilormetr uzunluğunda ins – cinsin yaşamadığı, qum təpələri ilə haşiyələnmiş körfəz quruya daxil olmuşdu. Həmin körfəz kəskin dönüş

edib demək olar ki, lap kəndə bitişirdi. Beləliklə, kənd sanki boğazı dik qayalar və körfəzlə sıxılmış qum kisəsinin içində yerləşir. Buna görə də sərsəri kimi gəzib vaxt itirmək və bu tiplərin səni təqib etməsinə şərait yaratmaqdansa, mərkəzdən cəsarətlə yarıb keçməyi həyata keçirmək daha təhlükəsiz olardı.

Lakin bütün bunlar hələ o demək deyil ki, məsələ tam həll olunub. Elə götürək bu başıbəlalı yanğınsöndürmə qülləsindəki gözətçini. Bundan əlavə, qadının onun qaçdığını görüb, səs-küy qaldıracağından və kənddən çıxış yollarının o, oranı tərk etməmiş qapadılacağından ehtiyatlanmaq lazımdır. Ola bilsin son nəticədə bu iki məsələni birində cəmləmək oldu. İlk qumdaşıyanlar dəstəsi su və qalan vacib şeyləri gün batandan sonra gətirirlər. Və əgər qadın qumdaşıyanlar gələnə kimi onun itməsi barədə xəbər vermək istəsə, bunu yalnız yanğınsöndürmə qülləsindəki gözətçinin vasitəsilə edə bilər. Buna görə də məsələ ora gəlib çıxırdı ki, gözətçinin işi necə olsun.

Xoşbəxtlikdən bu yerlərdə, görünür temperaturun kəskin dəyişməsi səbəbindən, gün batmazdan qabaq təxminən yarım saat, bəzən də düz bir saat müddətində yeri yüngül duman örtür. Bu ona görə baş verir ki, qumun tərkibindəki çox zəif istilik tutumu olan silisium turşusu gün ərzində canına çəkdiyi istiliyi çox tez buraxır. Qüllədən baxanda bütün bu ərazi ona, yəni qülləyə nəzərən işığın əks olunma bucağı altında yerləşir və ən zəif duman belə gözətçi üçün arasından heç nə görünməyən qalın ağ örtüyə çevrilir. Srağagün buna bir daha əmin oldu. Dənizə baxan tərəfdən yarğanın altında bir müddət nə barədəsə işarə verirmş kimi dəsmal yellədi, lakin güman etdiyi kimi buna heç bir reaksiya verilmədi.

Planını bu barədə ağlına gələn ilk gündən dörd gün sonra həyata keçirməyə qərar verdi: əl-üz yumaq üçün su gətirildiyi şənbə axşamını seçdi. Qaçışdan əvvəlki gecəni özünü xəstəliyə vurdu ki, doyunca yata bilsin. Hətta ehtiyat tədbiri kimi necə etdisə, onu aspirin içməyə belə məcbur etdilər. Görünür, dərman həbləri uzun müddət xırdavat dükanının uzaq künc-bucağında atılıb qalmışdı - rəngini tamam itirmişdi. O, üstündən araq içməklə iki həb qəbul etdi və nəticə özünü çox gözlətmədi. Qadın işini bitirib qayıtmayınca heç bir səs-küy eşitmədi - yalnız bir dəfə qum dolu səbətin necə qaldırıldığını eşitdi.

Uzun fasilədən sonra qadın yenə tək işləməli oldu və o, yorğunluqdan ayaq üstə güclə dayanırdı.

Qadın onsuz da gecikmiş xörəyi hazırlayana kimi kişi tənbəl-tənbəl ordan-burdan çərənləyirdi - məsələn deyirdi ki, çoxdan sıradan çıxmış əl-üzyuyanı təmir etmək pis olmazdı. Qadın onun sağlamlığına zərər vurar deyə pərtliyini üzə vurmurdu və yəqin ki, onun eqoizminin artıq buralarda kök atması sübutu kimi qəbul edirdi. Bir iş görəndən sonra hər adam yuyunmaq istəyir.

Xüsusən də adamı yuxudaykən tərləmiş dərisinə yapışan qum qıcıqlandırır... Bu gunsə xoşbəxtlikdən yuyunmaq üçün su gətirilən gündür və elə qadının özü üçün də onu çimizdirməkdən ləzzətli heç nə ola bilməz, yəqin bu gün o, üzüyola olacaq.

Qadın onu yuyundurmaqdaykən qəflətən həvəsə gəldi və qadının kimanosunu dartıb, əynindən çıxardı. O da qadını yuyundurmaq istəyirdi. Qadın çaşqınlıq və intizar içində yerində donub qalmışdı. Sonra isə etiraz edirmiş kimi əlini qaldırsa da, əslində konkret nəyə etiraz etdiyi qaranlıq idi. Kişi tələsik onun üstünə bir parç isti su axıtdı və kisəsiz, sabunlu əlləri ilə qadının bədənini sürtməyə başladı. Əlləri onun boynundan çənəsinə, çiyinlərinə sürüşürdü və biri tezliklə qadının döşünə çatdı. Qadın

astadan qışqıraraq ona sıxıldı. Qadın gözləyirdi. Lakin kişiləngiyirdi. Onun əlləri hələ də qadının bədənində dolaşırdı.

Nəhayət, qadının ehtirası ona da keçdi. Lakin birdən onu nəsə anlaşılmaz bir kədər hissi bürüdü.

Qadın daxildən gələn işıqla büsbütün işıldayırdı - sanki içində işıldaquşlar yanırdı. İndi ona xəyanət etmək - ölümə məhkum edilmişin qaçmağına şərait yaradıb, elə o anda da arxadan güllə ilə vurmaq kimi bir şey olardı. O, yenidən oyanmış ehtirasını qamçılayaraq, coşmuş halda qadının üstünə atıldı. Lakin hər bir ehtirasın sərhədi var. Belə səbirsizliklə nəvaziş gözləyən qadın əvvəlcə kişinin coşmasından qorxdu və o, həvəsini artıq ödəyibmiş kimi halsız düşdü.

Sonra isə xəyalını müxtəlif riskli situasiyalarla həyəcanlandıra-həyəcanlandıra, qadının döşlərini öpə-öpə, sabundan, tərdən və qumdan az qala maşın yağıyla dəmir ovuntuları qarışıq bir şeylə örtülən bədəninə əzab verə-verə yenidən özünü qızışdırmağa başladı. O, beləcə lap iki saat da davam etməyə hazır idi. Nəhayət qadın ağrıdan hətta dişlərini qıcırdaraq çömbəldi. Kişi qadının üstünə atıldı... Bir anda hər şey bitdi. Kişi qadının sabunlu bədənini yumaq üçün üstünə su tökməyə başladı, sonra isə güclə də olsa içində üç dənə aspirin həbi həll edilmiş araq içməyə məcbur etdi. İndi qadın lap gün batanadək, hələ bəxti gətirsə, qum daşıyanların qışqırığı onu oyadanədək bərk yuxuya gedəcək.

Qadın burnuna kağız tıxac tıxayıbmışlar kimi yuxuda fısıldayırdı... O, rahat nəfəs alırdı. Kişi yüngülcə onun pəncəsinə toxundu, lakin qadın heç tərpənmədi də... İçərisindən hissiyatı sıxılıb çıxarılmış boş tübik. O, qadının üzünü örtən yaylığı düzəltdi və kəndir kimi burulub, yuxarı çəkilmiş kimanonu aşağı, dizlərinə tərəf çəkdi. Xoşbəxtlikdən başı son hazırlıq işlərinə qarışmışdı və yersiz həssaslıq göstərməyə vaxtı yox idi. Köhnə qayçının üstündə cadugərliyini bitirdikdən sonra, lazımi an gəlib yetdi. Axırıncı dəfə qadına baxanda, gözlədiyi kimi, ürəyinin sıxıldığını hiss etdi.

Dərənin divarlarına, yuxarıdan təxminən bir metr aşağıya zəif işıq düşürdü. Hesabnan yeddinin yarısı olardı - yeddyə iyirmi dəqiqə qalardı. Əsl vaxtdır. O, qurumuş kürəyini düzəltmək məqsədilə var gücü ilə qollarını arxaya atdı və bir neçə dəfə boynu ilə idman hərəkəti etdi.

Əvvəlcə dama qalxmaq lazımdır. Ən yaxşısı əşyanı qırx beş dərəcəyə yaxın bucaq altında tullamaqdır. O, kəndirlə dama çıxmağı yoxlamaq istədi, amma ürək etmədi - dama dəyən qayçının səsi qadını oyada bilərdi. Buna görə də yaxşı olar ki, bu eksperimentdən imtina etsin və evin başına dolanıb, haçansa altında pal-paltar qurudulan yarıuçuq talvarın köməyi ilə dama çıxsın. Nazik dördkünc tirlər demək olar ki, çürümüşdü və bu onu qorxudurdu. Lakin ən qorxulusu hələ qabaqda idi. Havada uçuşan qumla pardaxlanmış dam örtüyünün ağ taxtaları təptəzəymiş kimi parıldayırdı. Lakin ora çıxan kimi damın biskivit kimi yumşaq olduğu üzə çıxdı. Uçulsa, həngaməyə bax da. Yerə sərilərək, ehtiyatla üzüyuxarı sürünməyə başladı.

Nəhayət lap hündürə çatıb, dizi üstə qalxdı. Artıq damın yuxarısna da kölgə düşürdü və qərb tərəfdən dərənin qırağındakı, xarlanmış bal rəngində olan qum dənələrinin apaydın görünməsi dumanın enməsinə işarə edirdi. İndi qüllədəki keşikçidən qorxmamaq da olardı.

Sağ əli ilə kəndirin qayçı bağladığı yerindən təxminən bir metr aşağı hissəsindən tutaraq, səbətləri qaldırmaq üçün blok kimi istifadə edilən kisələrə tərəf tuşlayıb,başı

üstündən fırlamağa başladı. Əgər onlar kəndir nərdivana dözürlərsə - deməli, kifayət qədər möhkəm basdırılıblar. O, get-gedə kəndiri daha bərk fırlatmağa başladı, sonra isə nişan alıb atdı. Lakin kəndir əks istiqamətə uçdu. Düzgün hesablamamışdı. Qayçı çevrəyə toxunan xətt üzrə uçmalıdır; buna görə də kəndiri əlindən, o, hədəfə nəzərən düz bucaq altında olanda və ya buna bir an qalmış buraxmaq lazımdır. Hə, dübbələndüz!.. Heyf, bu dəfə qayçı yarğanın ortasına dəyib, aşağı düşdü.

Görünür, fırlanmanın sürəti və qalxma bucağı kifayət etmədi.

Bir neçə cəhddən sonra o, nəhayət ki, məsafə və istiqaməti dəqiq təyin etdi. Düzdü, müvəffəqiyyətə hələ çox vardı. O, hətta ən kiçik ümidverici əlamət belə olsaydı, sevinərdi. Lakin hələlik onun müvəffəqiyyətə yaxınlaşdığına oxşamırdı, - əksinə, yorğunluq və əsəbilik uğurdan uzaqlaşdırır, uzaqlaşdırırdı. Bəli, bütün bunlar əvvəlcə ona çox sadə görünürdü. O əsəbiləşir, acıqlanır və ağlmağa belə hazır idi, baxmayaraq ki, heç kim onu ümidvar etməmişdi.

Axı deyəsən, imkanın cəhd sayına düz mütənasib olduğunu deyən ehtimal nəzəriyyəsi heç də boşuna danışmır. Və o, allah bilir, artıq neçənci dəfə elə belə, heç bir ümidi olmadan kəndiri atanda, o, yəni kəndir gözlənilmədən düz kisələrin üstünə düşdü. Kişinin ağzı açıq qaldı, yerində dondu. Ağzını dolduran su axmağa başladı. Lakin sevinmək hələ tez idi... onun əlində hələlik ancaq lotoreya bileti almaq üçün pul var idi... Bilet udacaq, ya udmayacaq - gələcək göstərər. Elə bil onun hər bir siniri kəndirə bağlanmışdı. Ehtiyatla, sanki hörümçək sapı ilə ulduzu çəkirmiş kimi kəndiri özünə tərəf çəkdi.

Müqavimət hiss etdi. Əvvəlcə buna inanmağı gəlmədi, lakin kəndir həqiqətən də yerindən tərpənmədi. Daha da bərk çəkdi... Gərilərək gözləyirdi - indilərdə qırılacaq... Lakin artıq heç bir şübhə yeri yox idi. Qarmağa çevrilmiş qayçı kisələrə möhkəm ilişmişdi. Bəxti gətirdi!.. İlahi, necə də gətirdi!.. Elə bu dəqiqələrdən hər şey yaxşı getməyə başlayacaq! Hökmən!

Kişi cəld damdan düşüb, indi rahat-rahat aşağı sallanıb, qum divarını kəsən kəndirin yanına qaçdı. Bax orda, orda yerin üstüdür... İnanılmaz dərəcədə yaxında... Sifəti gərilmiş, dodaqları əsirdi. Heç şübhəsiz Kolumb yumurtası bişmiş olub. Lakin yumurtanı həddən artıq bişirsən, hər şeyi korlayarsan.

Kəndirdən yapışıb, bütün ağırlığıyla ondan sallandı. Və o dəqiqə kəndir rezin kimi uzanmağa başladı. Qorxudan büsbütün tərlədi. Xoşbəxtlikdən kəndir təxminən otuz santimetr gərildikdən sonra, daha uzanmadı. O, yenidən kəndirdən sallandı. Bu dəfə narahatlıq üçün əsas yox idi.

Ovuclarına tüpürüb, kəndiri ayaqları ilə tutdu və yuxarı dırmaşmağa başladı. O, oyuncaq meymun oyuncaq palmaya dırmaşan kimi dırmaşırdı. Ola bilsin ki, həyəcandan - alnının təri soyuq idi. Kişi qum üstünə töküliəsin deyə, divara toxunmadan, yalnız kəndirin köməyi ilə yuxarı dırmaşırdı deyə, bədəni fırlanırdı. Hər şey onun gözlədiyindən qat-qat ləng gedirdi. Yerin cazibə qüvvəsi həqiqətən də çox dəhşətli şeydi. Bəs bu titrətmə hardan çıxdı? Qolları onun iradəsindən asılı olmayaraq hərəkət edirdi, elə bil özü-özünü yuxarı atırdı. Əgər zəhərlə dolu qırx altı günü xatırlasaq, burda qəribə heç nə yox idi. O, bir metr qalxanda, dərənin dibi yüz metr dərinə getdi, iki metr qalxanda isə - ən azı iki yüz metr uzaqlaşdı. Dərinlik artırdı, nəhayət başgicəlləndirici uzaqlıqda oldu... Yorulub əldən düşmüşdü... Aşağı baxmaq lazım deyil!.. Lakin budur, artıq yerin üstü... Üstündə azadə hara istəsən, lap dünyanın axırına da gedə biləcəyin yollarla dolanmış yer... O, yerin üstünə çatanda burda nə baş

vermişdisə, hər şey cib dəftərçəsinin səhifələri arasında qurudularaq xatirə kimi saxlanan kiçik gül ləçəklərinə çevriləcək... Zəhərliləri də, yırtıcıları da - bütün bunlar nazik, yarımşəffaf, rəngbərəng kağız qırıntılarına çevriləcək, sən də onları işığa tutub, rahatca evində çay iç - o, bunlarla bağlı olan hər şey haqqında danışmaqdan zövq alacaq.

Elə bu səbəbdən də onda qadını nədəsə günahlandırmaq həvəsi tamam itdi. Zəmanət vermək olar ki, qadın ləyaqətliliyi ilə seçilmirdi, lakin fahişə də deyildi. Qadına zəmanət məktubları tələb olunarsa o, bunu sevinə-sevinə edər - neçəsini istəsən, lap on dənəsini. Lakin məndən ancaq və ancaq hər iki istiqamətə alınan o bircə biletlə yapışan bu qadın necə də sadəlövhdür. Axı hətta bilet elə həmin biletdirsə də, yola düşmə nöqtəsi müxtəlifdirsə, təbiidir ki, çatma nöqtəsi də müxtəlif olacaq. Onun geriyə biletinin qadın üçün əks istiqamətdə olacağında təəccüblü heç nə yoxdur.

Tutaq ki, qadın hər hansı bir səhvə yol verib... Amma axı səhv - elə səhvdir, başqa bir şey deyil.

...Aşağı baxma! Aşağı baxmaq olmaz!

Alpinist, pəncərətəmizləyən, televiziya qülləsindəki montyor, sirk gimnastı, elektrik stansiyasının hündür bacasındakı bacatəmizləyən - onlardan hər hansı birinin aşağı baxması kifayət edər ki, yerə yıxılsın.

## 24

Hər şey yaxşıdır!

Dırnaqlarıyla kisələrdən yapışıb, əllərinin qanı axa-axa dərədən çıxmağa çalışırdı. Budur, o yuxarıdadır! İndi barmaqlarını boşaltsan yerə yıxılacağından qorxmaya bilərsən. Lakin hələlik barmaqlarının açılmağa gücü qalmamış, hələ də kisələrdən bərk-bərk yapışıb, qalmaqda davam edirdi.

Qırx altıncı gün əldə edilmiş Azadlıq onu güclü, sərt küləklə qarşıladı. O sürünməyə başlayanda, qum dənələri ağrıdacaq dərəcədə boynuna, sifətinə vurmağa başladı. O, bu dəhşətli küləyi nəzərə almamışdı!.. Dərənin içində dənizin səsi adət etdiyindən çox-çox bərk gəlir. Bir şey də var ki, axı indi dənizdə hər axşam olduğu kimi sakit hava hökm sürməlidir. Yoxsa duman olacağına heç bir ümid yeri qalmır. Ya bəlkə göy üzünün dumanla örtülməsi onun gözünə səmaya dərədən baxanda görünüb? Ya bəlkə havada bulud-bulud uçuşan bu qumu duman bilib? Hər nə cür baxsan, bütün bunlar yaxşı heç nə vəd eləmir.

Başını qaldırmadan həyəcanla ətrafa baxmağa başladı... Zəif işıqda yanğınsöndürmə qülləsi bir qədər əyri görünürdü. Yazıq görkəmli qülləyə bir xeyli məsafə vardı. Lakin ordan durbinlə baxırdılar deyə, məsafənin uzaqlığına ümid etmək olmazdı. Maraqlıdır, görəsən artıq onu görüblər, yoxsa yox?.. Yəqin ki, yox. Yoxsa o dəqiqə aləmə car çəkərdilər.

Bir dəfə necə oldusa qadın ona yarım il əvvəl, gecə tufan qopmasından, kəndin qərb tərəfindəki dərələrdən birinin divarının uçmasından və oradakı evin yarıyadək qum altında qalmasından danışdı. Sonra başlayan yağışdan onsuz da yaş olan qum daha da ağırlaşıb. Ev kibrit qutusu tək uçub dağılıb. Xoşbəxtlikdən tələfat olmayıb və səhər açılan kimi sakinlər dərədən çıxmağa çalışıblar. O saat həyəcan zəngi çalınıb və heç beş dəqiqə keçməmiş oradan dartıb çıxardıqları qarının ağlamağı eşidilib...

"Deyilənlərə görə, bu ailənin beynində nəsə irsi xəstəlik var", - deyə bic-bic əlavə etdi...

Yaxşı, gözləməyə dəyməz. O, cəsarətlə başını qaldırdı. Qırmızıya çalan qum dalğaları boyunca uzun kölgələr uzanırdı. Küləyin bir kölgənin üstündən qaldırdığı qum örtüyü digərinin, sonra isə tamam ayrısının üstünə uzanırdı. Bəlkə onu kiminsə görməyinə bu uçan qum örtüyü mane olur?..

İşığın gözünü qamaşdırıb - qamaşdırmadığını yoxlamaq üçün ətrafına boylananda kişi az qaldı təəccübdən yerində donsun. Deməli, qürub edən günəşin rəngli qələmlərlə rənglənibmiş kimi görünməsində, ətrafda hər şeyin süd rəngli dumana bürünməsində təkcə havada uçuşan qum dənəcikləri səbəb deyildi. Orda - burda yerdən çəngə-çəngə duman parçaları qalxırdı. Bir yerdən dağılanda başqa bir yerdə peyda olur, ordan qovulanda isə, yenidən bu yanda toplaşırdılar...

Dərədə olduğu müddətdə qumun rütubəti özünə çəkdiyinə şəxsən əmin olmuşdu, amma bu dərəcədə olduğunu təsəvvür belə etmirdi... Bütün bunlar yanğınsöndürənlərin tərk etdiyi küllüyü xatırladırdı... Düzdü, işıq arxadan düşdüyündən duman bir qədər seyrək və az sezilən idi, amma hər halda müşahidəçinin gözündən yayınmaq üçün kifayət qədər etibarlı sığınacaq idi.

O, belinə asdığı çəkmələrini geyindi, kəndiri büküb cibində gizlətdi. Bir şey olarsa qayçıdan silah kimi də istifadə etmək olardı. Qərbə tərəf qaçmaq lazımdır - müşahidəçinin gözünə düşən işıq onu qoruyacaq. Bir yer tapıb gizlənmək və günəş batanadək orda oturub gözləmək lazımdır.

Di cəld ol!.. Əyil və ovalıqla qaç!.. İndi özünü itirmə... Tələs, lakin gözünü dörd elə... Bax o çuxura uzanacam!.. Bu nə şübhəli səsdir gəlir?.. Pis əlamət deyil ki?.. Bəlkə, yox... Qalxacam və irəli... Çox da sağa getmə!.. Sağ yamac çox alçaqdır və artıq yolun ortasında onu sezə bilərlər...

Gündəlik qum dolu səbət daşımaları nəticəsində dərələr arasında dərin düz cığırlar tapdanmışdı.

Bəzi yerlərdə həmin cığırların sağ tərəfi uçmuş və maili olmuşdu. Bir qədər aşağıda, dərədə gizlənmiş ikinci sıra evlərin damları görünürdü. Onların qarşısını dənizə bir qədər yaxın olan üçüncü sıra tutmuşdu. Bu səbəbdən də dərələr kifayət qədər kiçik idi və qumdan qorunmaq üçün nəzərdə tutulmuş çəpər buralarda hələ xidmətini davam etdirə bilirdi. Dərələrin kəndə tərəf olan yerindən asudə çıxmaq olardı. Bir qədər yerindən qalxmağı kifayət etdi ki, az qala bütün kənd əlinin içi kimi görünsün. Dalğavari qum təpələrinin ətəklərində yelpik kimi açılmış kirəmitli, sinklənmiş, nazik taxtalardan qayrılmış damlar üst-üstə qalaqlanmışdı... Düzdü, bir qədər seyrək də olsa şam meşəliyi və nəsə gölməçəyə oxşar bir şey də görünürdü. Və beləliklə, bu bir tikə bədbəxt torpaq sahəsi ucbatından, sahildə yerləşən onlarla ev qul həyatına məhkum olub.

Qulların yaşadığı bu dərələr indi yolun solu ilə uzanıb gedirdi... Ara - sıra yerlə sürüdülən səbətlərin açdığı cığırların şaxələndiyi gözə dəyirdi, yolun sonunda isə dərənin haradan başlandığına işarə edən qum dolu kisələri görmək olardı... Onlara hətta sadəcə baxmaq beləağrılı idi. Bəzi yerlərdə kisələrə kəndir nərdivan bağlanmamışdı, lakin dərələrin çoxunda belə nərdivanlar var idi. Görünür, bu dərələrin bir çox sakini ümumiyyətlə qaçmaq fikrindən vaz keçmişdi.

İndi o, belə bir həyat tərzinin də mümkün olduğunu özü üçün asanca təsəvvür edirdi. Mətbəxlər, içində od qalanan sobalar, yazı masası əvəzinə işlədilən içi

dərsliklərlə dolu alma səbətləri; mətbəxlər, döşəmədə qazılan ocaqlar, lampalar, içində od qalanan sobalar, sıyırma sınıq – salxaq arakəsmələr, mətbəxlərin his basmış tavanları, işləyən saatlar və dayanan saatlar, qışqırışan radioqəbuledicilər və işləməyən radioqəbuledicilər; mətbəxlər və içində od qalanan sobalar... Və bütün bunlara çərçivəyə salınıbmış kimi mal-qara, uşaqlar, fiziki yaxınlıq, qarşılıqlı öhdəçiliklər, ucuz bər-bəzək, xəyanətlər, yaltaqlıqlar, xatirə şəkilləri pərçim edilib... Eyni bir şeyin adamı dəhşətə salacaq qədər yeknəsəq təkrarı...Baxmayaraq ki, bu təkrar həyatda qaçılmaz olan - ürək döyüntüsü kimidir, amma hər halda həyat özü də təkcə ürək döyüntüsündən ibarət deyil axı.

Yerə uzan!.. Yox, hər şey yaxşıdır. Adicə qarğadı...Hələlik qarğa tutub, ondan müqəvva düzəltmək ona qismət olmayıb, lakin indi bunun elə də əhəmiyyəti yoxdur. Döymə şəkil, medal, ordenlər haqqında arzular ağlasığmaz yuxulardan sonra ağıla gəlir.

Deyəsən, kəndin qırağına gəlib çatıb. Yol qum təpəsinin üstünə çıxdı, soldan dəniz göründü.

Külək ləpədöyənin acı havasını gətirdi, fırfıralar fırlanıbmış kimi qulağı və burun pərələri cingildədi. Başına bağladığı dəsmalın ucları küləkdə yellənir, yanaqlarına çırpılırdı. Burda artıq duman da gücünü itirir, qalxa bilmirdi. Dənizin üzü qaynanmış südün köpüyü kimi xırda qırçınlarla bükülmüş qalın qurğuşun laylarla örtülmüşdü. Buludların sıxdığı qurbağa kürüsünü xatırladan günəş batmaq istəmədiyindən yerində donub qalmışdı. Üfüqdə qara nöqtə kimi donmuş gəmiyə qədər olan məsafəni və onun ölçülərini təyin etmək imkansız idi.

Qarşısında maili qum təpələri intəhasız dalğalartək düz burunun axırınadək uzanıb gedirdi.

Doğrusu, yolu belə davam etdirmək heç də təhlükəsiz deyildi. Qətiyyətsiz halda ətrafına boylandı. Xoşbəxtlikdən yanğınsöndürmə qülləsinin qarşısını çox da hündlür olmayan təpə tuturdu və oradan onu görə bilməzdilər. Ehmalca pəncələri üstə qalxıb özündən sağ tərəfdə, qum yarğanının kölgəsində əyilmiş, demək olar ki, damına qədər quma girmiş, ancaq o dayanan yerdən görünə bilən daxma gördü. Külək döyən yerdə dərin çökək vardı, elə bil çömçə ilə qazmışdılar.

Əla sığınacaqdı... Qumun üstü balıqqulağı içi kimi hamardır, heç yerdə insan ləpiri gözə dəymir... Amma bəs özünün qoyduğu izlər necə olsun?.. O, ayaqlarının izilə geri qayıtdı, lakin heç otuz metr getməmişdi ki, onların yerli-dibli silindiyini gördü... Hətta ayağının yanındaca izlər çöküb, formasını dəyişirdi... Sən demə, külək də nəyəsə yarayarmış.

Artıq daxmanın yanından ötüb keçməyə hazırlaşırdı ki, birdən oradan nəsə qara bir şey çıxmağa başladı. Donuz kimi piyli kürən bir itmiş. Qorxmağa dəyməz. Get burdan! Ancaq gözünü naməlum adama dikmiş it getməyə hazırlaşmırdlı. Qulağının biri parçalanmış, proporsional olmayan xırda gözləri bəd-bəd baxırdı. İt onu iyləməyə başladı. Görəsən, hürməyə hazırlaşmır ki? Kişisən hür... O. əlini cibinə salıb, qayçını ovcunda sıxdı... Əgər hürsə, başını qayçıyla deşəcəm! Lakin it səsini çıxarmadan ona tərəf acıqlı-acıqlı baxmaqda davam edirdi. Bəlkə vəhşi itdir?.. Pırtlaşıq tükləri çəngə-çəngə sallanmışdı... Bəlkə nəsə xəstəliyi-zadı var - bütün sir-sifəti qasnaqdır... Deyirlər, hürməyən it qorxulu olur... lənət şeytana! Gərək özümlə nəsə yeməkdənzaddan götürəydim... Hə, yemək götürmək lazım idi, ay səni, zəhər şüşəsini götürmək yadımdan çıxdı... Eybi yox, zəhəri elə gizlətmişdi ki, çətin qadın onu tapa

bilsin... Kişi yavaşca fit çalıb, itlə dostlaşmağa cəhd edərək əlini uzatdı...İt buna cavab olaraq, nazik dodlaqlarını uzadıb üstünə qum yapışmış sarı dişlərini ağartdı... Yox, çətin ki, bu it ona tamah salsın... Necə də iyrənc qarınqulu görkəmi var... Elə vurasan ki, bircə zərbədən gəbərə...

Gözlənilmədən it başını aşağı salıb çevrildi və heç nə olmayıbmış kimi tənbəl-tənbəl uzaqlaşdı.

Görünür, kişinin hədəli görkəmindən qorxmuşdu. Əgər o, vəhşi iti belə qorxuda bilibsə, deməli ruhən hələ güclüdür. Qumluqla düzən yerə sürüşüb, enişdə uzanıb qaldı. İndi küləyin ona əli çatmırdı və bəlkə də buna görə özündə yüngüllük hiss etdi. Küləkdən səndələyən it havada uçuşan qum pərdəsinin arxasında gözdən itdti. Görünür, adamlar bura yaxın da durmurlar, yoxsa bu komada vəhşi it məskunlaşmazdı...Və nə qədər ki, it gedib artel idarəsinə ondan xəbərçilik etməyib, hər şey yaxşıdır. Bədənindən tər su kimi axsa da, o bundan ancaq ləzzət alırdı. Necə də sakitlikdi!.. Elə bil onu qabın dibinə atıb, üstünə jelatin çəkiblər... İndi onun əlində saat mexanizmli bomba var, partlayışın vaxtı isə naməlumdur, lakin bu, zəngli saatın çıqqıltısından heç də çox narahat etmir... Onun yerində "Mebiusun Lenti" olsaydı, o dəqiqə vəziyyəti analizə edər və deyərdi:

- Sən, mənim dostum, məmnuniyyəti vasitələri məqsədə çevirməkdə tapan tipik insan nümunəsisən.

- Tamamilə doğrudur,- deyə o razılaşardı - Lakin vasitələrə, məqsədə sərhəd qoymaq beləmi vacibdir?.. Onlardan şəraitdən asılı olaraq, lazimi şəkildə istifadə etmək gərəkdir...

- Yoox, bu artıq heç nəyə yaramaz. Zamanı şaquli vəziyyətdə yaşamaq mümkün deyil axı.

Zaman elə bir şeydir ki, üfüqi vəziyyətdə axır. Bu, gün kimi aydındır.

- Bəs zamanı şaquli yaşamağa cəhd etsək necə?

- Mumiyaya çevrilərsən. Bəlkə elə deyil?!

Kişi gülümsəyərək çəkmələrini çıxarmağa başladı. Öz aramızdır, düzdü də, zaman üfüqi axır.

Çəkmələrin içi qumla dolub, tərlə qarışmışdı - daha dözmək mümkün deyildi. O, corablarını min əzabla soyunub, küləyə tutdu. Görəsən heyvan yaşayan yerlərdən niyə belə iyrənc qoxular gəlir?.. Yaxşı olardı ki, heyvanlar gül ətri saçsın... Yox ey, belə pis qoxuyan onun ayaqlarıymış...

Və nə qədər paradoksal olsa da, bu fikir ona ləzzət edirdi... Kimsə deyib ki, öz qulağından çıxan çirkdən dadlı heç nə ola bilməz - o, pendirdən də dadlıdır... Düzdür, ola bilsin ki, bu şişirdilmiş fikirdir, lakin öz çürümüş dişinin də qoxusunda nəsə çəkici bir şey var - ondan doymadan, dalbadal içinə çəkmək istəyirsən.

Komanın girişinın yarıdan çoxu qumla örtülmüşdü və ona içəriyə baş soxmaq elə də tez başa gəlmədi. Bəlkə bu, köhnə quyunun xarabalıqlarıdır? Quyunun üstündə daxma tikilməsində təəccüblü heç nə yoxdur, bunu ona görə edirdilər ki, quyu qumla dolmasın. Çətin ki, burda su olsun... O, yenidən içəri baş soxmağa cəhd etdi və bu vaxt onun burnuna əsl it iyi vurdu.

Heyvanın iyi fəlsəfədən güclüdür. Mənə koreyalının ruhu yaxındır, lakin onun iyinə dözə bilmirəm - deyən bir sosialist varmış... Yaxşı, əgər zaman üfüqi axırsa, qoy necə iti axdığını ona göstərsin!.. Ümid və narahatlıq... Azadlıq hissi və səbirsizlik... Bunlar ən dözülməz əzablardır.

O, sifətini yaylıqla örtüb, arxası üstə uzandı. Düzü buradakı qoxu onunkuydu, lakin özünə kompliment demək istəyi onda nə qədər güclü olsa da, bu qoxunun ona xoş gəldiyini dilinə gətirə bilmirdi.

Ayağının üstü ilə nəsə sürünür... Yerişindən "qabarböcəyi"nə oxşamırdı... Çox güman ki, altı ayağı ilə özünü güclə sürüyən yer böcəyidir... Dəqiqləşdirməyə həvəsi yox idi. Bu, çoxdan arzuladığı qabarböcəyi olsaydı belə, çətin ki, onu tutmağa həvəsi yaranardı. Hər halda bu suala dəqiq cavab verə bilməzdi.

Külək onun üzündəki yaylığı atdı. Gözünün bir ucu ilə qum təpəsinin qızıl kimi parıldayan üstünü gördü. Hamar qalxan yamac, bu qızıl xəttə çatandan sonra qəfildən kölgədə itdi. Məkanın belə quruluşunda nəsə sözlə ifadə edilə bilməyən bir gərginlik vardı və kişi qəlbini dolduran insan həsrətindən hətta diksindi də. (Bəli, son vaxtlar gənc turistləri mənzərəli yerlər cəlb edir... ümidverici səhmlər... Təcrübəli bir adam kimi bu ərazinin gələcək inkişafına tam zəmanət verə bilərəm. Lakin ilk növbədə reklam lazımdır! Reklam olunmasa, buralara heç milçəklər də uçub gəlməz... Bilməmək - malik olmamaq kimi bir şeydir... Qaş-daşa sahib olasan və onu yerin altında gizlədəsən. Yaxşı, indi nə edəsən?..Bacarıqlı bir fotoqrafa bədii açıqcalar sifariş etmək lazımdır. Keçmişdə görməli yerlər artıq hər yerdə tanındıqdan sonra bədii açıqcalar hazırlanırdı...

İndi - əvvəlcə açıqcalar, sonra isə gəzməli-görməli yerlərin tikilməsi. Bu qaydalar indi adiləşib.

Burda bir neçə nümunə var, zəhmət deyilsə, baxardınız.) Bədbəxt açıqca alverçisi başqalarına tələ qurmaq fikrindəydi, lakin özü bu tələyə düşdü, sonra isə xəstələnib öldü. Düzdü o, sən deyən qədər də diribaş adam deyildi... Yəqin bu yerlərin gələcəyinə böyük ümidlər bəsləyib və həmin biznesə bütün varidatını qoyub... Bu gözəlliyin həqiqi mahiyyəti nədədir?.. Bəlkə təbiətin malik olduğu fiziki harmoniya və dəqiqlikdədir, və ya əksinə - insanın onu dərk etmək istəyinə təbiətin amansız müqavimətində.

Hələ dünənə qədər bu mənzərə haqqında hətta fikirləşəndə az qala ödü ağzına gəlirdi. Və o, bu dərənin doğrudan da həmin açıqcasatan kimi fırıldaqçıların boynuna biçildiyi barədə qəzəblə düşünürdü...

Lakin dərədəki həyat və mənzərə haqqında düşünəndə onları biri-birinə qarşı qoymaq bizə nə verir? Gözəl mənzərənin insana həmişə alicənablıq göstərməsi vacib deyil.

Nəhayət, elə onun özünün qumu sabitliyin inkarı kimi görmək kimi əsas ideyasının özü heç də axmaq fikir deyil. Millimetrin səkkizdə birinin hərəkəti. Mövcud olmanın hallar zəncirindən ibarət olduğu dünya... Başqa sözlə, onun gözəlliyi ölümə məxsusdur. Onun nəhəng dağıdıcı gücünün təmtərağı, qoyub getdiyi xarabalıqlar içindən keçən ölümün gözəlliyi... Yox, dayan.

Əgər ona məhz bu səbəbdən hər iki istiqamətə olan bileti əlində bərk-bərk tutub buraxmadığını desələr, biabır olmaq olar. Vəhşi heyvanlar, müharibələr haqqında filmlər elə inandırıcıdır ki, hətta ürəktutmasına gətirib çıxara bilər, lakin kinodan çıxırsan və bayırda səni dünənkinin davamı olan bu gün gözləyir. Onların ləzzəti bundadır... Həqiqi güllələr doldurulmuş tüfənglə silahlanıb kinoya gedən dəlini harda görmüsüz?.. Səhradakı həyata kim uyğunlaşa bilər? Su əvəzinə öz sidiyini içən bəzi növ siçanlar, çürümüş ətlə qidalanan həşəratlar, bir də ki, yalnız bir istiqamətə biletin mövcudluğu haqqında eşidib bilən köçərilər. Əgər lap əvvəldən əmin olsan ki, biletin

həmişə ancaq bir istiqamətdədir, onda rahat yaşayarsan, daha qayaya yapışan ilbiz kimi quma sıxılıb sürünmək üçün mənasız cəhdlər etməzsən. Axı bu köçərilər artıq öz adlarını da dəyişiblər və indi onlar maldar adlanır...

Həə, bütün bunlar haqqında qadına danışmaq lazım idi... Onun üçün mahnı oxumaq lazımdır - hər iki istiqamətə biletə dəxli olmayan qum mahnısı, vacib deyil, melodiyasını səhv salıb, ağzına gələni də oxuya bilər... Ən yaxşı halda o, qadını tutmaq üçün qarmağına yem əvəzinə başqa, ayrı bir həyat keçirmiş adi bir qadın ürəyi ovçusunun miskin təqlidçisindən başqa bir şey olmayacaqdı. Başdan-ayağa qum içində, tərpənməyə belə gücü qalmamışdı - kağız torbaya salınmış pişiyə oxşayırdı.

Gözlənilmədən qum təpəsinin üstündəki parıltı söndü... Ətrafda nə vardısa, qaranlığa büründü.

Ani olaraq külək sakitləşdi və onda yenidən güc yığaraq, duman qayıtdı. Bəlkə elə buna görə də günəş belə tələsik batdı.

... Haydı, yola çıxmaq vaxtıdır.

## 25

Kəndin bu başından o başına səbətdaşıyanlar işə başlamazdan qabaq keçib getməyə çalışmaq lazımdır. Hələ bir saata yaxın vaxt qalır. Tam təhlükəsiz olmağı üçün isə deyək ki, qırx beş dəqiqə. Burun kəndi sanki qucaqlayıb, dərindən burulur və kənddən şərqdə yerləşən körfəzə qədər gedib çatırdı. Elə buna görə də onun ortasından təkcə bir dənə dar yol keçirdi. Orada artıq burunun üstündə ucalan dik qayalar qurtarır, hamarlanır və alçaq qum təpələri ilə əvəzlənir. Zəif dumanlıq içində sayrışan kənd işıqlarını sağda qoyub, düzünə hərəkət etməkdə davam etsən, məhz bura gəlib çıxarsan. Məsafə... təxminən iki kilometr. Orada kənd qurtarır, adda-budda yerfındığı sahələri gözə dəyir, yenə qum və heç bir yaşayış yeri. Təpəni aşandan sonra isə yola çıxıb, rahat getmək də olar.

Bu, basıb hamarlanmış gilli yoldur və bu yolla var gücünlə qaçsan, təxminən on beş dəqiqədən sonra şosseyə çıxa bilərsən. Orda artıq hər şey qaydasındadır - avtobuslar şütüyür, adamlar da normal adamlardır.

Kəndin içindən keçib getmək üçün onun yarım saatı qalır. Qumluqla saatda dörd kilometr sürətlə getmək asan deyil. Təkcə ayaqların quma batır deyə yox, həm də ayaqlarının birin götürüb, o birini qoymaq üçün vacib olan lazımsız səylər ucbatından. Qaçanda isə, boş yerə daha çox güc itirirsən. Ən yaxşısı odur ki, iri addımlarla addımlayasan. Lakin qum, sənin gücünü əmməyi müqabilində sanki mükafatlandırırmış kimi addım səslərini udur. Addım səslərinin eşidiləcəyindən qorxmayıb getmək isə, - bunun özünün də üstünlükləri var. Bəli, məhz üstünlükləri.

Ayağının altına bax!..Yıxılmaq öz yerində, amma xırdaca bir torpaq komasına və ya çuxura ilişib büdrəsən dizini əzərsən. Təkcə dizini əzsən dərd yarıdı, birdən başqa bir qum dərəsinə yıxılsan, onda necə?!

Ətraf zülmət qaranlıqdır. Göz işlədikcə - pərakəndə donub qalmış qum dalğaları. İrilərinin üstündə bir qədər kiçikləri şırım açmış, onların, yəni bir qədər kiçiklərinin üstü isə öz növbəsində qum çopuru ilə örtülmüşdü. İstiqaməti təyinləməyə xidmət etməli olan kənd işıqları, bu intəhasız qum dalğalarının arxasında gizlənir və yalnız hərdənbir gözə dəyirdi. Düzgün istiqaməti müəyyənləşdirərək, irəli getmək lazımdır.

Lakin hər dəfə aydın olurdu ki, həddən artıq böyük səhv buraxılıb. Bəlkə də bu işıqları görməyə can atmaq həvəsi qeyri-iradi olaraq yüksəkliklər axtarmağa sövq edirdi.

Budur, yenə yolu azdım! Bir qədər sola getmək lazımdır!.. Bir az da belə yürüsəydi, düz kəndin içinə gedib çıxacaqdı... Üç ipiri təpəni aşsa da, demək olar ki, işıqlar heç yaxın da düşmədi... elə bil yerində sayırsan. Tər axıb gözlərini tuturdu... Bir anlıq da olsa dayanıb, dərindən nəfəs alasan.

Yəqin qadın artıq oyanıb... Görəsən gözünü açıb məni görməyəndə nə düşünüb?.. Çətin ki, o saat əl-ayağa düşsün... Yəqin fikirləşib ki, müəyyən ehtiyaclarımı ödəmək üçün evin arxasına keçmişəm... Bu axşam qadın yorulmuşdu... Şər qarışanadək yatıb qaldığına təəccüblənib və tələsik yorğanın altından çıxıb... Öpüşlərdən hələ də soyumamış bədəni ona bu səhər aramızda baş verənləri xatırladıb... Əli ilə lampanı axtaran qadın yəqin ki, bu vaxt gülümsəyirmiş.

Lakin hər halda ona borclu olduğumu və ya onun təbəssümünə özümü cavabdeh hiss etmək üçün heç bir səbəb görmürəm. Mənim qeybolmamla qadın nə itirəcək ki? Sadəcə bir dilim həyat.

Radio və güzgü məni ona əvəz edər.

"Düzü siz mənim üçün doğrudan da böyük dayaqsız... Mənim təkliyimə son qoyulandan sonra hər şey dəyişib. Səhərlər tələsmədən, rahatca öz işlərimlə məşğul ola bilirəm və bütün işi hardasa iki saat tez bitirmək olur... Məncə tezliklə arteldən evdə görə biləcəyim nəsə əlavə bir iş vermələrini xahiş edə biləcəm... Bir az pul yığaram... Və ola bilsin, nəhayət radio, güzgü və ya nəsə başqa bir şey ala bildim... "

(Radio və güzgü...Radio və güzgü...) Nəsə zəhlətökən bir ideyadır - elə bil insanın bütün həyatı bu iki predmetdən ibarətdir. Bəli, həqiqətən də radio və güzgü nəsə ümumi bir cəhətə malikdir: onlar insanları bir-birinə bağlayır. Ola da bilsin onlar insan həyatının mahiyyətinə varmaq üçün şiddətli istəyi əks etdirirlər. Olsun, burdan canımı qurtaran kimi radioqəbuledici alıb, ona göndərərəm. Olan qalanımı xərcləyəcəm, amma onun üçün ən yaxşısını alacam.

Amma güzgü - bilmirəm, söz verməyə dəyərmi. Güzgü burda tez korlanar... Heç altı ay keçməmiş amalqama qopacaq, bir ildən sonra isə daim havada uçuşan qumun təsirindən tutqunlaşacaq... İndi qadının güzgüsündəki kimi: baxanda bir gözünü görürsənsə, burnunu görmürsən, əgər burnunu görürsənsə, onda ağzını tapmırsan. Yox, məsələ təkcə onda deyil ki, güzgü tez xarab olandır. Güzgü radiodan fərqlənir: onun rabitə vasitəsi olmağı üçün hər şeydən əvvəl ona baxan insan olmalıdır. Ona heç kəs baxmayacaqsa, onda bu güzgü nəyə lazımdır?

Dayan, qulaq vermək lazımdır!.. O nəsə çox ləngidi... Bəlkə?.. Ay dələduz, axır ki, qaçdı...

Maraqlıdır, qadın səs-küy qaldırmayıb ki... Heyrətlənibmi, məyus olubmu?.. Bəlkə qadın sadəcə sakitcə ağlayır?..Nə isə, nə edirsə etsin, bu artıq mənim günahım deyil... Axı güzgünün zəruriliyini qəbul etməkdən sən özün imtina etdin.

- ... Mən hardasa bu barədə oxumuşam... İndiki zəmanədə elə bil evdən qaçanların sayı artıb?..

Bu, məncə həyatın çox ağır olmasından irəli gəlir, bəlkə də təkcə buna görə yox... Hə, elə yeri gəlmişkən, orda heç də kasıb olmayan bir kəndli ailəsi haqqında yazmışdılar. Özlərinə torpaq sahəsi də alıbmışlar, maşınları da varmış, təsərrüfat işlərini də deyəsən pis aparmırmışlar, lakin bütün bunlara baxmayaraq, böyük oğul

evdən gedib. Yaxşı, işləyən oğlanmış. Valideynləri baş sındırırmışlar: görəsən uşaq birdənbirə niyə getdi? Kənd adamları öz vəzifələrini yaxşı dərk edirlər, yaxşı adlarını qoruyub saxlamaq həqqında düşünürlər. Buna görə də varisin evdən çıxıb getməsi üçün görünür, xüsusi səbəb olmalıdır...

- Bəli, əlbəttə... Vəzifə vəzifədir...

- Hə, deyilənlərə görə qohumlarından kimsə oğlanı tapıb və nə üçün belə etdiyini öyrənməyə çalışıb. Sən demə, o heç bir qadın-filanla qaçmayıb, nə sevgi macəraları, nə də borc-xərc onu evdən qaçırmayıb, - qısası, xüsusi bir səbəb olmayıb. Yaxşı, onda məsələ nədədir?.. Oğlanın izahları da mənasızmış. Heç özü də hərəkətini əməlli başlı izah edə bilmirmiş, təkcə onu deyibmiş ki, daha dözə bilmir.

- Bu dünyada nə qanmaz adamlar var...

- Amma dərindən fikirləşsən, bu oğlanı anlamaq olar. Kəndli nə deməkdir? Gecə-gündüz işləmək və əkin sahəsini genişləndirmək, - bununlu da o, yalnız işini artırmalı olur... Onun bu ağır işinin həddi yoxdur və qazandığı təkcə daha da ağırlaşan əməyidir... Düzdü, kəndlinin əməyinin əvəzi qayıdır - düyü və kartofdan aldığı məhsul. Ona daha nə lazımdır? Bizim qumla əlləşməyimizlə kəndlinin əməyini müqayisə belə etmək olmaz. Bu elə cəhənnəmdə çayın qabağında daşdan bənd tikmək kimi bir şeydir - onsuz da cinlər götürüb, daşları hara gəldi atacaqlar.

- Cəhənnəmdəki çayla bağlı tarixçə necə qurtarır?

- Heç nə cür... günahlarına görə çəkdiyin əzabların mənası da elə bundadır!

- Kəndlinin varisi olacaq bu oğlanın axırı necə oldu?

- Yəqin ki, o hər şeyi əvvəlcədən götür-qoy edib və evdən çıxmazdan çox-çox qabaq işə düzəlib.

- Bəs sonra?..

- Sonra da işin işləyib.

- Sonra?

- Sonra? Yəqin maaş günləri pulunu alıb, bazar günləri isə təzə köynəyini geyinib kinoya gedib.

- Sonra?

- Nə deyim vallah, gərək oğlanın özündən soruşasan.

- Çox güman ki, bir qədər pul yığandan sonra özünə radio alıb...

...Budur, axır ki, təpənin başına çıxdım. Baxmayaraq ki, bu yolun cəmi-cümlətani yarısıdır...Yox, səhv etmişəm... Artıq bura düzən yerdir... Hə, amma işıqlar necə oldu?.. O, tamam inamsız halda irəliləməkdə davam edirdi...Adama elə gəlirdi ki, bura nəhəng bir qum təpəsinin zirvəsidir...Yaxşı, onda nəyə görə buradan işıqlar görünmür? Ağlına gələn - bədbəxtlik baş verib, fikrindən ayağı tutuldu. Bu da tənbəlliyinin nəticəsi. Dəqiq istiqaməti bilmədən, sıldırımlı enişlə aşağı sürüşdü. Dərə o bildiyindən daha böyükmüş. O, təkcə dərin yox, həm də geniş imiş. Üstəlik, dibindəki çoxlaylı qum dalğaları üst-üstə nizamsız qalanıb, düzgün istiqamət götürməyə mane olurdu. Amma nə səbəbdən olursa olsun, işıqların nədən görünmədiyini anlamaq çətin idi... Əgər yoldan çıxıbsa da, bu, hansı istiqamətdə olmasından asılı olmayaraq, yarım kilometrdən çox olmaz. Bütün yol boyu onu sola çəkirdi,- ola bilsin ki, kənddən qorxurdu, ona görə. Kişi hiss edirdi ki, işıqlara yaxınlaşmaq üçün sağa getməyə özündə güc tapmalıdır...

Tezliklə duman dağılacaq, ulduzlar göz vuracaq... Nə isə, nə olursa olsun, ətrafı yaxşı-yaxşı və tez gözdən keçirmək üçün qum təpəsinin üstünə qalxmaq lazımdır - hansı olduğu fərq etməz, əsas odur ki, bu təpə hamısından hündür olsun...

Hər halda aydın deyil... Heç aydın deyil ki, qadın cəhənnəmdəki bu çay söhbətindən nəyə görə yapışıb qalıb...Axı vətənə sevgi, vətən qarşısında borc haqqındakı söhbətlərin o vaxt mənası var ki, üz döndərib, onlardan imtina edirsən, onu itirirsən. Bəs bu qadının itirdiyi nədir?

(Radio və güzgü... Radio və güzgü...)

Sözsüz ki, o, qadın üçün radioqəbuledici göndərəcək... Lakin bu, əks nəticələrə gətirib çıxarmayacaqmı: qadın qazandığından çox itirmədimi? Məsələn, onun çox sevdiyi mənim üçün vanna hazırlamaq mərasimi qurtardı. Hətta öz camaşırını qurban verib, mənim yuyunmağım üçün həmişə su saxlayırdı. Ayaqlarımın arasına ılıq su töküb, sanki onun özünü çimizdirirlərmiş kimi üz-gözünü qırışdıraraq ucadan gülürdü... Daha belə gülmək lazım gəlməyəcək.

Yox, illüziyaları at getsin... Lap əvvəldən də mənlə sənin aranda heç bir müqavilə-filan yox idi.

Əgər müqavilə yox idisə, demək müqavilənin pozulmasından da danışmaq yersizdir. Üstəlik, bunun mənim özümə aidiyyəti yox idi demək, heç cür olmaz. Məsələn, bizə həftədə bir dəfə verilən ucuz, elə bil poxdan çəkilmiş arağın iyi... sənin güccatmaz, tarım çəkilmiş əzələ hörüyündən ibarət baldırların... tüpürcəkli barmaqlarımla bişmiş rezini xatırladan qumu arıtlayanda keçirdiyim utancaqlıq hissi... Və bütün bunları daha da ədəbsiz edən sənin utancaqutancaq gülümsəməyin... Və daha nələr. Saymaqla qurtarmaz. İnanmırsan inanma, fəqət fakt faktlığında qalır. Kişilər qadınlara nisbətən xırdaçılığa daha meyllidirlər.

Və əgər kəndin başıma nələr gətirdiyini xatırlasaq, onda mənə vurulan ziyanı saymaq belə mümkünsüz olar. Bununla müqayisədə qadınla olan münasibətim boş şeydir.

Lakin əvvəl-axır onların cəzasını necə lazımdırsa verəcək...Düzdü, o hələ tutarlı olsun deyə necə zərbə vuracağını bilmir... Bəlkə kəndi yandırsın, ya quyularını zəhərləsin, ya çoxlu tələ qurub, onun bədbəxtliyində günahı olanların hamısını bir-bir qum dərələrinə atsın, - o, əvvəl-əvvəl bu sadə üsulla təxəyyülünü coşdurur və özünü ruhlandırırdı. Lakin indi, öz düşündüklərini həyata keçirmək üçün imkan yarandığı bir zamanda, artıq bu uşaq arzularına uya bilməzdi. Bir də ki, axı tək adam nə edə bilər? Qanuna tapınmaqdan başqa çarə yoxdur. Düzdü, belə olan halda qanunun baş verənlərin dəhşətini axıradək anlamaqda aciz olacağı qorxusu istisna deyil... Yaxşı, heç olmasa əvvəlcə vaxt itirmədən hər şey haqqında yerli polis idarəsinə xəbər verərəm.

Hə, axırda bir şey də olmuşdu...

Dayan! Bu nə səsdir?.. Yox, sakitlikdir... Ola bilsin mənə elə gəlib. Tutaq ki, belədir, yaxşı, bəs kəndin işıqları necə oldu? Hətta onların hündür qum təpələrinin arxasında qalıb görünməz olduğunu düşünsək belə, yenə də bu dəhşətdir. Nə baş verdiyini təsəvvür edə bilərəm: mənim sükanım sola çəkməkdə adətkardadır deyə, həddindən artıq burun tərəfə getmişəm və indi hansısa hündür qaya kəndin qabağını tutur... Özünü itirməyə dəyməz... Qərara gəldim. Sağa gedib yoxlamalıyam.

... Və nəhayət, bir şeyi haqqında da unutmamanı istərdim. Yadındadı, sən mənim bir sualımı axıradək cavabsız qoydun. Onda iki gün dalbadal yağış yağdı. Yağış

yağanda sürüşmələr təhlükə törədir, amma əvəzində qum yatır. Yağışın birinci günü həmişəkindən bir qədər çox iş gördük deyə, o biri gün bir qədər dincəlmək imkanı oldu. Çoxdan gözlədiyim istirahət imkanından yararlanaraq, nəyin bahasına olursa olsun, həqiqətin kökünə getmək qərarına gəldim. Tərsliyimə salıb, bədəndən qasnaq qoparırmış kimi, həqiqəti çılpaqlaşdırmağa, mənə neçəyə başa gəlsə də, sənin nə üçün bu dərəyə gəlib düşdüyünü öyrənməyə qərar verdim. Özüm də öz tərsliyimdən təəccübəlnirdim. Əvvəlcə sən sevinc içərisində çılpaq bədənini yağış selinin altına verdin, lakin nəhayət, cavab verməkdə naçar qalıb, ağladın. Və dedin ki, buraları ancaq ona görə tərk edib gedə bilmirsən ki, qasırğa vaxtı burda ərinlə uşağın hinlə birlikdə qum altında qalıb tələf olublar.

Əgər belədirsə, səni həqiqətən də başa düşmək olar. Səbəb kifayət qədər ağlabatandır və indiyə kimi nə üçün bu barədə söhbətdən qaçdığın aydın olur. Mən sənə inanmaq istəyirdim. Və mən elə səhəri gün yuxuma haram qatıb, ölənləri axtarmaq qərarına gəldim.

Sən göstərdiyin yeri iki gün sərasər qazdım. Amma nəinki ölənlərin qalıqlarını, hətta dağılmış hinin izini belə tapmadım. Onda sən başqa bir yer göstərdin. Lakin mən orda da heç nə tapmadım. Sən hər dəfə məni başqa-başqa yerlərə gətirirdin. Beş müxtəlif yerdə, doqquz gün ərzində mənasız axtarışlar davam etdi. Və onda sən yenidən ağlamsınaraq, özünə haqq qazandırmağa başladın. Dedin ki, yəqin ev başqa yerdəymiş, qumun fasiləsiz təzyiqi ola bilsin onu yerindən tərpədib və üzünü başqa səmtə yönəldib, ola da bilsin, dərə özü də yerini dəyişib.

Ola bilsin ki, hin də, ərimin və uşağımın meyiti də evimi qonşu evdən ayıran qalın qum divarının altında qalıb, lap çox da ola bilsin ki, onlar indi qonşunun dərəsinə gedib çıxıblar. Nəzəri cəhətdən bu mümkün idi. Lakin sənin bədbəxt, məyus görkəmin aydın göstərirdi ki, lap əvvəldən məni aldatmaqdan çox, həqiqəti danışmaq istəmirmişsən. Ölənlər, düzünə qalsa, bəhanədən başqa bir şey deyilmiş. Artıq məndə qəzəblənmək üçün sadəcə güc belə qalmamışdı. Və mən qərara gəldim ki, kimin kimə boclu olması ətrafında fikirlərlə başımı sındırmayım. Mənə elə gəlir ki, sən də bunu anlamalıydın...

Bu nədir!.. Kişi qorxudan yerə yıxıldı... Hər şey çox tez baş verdiyindən o, heç nə anlaya bilmirdi...Gözlənilmədən onun qarşısında kənd peyda oldu!.. Görünür o, düz kəndə bitişik qum təpəsinin kəlləsinə qalxırmış... Və o an, bütün mənzərə gözü qarşısında açılanda kəndin içində olduğunu gördü... Özünə gəlməmiş, düz yanındakı çəpərin arxasından it hürüşməsi eşidildi.

İkincisi də ona qoşuldu, sonra isə digərləri - zəncirvari reaksiya kimi. Qaranlıqda, dişlərini qıcırdaraq üstünə bir sürü it gəlirdi. O, ucuna qayçı bağlanmış kəndiri çıxarıb, qaçmağa başladı.

Seçim qalmamışdı. Yeganə çıxış yolu, - kəsə yolla kəndin içi ilə qaçmaq idi.

## 26

Kişi qaçırdı.

Aralarından ötüb keçdiyi zəif işıqlı evlər gah ona yol verir, gah da qarşısında maneə kimi qalxırdılar. Boğazının dar dəliyinə səs-küylə doluşan küləyin dadı... Pas dadı... Çilik-çilik olmağa hazır nazik şüşənin üstündə təhlükəli trük. Qum daşıyanların

hələ evlərindən çıxmadıqlarına ümid etmək həddən artıq gec, artıq dəniz sahilinə çatdıqlarına ümid etmək isə həddən artıq tez idi. Deyəsən yük maşını hələ gəlib keçməmişdi. Ola bilməzdi ki, bu ikitaktlı mühərrikin dəli taraq-turuğu, burdan bir kilometr aralıda da olsa qulağına çatmasın. Vəziyyət gərgindir.

Qəflətən qaranlıqdan qara bir yumaq çıxdı. Çox möhkəm fısıltı gəlməsindən bilinirdi ki, yekə itdir. Deyəsən, hücum etməyə öyrədilməmişdi və kişini qapmazdan əvvəl bərkdən hürməyə başladı. Kişi ucuna qayçı bağlanmış kəndiri ona tuşladı və vura bildi. İt yazıq-yazıq zingildəyib, qaranlıqda yox oldu. Xoşbəxtlikdən, it ancaq şalvarının bir parçasını qoparda bilmişdi. Həddən artıq yeyin hərəkət etdiyindən, ayaqları dolaşdı və o, yıxıldı, yumbalandı, lakin həmin dəqiqə ayağa qalxıb, qaçmağa başladı.

Sən demə, it bir yox, beş-altı dənəymiş. İlk uğursuzluqdan qorxub, hücum etmək üçün fürsət axtara-axtara bərkdən hürərək, ətrafında dövrə vururdular. Bəlkə də, xarabalıqda yaşayan həmin o kürən it onları arxadan qızışdırırdı. Kəndirin ucundan təxminən yarım metr aşağıdan tutub, var gücü ilə başı üzərindən fırlamağa başladı. Bu şəkildə itlərdən qorunaraq, bir yığın döyülmüş balıqqulağı topasının üstündən hoppandı, çəpərlərin arasındakı dar keçiddən, yerdə saman qurudulan həyətdən keçərək qaçıb, nəhayət geniş yola gəlib çıxdı. Bir az da getsə, kənd qurtaracaq!

Yolun kənarı ilə ensiz arx gedirdi. Birdən ordan iki uşaq çıxdı - görünür, bacı-qardaş idilər. O, uşaqları çox gec gördü. Kəndiri çəkdi ki, qayçı onlara dəyməsin, lakin heç nə alınmadı və hər üçü arxın içinə yumbalandı. Arxın içində navalça qurulmuşdu. Taxtanın şaqqıltısı eşidildi.

Uşaqlar çığırdılar... Lənət şeytana, bunlar niyə belə qışqırır!.. Var gücüylə onları itələyib, ordan çıxdı. Elə bu an üç cərgə düzülmüş cib fənərlərinin işığı onun yolunu kəsdi.

Zəng çalındı. Uşaqlar bərkdən ağladılar... İtlər hürməkdə davam edirdilər... Hər zəng vurulanda ürəyi bərk sancırdı. Düyü dənəsi kimi saysız-hesabsız həşərat yığını ağzı açılmış dəlmədeşiklərdən sürünüb, çıxmağa başladı. Görünür, cib fənərlərindən biri işığı bir nöqtəyə cəmləmək üçün mexanizmə malik idi - ordan çıxan şüa gah yayılır, gah da qızdırılmış nazik iynə kimi göz deşirdi.

Görəsən, düz üstlərinə atılıb, təpiklə hərəsin bir tərəfə atsın?.. Onları yarıb keçə bilsə, o tərəfdə artıq kənd arxada qalacaq... Peşiman olacaq, ya olmayacaq - hər şey bu dəqiqələrdən asılıdır...

Yaxşı, tərəddüd etmək yetər!.. Yoxsa gec olacaq... Bir qədər də keçsə, onu izləyənlər arxasını da kəsəcəklər - onda hər şey məhv olacaq!

O, özünə gələnəcən fənərlər sağdan və soldan, aralarındakı məsafəni get-gedə azaldaraq hər tərəfdən onu əhatələməyə başladı. Kişi əlindəki kəndiri bərkdən sıxıb, tamam gərildi, lakin heç cür qərara gələ bilmirdi. Pəncələri daha çox yumşaq quma batırdı.Fənərlər arasındakı böyüyən boşluq adam gölgələri ilə dolmuşdu. Nə qədər idilər? Yolun kənarında isə görkəmindən dərəyə oxşayan nəsə var - ah, yox, bu yük maşınıdır. Mühasirəni yarıb irəliyə atılsa belə, onu arxadan tutacaqlar. Arxadan qaçıb uzaqlaşan uşaqların ayaq səslərini eşitdi - artıq ağlamırdılar. Bir anlığa beynindən cəsur fikir keçdi. Uşaqları tutub, onlardan sipər kimi istifadə etmək! Onlar girova çevriləcək və o, bu alçaqların yaxınlaşmalarına imkan verməyəcək! Lakin uşaqları tutmaq üçün geri çevriləndə onu pusan başqa işıqları gördü. Yol kəsilib!

Sıxılıb, birdən buraxılan yay kimi geri atılıb, dabanına tüpürdü - bura gəlib çıxdığı yolla da geri qaçmağa başladı. O bunu sanki burunun davamı olmağa xidmət edən qum təpəsini yarıb keçmək üçün yer tapmaq ümidilə, demək olar ki, şüursuz edirdi. Elə bil bütün kənd bağırışaraq onun dalınca qaçırdı. Hədsiz gərginlikdən ayaqları zəiflədi, elə bil vətərlərini dartıb çıxarmışdılar.

Lakin bəlkə də onu qovanlar qəfil yaxalandıqlarından, ona vaxtaşırı geri dönüb ardınca qaçanların harda olduğunu görməyə imkan verən kifayət qədər məsafə saxlamaq müyəssər olurdu.

Nə qədər qaçmışdı?.. Artıq bir neçə təpə aşmışıdı. Və nə qədər çox güc itirirdisə, bir o qədər də hər şeyin əbəs olduğunu fikirləşir, yuxuda olduğu kimi yerində qaçdığını düşünürdü. Lakin indi gücünü nə qədər effektiv xərcləyib, xərcləməmək barədə fikir yürütmək vaxtı deyil. Ağzı mis qarışıq qan daddı. Tüpürmək istədi, tüpürcəyi qatı olduğundan tüpürə bilmədi. Barmağı ilə çıxarıb, atmalı oldu.

Zəng çalınmaqda davam edirdi, lakin artıq ondan çox uzaqlaşmışdı deyə, hərdənbir səsi tamam itirdi. İtlər də geri qalmışdılar və hardasa uzaqlarda hürüşürdülər. Təkcə metala sürtülən yeyənin qıcırtısını xatırladan nəfəsinin səsi eşidilirdi. Onu izləyənlərin fənərləri - hər üç cərgə, əvvəlki tək zəncirvari düzülüb, yuxarı, aşağı yellənərək, elə bil ki, yaxınlaşmırdılar, lakin heç uzaqlaşmırdılar da. Qaçana da, onu qovanlara da eyni şəkildə çətin idi. İndi kim daha çox dözsə, o da qalib olacaq. Lakin bu, təsəlli vermir. Bəlkə həddən artıq gərginlikdən iradəsi sınıb - gücünün daha tez onu tərk etməsini arzulayan zəiflik özünü yetirib. Qorxulu simptomdur... Lakin nə qədər ki, o bu təhlükəni dərk edir, qorxusu yoxdur...

Çəkmələrinə qum dolub, ayaq barmaqları ağrıyır. Boylandı. Onu qovanlar bir qədər sağda, yetmiş-səksən metr geri qalmışdılar. Görəsən nədən belə yoldan sapıblar? Yəqin dikdirlərdən yayınmaq istəyiblər və belə alınıb. Görünür, onlar da əməlli-başlı yorulublar..Deyirlər axı, qovan qaçandan tez yorulur. Tez çəkmələrin çıxarıb, ayaqyalın qaçmağa başladı... Çəkmələrini cibinə qoysa, mane olacaq, kəmərinə keçirsə yaxşıdır. Nəfəs dərib, bir həmləyə kifayət qədər dik təpəni aşdı. Belə getsə, yəqin, bu alçaqlardan can qurtara bilər...

Ay hələ çıxmamışdı, lakin ulduzlardan düşən işıq ətrfda nə vardısa hamısını, tünd və parlaq ləkələrlə doldurmuşdu və uzaq təpələrin üstü apaydın seçilirdi. O səhv etmirdisə, buruna tərəf qaçırdı. Sükan yenə sağa çəkir. Elə istiqaməti dəyişmək istəyirdi ki, birdən bununla özü ilə onu qovanların arasındakı məsafəni qısaldacağını anladı. Nəhayət elə onda da izinə düşənlərin məkrini anladı və qorxdu.

Hə, ilk baxışda bacarıqsız seçdikləri güman edilən yol sən demə əməlli-başlı düşünülüb: onlar kişini dənizə sıxmaq istəyirdilər. Özü də bilmədən bütün bu müddət ərzində onların ovcunun içindəymiş. Bir qədər düşünüb, cib fənərlərinin onlara, kişiyə harda olduqlarını göstərmək üçün xidmət etdiyini başa düşdü. Beləliklə, onların nə yaxınlaşıb, nə də uzaqlaşmayıb, əksinə həmişə eyni məsafədə qalmaları da elə-belə deyilmiş.

Yox, təslim olmaq hələ tezdir. Qayalara qalxmaq üçün hardasa buralarda yol olmalıdır və əgər başqa yol qalmasa, dənizlə üzüb, burunun o tayına düşmək olar. Bütün tərəddüdləri atmaq lazımdır - yalnız onu tutub, yenidən necə dərəyə atacaqlarını düşünmək yetər.

Uzun maili yoxuşdan sonra - sıldırımlı eniş... Sıldırımlı yoxuşdan sonra - uzun maili eniş...

Addım, bir addım da - sapa düzülmüş muncuq kimi bir-birini əvəz edir - səbr imtahanı. Zəng bir anlığa susdu. Nə eşitdiyini təyin edə bilmir: küləyin uğultusudurmu, dənizin səsi, yoxsa sadəcə qulaqlarınnın cingiltisidir. Hündür bir yerə çıxıb, geriyə qanrıldı. Onu izləyənlərin işıqları gözdən itmişdi. Bir az gözlədi - görünmürdülər.

Əla. Doğrudanmı onlardan can qurtara bilib?

Ümidi ürəyini daha tez-tez vurmağa sövq etdi. Ayaqları ağırlaşmışdı. Və bu ağırlıq nəsə qeyriadi idi. O, sadəcə bu ağırlığı hiss etmirdi - ayaqları həqiqətən də quma batmağa başladı. Ayaqları artıq baldırının yarısınadək qumda olanda, elə bil qardı, deyə düşündü. Qorxub, ayağının birini çıxarmağa çalışdı, lakin bu vaxt o biri ayağı dizədək quma girdi. Bu nədir? Adamı guya diri-diri udan qumların mövcud olması haqqında eşitmişdi... Var gücü ilə ordan çıxmağa çalışırdı, lakin nə qədər çox əlləşirdisə, bir o qədər dərinə gedirdi. Artıq ayaqları demək olar ki, qurşağadək qumda idi.

Bəlkə, bu sadəcə tələdir?! Onlar kişini dənizə tərəf yox, məhz elə bura sıxırmışlar!.. Kişini tutmaq üçün artıq əziyyət çəkməyib, sadəcə onu məhv etmək istəyirlər!.. Bu əsl məhvedilmədir...

Fokusçu öz yaylığı ilə bundan təmiz iş görə bilməzdi...Külək bir həmlə də artıq etsə, başdan ayağa qumun içində olacaq... Və onda müsabiqədə hətta birinci yer tutmuş polis iti də onu tapa bilməyəcək... Bu alçaqlar çox güman ki, indən sonra heç gözə dəyməyəcəklər!.. Onlar heç nə görməyiblər, heç nə də eşitməyiblər... Yadelli, axmağın biri özü azıb, itib... Vəssalam, alçaqlar heç əllərini də bulaşdırmadan işlərini görəcəklər...

Batıram... Batıram... Budur, artıq sinəsinədək qumdadır... Nə etsin? Əgər qumla təmas səthini böyütmək mümkün olsa, cismin (bədənin) hər nöqtədəki təzyiqi azalar, və o, yəqin, batmaqda davam etməz... Əllərini yana açıb, sinəsiylə quma çökdü... Lakin artıq gec idi. Qarnı üstə uzansa da, bədəninin qurşaqdan aşağı hissəsi şaquli vəziyyətdə donub qalmışdı. Beli ağrıyır və artıq düz bucaq altında, əyilmiş halda daha qala bilmirdi. İstənilən adam, hətta gecə-gündüz məşq etmiş idmançı belə, bu vəziyyətdə çox qala bilməz.

Gör bir necə qaranlıqdır... Bütün kainat gözünü yumub, qulaqlarını da tıxayıb. Burda qalıb çezərsən, bir it oğlu dönüb, sənə tərəf baxmaz! Hardasa boğazının dərin qatlarında gizlənmiş qorxu birdən özünü çölə atdı. Kişi ağzını açıb, heyvan kimi böyürdü:

- Kömək edin!

Çeynənmiş ifadə!.. Lap elə çeynənmiş olsun... Ölüm ayağında olanda orijinallıq hayında olmursan. Nəyin bahasına olursa olsun yaşamaq - hətta onun həyatı eyni formada bişirilən ucuz peçenye kimi başqalarının həyatından heç nə ilə fərqlənmirsə belə!

Tezliklə qum boğazına, çənəsinə, burnuna çatacaq... Daha dözə bilmirəm!

- Kömək edin!.. Nə desəz edərəm, söz verirəm!.. Yalvarıram, kömək edin!.. Yalvarıram!

Kişi dözmədi. Əvvəlcə ancaq hıçqırırdı, sonra isə hönkür-hönkür ağlamağa başladı. Dəhşət içərisində anladı ki, hər şey məhv olub. İndi fərqi yoxdur - heç kəs onu görmür... Əlbəttə, heyf ki, bütün bunlar belə hallarda zəruri olan prosedurlarsız

baş verir... Ölümə məhkum edilmiş ölməmişdən qabaq nəsə yazıb qoya bilər... Burda isə nə qədər qışqırırsansa qışqır... heç kəs fikir verməyəcək. Pisdir!

O, birdən arxadan səslər eşidəndə hətta çox təəccüblənmədi. Məğlub olmuşdu. Utancaqlıq hissi iynəcənin oda verilmiş qanadı kimi yanıb-yanıb, kül olmuşdu.

- Hey, tut!

Uzun bir taxta parçası aşağı sürüşüb, böyrünə dirəndi. İşıq şüası qaranlıqda dairə cızıb, taxtanı işıqlandırdı. Kişi buxovlanmış bədənini səs gələn tərəfə güclə çevirib, yazıq-yazıq soruşdu:

- Bağışlayın, bəlkə siz bu kəndirlə dartıb məni çıxarasınız ...

- Yox əşi, kötük deyilsiz ki, sizi kəndirlə dartıb çıxaraq...

Arxadan gülüş səsi eşidildi. Dəqiq təyin etmək olmasa da, hardasa beş-altı nəfər olardı.

- Bir az da dözün, artıq bel dalınca gediblər... Dirsəklərinizi taxtaya dirəyin, hər şey yaxşı olacaq...

Ona təklif etdikləri kimi dirsəklərini taxtaya dirəyib, başını ovucları arasına aldı. Saçları tərdən islanmışdı. Heç nə hiss etmirdi, təkcə bu biabırçı vəziyyətdən tez çıxmaq istəyirdi.

- Bilirsiz... Bəxtiniz hələ gətirib ki, biz sizin izinizlə qaçırdıq. Burda elə bataqlıqdı ki, itlər də yaxın düşmür... Siz çox böyük təhlükədə idiniz. Heç bilmirəm, nə qədər adam heç nədən şübhələnmədən bura gəlib çıxıb, elə də geri qayıtmayıblar... Burda, dağların arxasında sakitlikdi deyə, qumu bura kürəyir... Qış gələndə - qar yığılır... Onun üstünə yenə qum... Sonra yenə qar və yüz ildi ki, belədir - üst-üstə düzülmüş çiy vafli kimi... Bizə bu barədə şəhərə oxumağa gedən keçmiş artel sədrinin oğlu deyib... Maraqlıdır, deyilmi?.. Axıradək qazmağa cəhd etsən, bəlkə nəsə qiymətli bir şey tapmaq olar.

Bu nə demək istəyir?! Elə danışır ki, guya tərtəmizdir və heç nədə günahı yoxdur. Boş-boş danışmağını qurtarsaydı yaxşı olardı... Elə ələ salsaydı daha yerinə düşərdi... Ya da onu puç olmuş ümidləriylə baş-başa qoyub, çıxıb getsəydi, daha yaxşı olardı...

Nəsə canlanma var - görünür, bellər gəlib çıxıb. Üç kişi ayağını taxtanın üstünə qoyub, çətinliklə müvazinətlərini saxlayaraq, müyyən məsafədə onun ətrafını qumdan təmizləməyə başladılar.

Qatbaqat. Arzuları da, xəcaləti də, ümidsizliyi də - hər şey bu qumun altında qalmışdı. Onun çiyinlərindən yapışanda, təəccüblənmədi də. Əmr etsəydilər, şalvarını çıxarıb, onların gözü qarşısında işəyərdi də. Göy üzü işıqlandı - yəqin indi ay çıxacaq. Qadın məni nə üzlə qarşılayacaq?! Fərqi yoxdur... İndi onu nə cür istəsələr, elə də şallaqlaqlaya bilərdilər - o, dözməli idi.

## 27

Kişini qoltuqları altından kəndirlə sarıyıb, yenidən kisə kimi dərəyə endirdilər. Heç kəs bir kəlmə də kəsmədi. Elə bil onlar kişinin dəfnində iştirak edirdilər. Dərə dərin və qaranlıq idi. Ay işığı qum təpələrinin üstünə tünük parlaq ipək çəkdi; küləyin cızdığı naxışları, hətta ayaq izlərini belə rəngdən-rəngə çalan qırışlarda donmuş şüşəyə çevirdi. Və təkcə dərə bu mənzərəyə qarışmaq istəmədən, zülmətə qərq olmaqda davam edirdi. Lakin bütün bunlar onu həyəcanlandırmırdı. O, başını qaldırıb

aya baxan kimi ürək bulanması və başgicəllənmə hiss etdi - yorulub, ölü kimi düşmüşdü.

Bu qatı zülmətdə qadın daha çox tünd ləkə kimi sezilirdi. Onun köməyi ilə güclə yatağına tərəf süründü, lakin nədənsə qadının özünü görmürdü. Və təkcə onu yox - ətrafda nə vardısa duman içindəymiş kimi yayılırdı. Hətta döşəyinin üstünə yıxılandan sonra da qumla qaçmaqda davam edirdi... Yuxuda da qaçmaqda davam edirdli. Narahat yatdı. Enən və qalxan səbətlərin səsi, itlərin uzaqdan eşidilən hürüşməsi apaydın yadında idi. Qadının gecə yarısı şam etmək üçün qayıtdığını, yatağının yanındakı lampanı yandırdığını bilirdi. Lakin yalnız su içmək üçün qalxanda tamam ayıldı. Gedib qadına kömək etmək üçün gücü qalmamışdı.

O, çaşqın-çaşqın ətrafa baxıb, lampanı yandırdı, papiros çəkdi. Gombul olsa da çox çevik hörümçək lampanın ətrafında qaçmağa başladı. Kəpənək olsaydı təəccüblənməzdi, lakin işığın hörümçəyi cəlb etməsi qəribə idi. Elə papirosu üstünə basıb hörümçəyi yandırmaq istəyirdi ki, fikrindən daşındı. Hörümçək saniyəölçənin əqrəbi kimi on beş-iyirmi santimetr məsafədə lampanın ətrafında fırlanırdı. Bəlkə onu təkcə işıq cəlb etməyib? Yox, o, gecə kəpənəyinin uçub işığa gəlməsini gözləyirmiş və buna nail oldu. Kəpənək bir neçə dəfə lampanın şüşəsinə çırpıldı, onun iri kölgəsi tavanda əks etdi, sonra isə metal altlığa düşüb, daha tərpənmədi. Nəsə qəribə kəpənəkdir - çox iyrəncdir. O, papirosu kəpənəyin üstünə basdı. Kəpənəyin əsəb sistemi iflic oldu və o, hələ də qıvrılan həşəratı götürüb hörümçək qaçan yerə atdı. Öncədən gördüyü faciə baş verdi. Bir andaca hörümçək atılıb, hələ də sağ olan kəpənəkdən yapışdı. Sonra isə o, artıq tərpənməz olan qurbanını sürüyərək, yenə fırlanmağa başladı. Yəqin o, xəyalən dadlı kəpənəyi necə yeyəcəyini duyub, bu şəkildə zövq alırdı.

O, heç bilmirdi ki, belə hörümçəklər də var. Hörümçək toru əvəzinə lampadan istifadə etmək necə də ağıllı fikirdir. Tor hörərkən nəyinsə ora düşməyini gözləmək lazım gəlir, lampanın köməyi ilə isə qurbanını özün tovlaya bilərsən. Bunun üçün yalnız münasib işıq mənbəyi gərəkdir. Əfsus ki, təbiətdə beləsi olmur. Ay və ya meşə yanğınları çətin ki, bu iş üçün yararlı olsun. İstisna deyil ki, bu, insan kimi təkamül edərək instinktlərini təkmilləşdirən nəsə yeni növ hörümçəkdir... Belə baxanda pis izahat deyil... Bəs onda işığın pərvanələri cəlb etməsini necə izah etməli?.. Kəpənək hörümçək deyil, çətin ki, lampa işığı bu həşəratların yaşamasına kömək etsin. Hər halda bu hadisə məhz süni işıq məlum olandan sonra üzə çıxıb. Elə kəpənəklərin toplaşıb aya uçmamaları faktı özü buna sübut kimi xidmət edə bilər.

Belə instinktlərə təkcə hansısa bir növ həşərat malik olsaydı, yenə başa düşmək olardı. Lakin axı bu on min növə yaxın pərvanə üçün ümumi instinkdir. Demək, bu nəsə şəksiz, dəyişməyən qanundur. Süni işıq tərəfindən oyadılan korkoranə, dəlicəsinə qanad çırpınması. İşıq, hörümçək və kəpənəklər arasındakı sirli əlaqə... Əgər qanun belə ağılsız təzahür edirsə, onda nəyə inanasan?

Kişi gözünü yumdu... Yayğın işıq zolağları axıb getdi...

O, tutmaq üçün əlini uzadanda, onlar çapalayıb yox olurdular... lap quma düşən qabarböcəyinin kölgəsi kimi...

O, hıçqırtıya oyandı.

- Niyə ağlayırsan?

Qadın çaşqınlığını gizlətməyə çalışaraq, tələsik qalxdı.

- Bağışlayın... Sizə çay hazırlamaq istəyirdim...

Onun göz yaşıyla doymuş boğuq səsi kişini şübhəyə saldı. Qadın əyilib balaca peçi yandırmaq istəyəndə kürəyi nəsə qəribə şəkildə titrədi və o, uzun müddət nə baş verdiyini anlamadı.

Çətinliklə dərk edir, elə bil vərəqləri kif basmış kitabı süst vərəqləyirdi. Hələ yaxşıydı ki, vərəqləri çevirə bilirdi. Qəflətən özünə bərk yazığı gəldi.

- Alınmadı...

- Hə...

- Və hər şey elə axmaqcasına pozuldu ki.

- Axı heç kəsə müyəssər olmayıb... bir dəfə də olsa...

Qadın göz yaşları içərisində danışsa da səsində inam notları vardı, elə bil kişinin iflasına haqq qazandırır və başa düşürdü. Nə deyirsən de, təsirli acımadır. Onun səsinə səs verməmək, həddən artıq ədalətsizlik olardı.

- Hər halda heyf... Qərar vermişdim ki, qaça bilsəm, o saat radio alıb, sənə göndərəcəyəm...

- Radio?

- Sən axı çoxdan onun arzxusundasan.

- Eybi yox, lazım deyil... - Qadın üzr istəyirmiş kimi utana-utana danışırdı. - Əgər yaxşı işləsəm, elə burda da ala bilərəm. Nisyə alsam, yəqin ilk haqqını ödəməyə pulum çatar.

- Hə, əlbəttə, əgər nisyə alsan...

- Su qızanda yuyunaq?

Gözlənilmədən onda alatoran kimi, boz kədər baş qaldırdı... Bir-birinin yarasını yalamaq vaxtıdır. Lakin əgər sağalmaz yaraları durmadan yalasan, dilindən heç nə qalmaz.

- Yaxşı, təsəlli vermək lazım deyil... Həyat, onu təsəlli içində yaşamalı nəsnə deyil... Orda özünəməxsus həyat var, burda - özünəməxsus və həmişə adama elə gəlir ki, özgə həyatı daha yaxşıdır... Ən pisi - həyat elə belə də davam edəcək?.. Bu nə həyatdır?.. - deyə fikirləşməkdir.

Axı bunu heç kəs bilmir... Eh, ən yaxşısı boğazacan iş-gücün içində olub, bu barədə heç fikirləşməməkdir...

- Yuyunaq?..

Yüz faiz, qadın onu ruhlandırmaq üçün bu sözləri dedi. Yumşaq, sakitləşdirici. Kişi yavaş-yavaş köynəyinin düymələrini açmağa, şalvarını çıxarmağa başladı. O, başdan ayağa qum içində idi.

(O birisi, başqası indi görəsən nə edir?) Dünənə qədər nə olmuşdusa, hər şey çox uzaq keçmiş kimi görünürdü.

Qadın dəsmalı sabunlamağa başladı.

## Üçüncü hissə

### 28

Oktyabr.

Heç cür getmək istəməyən yay, gün ərzində qumu elə qızdırırdı ki, üstündə ayaqyalın beş dəqiqə də dayanmaq olmurdu. Lakin gün əyilən kimi rütubətli soyuq

dəlmə-deşik divarlardan içəri dolur və ocaq qalamazdan əvvəl nəm külü qurutmaq lazım gəlirdi. Küləksiz havalarda səhər və axşam kəskin teperatur dəyişikliyindən bulanıq çayı xatırladan duman qalxırdı.

Kişi qarğa tutmaq üçün evin arxasında cələ qurdu. O, cələnin adını "Ümid" qoydu. Qumun tərkibi nəzərə alınaraq düzəldilmiş cələnin quruluşu çox sadə idi. O, kifayət qədər dərin dərə qazıb, ora taxta çəllək basdırdı. Kibrit çöpü boyda üç kiçik pazla ölçüsünə görə çəlləkdən bir qədər kiçik olan qapağı bərkitdi. Hər bir paza nazik ip bağladı. İplər qapağın ortasındakı dəlikdən keçir və çöldəki məftilə bərkidilirdi. Məftilin ucuna yem - qurudulmuş balıq taxılmışdı.

Çöldə təkcə qumdakı dayaz çökəkdəki yemi saxlayıb, bütün qurğunu səliqəylə qumda basdırdı.

Qarğa yemi tutan kimi pazlar uçur, qapaq çəlləyin içinə düşür və qum uçqunu baş verir: qarğa diri-diri qumda basdırılır... Bir neçə dəfə öz qurğusunu təcrübədən keçirdi. Saz işləyirdi... Sürətlə qum altında qalıb heç qanadlarını çırpmağa belə imkan tapmayan bədbəxt qarğa aydın şəkildə gözləri önünə gəlirdi.

... Bəxti gətirib qarğa tuta bilsə, məktub yazıb onun caynaqlarına bağlamaq olar... Lakin əlbəttə ki, hər şey bəxtinə qalıb. Birincisi, buraxılan qarğanın yenidən adam əlinə düşəcəyinə ümid çox azdır... Üstəlik, onun hara uçacağını heç bilməyəcəksən də... Adətən qarğaların uçuş dairəsi çox məhdud olur... Və istisna deyil ki, əgər kənddən olan bu tiplər iki faktı bir-biriylə tutuşdursalar: mənim qarğam qaçıb, dəstədə isə ayağına kağız parçası bağlanmış təzə qarğa peyda olub, onda o saat niyyətim onlara aydın olacaq... Və belə ciddi-cəhdlə düşünülmüş, səbirlə həyata keçirilmiş hər şey hədər gedəcək...

Uğursuz qaçışdan sonra kişi çox ehtiyatlı olmuşdu. O, qış yuxusuna gedibmiş kimi dərədəki həyata uyğunlaşır və ancaq kənd əhlinin şübhələrini dağıtmaq haqqında düşünürdü. Deyirlər, eyni bir şeyi fasiləsiz olaraq təkrar etmək ən yaxşı maskirovkadır. Və eyni bir şeyin sadə təkrarından ibarət həyat sürsə, istisna deyil ki, əvvəl-axır onu unudacaqlar.

Təkrarın belə faydaları da ola bilər. Məsələn, axırıncı iki ayı qadın hər gün, başını da qaldırmadan muncuq düzür və öz işinə elə aludə olub ki, hətta sifəti belə şişib. O, hər dəfə iti ucunu karton yeşikdəki metal rəngli muncuqlara taxanda əlindəki uzun iynənin ancaq parlayıb, yox olmasını görürsən. İndiyədək yığdığı hardasa iki min iyen olar. Yarım ay da belə işləsə, radio üçün veriləcək ilk ödəmə üçün pul düzələr.

Muncuq dolu yeşiyin ətrafında rəqs edən iynədə o qədər əhəmiyyət, məna vardı ki, elə bil bu yeşik kainatın mərkəziydi. Təkrar hazırda baş verənləri bəzəyir, ətrafdakıların reallığı haqda təəssürat verirdi. Və kişi də bütünlüklə özünü yeknəsəq fiziki işə həsr etmək qərarına gəldi.

Çardaqdakı qumu təmizləmək, düyü arıtlamaq, paltar yumaq - bütün bunlar onun gündəlik vəzifəsinə çevrildi. Hər halda, burnunun altında zümzümə edə-edə işləyəndə vaxt tez gedirdi.

Kefindən qalmayıb, yatarkən üstlərinə qum tökülməsin deyə, polietilendən çox da böyük olmayan örtük düzəltmiş, isti qumda balıq bişirmək üçün qurğu fikirləşmişdi...

Qanını qaraltmamaq üçün o vaxtdan qəzet oxumurdu. Bircə həftə dözmək kifayət etdi ki, oxumağa həvəsi qalmasın. Bir aydan sonra isə ümumiyyətlə qəzetin nə demək olduğunu unutdu.

Nə vaxtsa gördüyü "Tənhalıq cəhənnəmi" adlı qravürün repraduksiyası onu heyrətə salmışdı.

Orda qəribə pozada göyün üzü ilə uçan adam təsvir olunmuşdu. Geniş açılmış gözləri qorxudan bərəlmişdi. Ətrafdakı boşluq yarımşəffaf meyit kölgələriylə dolu idi. O, onların arasından çətinliklə keçir. Ölülər əl-qol ata-ata, itələşərək, bir-birinə fasiləsiz olaraq nəsə deyirlər. Nəyə görə bu, "Tənhalıq cəhənnəmi"dir? O vaxt fikirləşmişdi: adını səhv qoymayıblar ki. İndi isə anladı. Tənhalıq - xəyalların şiddətli atəşidir.

Məhz buna görə, ürək döyüntülərində rahatlıq tapmayıb, dırnaq gəmirirlər. Təfəkkür ritmindən həzz almaq iqtidarında olmayıb, tütün çəkirlər. Cinsi əlaqədən təmin olunmayıb, əsəbi şəkildə titrəyirlər. Tənəffüs də, yeriş də, bağırsaq sürüşməsi də, gündəlik cədvəllər də, hər yeddinci gündə daxil olan bazar günləri də, dördaydanbir təkrarlanan məktəb imtahanları da, - bütün bunlar nəinki onu sakitləşdirir, əksinə, hər dəfə yeni-yeni təkrarlara itələyirdi. Tezliklə çəkdiyi siqaretlərin sayı artdı, çirkli dırnaqları olan naməlum qadınla daim tənha, gözdən uzaq yerlər axtardığı pis yuxular görməyə başladı. Və nəhayət, zəhərlənmə əlamətləri hiss edən kimi vaxt itirmədən xəyalən, sadə dövrü elliptik hərəkətlə canlandırılan göylərə, millimetrin səkkizdə biri uzunluğunda dalğaların hakim olduğu qum təpələrinə üz tutdu.

O, qumla bitib tükənməyən mübarizəsindən, onun üçün ibrət dərsinə çevrilmiş gündəlik işindən hardasa həzz də alırdı. Demək olmaz ki, bu, sırf özünəqəsd idi. Bunda kamilləşməyə gedən yolu tapsaydı, heç də təəccüblənməzdi.

Lakin bir səhər mütəmadi olaraq gətirilən ərzaqla yanaşı əlinə karikatura dərgisi düşdü. Dərgidir də, başqalarından heç nə ilə fərqlənməyən dərgi. Üz qabığı cırılmış, üstü çirkli barmaq izləri ilə dolu, - hansısa köhnə cır-cındır alverçisindən alınana oxşayırdı. Və baxmayaraq ki, dərginin görkəmi adam içinə çıxarılası deyildi, onun burda peyda olmasını kənd əhlinin qayğısı kimi qiymətləndirmək də olardı. Ən çox da, dərgini oxuyarkən gülməkdən az qala qarnının cırıldığından, sanki konvulsiyası başlayıbmış kimi ayaqlarını yerə döyməyindən təəccüblənirdi.

Dərgi gic-gic karikaturalarla dolu idi. Mənasız, vulqar, zəif çəkilmiş - ondan soruşsaydılar ki, burda gülməli nə var, cavab verə bilməzdi. Təkcə birini- belinə gombul bir kişi çıxanda dizləri titrəyib yerə yıxılan at təsvir edilmiş karikaturanı yaxşı adlandırmaq olardı. Atın sir-sifəti doğrudan da gülməli idi. Amma nə fərqi var ki, məgər bu vəziyyətə düşmüş birinə gülmək olarmı? Hərəkətindən utanaydı barı. Yalnız müəyyən həddə qədər nəyəsə uyğunlaşmaq olar.

Üstəlik bu, məqsəd yox, yalnız və yalnız vasitə olmalıdır. Qış yuxusuna getmək haqqında boşboğazlıq etmək ayrı, köstəbəyə çevrilib, içində işığa çıxmaq həvəsini büsbütün öldürmək isə ayrı şeydir.

Düzdü, fikirləşəndə nə vaxtsa, nə üsullasa burdan çıxmaq üçün imkan əldə edəcəyinə ümid yoxdur. Lakin axı istisna deyil ki, sadəcə hər hansı məqsəddən uzaqda nəyisə gözləməyə adətkarda olmaq olar, qış yuxusu bitəndən sonra isə məlum olacaq ki, işıq gözünü kor edib və sən burdan bayıra çıxa bilmirsən. Atalar demiş: üç günün ölüsü, min ilin ölüsü... Daxili his-pas elə sürətlə üzə çıxır ki... O, dərin fikrə daldı, lakin atın məzəli sifəti yadına düşmüşdü ki, yenidən onu gic gülmək tutdu. Başı lampa işığında həmişəki sapa muncuq düzmək kimi əziyyətli işə qarışmış qadın başını

qaldırıb sadəlövhlüklə ona gülümsədi. Kişi öz satqınlığına dözə bilməyib, dərgini bir kənara atdı və çölə çıxdı. Dərənin üstündə süd rəngli duman burulub qalxırdı.

Gecənin qalıqları - ətrafa səpələnmiş kölgə parçaları... qızdırılmış metal sap kimi parıldayan parçalar... parıldayan buxar damcılarına çevrilmiş üzən parçalar... Və kölgələrin belə möcüzəli ahəngi insanda intəhasız arzular oyadır. O, baxır və baxmaqdan doymurdu. Hər bir an yeni-yeni kəşflərlə zənginləşirdi. Burda hər şey vardı - həqiqətən mövcud olan obrazlar da və heç vaxt görmədiyi fantastik obrazlar da.

Kişi üzünü bu kölgələr burulğanına tərəf tutub, danışmağa başladı:

- Cənab məhkəmə sədri, məni ittihamla tanış edin! Mənə deyin görüm, belə bir hökm çıxarılmasına səbəb nədir?! Müttəhim sizin cavabınızı ayaq üstə gözləyir!

Dumanın içindən ona tanış səs eşidildi. Bir qədər küt olan həmin səs, elə bil telefon trubkasına danışırdı.

- Belə baxanda, yüzündən biri...

- Nə dediz?

- Deyirəm, Yaponiyada hər yüz nəfərdən biri şizofrenikdir.

- Üzr istəyirəm, siz nədən danışırsınız?

- Yeri gəlmişkən, kleptomanlara da yüzündən biri düşür...

- Bura baxın, siz nədən danışırsınız?

- Əgər kişilərin bir faizi eynicinsli sevgiyə mübtəla olubsa, onda təbii ki, qadınlar arasında da faiz göstəricisi belə olmalıdır. Və əgər davam etsək - bir faiz aravuranlar, bir faiz əyyaşlar, bir faiz psixi cəhətdən geri qalanlar, bir faiz cinsi manyaklar, bir faiz allahlıq iddiasında olanlar, bir faiz islaholunmaz dələduzlar, bir faiz impotent, bir faiz terrorist, bir faiz paranoid...

- Xahiş edirəm, bu mənasız söhbətə son qoyun...

- Yaxşı, sakitcə qulaq as. Hündürlükdən qorxmanı, sürətdən qorxmanı, narkomaniyanı, isteriyanı, adam qanına susamışları, sifilisliləri, ağıldan kəmləri də bir faiz olmaqla bura əlavə etsək...- hardasa iyirmi faiz alarıq... Və əgər sən bax elə bu üsulla hardasa səksən anomaliya da saysan... bunun mümkün olduğuna isə heç bir şübhə-filan yoxdur...deməli, insanların hamısının - yüz fizinin də anormal olduğu tam dəqiqdir, statistik cəhətdən sübut olunmuşdur.

- Bu nə cəfəngiyyatdır! Əgər normallığın hər hansı bir etalonu olmasaydı, anormallığı da təyin etmək mümkün olmazdı!

- Belə lazım deyil, axı mən sadəcə səni müdafiə etmək istəyirdim...

- Müdafiə etmək?..

- Lakin axı sən çətin ki, günahkar olduğunun üstündə təkid edəsən.

- Əlbəttə etməyəcəm!

- Onda özünü daha üzüyola apar. Vəziyyətdə nə qədər istisnalıq olursa olsun, özünü dağıtmağın heç bir mənası yoxdur. İnsanlar əcaib kəpənək qurdunu xilas etməyə borclu deyillər, lakin onların bu qurdu mühakimə etməyə də haqları yoxdur...

- Kəpənək qurdunu?.. Nə üçün qanunsuz saxlanmaya qarşı etirazım məni əcaib kəpənək qurduna çevirdi?

- Özünü sadəlövhlüyə vurma... Yüksək rütubət və temperatun səciyyəvi olduğu Yaponiya kimi bir ərazidə təbii fəlakətlərin səksən yeddi faizi daşqınların üzərinə düşür. Və belə bir şəraitdə küləyin yaydığı qumun vurduğu ziyan faizin mində biri

qədərdir. Bunu nəzərə almaq – Saxarada daşqınlarla mübarizə qanunvericiliyi tətbiq etmək kimi bir şey olardı. Mənasız söhbətdir!

Mən bundan danışmıram. Söhbət mənim əzablarımdan gedir... Qanunsuz saxlama hər yerdə qanunsuzdur - istər səhrəda olsun, istərsə də bataqlıqda!

- A - a, qanunsuz saxlama... Amma axı insan tamahının sərhədi yoxdur... Və sən kənd əhalisi üçün dadlı tikəsən...

- Pox da yeməkdir! Lakin mənim üçün yaşamağın mənası daha yüksək şeylərdədir!

- Mənim bildiyimə görə, dünyada elə adamlar var ki, pi rəqəminin bir neçə yüz işarəlik dəqiq sayını tapmaq üçün ömürlərinin az qala on ilini sərf ediblər... Əla... Yəqin bunun özündə də yaşamağın mənası var... Lakin sən yaşamağın məhz belə bir mənasını inkar etdiyin üçün sonda gəlib bu yerlərə çıxmısan.

- Qətiyyən! Qumun özünün də tam ayrı imkanları var!.. Məgər o, tökmə üçün formaya yaramır?..

Sonra - o, betona möhkəmlik vermək üçün vacib xammaldır... Həm də qumdan bakteriya və alaq otunun asan alınması kənd təsərrüfatındakı təcrübələrədə istifadə edilir... Nəhayət, onu da əlavə edim ki, enzim əlavə etmək yoluyla qumdan münbit torpaq almaq üçün təcrübələr aparılıb...

Qısası, qumu sən elə-belə bilmə...

- Ay da, adamı imanından necə tez döndərirsən... Lakin sən öz nöqteyi-nəzərini dəyişsən, mən bundan sonra nəyə inanmaq lazım olduğunu bilməyəcəm.

- Mən it kimi gəbərmək istəmirəm!

- Məgər sənin üçün fərqi va?.. Qarmaqdan qaçırdığın balıq həmişə tutduğundan böyük görünür.

- Lənət şeytana, axı sən kimsən?

Lakin duman parçaları burulub, göyə qalxdı və o, cavabı eşitmədi. İndi isə işıq şüaları dəstədəstə aşağı enməyə başladı. Nur gözünü qamaşdırdı. Dişlərini bir-birinə sıxıb, yorğunluğunun, boğazının yolunu tutan qatı qurum topasının çölə çıxmasına imkan vermədi.

Qarğa qarıldadı. Cələ yadına düşdü deyə, evin arxasına keçib, öz "Ümid"inə baş çəkmək qərarına gəldi. Müvəffəqiyyətə ümidi heç yox idi, lakin bu məşğuliyyət karikatura dərgisindən qat-qat maraqlıydı.

Yem əvvəlki tək toxunulmamış qalmışdı. İylənmiş balığın iyi burnuna vurdu. "Ümid"i düzəltdiyi vaxtdan hardasa iki həftə keçsə də, heç bir nəticə hasil olmamışdı. Görəsən səbəb nədir? Cələnin konstruksiyasına əmin idi. Əgər qarğa yemə toxunsaydı, hər şey əla olardı. Lakin qarğa heç o tərəfə baxmırdı da, indi durub nə edəsən...

Görəsən "Ümid"in nəyi onların xoşuna gəlmirdi? Axı hansı tərəfdən baxırsansa bax, cələdə şübhəli heç nə yox idi. Qarğalar başqa quşlardan onunla fərqlənir ki, insanın atdığı zir-zibililə qidalandığından, son dərəcə ehtiyatlı olmaq şərtilə həmişə yaşayış məskənlərinin ətrafında fırlanırlar. Onlar elə bil insanla səbirli olmaq üzrə yarışına çıxıblar. Nə qədər ki, dərədəki bu iylənmiş balıq onların şüurunda adi bir şeyə çevrilməyəcək... Nə isə, səbirli olmaq hələ məğlub olmaq demək deyil... Əksinə, elə ki, səbirliliyi məğlubiyyət kimi qəbul etməyə başladın, əsl məğlubiyyət də elə onda başlayır. Axı məhz elə buna görə də o, "Ümid" adını seçib. Ümid burnu - Cəbəllütarix deyil, Keyptaundur...

Kişi Ayaqlarını bir-birinə dolaşdıra-dolaşdıra evə qayıtdı... Yenə yatmaq vaxtı gəldi.

## 29

Qadın onu görəndə sanki indi yadına düşübmüş kimi lampanı üfürüb söndürdü və bir qədər qapıya yaxın - işıq düşən yerdə əyləşdi. Yəni doğrudanmı qadın işini davam etdirməyə hazırlaşır? O, birdən nəsə etmək həvəsinə düşdü. Qadına tərəf atılıb, içində muncuq olan yeşiyi onun dizinin üstündən yerə atdı. Hansısa bitkinin meyvələrinə oxşayan qara kürəciklər torpaq döşəməyə dağılıb, o anda da qumda itdilər. Qadın bir kəlmə də kəsməyib, qorxa-qorxa ona baxırdı. Kişi sifətinə küt bir ifadə verib dayanmışdı. Əzilmiş dodaqlarından sarımtıl tüpürcəklə birgə yazıq bir inilti çıxdı.

- Mənasızdır...Əbəs yerə əlləşməkdir...Tamamilə boş söhbətdir...Sən artıq zəhərlənmisən...

Qadın hələ də susurdu. O, sakitcə artıq sapa düzülmüş muncuqları barmaqları ilə oynadırdı.

Onlar jele parçaları tək parıldayırdılar. Kişini titrətmə tutdu. Titrəmə ayağından başlayıb, yuxarı, lap yuxarı qalxırdı.

- Hə, elədir. Tezliklə artıq heç nəyi dəyişmək mümkün olmayacaq. Günlərin bir günü gözümüzü açıb görəcəyik ki, kənddə bir nəfər də qalmayıb, ancaq bizik... Mənə hər şey aydındır... Düz deyirəm... Düz deyirəm... İndi bizi yalnız bu gözləyir, özü də çox tezliklə... Və başa düşəndə ki, bizi satıblar, onda gec olacaq... Biz bütün gücümüzü sərf etdik, onlar isə buna tüpürmək belə istəmirlər.

Qadın ovcunda sıxdığı muncuqlardan gözünü çəkmədən yavaşca başını buladı.

- Yox, bu ola bilməz. Burdan çıxıb gedəndən sonra onlar necə yaşayacaq, - o saat yerbəyer olmaq olmur axı?..

- Mənim vecimədi ki? Məgər burdakı mövcudiyyəti yaşayış adlandırmaq olar?

- Lakin qum var və buna görə...

- Qum? - Kişi dişlərini bir-birinə sıxıb, çənəsini oynatdı. - Qum, bəs o nəyə lazımdır? Qumdan qara qəpik də qazanmaq olmaz, ancaq həyatını korlayarsan.

- Yox, qumu satırlar.

- Satırlar?.. Görəsən onlar bunu kimə satırlar?

- Mm, şey,tikintidir, nədir, ora...Onu betona qarışdırırlar...

- Boş-boş danışma! Əgər bu qumu sementə qarışdırsaydılar, əla olardı - axı o, duzdan boldur.

Əvvəla, bu, tikinti qanunlarının, ya da nədir o - təlimatlarının pozulması olardı...

- Əlbəttə ki, gizli satırlar... Yarı qiymətə...

- Ağlına nə gəldi çərənləyirsən! Axı özül, ya da bənd dağılanda, onları qumun yarı qiymətə və ya havayı alınması xilas etməyəcək!

Qadın ona acıqla baxdı. Sonra isə gözlərini aşağı dikdi, artıq onun səsində mütilik tonu hiss olunmurdu.

- Nə fərqi var? Bizlik deyil, burnunu soxma!

Kişi çaşdı. Qadında baş verən dəyişiklik heyrət doğururdu - elə bil üzündəki maska yırtılmışdı.

Bu, onun qarşısında qadın qiyafəsində dayanmış kəndin sifəti idi. İndiyədək kənd onunçün yalnız cəllad idi. Yaxud acgöz aktinium kimi faydasız yabanı bitki. Özünü isə bədbəxt, təsadüfən tutulan qurban hesab edirdi. Kəndin əhalisi isə əksinə, məhz onların hamı tərəfindən atıldığını, tərk edildiyini düşünürdü. Təbii ki, bundan sonra onların başqaları qarşısında heç bir borcu-filanı qalmırdı. Deməli o, kəndlilərə ziyan vuranlara aid olduğundan, kəndin çıxartdığı buynuz ona tuşlanmışdı. O, hələ indiyədək özünün kəndlə olan münasibətləri haqqında belə düşünməmişdi.

Onların karıxması təəccüblü deyil. Qoy lap elə belə olsun, lakin geri çəkilmək - özünün haqlı olmasının üstündən xətt çəkmək kimi bir şey olardı!

- Bəlkə də elədir, başqalarının dərdini çəkməyə dəyməz. - Əsəbi halda qalxdı. - Amma bu geydirmə al-verdən kimsə əməlli-başlı pul qazanır, düzdür?.. Bu əclaflar üçün tər tökməmək də olar...

- Xeyr, qum satışı artelin öz işidir.

- Tutaq ki... Amma hər halda kimin daha çox səhmi var, kim daha çox pul qoyubsa, o...

- Qayıq almaq üçün pulu olan sahibkarlar burdan çoxdan çıxıb gediblər... Bizə isə çox istı münasibət göstərirlər... Düz sözümdür, aldatmaq söhbəti ola bilməz... Əgər fikirləşirsinizsə ki, mən yalan danışırım, onda xahiş edin yazı-polzunu sizə göstərsinlər, onda özünüz hər şeyi başa düşəcəksiniz.

Kişi özünü itirmiş halda, həyəcanlı dayanmışdı. O, birdənbirə özünü bədbəxt, köməksiz hiss etdi.

Üstündə düşmən və öz qoşunlarının mövqeləri müxtəlif rənglərlə rənglənmiş əməliyyat xəritəsi, heç nə anlaşılmayan naməlum çalarlı, nəsə sirli bir şəklə çevrildi. Və bu karikatura dərgisindən ötrü də çox elə kef pozmağa dəyməzdi. Gic-gic gülməkdən burda sənin ürəyin gedir, ya yox – bu heç kəsi maraqlandırmırdı... O, dili dolaşa-dolaşa, qırıq-qırıq donquldandı:

- Hə də... Əlbəttə... Başqalarının işi... Bu həqiqətdir...

Sonra onun dilindən özünün də gözləmədiyi, əvvəl deyilənlərlə heç bir əlaqəsi olmayan bir söz çıxdı.

- Vaxt itirmədən, hansı olursa-olsun, bir dibçək gülü almaq lazımdır. - Özü də dediyinə mat qaldı, amma qadının sifəti daha təəccüblü idi və o, artıq geri çəkilə bilməzdi. - Ətraf ölüdür, göz də nəyəsə baxıb dincəlməlidir...

Qadın həyəcanla cavab verdi:

- Bəlkə şam ağacı?..

- Şam... Yox, mən şamı xoşlamıram... Nə isə, fərqi yoxdur, lap adi ot da olar... Burun tərəfdə onlardan çox bitir, nədir onun adı?

- Tüklücədir deyəsən. Amma hər halda balaca ağac daha yaxşıdır, hə?

- Əgər ağac alsaq, onda ya ağcaqayın, ya da nazik budaqlı, iri yarpaqlı pavloniy... Qoy külək onları yellətsin...

Yellənsinlər...Dalğalanan yarpaq salxımları. Qaçmaq istəsələr, qaça bilməyəcəklər - gövdəyə möhkəm bitişiblər...

Birdən naməlum bir səbəbdən qırıq-qırıq nəfəs almağa başladı. Az qalmışdlı ki, hönkürsün. Cəld üstünə muncuq səpələnmiş torpaq döşəməyə əyilib, naqolay hərəkətlərlə qumda eşələnməyə başladı.

Qadın tələsik qalxdı.

- Eybi yox, eybi yox. Mən özüm... Hamısıı ələkdən keçirərəm.

Bir dəfə kişi müəyyən ehtiyacını ödəmək üçün evin arxasına keçib dərənin lap kənarında, az qala əllə toxunulacaq qədər yaxın məsafədə asılan bozumtul Aya baxanda qəflətən bədənini bərk titrətmə tutdu. Bəlkə soyuq dəyib?.. Yox, oxşamır. Hər dəfə hərarəti qalxmazdan əvvəl belə tirətmələrdən çox tutmuşdu, amma indi nəsə ayrı iş idi. Ona elə gəlmirdi ki, hava tikanlıdır, heç tükləri də biz-biz olmamışdı. Titrətmə dərisində yox, hardasa sümüklərində hiss olunurdu.

Titrətməsi suya atılan daşdan törəyən zəif dalğalar kimi dairəvi yayılırdı. Küt ağrı bir sümüyündən digərinə ötürülürdü və keçib gedənə oxşamırdı. Elə bil küləklə birgə içinə paslı dəmir bidon daxil olmuş və dambadaramla bədənini gəzirdi.

Beləcə əsə-əsə dayanıb, Aya baxdığı bu müddətdə ağlına ən gözlənilməz assossasiyalar gəldi. Bu yastı Ay nəyə oxşayır? Çapıqlarla örtülü və ora-burası kobud üyüdülmüş unla pudralı yara...Qurumuş ucuz sabun... Ya da, ola bilsin, səhər yeməkləri üçün nəzərdə tutulmuş kiflənmişyumru qutu... Mərkəzinə yaxın yerdə isə tam ağlagəlməz obrazlar. Kəllə... Bütün ölkələrçün ümumi olan zəhər emblemi... Həşəratlar üçün olan şüşənin dibinə səpilmiş ağ kristallar... Ayın səthi ilə sianlı kaliumun buxarlanmasından sonra qalan kristalların qeyri-adi oxşarlığı. Yəqin bu şüşə hələ də qapının yanında, qumun altındadır...

Ürəyi çatlamış pinq-ponq şarı kimi qeyri-müntəzəm vurmağa başladı. Xırda cılız assossasiyalar.

Görəsən, nəyə görə həmişə belə məşum şeylər haqqında fikirləşir? Onlarsız da bu oktyabr küləyi kədər və pərişanlıq gətirir. O, boş qabıqdan düzəlmiş tütəkdə çalırmış kimi vıyıltıyla ötür.

Kişi Ayın azca işıqlandırdığı yarğanın kənarına baxıb içinin yanıb yaxıldığı barədə keçirdiyi hisslərin sadəcə paxıllıq olduğu barədə fikirləşdi. Onun yuxarıda qoyub gəldiyi nə varsa, bütün hamısını özündə təcəssüm etdirən hər şeyə - küçələrə, tramvaylara, səkilərdəki işıqforlara, teleqraf dirəklərindəki reklamlara, ölü pişiklərə, içində siqaret satılan apteklərə olan paxıllıq.

Paxıllıq içini, qum divar və dirəklərin içalatını gəmirdiyi qaydada yeyib, onu yanan sobanın üstünə qoyulmuş boş qazana çevirmişdi. Qazan qızır, qızırdı. İsti dözülməz həddə çatır, elə bil bu dəqiqə qazan əriyəcək. Və ümiddən danışmazdan əvvəl, bu anı necə dəf etmək haqqında fikirləşmək lazımdır və ümumiyyətlə, onu dəf etməyə dəyərmi?

Ürəyim daha yüngül hava istəyir! Heç olmasa təmiz, indi nəfəs aldığımla qarışmamış hava! Əgər heç olmasa gündə bir dəfə yamaca çıxıb, yarımca saat dənizə baxmaq mümkün olsaydı, bu necə də gözəl olardı! Nəyə-nəyə, heç olmasa buna icazə verə bilərdilər. Kənd onu həddən artıq ciddi qoruyur. Nəzərə alsaq ki, sonuncu bu üç ayı vicdanla işləyib, onda istəyi tamamilə təbiidir. Hətta məhbusa da gəzintiyə icazə verilir.

- Bu, dözülməzdir! burnunu quma soxub, il boyu belə yaşamaq. Bu, diri-diri konservləşdirilmək kimi bir şeydir. Doğrudanmı, mənə heç olmasa hərdənbir dərənin ətrafında gəzişməyə icazə verməyəcəklər?

Lakin qadın nə deyəcəyini bilmədən susurdu. Onun üzündə elə bil konfetini itirib şıltaqlıq edən uşaqla necə davranacağını bilməyən adamın üzünün ifadəsi vardı.

- Kişidilərsə, desinlər ki, olmaz! - Kişi hirsləndi. O, yenidən acı xatirələr oyadan bu mənfur kəndir nərdivanlar haqqında danışmağa başladı. - Mən həmin gün qaçanda, onları öz gözlərimlə görmüşəm... Bizim cərgədə də içinə nərdivan sallanmış bir neçə ev var!

- Hə, lakin... - Qadın özünə haqq qazandırırmış kimi cəsarətsiz danışırdı. - Onlardan çoxu neçə nəsildir ki, bu evlərdə yaşayırlar.

- Necə bəyəm, belə çıxır ki blə bizə inanmırlar, nədir?!

Qadın hər əmrə müntəzir it kimi başını aşağı saldı. Əgər kişi onun gözləri qarşısında zəhər içsəydi belə, yəqin ki, qadın elə beləcə mütiliklə susub, heç bir söz deməzdi.

- Yaxşı, bu əclaflarla özüm danışmağa çalışaram!

Düzünə qalsa, ürəyinin dərinliklərində bu danışıqların müsbət nəticələnəcəyinə özü də inanmırdı.

O, bu ümidsizliklərə alışmışdı. Buna görə də elə həminki qoca ikinci növbə qum daşıyanlarla qayıdıb, üstəlik cavab da gətirəndə hətta bir qədər çaşdı da.

Lakin bu çaşqınlıq cavabın mahiyyətini anlayanda keçirdiyi hisslərlə müqayisəyə belə gəlmirdi.

- Eybi yox...- Qoca başındakı köhnə kağız-kuğuzda eşələnirmiş kimi hıqqana-hıqqana, aramaram danışırdı. - Nədi o, e, nə isə, desəm ki, heç cür razı deyilik, - haqsızlıq olardı... Məsələn, mən, əlbəttə, lakin siz ikiniz də evdən çıxıb, bizim qarşımızda, hamının qarşısında...biz baxabaxa siz bunu etsəz...I sizin xahişiniz isə düzgün xahişdir, buna icazə vermək olar, yaxşı...

- Biz nə etməliyik ki?

- I, onu...necə deyim, erkəklə dişi nə edirlər? Cütləşirlər...Bax belə.

Qumdaşıyanlar gic-gic hırıldaşdılar. Kişi boğulurmuş kimi yerində dondu. Çətinliklə də olsa söhbətin nədən getdiyini anladı. Anladığını anlamağa başladı. Və tam dərk edəndən sonra təklif

ona heç də ağlasığmaz görünmədi.

Cib fənərinin işığı qızıl quş kimi ayağının yanından uçub getdi. Bu, nəyəsə işarə idi. Onun ardınca yeddi-səkkiz işıq şüası dərənin dibində fırlanmağa başladı. Az qala qır kimi alışıb-yanan yuxarıdakıların bu səbirsizliyindən əzilən kişi, təklifi rədd etmək üçün hələ söz tapmamış, artıq deyəsən özü də onların bu ağılsızlığına tutulmuşdu.

O, aramla qadına tərəf döndü. Elə bu saat o, bellə burda qum kürəyirdi amma indi harasa yox olub. Bəlkə evə qaçıb? O, qapıya dönüb, onu səslədi.

- İndi biz nə edək?

Divarın arxasından qadının boğuq səsi eşidildi.

- Cəhənnəm olsunlar!

- Axı burdan çıxmaq istəyirəm...

- Belə olmaz!

- Bəsdir sən allah, buna təbii baxmaq lazımdır...

Birdən qadın tövşüyərək ona yaxınlaşdı.

- Sizə nə olub, dəli olmusunuz?.. Yəqin ağlınızı itirmisiniz... Sadəcə ağlınız başınızdan çıxıb!

Məgər belə etmək olarmı!.. Mən ki, dəli deyiləm!

"Bəlkə düz deyir?.. Bəlkə doğrudan da dəli olmuşam?.." Qadının sərtliyi onu geri çəkilməyə məcbur edirdi, lakin içində nəsə bir boşluq böyüyüb, enlənirdi...O, nə qədər kötək yemişdi! İndi şərəf və ləyaqətin nə mənası var?.. Sən nəsə bir murdar iş görürsənsə və bu zaman sənə baxırlarsa, bu murdarlıq eyni dərəcədə sənə baxanları da ləkələyir...Görünmək və görmək – bu iki anlayış arasında divar qurmağa dəyməz... Əlbəttə, onlar arasında müəyyən fərqlər var, lakin bu fərqin itməsi üçün mən bu adamlara kiçik bir tamaşa düzənləyəcəm... Və bundan ötrü hansı mükafatı alacağını fikirləşmək lazımdır!.. Yerin üstü ilə azadə gəzmək!.. Mən başımı bu iylənmiş bataqlıqdan çölə çıxarıb, doyunca nəfəs almaq istəyirəm.

Qadının harda olduğunu təyin edib, qəflətən onun üstünə atıldı. Qadının çığırtısı, onların birbirinə sarılmış bədənlərinin evin divarının yanına çırpılmasından qalxan səs-küy, yuxarıda heyvani ehtiraslar oyatdı. Fit səsi, alqış, şəhvət çığırtıları eşidildi...Ordakı adamların sayı çoxalmağa başladı, deyəsən aralarında gənc qadınlar da vardı. Evin qapısı üzərində ora-bura sürüşən fənərlərin sayı əvvəlkindən azı üç dəfə çoxaldı.

Qadını qəfil yaxaladığından, onu sürüyüb bayıra çıxara bildi. Qadının boynunu sıxdığından o,kisə kimi əzildi. Dərənin üstündəki işıq yarımçevrəsi bayram çıraqbanlığını xatırladırdı. Hava çox isti olmasa da, qoltuqlarının altından tər sel kimi axır, üstünə bir çəllək su əndəribmişlər kimi saçları islanmışdı. Tamaşa edənlərin çığırtısı qulaqlarında əks-səda verib, iri qara qanadlarla göy üzünü örtdü. Kişiyə elə gəldi ki, bu onun qanadlarıdır. O, yuxarıdan həyəcanla baxanları özünü hiss etdiyi kimi apaydın hiss edirdi. Onlar kişinin bir hissəsiydi. Yuxarıdakıların ağzının sulanması ondakı şiddətli ehtirasın səbəbindən idi. O, artıq özünü qurban yox, daha çox cəlladların nümayəndəsi kimi hiss edirdi.

Qaranlıq idi, əlləri də əsirdi, barmaqları isə sanki iki dəfə qalınlaşmışdı. Nəhayət qadını tam qucanda, o, yığılıb, cəld kişinin qolları arasından sivişib çıxdı. Qumda bata-bata qadının ardınca atıldı. Lakin qadın polad yay kimi yenidən onu kənara atdı. Nəhayət onu tutub, yalvarmağa başladı:

- Yalvarıram... Yalvarıram sənə... Axı mən onsuz da bacarmıram... Gəl sadəcə özümüzü elə göstərək ki, guya bunula məşğul oluruq...

Lakin qadını tutmağa artıq lüzum yox idi. Deyəsən, onun qaçmağa meyli itmişdi. Birdən o, yırtılan materiyanın səsini eşitdi, elə həmin anda da qadının bütün hiddətini, bütün bədəninin ağırlığını toplayıb, dirsəyilə onun qasığına endirdiyi güclü zərbəni hiss etdi. Kişi səssiz-səmirsiz ikiqat olub, əlləri ilə dizlərini qucaqladı. Qadın onun üstünə əyilib, yumruqlarıyla başına-gözünə döşəndi. İlk nəzərdə onun hərəkətləri süst görünə bilərdi, amma hər zərbəsi elə bil ağırlaşmış, yaprıxmış duz parçalarını itələyirmiş kimi ağır idi. Burnundan qan fışqırdı. Qanına qum yapışdı və onun sifəti torpaq topasına çevrildi.

Yuxarıdakı ehtiras dəndəsi sınmış çətir kimi endi. Hiddət, gülüş, qızışdırıcı səslər bir-birinə qarışdı, lakin onlar nəsə rabitəsiz, qırıq-qırıq idi. Sərxoş, arsız çığırtılar da tamaşaçıların əhvalını qaldıra bilmirdi. Kimsə aşağı nəsə tulladı, bir başqası onu söydü. Sonluq da başlanğıc kimi qəfil oldu. Uzaqdan işə çağırş səsləri eşidildi, işıqların uzun quyruğu sanki yuxarı çəkilibmiş kimi əridi. Və yalnız ehtirasın sonuncu izlərini süpürüb aparan qara şimal küləyi əsirdi.

Döyülüb, başdan-ayağa quma batmış kişi qarmaqarışıq şəkildə hər şeyin alnına necə yazılıbsa, elə getdiyini anladı. Bu fikir hardasa altında təkcə ürək döyüntüləri

aydın hiss edilən, tərlə doymuş döşəkağını xatırladan şüurunun bir küncündə, özünə yer etmişdi. Qadının od kimi isti qolları onun qoltuqları altında qalmış, bədəninin qoxusu isə tikan kimi burnun dalayırdı. Sakit axan çayın dibindəki daş kimi qadının isti əlləri içində olduğu gözünün qabağına gəldi.

## 31

Qumun bir-birindən fərqlənməyən gecələri əvəzlənir, həftələr keçirdi.

Qarğalar əvvəlkitək "Ümid"ə yaxın durmurdular. Yem - qurudulmuş balıq - daha qurudulmuş balıq deyildi. Qarğalar ona tamah salmamışdılar, lakin görünür, bakteriyalar üçün fərqi yox idi.

Bir dəfə səhər çağı taxtanın ucu ilə yemə toxundu - balığın yalnız qabığı qalmışdı, özü isə qara, yapışqan kimi horraya çevrilmişdi. Yemi dəyişib, qurğusunun xarab olub - olmamasını bir daha yoxlamaq qərarına gəldi. O, qumu qazıb, qapağı açanda zərbə yemiş kimi yerindəcə qurudu.

Çəlləyin dibində su yığılmışdı. Hündürlüyü cəmi on santimetr olardı, lakin bu, göz yaşı kimi dupduru su idi, hər gün onlar üçün gətirilən paslı sudan qat-qat təmiz. Məgər son günlər yağış yağıb ki?.. Yox, ən azı iki həftə idi ki, yağış yağmırdı... Onda, bəlkə bu su, əvvəl yağan yağışlardan qalmadır?.. O, belə fikirləşmək istərdi, amma təəccüblüsü o idi ki, çəllək suyu buraxırdı. Həqiqətən də, o, çəlləyi qaldıranda altından şorhaşorla su axdı. Nəzərə alsaq ki, belə dərinlikdə yeraltı su qaynağı ola bilməz, onda belə çıxır ki, çəlləkdən axan su daim hardansa onun içinə daxil olur. Hər halda, nəzəri cəhətdən belə çıxır. Lakin bu qurumuş qumların içində su çəlləyə haradan daxil ola bilər?

Kişi dəqiqəbədəqiqə artan həyəcanını güclə boğurdu. Yalnız bir cavab uyğun gəlirdi. Qumun kapilyarlığı. Qumun üst qatı adətən, yüksək istilik tutumu hesabına qurumuş olur, lakin bir qədər dərinə getsən, orda qum həmişə nəm olur. Şübhəsiz ki, bu, qumun üst qatında buxarlanmanın, aşağı qatlardan nəmi vurub çıxaran pompanqın işini gördüyü üçün baş verir. Bunu təsəvvür edib, qum təpələrindən səhər-axşam qalxan qatı dumanın, evin taxta divar və dirəklərininin canına hopub, çürüdən qeyri-adi nəmişliyin nədən baş verdiyini asanca anlamaq olar. Uzun sözünqısası, qumun quruluğu sadəcə su çatışmamazlığı ilə deyil, kapilyarlardan sovrulma sürətinin buxarlanmanın sürətindən həmişə geri qalması ilə izah edilir. Başqa sözlə, suyun daxilolması fasiləsiz davam edir. Lakin bu dövretmə adi torpaq üçün ağlasığmaz olan bir sürətlə baş verir. Və çox güman ki, onun "Ümid"i suyun bu dövretməsini hardasa pozub. Görünür, basdırılmış çəlləyin yeri, onunla qapağı arasındakı yarığın eni və s. - bütün bunlar aşağıdan özünə yol tapan suyun buxarlanmasını əngəlləyib, o da çəlləyin dibində yığılıb qalıb. Bu nə mövqedir və bütün bunlar bir-birilə necə əlaqəlidir kimi suallara cavab tapmaq onun üçün hələlik çətin idi, lakin dərindən öyrənsəydi, yəqin ki, cavab tapa bilərdi. Və istisna deyil ki, su əldə etmək üçün daha səmərəli qurğu qura bilərdi.

Təcrübələr müvəffəqiyyətlə başa çatsa, onlar üçün su gətirməyi tərgitsələr belə, heç kəsin qarşısında əyilməyəcək. Ən maraqlısı odur ki, sən demə, bu qumlar həm də nəhəng nasosdur.

Ona elə gəldi ki, susovuran nasosun üstündə əyləşib. Dəlicəsinə vuran ürək döyüntülərini sakitləşdirmək üçün oturub, nəfəsini dərməli oldlu. Hələlik bu barədə heç kəsə bir kəlmə demək lazım deyil. Bir şey olsa, bu, zəruri silahdır.

O, sevinərək gülüşünü saxlaya bilmədi. Baxmayaraq ki, "Ümid"lə bağlı baş verənlər haqqında susmalı idi, ürəyini dolduran bu sevinc hissini gizlədə bilmirdi. Kişi qəfildən nazik səslə qışqırıb, yataq döşəyən qadını arxadan qucaqladı. Lakin qadın əlindən çıxdı, o, isə arxası üstə yıxıldı və sanki içi qazla doldurulmuş şar qarnını qıdıqladığından ayaqlarını oynadaraq, gülməyə başladı.

Ona elə gəldi ki, üzünə tutduğu əli havada sərbəst uçur.

Sadəcə onun əhvalını pozmamaq üçün, süni də olsa qadın da gülürdü. Kişi özü-özünə, nazik gümüşü sap kimi qumların arasındakı dar yollarla yuxarı qalxan, intəhasız olaraq uzanıb gedən dupduru yeraltı çaylar şəbəkəsini təsəvvür etdi. Qadın isə tamam ayrı - kişinin bu hərəkətindən sonra baş verəcək hadisə - cinsi əlaqə haqqında fikirləşdi. Qoy olsun. Yalnız gəmidə batan və ancaq möcüzə sayəsində sağ qalan adam, yalnız təkcə nəfəs aldığına görə qəhqəhə çəkmək istəyən adamın psixologiyasını anlaya bilər.

Əvvəlkitək dərənin dibində olsa da, ona elə gəlirdi ki, hündür bir qülləyə çıxıb. Bəlkə bütün dünyanın astarı üzünə çevrilib və hündürlüklərlə çökəkliklər bir-biriylə yerlərini dəyişib. Hər halda o, qumda su tapıb. Bu isə o deməkdir ki, kənd əhli onunla elə də asan bacara bilməyəcək.

Qoy lap su təchizatına xitam versinlər, o, onlarsız da nə qədər istəsə yaşaya bilər. Və o, kənd camaatının necə vurnuxacağını təsəvvür edib, yenidən gülməyini saxlaya bilmədi. Ona hətta elə gəldi ki, artıq dərədən canı qurtarıb. Ətrafına baxdı və bütün dərə onun gözləri qarşısında açıldı.

Mozaikaya kənardan baxmasan, ona qiymət vermək çətindir. Lap yaxından baxsaz, detalları qarışdırarsınız. Bir detaldan gözünüzü çəkən kimi digərinə ilişəcəksiniz. Çox güman ki, o, indiyədək qumun özün yox, yalnız ayrı-ayrı qum dənələrini görmüşdür.

Bax elə beləcə də həmin o başqa qadın haqqında, iş yoldaşları haqqında danışa bilərdi. İndiyədək təsəvvüründə qeyri-adi dərəcədə böyüyən yalnız ayrı-ayrı kiçik detalları xatırlayırdı: ətli burunun deşikləri... qırışmış dodaqlar...Qırışsız nazik dodaqlar...küt barmaqlar... nazik barmaqlar... gözlərdəki parıltı... körpücük sümüyünün altındakı uzunsov xal... sinədə görünən mavi damarlar...Yaxından, gözlərini zəlləyib baxmaq iyrəncdir. Lakin uzaqdan bütün bunlar kiçik, cuppulu həşərat boyda görünür. Bax orda, müəllimlər otağında çay içən həmkarları qarışqa kimi qaynaşırlar. Bax orda isə, küncdə, - həmin qadın lüt, gözləri yarıörtülü, papirosunun külünün indilərdə düşəcəyinə baxmayaraq, tərpənmədən nəm çarpayıda uzanıb. O, heç bir paxıllıq hissifilan keçirmədən sanki içi boş peçenye üçün forma imiş kimi bu balaca həşəratlar haqqında fikirləşirdi. Təki formalardan istifadə etsin deyə, heç kəsin sifariş vermədiyi peçenyeləri dönədönə bişirmək üçün, deyək ki, fanatik-şirniyyatçı olmaq vacib deyil. Əgər işdi, onlarla bir də münasibət qurmaq lazım gəlsə, hər şeyi yenidən başlamaq lazım gələcək. Qumda baş verən dəyişikliklər həm də onun özündəki dəyişikliklər idi. Elə bil qumda, su ilə yanaşı yeni bir insan da tapmışdı.

Beləliklə, onun gündəlik işlərinin üstünə su yığmaq üçün qurğu inşası da gəldi. Rəqəmlər və diaqrammalar meydana gəlməyə başladı - çəlləyin basdırılacağı

yer...çələyin forması... günün uzanması vaxtı ilə suyun yığılma sürəti arasında əlaqə... temperaturun və atmosfer hadisələrinin qurğunun effektivliyinə təsiri. Onun qarğalar üçün düzəltdiyi tələ ilə belə ciddi-cəhdlə məşğul olmasını qadın heç cürə anlamırdı. O, hər bir kişinin oyuncaqsız keçinə bilmədiyinə özü-özünü inandırırdı və əgər kişi bundan zövq alırsa, nə olar - əla. Bu öz yerində, nədənsə kişi qadının ev işlərinə də böyük maraq göstərməyə başlamışdı. Bunda pis bir iş yox idi. Qoy başını qarışdırsın.

Lakin kişinin bütün bunlar haqqında öz fikir və mülahizələri vardı. Gözlənilmədən onun tədqiqatları müqayisə və bir sıra şərtlərin əlaqəsini tələb edən ciddi çətinliklərlə üzləşdi. O, əldə edilən materialların sayının artmasına baxmayaraq, heç cürə bunların nizamlı sistemdə ümumiləşdirməyə imkan verən qanunauyğunluğu tapa bilmirdi. Üstəlik, dəqiq material əldə etmək istəyirdisə, hava haqqında məlumat və proqnozlara qulaq asmaq üçün radioqəbulediciyə malik olmalıydı. Beləliklə radioqəbuledici onların hər ikisinin ümumi məqsədinə çevrildi.

Noyabrın əvvəli üçün gün ərzində çələkdə dörd litrədək su yığılırdı, lakin sonradan daxil olan suyun miqdarı günü-gündən azalmağa başladı. Bəlkə teiperaturun təsirindən idi? Lakin görünür, tam həcmli təcrübələr keçirmək üçün yazadək gözləmək lazım idi. Sərt, uzun sürən qış gəldi və qumla yanaşı havada buz parçaları uçuşmağa başladı. Bir az yönlü radio almaq üçün, qadına heç olmasa bir az kömək etmək qərarına gəldi. Dərənin də öz üstünlükləri vardı - onun içində külək hiss olunmurdu. Lakin əvəzində, demək olar ki, heç günəş də görünmürdü. Qum hətta donanda belə, havada adi günlərdən heç də az olmayan miqdarda uçuşurdu və evin həndəvərini qumdan yorulmadan təmizləmək lazım idi. Əlinin dərisi çatlayıb, qanayırdı.

Nəhayət qış bitdi. Yaz gəldi. Martın əvvəlində radio alındı. Damda uzun anten quraşdırdılar.

Qadın bütün günü sevinc və təəccüb içərisində, radionun dəstəyini hərləyirdi. Ayın axırı hamilə olduğunu hiss etdi. İki ay da keçdi. İri ağ quşlar üç gün idi ki, qərbdən şərqə uçurdular. Bir gün sonra isə qadın dözülməz ağrıdan şikayət etdi. Onun büsbütün qan içində olduğunu gördü.

Kənddəkilərdən biri - qohumlarından kimsə baytar imiş - diaqnoz qoydu: uşaq düşüb. Qadını yük maşınında şəhərə, xəstəxanaya aparmağa qərar verdilər. Maşın gələnədək kişi bir əli qadının əlində, digəriylə onun qarnını sığallaya-sığallaya xəstənin yanında əyləşdi.

Budur, pikap dərəyə yaxınlaşdı. Axırıncı yarım ildə ilk dəfə kəndir nərdivanı salladılar. Barama kimi yorğana bükülmüş qadını kəndirlə yuxarı qaldırdılar. Qadın lap axıradək yaşarmış gözləriylə ona yalvarışlı baxışlarla baxmaqda davam edirdi. O, bunu görmürmüş kimi üzünü yana çevirdi.

Qadını aparandan sonra da kəndir nərdivan sallanmaqda davam edirdi. Kişi qorxa-qorxa yaxınlaşıb, barmağının ucuyla ona toxundu. Nərdivanın yox olmadığına əmin olub, ehtiyatla yuxarı dırmaşmağa başladı. Göy üzü nəsə bulanqıq-sarı rəngdə idi. Qolları və ayaqları sudan çıxmış adam kimi ağırdır... Budur, çoxdan gözlənilən nərdivan...

Elə bil külək nəfəsini ağzından alıb aparırdı. Dərənin ətrafında dövrə vurub, dənizi görmək üçün hündürə çıxdı. Dəniz də bulanıq-sarı rəngdəydi. Dərindən nəfəs aldı, lakin hava o təsəvvür etdiyi kimi deyil, tamam başqa cür - nahamar idi. Arxaya dönüb, kəndin qırağındakı tozanağı gördü.

Yəqin qadını aparan pikapdır... Hə, yəqin, getməmişdən əvvəl nahaq qadına tələ haqqında hər şeyi danışmadı.

Dərənin dibində nə isə tərpəndi. Bu, onun kölgəsi idi. Bir qədər yuxarıda isə su yığmaq üçün qurğunun kölgəsi. Plankanın(tamasanın) biri düşmüşdü. Yəqin, qadını aparanda ayaqları ilişib.

O, sınığı düzəltmək üçün geriyə tələsdi. Su, o ehtimal etdiyi kimi dördüncü nişana kimi qalxmışdı. Sınıq elə də ciddi deyil. Radio evdə cır səslə oxuyurdu. Göz yaşlarını güclə saxlayıb əllərini çəlləyin içinə saldı. Su soyuqluğuyla yandırdı. Lakin o, elə həmin vəziyyətdə - sallağı oturmaqda davam edərək, yerindən heç tərpənmədi də.

Qaçmaq üçün tələsməyə elə də ehtiyac yoxdur. İndi onun əlində hər iki istiqamətə bilet - təmiz blank var və o özü, ürəyi istədiyi kimi bu blankı həm yola düşmək vaxtını, həm də son dayanacağı göstərməklə, doldura bilər. Bundan əlavə, su yığmaq üçün düzəltdiyi qurğu barədə kiməsə danışmağa müəyyən edilməz şəkildə çəkir. Və əgər o, bunu etməyə qərar versə, kənd əhlindən çox razılıq edən dinləyici tapmayacaq. Bu gün də olmasa, sabah kiməsə bu barədə hər şeyi danışacaq.

Qaçış - bu barədə düşünməyə isə hələ çox vaxt olcaq.

**İtkin düşmüş adam haqqında verilmiş ərizəylə bağlı elan**

İtkin düşmüşün adı - Niki Dzyümpey

Doğulduğu gün, ay, il - 7 mart, 1924

Yuxarıda adı çəkilən Niki Dzümpeyin itkin düşməsi barədə Niki Sino tərəfindən daxil olan ərizə ilə əlaqədar, birinciyə 21sentyabr, 1962-ci il tarixədək məhkəməyə öz olduğu yer barədə məlumat verməsi təklif olunur. Əgər belə bir məlumat daxil olmasa, o, ölmüş hesab ediləcək. İtkin haqqında hər hansı məlumatı olan şəxslərdən göstərilən müddətədək məhkəməyə məlumat vermələri xahiş edilir.

18 fevral, 1962-ci il
Mülki məhkəmə

**Qərar**

İddiaçı - Niki Sino

İtkin düşən - Niki Dzüyumpey, 1924-cü il, martın 7-də doğulub

Bununla təsdiq edilir ki, yuxarıda göstərilən şəxsin itkin düşməsi barədə daxil olan ərizə ilə əlaqədar açıq elan proseduru həyata keçiriləndən sonra, 1955-ci il, 18 avqustdan etibarən, yəni yeddi ildən çox keçən müddət ərzində göstərilən şəxs barədə heç bir məlumat daxil olmamışdır.

Yuxarıda göstərilənlərlə əlaqədar qərar verilir: İtkin düşmüş Niki Dzyümpey ölmüş hesab edilsin.

**5 oktyabr, 1962-ci il**
**Mülki məhkəmə**
**Hakimin imzası...__**